İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## OTUZ ALTINCI KİTAB

## APREL 2009 - İYUL 2009

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM ƏLİYEV

**ÇIXIŞLAR ✸ NİTQLƏR**

**BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR ✸ MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI - 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – Məqsədimizdir» çoxcildliyinin bu cildində Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə «Azərbaycanın Avropa İttifaqı üçün getdikcə artan tərəfdaşlıq əhəmiyyəti» mövzusunda keçirdiyi görüşlərinə, Praqada «Şərq tərəfdaşlığı» və «Cənub dəhlizi – Yeni İpək yolu» sammitlərində Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının və əlaqələrinin daha da yaxınlaşmasına dair materiallar, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq müstəvisində dinc yolla nizama salınmasına dair çıxış və nitqləri verilmişdir.

Kitabda, həmçinin prezident İlham Əliyevin Sankt-Peterburqa işgüzar səfəri çərçivəsində Rusiya prezidenti D.Medvedevlə danışıqlarında enerji məsələlərinə və Ermənistan prezidenti Serj Sarkisyanla görüşünə dair materiallar dərc edilmişdir.

Bu clddə regionların sosial-inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Gəncə şəhərinə, Göygöl, Şəmkir və Gədəbəy rayonlarına səfəri, bölgənin sosial, iqtisadi və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxış və tövsiyələri, həmçinin Bakıya səfərə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə müsahibələri də verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

$Ə\frac{\mathbf{0801000000}}{\mathbf{M - 651(07) - 2016}}$

**BBK - 32**

© Azərnəşr, 2016

## RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ *

*22 aprel 2009-cu il*

Nazirlər Kabinetinin bugünkü iclasında biz 2009-cu ilin ilk rübünün sosial-iqtisadi inkişafının yekunlarını müzakirə edəcəyik. 2009-cu il Azərbaycan iqtisadiyyatı üçün yeni inkişaf dövrünün başlanması ilidir. Son 5 ildə Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf etmiş və Azərbaycan tarixə 2003–2008-ci illərdə iqtisadi cəhətdən ən sürətlə inkişaf etmiş ölkə kimi daxil ediləcəkdir. Bu, böyük nailiyyətdir. İqtisadiyyat 2,6 dəfə, sənaye potensialı 2,5 dəfə artmış, yoxsulluğun səviyyəsi 3-4 dəfə aşağı düşmüş, büdcə xərcləri 10 dəfədən çox artmışdır. Ölkədə böyük sosial proqramlar icra edilməyə başlanmışdır. Bu möhkəm zəmin əsasında biz gələcəyə ümidlərlə baxırıq.

2009-cu il xüsusi il olacaqdır. Dünyanı bürümüş böhrandan hər bir ölkə bu və ya digər formada əziyyət çəkir. Dünya xəritəsinə baxsaq görərik ki, əksər ölkələrdə iqtisadi inkişaf dayanıb, yaxud da iqtisadiyyat tənəzzülə uğrayır, sənaye istehsalı aşağı düşür, tikinti dayanır. Ölkələrin milli

---

* Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Səhiyyə naziri Oqtay Şirəliyev, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış etdilər.

valyutasının qiymətdən düşməsi nəticəsində kütləvi şəkildə müflisləşmə prosesi gedir, işsizlik yaranır.

Azərbaycanın iqtisadi inkişafı isə 2009-cu ilin birinci rübündə uğurlu olmuşdur. Bütün çətinliklərə, böhrana baxmayaraq, birinci üç ayda Azərbaycanda ümumi daxili məhsul 4,1 faiz artmışdır. Böhranlı il üçün bu çox böyük nəticədir. Üç ayda qeyri-neft sektorunda inkişaf təxminən 14 faiz olmuşdur. Bu da son 5 ildə aparılan islahatların nəticəsidir. Biz iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində əməli-praktik addımlar ata bilmişdik. Keçən dövr ərzində əsas istiqamətimiz iqtisadiyyatın neft amilindən asılılığının aradan qaldırılması idi və biz buna nail olduq. Belə olmasaydı, qeyri-neft sektoru təxminən 14 faiz artmazdı. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində bölgələrdə dayanıqlı inkişaf üçün çox gözəl şərait yaradılmışdır. Minlərlə yeni iş yerləri və müəssisələr açılmışdır. Ərzaq məhsulları sahəsində daxili tələbatı yerli istehsalla təmin etmək siyasətimiz çox gözəl nəticələr vermişdir. Bunlar 2009-cu ildə də bizə iqtisadi inkişafı təmin etməyə imkan verir.

Nailiyyətlərimiz təkcə ümumi daxili məhsulun rəqəmləri ilə ölçülmür. İlk üç ayda ixracımız 20 faizdən çox, Azərbaycana qoyulan investisiyaların həcmi 15 faiz, əhalinin pul gəlirləri 20 faizdən çox, orta aylıq əməkhaqqı 20 faizdən çox artmışdır. Uğurlarımızın əsas səbəbi neft-qaz deyil, güclü iqtisadiyyat və siyasi islahatlardır. Bu islahatlar dünya birliyi tərəfindən də görünür və qəbul edilir. Belə olmasaydı, dünyanın ən böyük maliyyə qurumu olan Dünya Bankı Azərbaycanı 2008-ci ildə bir nömrəli islahatçı ölkə kimi tanımazdı, Azərbaycan şəffaflıq sahəsində əldə edilmiş uğurlara görə Birləşmiş Millətlər Təşkilatı tərəfindən təltif edilməzdi. Uğurlarımızın əsas səbəbi iqtisadi islahatlar, siyasi islahatlar, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, ölkə daxilində yaranmış vətəndaş birliyi, xalqla iqtidar arasında olan birlik və xarici investorların Azərbaycana çox

etibarlı ölkə kimi baxmalarıdır. Bunun növbəti əlamətini bu yaxınlarda Bakıda 300 milyon avrodan çox dəyərində yeni sement zavodunun təməlqoyma mərasimində gördük. İndiki durumda sənaye müəssisələri dayanır, ixrac dayanır, investisiyalar dayanır, banklar kreditlər vermir, banklarda likvidlik çox aşağı səviyyədədir. Azərbaycanda isə xarici investorların, beynəlxalq maliyyə qurumlarının və Azərbaycanın İnvestisiya Şirkətinin birgə iştirakı ilə nəhəng, bölgə üçün çox böyük sənaye müəssisəsi yaradılır. Biz düşünülmüş siyasətlə, investisiyaların cəlb edilməsi nəticəsində Azərbaycanda çox gözəl investisiya mühiti yarada bilmişik.

Yerli sahibkarlığın inkişafı üçün də əməli-praktik işlər görürük. Bu il Sahibkarlığa Kömək Milli Fondundan veriləcək kreditlərin məbləğini artırdıq. Gəlirlərin müəyyən hissəsini neftin ixracı ilə təmin edirik. Büdcədən sahibkarlara kömək məqsədi ilə ayrılan vəsaitin həcmi böyük dərəcədə artır, kreditlər verilməyə başlanmışdır və əminəm ki, onların hesabına yerli sahibkarlar yeni müəssisələr yaradacaq, yeni imkanlar əldə edəcək və ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini verəcəklər.

Azərbaycanda özəl sektorun inkişafı üçün lazımi tədbirlər bundan sonra da görüləcəkdir. Bu yaxınlarda qəbul olunmuş və növbəti 5 ili əhatə edən inkişaf proqramı təsdiq edilibdir. Bu proqram çox ciddi sənəddir. Orada inkişafın əsas istiqamətləri müəyyən olunub, lazımi tədbirlərin görülməsi təmin edilibdir. Proqramda hər şey açıq-aydın göstərilibdir. Şübhə etmirəm ki, növbəti beşillik proqramın icrası nəticəsində Azərbaycanın qarşısında duran əsas sosial və iqtisadi problemlər tamamilə öz həllini tapacaqdır. Çünki biz iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, sosial məsələlərin həlli ilə də ciddi məşğuluq. Bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Keçən 5 ildə maaşlar, minimum əməkhaqqı, minimum pensiyanın səviyyəsi dəfələrlə artırılmışdır.

Sosial infrastrukturun inkişafına böyük vəsaitlər qoyuldu, 2 minə yaxın yeni məktəb, yüzlərlə yeni xəstəxana, tibb, mədəniyyət ocaqları tikildi. Bugünkü müzakirəmizin əsas mövzusu iqtisadi məsələlərlə bərabər, həm də sosial məsələlərdir. Xüsusilə böhranlı vəziyyətdə bunun əhəmiyyəti artır. Çünki böhranlı vəziyyətdə bəziləri daha çox iqtisadi imkanlar barədə, bəziləri daha çox maliyyə resurslarının qıtlığı haqqında düşünürlər. Əlbəttə, bu bizi də düşündürür və bu istiqamətdə lazımi tədbirləri görürük. Lakin bu ona gətirib çıxarmamalıdır ki, sosial məsələlər yaddan çıxsın. Bu il və növbəti illərdə bu istiqamətdə qəbul edilmiş proqramlar, layihələr icra olunmalıdır.

Bizim uğurlu siyasətimiz artıq özünü sübut etdi. Həm bölgədə yaşanan siyasi qarşıdurmalar, həm bu gün yaşanan iqtisadi-maliyyə böhranı Azərbaycana ən az səviyyədə təsir edə bilmişdir. Bunun da səbəbləri aydındır. Bu barədə mən öz fikirlərimi söylədim. Əminəm ki, bizim düşünülmüş və milli maraqlar əsasında qurulmuş siyasətimiz Azərbaycanı növbəti illərdə də böyük uğurlara gətirib çıxaracaq, Azərbaycanın bölgədəki mövqelərini daha da möhkəmləndirəcək, bizim təsir imkanlarımız daha da artacaqdır.

Bu barədə keçən 5 ildə mən müxtəlif tədbirlərdə öz fikirlərimi söyləmişdim. Bu gün də vurğulamaq istəyirəm ki, həyat bizim sözlərimizi təsdiq etdi. Azərbaycanın bölgədəki təsir imkanları artır. Ölkədə yaşanan vətəndaş həmrəyliyi müstəqil siyasətin aparılmasına ən böyük güc verən amildir. Bölgədə gedən proseslər Azərbaycanın önəmini daha da artırır. Biz nəinki bu proseslərin iştirakçısıyıq, həm də bəzi təşəbbüslərin müəllifiyik. Həm iqtisadi, nəqliyyat, energetika sahəsində, həm də siyasi məsələlərin həllində Azərbaycanın mövqeyi mütləq nəzərə alınmalıdır və alınır. Bizim iştirakımız olmadan bölgədə nə iqtisadi, nə də siyasi addımlar atıla bilməz, milli maraqlarımız təmin olunmadan bölgədə geniş mənada əməkdaşlıq mümkün deyildir.

Azərbaycan bölgədə sabitləşdirici rolunu oynayır və bu rol getdikcə artmaqdadır. Həm siyasi çəkimiz, iqtisadi gücümüz, həm də mühüm ölkə kimi önəmimiz artdıqca, təsir imkanlarımız da genişlənəcəkdir. Bu gün xarici ölkələrlə çox səmərəli əməkdaşlığımız var və dünyada Azərbaycanın dostları artır. Biz bunu beynəlxalq təşkilatlarla əməkdaşlıqda görürük. Regional əməkdaşlıq məsələlərində Azərbaycan həmişə konstruktiv rol oynamış, bütün ölkələrlə yaxşı münasibətlər qurmağa, həmçinin milli maraqlarını maksimum dərəcədə qorumağa çalışmışdır.

Bu ilin üç ayı göstərdi ki, bizim siyasətimiz düzgün qurulmuşdur. Bu siyasət Azərbaycanı qoruyur, xalqımıza xeyir gətirir, müstəqilliyimizi daha da möhkəmləndirir.

## YEKUN NİTQİ

Bugünkü iclasda biz daha çox sosial problemlərin həlli ilə məşğul oluruq. Çünki bu problemlər hər bir ölkə üçün çox önəmlidir və ölkənin inkişaf imkanlarını göstərir. Azərbaycanda bu sahəyə daim böyük diqqət göstərilmişdir. Növbəti illərdə də bu sahə diqqət mərkəzində olmalıdır. Təhsil, səhiyyə, mədəniyyət problemləri, ailə problemləri, uşaqların tərbiyəsi – bu məsələlər diqqət mərkəzindədir. Bütün istiqamətlər üzrə konkret tədbirlər planı, proqramlar, icra mexanizmləri və maliyyə resursları var. Bunun hesabına biz son 5 ildə 2 minə yaxın məktəb tikdirə bilmişik. Yüzlərlə tibb, mədəniyyət ocaqlarının tikintisi, təmiri maliyyə resursları, siyasi iradə tələb edir. Azərbaycanda bu istiqamətdə görülmüş işlər onu göstərir ki, sosial məsələlər bizim üçün prioritetdir.

Ailə və uşaq problemləri çox böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, 2009-cu il Azərbaycanda «Uşaq ili» elan edilmişdir. Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, əziz olub və deyə bilərəm ki, ailə dəyərləri bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir.

Əlbəttə ki, dünyada gedən qloballaşma prosesləri bizdən də yan keçmir. Ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas Azərbaycanın milli dəyərləridir..

Tarixə nəzər salsaq görərik ki, xalqımızın yaşaması, öz mənliyini, qürurunu qorumasında ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır.

Biz növbəti aylar ərzində bütün istiqamətlər üzrə işlərimizi fəal şəkildə davam etdirəcəyik. Dövlət investisiya proqramı xətti ilə aparılan işlər bu il və növbəti illərdə infrastruktur layihələrinin yaranmasına xidmət göstərəcəkdir. Bu cür layihələr biznes imkanlarını genişləndirir, insanların normal yaşamasına, iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Növbəti aylarda yol tikintisinə diqqət göstərilməlidir. İndi bütün istiqamətlərdə yol tikintisi geniş vüsət alıbdır – həm magistral, həm şəhərlərarası yollar, həm də kənd yolları.

Dünyada maliyyə resurslarının azalmasına və banklarda likvidliyin ciddi problemə çevrilməsinə baxmayaraq, Azərbaycana kreditlərin verilməsində heç bir problem görmürük. Beynəlxalq maliyyə qurumları, kommersiya bankları Azərbaycana böyük həvəslə və məmnuniyyətlə kreditlərin verilməsini təklif edirlər. Biz bu imkanlardan imtina etməməliyik. Çünki infrastruktur layihələrinin həyata keçirilməsi üçün müxtəlif mənbələrdən maliyyə resursları cəlb olunmalıdır.

Elektroenergetika sahəsində əsas problemlər öz həllini tapdı. Çoxsaylı elektrik stansiyalarının tikintisi, elektrik xətlərinin və yardımçı stansiyaların tikintisi bu sahədə vəziyyəti tamamilə yeni müstəviyə qoydu. Hazırda Azərbaycanın 5000 meqavatdan çox ehtiyat enerji gücü var ki, biz ondan bu gün istifadə etmirik. Çünki buna ehtiyac yoxdur. Əvvəllər biz elektrik enerjisini xaricdən alırdıq, buna böyük vəsait gedirdi. Ancaq indi biz elektrik enerjisini ixrac edirik.

Hazırda tikilən Sumqayıt elektrik stansiyası, «Cənub» elektrik stansiyası və Quba elektrik stansiyasının ümumi istehsal gücü 1500 meqavata yaxın olacaqdır.

Bölgədə Azərbaycanın elektrik enerjisinə olan tələbatı artır. Biz Xəzər hövzəsində yerləşən ölkələr arasında bəlkə də ən az neft-qaz hasil edən ölkəyik. Buna baxmayaraq, uğurlu islahatlar və düşünülmüş enerji siyasəti nəticəsində indi biz qonşu ölkələrə həm neft, həm qaz, həm də elektrik enerjisi ixrac edirik. Bu tələbat getdikcə artır. Təkcə şimal, cənub, qərb istiqamətlərində deyil, Naxçıvan Muxtar Respublikasından da qonşu ölkələrə elektrik enerjisi ixrac edilir. Vaxtilə işığın, qazın olmamasından, qışda soyuqdan əziyyət çəkən Naxçıvan indi özünü tam şəkildə həm qazla, həm elektrik enerjisi ilə təmin edir. Görülən işlər nəticəsində artıq elektrik enerjisini qonşu ölkələrə ixrac edir.

Energetika sektorunda görülən işlər sayəsində bu gün Azərbaycanda qazlaşdırmanın səviyyəsini 85 faizə çatdırmışıq. Halbuki, bizdən qat-qat çox qaz hasil və ixrac edən ölkələrdə bu səviyyə daha aşağıdır.

Növbəti illərdə Dövlət Proqramında da öz əksini tapan içməli su, meliorasiya, suvarma və kanalizasiya problemləri həll edilməlidir. Bunu etmək üçün bütün imkanlar var. Əvvəllər başladığımız layihələr icra olunur, Oğuz–Qəbələ–Bakı su kəmərinin böyük hissəsi artıq tikilibdir. Samur–Abşeron kanalında iş gedir, Taxtakörpü su anbarı tikilir, digər lazımi tədbirlər görülür.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə Kür–Araz boyu yerləşən kəndlərin Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə içməli su ilə təmin olunması prosesi gedir. Əvvəllər bulanıq sudan istifadə edən yüz minlərlə soydaşımız indi ən təmiz su alırlar. Proqramın icrası nəticəsində 800 minə yaxın əhali təmiz içməli su ilə təmin olunacaqdır. Bu istiqamətdə hansısa əlavə tədbirlər görmək lazımdırsa, bu məsələ də qaldırılsın. Su probleminin həlli işində beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq

edirik. Düzdür, bu layihənin icrası məncə çox gecikibdir. 2003-cü ildən sonra ki, mən bu işlərlə bilavasitə məşğulam, bu haqda məlumatlar eşidirəm – o layihə hazırlanır, bu layihə hazırlanır, Dünya Bankı ilə bu məsələ razılaşdırılmalıdır, o məsələ razılaşdırılmalıdır. Bu vaxt ərzində biz böyük əhəmiyyətli layihələri icra etmişik. Oğuz–Qəbələ–Bakı kəməri kimi nəhəng layihəni icra etməyə başlamışıq, bu layihənin əhəmiyyəti neft-qaz kəmərlərindən heç də az deyil və texniki məsələlər də təxminən eynidir. Necə ola bilər ki, biz öz imkanımız hesabına qısa müddətdə bu layihələri icra edə bilmişik, amma Dünya Bankı ilə ən azı 5 ildir davam edən danışıqlar heç bir nəticə vermir. Mənə vaxtaşırı məruzələr edilir ki, o məsələ razılaşdırıldı, bu məsələ razılaşdırıldı. Ola bilər, amma mən nəticə gözləyirəm. Bizim tərəfimizdən görülən işlər çox operativ şəkildə icra olunur. Məsələ təhlil olunur, qərar qəbul edilir, icra mexanizmləri, maliyyə resursları təmin olunur, vaxtında icra edilir. Kim icra etmirsə, cəzalandırılır.

2005-ci ildə Sumqayıtda 500 meqavat gücündə elektrik stansiyasının təməli qoyuldu. İndi 2009-cu ildir. Stansiya hələ tikilməyib. Nəyə görə? Çünki yenə də bu stansiyanın tikintisində biz həm maliyyə qurumlarından və xarici podratçıdan asılıyıq və beləliklə də, bu proses yubanır. Xarici podratçı onu bir il də, iki il də uzada bilər. Biz bu məsələyə aydınlıq gətirməliyik, xarici maliyyə qurumları ilə biz işimizi qurmuşuq, Azərbaycan etibarlı tərəfdaşdır. Baxmayaraq ki, öz maliyyə imkanlarımız kifayət qədərdir, biz kreditlərdən istifadə etməliyik. Amma elə olmamalıdır ki, təxirəsalınmaz layihələr illərlə uzansın və hər dəfə mən məruzələri və müxtəlif izahatları eşidim. Xahiş edirəm, bu məsələyə ciddi diqqət göstərilsin və qısa müddətdə bütün rayonların su problemlərini həll edən layihələrə başlanılsın.

Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmiş, texnika alınmışdır. Bu gün texnika ilə bağlı problemimiz yoxdur, hətta Gəncədə traktor istehsalına baş-

lamışıq, aqroservislər yaradılır. Fermerlərə güzəştli şərtlərlə gübrə, yanacaq, toxum verilir, subsidiyalar verilir. Xüsusilə buğda əkən fermerlərə hər hektara 80 manat vəsait verilir. Bunun hesabına son illər ərzaq təhlükəsizliyimizi təmin edə bilmişik.

Bu gün Azərbaycanda istehlak olunan qida məhsullarının tam əksəriyyəti yerli istehsaldır. Bu, böyük nailiyyətdir, həm ölkədə biznesin, sahibkarlığın inkişafına, həm də regionların inkişafına böyük xidmət göstərir.

Hesab edirəm ki, növbəti bir-iki ildə görüləcək əlavə tədbirlər hesabına taxıl istehsalında da tam şəkildə özümüzü təmin etməliyik. Özəl sektorun bu işlərdə fəaliyyətinə çox böyük ehtiyac var. Keçən illərdə hər il 80 milyon manat məbləğində güzəştli kreditlər verilirdi, bu il kreditlərin məbləği 130 milyon manat olacaqdır. Baxmayaraq ki, neftin qiymətinin düşməsi ilə əlaqədar maliyyə imkanlarımız nisbətən azalıb, ancaq kreditlərin verilməsi təxminən 70–80 faiz artmışdır. Nəyin hesabına? 80 milyon manat ənənəvi məbləğdir ki, dövlət büdcəsindən ayrılır. Əlavə 50 milyon manat isə əvvəllər verilmiş kreditlərin qaytarılması hesabına əldə edilir. Bu da çox müsbət haldır, yəni fermerlər, sahibkarlar o kreditləri vaxtında qaytarırlar. Bu da həm dövlətin imkanlarını genişləndirir, həm də qaytarılan vəsait yenə də sahibkarlığın inkişafına yönəldilir. Növbəti illərdə daha böyük həcmdə vəsaitlər qayıtdıqca, bu istiqamətə yönəldilmiş kreditlər də artacaqdır.

Böhranlı vəziyyəti nəzərə alsaq görərik ki, təqdirəlayiq nailiyyətlərimiz çoxdur, ən önəmlisi, milli valyutamızın məzənnəsi sabit olaraq qalır. Qonşu ölkələrdə, postsovet məkanında, Şərqi və Mərkəzi Avropada milli valyutalar çox böyük dərəcədə tənəzzülə uğrayıbdır: haradasa 10 faiz, haradasa 30 faiz, haradasa 50 faiz. Beləliklə, o ölkələrin iqtisadiyyatına çox böyük zərbə dəymişdir. Düzdür, bəzi hallarda ixracın təşviqi üçün bu, müsbət hal kimi qiymətləndirilir. 50

faiz ucuzlaşan milli valyuta o deməkdir ki, hər bir vətəndaş 50 faiz kasıblaşıbdır.

Yaxşı bilirsiniz ki, Azərbaycanda da müxtəlif dairələr tərəfindən ortaya atılmış şayiələr gəzirdi ki, manat devalvasiyaya uğrayacaq, manatın məzənnəsi düşəcək və guya ki, bu referendumdan sonra baş verəcəkdir. Birincisi, referendumun bizim iqtisadi, yaxud da siyasi addımlarımıza, xarici siyasətimizə heç bir aidiyyəti yoxdur. Heç vaxt biz hansısa siyasi niyyət, yaxud da seçkilər naminə nə populist vədlər vermişik, nə addımlar atmışıq.

Mart ayında da mən bu barədə öz fikirlərimi söyləmişdim ki, manatın məzənnəsi sabit qalacaqdır. Bu gün hər kəs onu görür ki, Azərbaycan manatının məzənnəsi sabitdir, güclü milli valyutamız var.

Büdcədən maliyyələşən təşkilatlarda işləyən vətəndaşlar, bəlkə də bu böhrandan hansısa üstünlüklər əldə ediblər. Çünki milli valyuta sabitdir, maaşlar, pensiyalar vaxtlı-vaxtında verilir, istehlak qiymətləri də aşağı düşür. Bu gün bizdə inflyasiya müşahidə olunur, bu da xoşagələn hal deyildir. Biz imkan verə bilmərik ki, Azərbaycanda böyük dərəcədə inflyasiya baş versin. Çünki bu, ümumi iqtisadi potensialımıza mənfi təsir göstərir. Ancaq ərzaq məhsullarının, tikinti məhsullarının qiymətinin aşağı düşməsi ölkədə sosial məsələlərin, sosial rifahın həll olunmasına, yüksəlməsinə müsbət təsir göstərir.

O ki qaldı böhrandan əziyyət çəkən müəssisələrə və şirkətlərə, əlbəttə ki, Azərbaycan dövləti onları darda qoymamalıdır, biz onları dəstəkləməliyik. Xüsusilə böyük müəssisələrə dövlət dəstəyi verilməlidir. Bu gün dünyada yaranmış vəziyyətlə əlaqədar alıcılıq qabiliyyəti aşağı düşür, istehsal sahələri dayanır. Buna görə də, bəzi məhsulların ixracında bizim də müəyyən problemlərimiz var. Misal üçün, indi alüminiumun istehsalına sərf olunan vəsait, yəni maya dəyəri satış qiymətindən yuxarıdır. Belə vəziyyətdə zavodun fəaliyyəti tam zərərlidir. Ona görə elə etməliyik ki, alümi-

nium, metallurgiya, kimya sahəsində bizdən asılı olmayan səbəblər üzündən yaranmış çətinliklər aradan qaldırılsın, orada işləyən insanlar, fəhlələr əmək haqlarını bir neçə ay ərzində alsınlar. Yəni dövlət öz yardımını göstərməlidir ki, insanlar əziyyət çəkməsinlər.

Böhranlı durum başa çatandan sonra – böhran əbədi hökm sürə bilməz – qiymətlər qalxacaq, o zaman bütün strateji müəssisələrimizi böyük səmərə ilə işlədəcəyik. Azərbaycanda bu gün yeni sənaye müəssisələrinin yaradılması üçün dövlət öz köməyini göstərməlidir. Elə fikirləşməməliyik ki, bu gün böhrandı, gəlin hər şeyi dayandıraq, müəssisələr tikməyək, kreditlər verməyək. Böhran başa çatacaq, ancaq biz bu müddətdə fəal olmalıyıq, bu ayları, illəri itirməməliyik.

Regionların və bütövlükdə ölkə iqtisadiyyatının gələcəyi üçün qəbul edilmiş növbəti beşillik proqram icra olunmağa başlamışdır. Əvvəlki proqramın icrası onu göstərir ki, bütün məsələləri nəzərə almaq çətindir. Əgər əvvəlki proqramın ilkin və sonuncu variantına baxsaq görərik ki, ona edilən əlavələr bəlkə də proqramda əvvəl nəzərdə tutulmuş tədbirlərdən daha da üstündür.

Enerji təhlükəsizliyi sahəsində qarşıda duran bütün vəzifələr icra edilibdir. Azərbaycan nefti, qazı və elektrik enerjisi müxtəlif istiqamətlərdə dünya bazarlarına ixrac edilir. Nə qədər çox istiqamət olarsa, bizim üçün o qədər də yaxşıdır. Bizim təşəbbüsümüzlə bölgədə həyata keçirilmiş transmilli layihələr uğurla fəaliyyət göstərir. Azərbaycanın enerji resurslarına həm bölgədə, qonşu ölkələrdə, həm də dünyada böyük ehtiyac və tələbat artır. Tələbat artdıqca, maraq da artır, maraq artdıqca Azərbaycanın ətrafında gedən rəqabət də artır.

İstehlakçılar üçün ölkəmizin enerji resursları daha vacibdir. Bizim üçün də müxtəlif istiqamətlər. Azərbaycanın nefti də, qazı da müxtəlif istiqamətlərdə ixrac edilir, dəyişdirilir. Nə qədər çox bazarımız olarsa, bizim üçün bir o

qədər əlverişlidir. Bu siyasət Azərbaycan xalqının maraqlarına xidmət edir. Xarici tərəfdaşlar üçün də Azərbaycan həmişə çox etibarlı tərəfdaşdır. İmzaladığımız bütün anlaşmalar, müqavilələr bizim tərəfimizdən tam dəqiqliyi ilə icra olunur. Bir dəfə də elə hal olmayıb ki, hansısa müqaviləyə əlavələr təklif edək. Çünki Azərbaycan zəngin ölkəyə çevrilir və biz öz imkanlarımızı müxtəlif istiqamətlərdə təmin edirik. Azərbaycan dövləti və dövlət qurumları bütün tərəfdaşlarla – həm yerli şirkətlərlə, həm də xarici şirkətlərlə həmişə etibarlı tərəfdaş kimi davranmalıdır. Bu bizə olan inamı daha da artırır. Bunun nəticəsində Azərbaycanın enerji potensialına bu gün tələbat var. Həm resurslar, həm nəqliyyat imkanlarımız var, həm də Azərbaycana inanırlar, sözümüzə inanırlar. Bizim sözümüz də imzamız qədər dəyərlidir. Növbəti aylarda, illərdə də enerji təhlükəsizliyi və enerji əməkdaşlığı istiqamətində Azərbaycan milli maraqlarına sərf edən addımları atacaqdır.

Bir daha demək istəyirəm ki, bölgənin və Avropanın enerji təhlükəsizliyini təmin etmək üçün bizim imkanlarımız da var, iradəmiz də. Qarşılıqlı surətdə faydalı əməkdaşlığın dərinləşməsi bizə də, tərəfdaşlarımıza da lazımdır.

Ekoloji tədbirlər haqqında da bir neçə kəlmə demək istəyirəm. Ekologiya məsələləri hər bir ölkə üçün, vətəndaş üçün vacibdir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu da təbiidir. Bu elə sahədir ki, buraya qoyulan vəsaiti bəlkə də Azərbaycan iqtisadiyyatı da, vətəndaşları da görmürlər. Amma bunu həm indiki nəsillər, həm də gələcək nəsillər görəcəklər. Sağlam ekoloji mühit, sağlam hava, təmiz su – insanın həyatı üçün ən əhəmiyyətlidir. Elə hesab edilməməlidir ki, ekologiya sektoruna qoyulan vəsait heç bir nəticə vermir. Yox, nəticəni gələcək nəsillər görəcəkdir. Bir neçə il əvvəl qəbul edilmiş böyük ekoloji proqram icra olunur. Hesab edirəm ki, bu proqrama müəyyən əlavələr də edilməlidir və bu əlavələr edilir. Proqram qəbul ediləndə çay sularının təmizlənməsi layihələri yox idi, bu vaxta qədər

görülmüş digər tədbirlər də nəzərdə tutulmurdu. Nəzarət gücləndirilməlidir və lazımi tədbirlər görülməlidir. Xüsusilə ağacların əkilməsi işində daha da fəal olmalıyıq. Bu yaxınlarda mənə məruzə edildi, Bakının və ətraf qəsəbələrin ekoloji xəritəsi də hazırlanıb. Ondan çox yer müəyyən edildi ki, orada kütləvi şəkildə ağacların əkilməsi nəzərdə tutulur. Mən bu layihəni dəstəklədim. Nazir tərəfindən mənə edilən məruzəni bəyənirəm və hesab edirəm ki, dərhal bu işlərə başlamalıyıq. Qısa müddət ərzində Bakıda və Bakının ətrafında ən azı 3 milyon ağac əkilməlidir. Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə tapşırıq verirəm ki, təkliflər planı hazırlayıb, ekoloji xəritəni təsdiq etmək lazımdır.

Bütün proqramın icrası üçün konkret tədbirlər planı hazırlanmalı, həm texniki, həm də maliyyə məsələləri həll edilməlidir. Ağacların müasir texnologiyaya uyğun şəkildə suvarılması, qorunması, xidmət göstərilməsi – bu işlər kompleks şəkildə görülməlidir. Bununla da biz Bakıda və Abşeron yarımadasında ekoloji sağlamlıq üçün çox böyük, bəlkə də tarixi bir iş görmüş olacağıq. Yenə də deyirəm ki, bunun nəticəsini biz gələcək nəslin sağlamlığında görəcəyik.

Bir məsələyə də toxunmaq istəyirəm. Mənə verilən məlumata görə, bəzi hallarda Bakıda hansısa obyektin tikintisi üçün ağaclar kəsilir, məhv edilir. Yerlər alınır, hasarlanır və hasarın dalında ağaclar məhv edilir. Sonra orada fərdi yaşayış evləri, hündürmərtəbəli binalar tikilir. Bu siqnallar mənə dəfələrlə daxil olubdur. Mən Hacıbala Abutalıbova göstərişlər vermişdim. Bu gün də həm yerli icra orqanlarına, həm də vəzifədən istifadə edən şəxslərə sonuncu dəfə xəbərdarlıq edirəm ki, bunu yığışdırsınlar. Mən Bakıda və Azərbaycanda ağacların kəsilməsinə qadağa qoyuram. Yalnız o şərtlə ağac kəsilə bilər ki, hansısa infrastruktur layihəsi icra olunur, yol genişlənir. Yaxud da ki, hansısa dövlət əhəmiyyətli tədbirin keçirilməsi üçün lazımdırsa, o zaman ağaclar çıxarıla bilər. Özü də maksimum çalışmalıyıq

ki, ağaclar məhv edilməsin. İndi xüsusi maşınlar da alınıbdır. Bu maşınlarla ağacı kökü ilə bərabər çıxarıb başqa yerdə əkmək mümkündür. Düzdür, bütün ağacları bu yolla biz başqa yerdə əkə bilmərik. Çünki bunu bütün ağaclara tətbiq eləmək çətindir. Əgər hansısa bir dövlət əhəmiyyətli işlə, layihə ilə əlaqədar ağaclar kəsilməlidirsə, kəsilən bir ağacın əvəzinə on ağac əkilməlidir və buna nəzarət olmalıdır. Həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də şəhər, rayon icra hakimiyyətləri bu işlərdə ciddi dönüş yaratmalıdır. Bu, son xəbərdarlıqdır. Bundan sonra da mən eşidəm, biləm ki, haradasa, hansısa iş adamı, yaxud da vəzifəli şəxs və ya başqa hansısa adam yeri hasarlayıb, ağacları kəsib özü üçün mülk tikir, kəsilən ağacların yerində tikilən binalar səhəri gün dağıdılacaq və təqsirkar şəxslər cəzalandırılacaqlar.

Biz həmişə maliyyə intizamının möhkəmlənməsinə fikir vermişik. İndiki şəraitdə bunun daha da böyük əhəmiyyəti var. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi istər-istəməz bizim maddi imkanlarımızı məhdudlaşdırır. Düzdür, biz başqa imkanları işə salmaqla iqtisadiyyatın digər sahələri hesabına o boşluğu doldurmağa çalışırıq. Amma bunu etmək çətin olacaqdır. Ona görə maliyyə intizamı, maliyyə resurslarının xərclənməsinə nəzarət diqqət mərkəzində olmalıdır, indi buna daha böyük ehtiyac var.

Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən ölkədir və dünyada gedən proseslər bizdən yan keçə bilməz. Zaman sübut edibdir ki, biz böhranlı durumda da normal yaşaya, inkişaf edə bilərik. Gördüyümüz işlər onu göstərir ki, bu gün Azərbaycanda dayanıqlı inkişaf üçün möhkəm əsaslar var.

Böhran bir daha göstərdi ki, hansı ölkə hansı imkanlara malikdir. Normal durumda hesab oluna bilər ki, bu ölkə də, o ölkə də uğurlu inkişaf edir. Ətrafımızda yerləşən ölkələr faktiki olaraq dilənçi vəziyyətinə düşüb. Xarici maliyyə yardımı olmadan o ölkələr yaşaya bilmir. Onlar həmişə başqalarının hesabına yaşamışlar və buna alışmışlar.

Azərbaycan isə öz hesabına yaşayır, daxili imkanlarına güvənir, Azərbaycan xalqının istedadına, Azərbaycan iqtisadiyyatının gücünə, öz siyasi gücünə arxalanır, bölgədə əldə edilmiş mövqelərə və müstəqil siyasətə arxalanır. Azərbaycan dünyaya, xüsusilə bölgədə yerləşən ölkələrə sübut edib ki, bu yolla gedən ölkələr həmişə uğur qazanacaq, bu yolla gedən insanların həmişə üzü ağ, alnı açıq olacaqdır.

Mən növbəti aylar ərzində hamıdan fəal işlər tələb edirəm. Hesab edirəm ki, növbəti aylarda və ilin sonuna qədər nəzərdə tutulmuş bütün məsələləri həll edəcəyik, doğma vətənimizi daha da möhkəmləndirəcəyik.

Sağ olun.

## «HAVA LİMANI» YARIMSTANSİYASINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də «Hava limanı» yarımstansiyasında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dövlət əhəmiyyətli obyekt olan Heydər Əliyev Beynəlxalq Aeroportunun elektrik enerjisinə tələbatını ödəmək məqsədi ilə köhnə 110/10 kilovoltluq yarımstansiyanın əvəzinə tamamilə müasir tipli 110/35/10 kilovoltluq yeni «Hava limanı» yarımstansiyası inşa edilmişdir.*

*Bildirildi ki, «Siemens» firmasının istehsalı olan ən müasir elektrik avadanlığının quraşdırıldığı yarımstansiyada eleqaz açarlarla təchiz olunmuş 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular tikilib istismara verilmişdir. Yarımstansiyada hər birinin gücü 25 meqavoltamper olan 110/35/10 kilovoltluq iki transformator quraşdırılmışdır. Bir hektar sahəsi olan yarımstansiyanın ərazisində əsaslı abadlıq işləri aparılmış, yaşıllıq zolaqları salınmışdır.*

*Yarımstansiya aeroport yolunun ətrafında inşa edilən biznes mərkəzlərinin və digər obyektlərin də elektrik enerjisi ilə fasiləsiz təchizatına, həmçinin gələcəkdə burada inşa olunacaq 35 kilovoltluq yarımstansiyaların qidalandırılmasına imkan yaradacaqdır.*

*Obyektin elektrik enerjisi təchizatı üzrə xüsusi kateqoriyaya aid olması nəzərə alınaraq, 220/110 kilovoltluq «Hövsan» yarımstansiyasından buraya birbaşa 16,1 kilometr uzunluğunda ikidövrəli 110 kilovoltluq hava elektrik ötürücü xətti də çəkilmişdir.*

*Görülən işlərlə tanışlıqdan sonra prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

## NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏKİ 203 SAYLI YARIMSTANSİYANIN TİKİNTİSİ, 110 KİLOVOLTLUQ 3-cü VƏ 4-cü «XIRDALAN» HAVA XƏTTİNİN YENİDƏN QURULMASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Bakının Nərimanov rayonu ərazisindəki 203 saylı yarımstansiyanın tikintisi, 110 kilovoltluq 3-cü və 4-cü «Xırdalan» hava xəttinin yenidən qurulması işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1967-ci ildə inşa edilmiş 110/35/16 kilovoltluq 203 saylı yarımstansiyanın yenidən qurulması və gücləndirilməsi paytaxtın paylayıcı və ötürücü şəbəkəsinin müasirləşdirilməsi istiqamətində görülən mühüm tədbirlərdəndir. Buradakı köhnə stansiya tamamilə sökülərək, «Siemens» şirkətinin avadanlığından istifadə olunmaqla yeni yarımstansiya tikilmişdir. Ərazidə hər birinin gücü 50 meqavoltamper olan 110/35/16 kilovoltluq iki transformator quraşdırılmışdır.*

*Bakı şəhərinin əsas qidalandırıcı xətlərindən sayılan və yeni inşa edilən 203 saylı yarımstansiyanı elektrik enerjisi ilə təmin edən, 40 ildən çox müddətdə istismarda olan və texniki parametrlərini itirən 110 kilovoltluq 3-cü və 4-cü «Xırdalan» hava elektrik ötürücü xətti də yenidən qurulmuşdur. Həmin xəttin dayaqları gücləndirilmiş, naqillər en kəsiyi daha böyük naqillərlə əvəz edilmişdir. Görülən əsaslı tədbirlər sayəsində uzunluğu 20 kilometr olan bu xəttin nəqletmə qabiliyyəti iki dəfə artırılmışdır. Bu qurğu Bakının Nərimanov, Binəqədi, Xətai və Nəsimi rayonlarının elektrik enerjisi ilə təchizatını əsaslı şəkildə yaxşılaşdırmışdır.*

*Ərazidə «Bakıelektrikşəbəkə» üçün mühüm əhəmiyyətə malik, ümumi sahəsi 10 min kvadratmetrə çatan müasir tipli anbar inşa edilmiş, həmçinin elektrik sayğaclarının test laboratoriyası üçün ümumi sahəsi 2000 kvadratmetr olan ikimərtəbəli bina tikilmiş, işçilər üçün hər cür şərait yaradılmış, ətrafda yaşıllıqlar salınmış, abadlıq işləri görülmüşdür.*

*Prezident İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq 203 saylı yarımstansiyada ən müasir standartlara cavab verən avadanlıqlar quraşdırılmışdır. Yenidənqurma tədbirləri yarımstansiyaya 50 meqavoltamper əlavə güc qəbul etməyə və istehlakçılara paylamağa, eləcə də yeni inşa edilən yaşayış binalarının, sənaye, sosial və mədəni obyektlərin elektrik enerjisi ilə təchizatına imkan yaratmışdır. Nərimanov rayonu ərazisində müasir tipli 110/35/10 kilovoltluq yeni yarımstansiyanın da inşa edildiyi qeyd olundu. Həmin yarımstansiya əsasən Nərimanov, Nəsimi və Binəqədi rayonlarını elektrik enerjisi ilə təchiz etməyə imkan verəcəkdir.*

*Bildirildi ki, uzun illər «Barmek» şirkəti şəhərin elektrik təchizatını yaxşılaşdırmaq əvəzinə, əhalidən yalnız pul toplamaqla öz maddi marağını güdmüşdü. Fəaliyyət göstərdiyi müddətdə «Barmek» Bakı şəhərinin elektrik şəbəkəsinin inkişafına bir manat da olsun vəsait ayırmamış, burada çalışan işçilərin və mütəxəssislərin iş şəraiti acınacaqlı vəziyyətdə olmuşdur. Yalnız Bakı şəhərinin elektrik şəbəkəsi dövlətin nəzarətinə keçdikdən sonra Azərbaycan prezidenti İlham Əliyevin birbaşa diqqət və qayğısı nəticəsində qısa vaxt ərzində paytaxtın elektrik enerji təsərrüfatı əsaslı şəkildə yenidən qurulmuş, şəhərin dayanıqlı enerji ilə tam təmin edilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Dövlətimizin başçısı Bakı şəhərinin elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## RUSİYA FEDERASİYASININ FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ – SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ, ORDU GENERALI VLADİMİR PRONİÇEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini – Sərhəd Xidmətinin rəhbəri, ordu generalı Vladimir Proniçevi qəbul etmişdir.*

*Ordu generalı Vladimir Proniçev Azərbaycan, Rusiya və İranın sərhəd xidməti rəhbərlərinin Bakı görüşünün 2007-ci ildə dövlət başçılarının Tehran görüşü zamanı verdikləri tapşırıqlara əsasən təşkil olunduğunu vurğulayaraq, görüşdə Xəzər regionunun təhlükəsizliyi ilə əlaqədar məsələlərin müzakirə edildiyini bildirdi. O, Rusiya Sərhəd Xidməti ilə Azərbaycanın Dövlət Sərhəd Xidməti arasında dostluq münasibətlərinə əsaslanan əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Rusiya Federasiyasına səfərini xatırladan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən sərhəd xidməti sahəsində də uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan, Rusiya və İran sərhəd xidmətləri rəhbərlərinin Bakıda keçirilən görüşünün həm ikitərəfli, həm də çoxtərəfli formatda müzakirələr aparmaq üçün yaxşı imkan yaratdığını bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

*27 aprel 2009-cu il*

*Aprelin 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Brüsselin «Abelaq» hava limanında Belçika Krallığının dövlət və hökumət rəsmiləri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## BELÇİKANIN BAŞ NAZİRİ HERMAN VAN ROMPÖY İLƏ GÖRÜŞ

*Brüssel*

*28 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Brüsseldə Belçika Krallığının Baş naziri Herman Van Rompöy ilə görüşmüşdür.*

*Baş nazir Herman Van Rompöy Azərbaycan prezidenti İlham Əliyevi binanın önündə böyük səmimiyyətlə qarşıladı.*

*Görüşdə Azərbaycan ilə Belçika arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, siyasi əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu.*

*Azərbaycan prezidentinin Belçikaya səfərinin əlaqələrimizin daha da inkişafı baxımından əhəmiyyətinin vurğulandığı görüşdə qeyd olundu ki, qarşılıqlı səfərlər əməkdaşlığın genişlənməsinə öz töhfəsini verir. Bildirildi ki, ölkələrimizin iqtisadi əlaqələrin inkişafı üçün də yaxşı imkanları var.*

*Görüşdə Azərbaycan ilə Belçika arasında əməkdaşlığın Azərbaycan–Avropa İttifaqı əlaqələri baxımından əhəmiyyəti vurğulandı.*

*Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki önəmli rolunun qeyd edildiyi görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA SİYASİ MƏRKƏZİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Brüssel*

*28 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 28-də Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə «Azərbaycan: Avropa İttifaqı üçün getdikcə əhəmiyyəti artan tərəfdaş» mövzusunda görüşü olmuşdur.*

*Görüşü Mərkəzin rəhbəri Hans Martens açdı. Azərbaycanda gedən uğurlu inkişafdan danışan natiq ölkəmizin Avropa qurumları və Avropa İttifaqı ilə əlaqələrinin də müvəffəqiyyətlə genişləndiyini söylədi. Bildirdi ki, Azərbaycan Avropa Qonşuluq Siyasətində fəal iştirak edir və enerji sahəsində Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Hans Martens Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu xüsusi vurğuladı.*

*O, Azərbaycan prezidenti İlham Əliyevi görüş iştirakçılarına təqdim etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev görüşdə çıxış edərək dedi ki, son 5 ildə Azərbaycanda sürətli iqtisadi inkişaf gedir, təhsil, səhiyyə və digər sahələrdə uğurlu islahatlar həyata keçirilir. İqtisadiyyatda özəl sektorun payı xeyli artmış, əlverişli biznes mühiti yaranmış, demokratikləşmə, qanunun aliliyi sahələrində də islahatlar aparılır. Dövlət bu işlərin görülməsində xalqdan dəstək alır. Azərbaycanda neftdən gələn gəlirlərin insan kapitalına çevrilməsi istiqamətində tədbirlər görülür, transmilli enerji layihələrinin həyata keçirilməsi diqqətdə saxlanılır. Təsadüfi deyil ki, indi Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol*

*oynayır. Aparılan uğurlu iqtisadi siyasət beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankı «Doing Business» hesabatında Azərbaycanı ən islahatçı ölkə elan etmişdir.*

*Ölkəmizdə neft hasilatının getdikcə artdığını deyən prezident İlham Əliyev Azərbaycanın tranzit imkanlarının da yüksək qiymətləndirildiyini diqqətə çatdırdı. Azərbaycanın enerji siyasətində uğurlar əldə etdiyini və ölkəmizin Xəzərin karbohidrogen ehtiyatlarının Qərbə nəqlində böyük imkanlarının olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan bölgədə regional əməkdaşlığa böyük önəm verir. Buna baxmayaraq, regionda hələ həllini tapmayan problemlər var. 20 ilə yaxındır ki, Azərbaycan torpaqlarının bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdir. Nəticədə 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Beynəlxalq təşkilatlar bu işğalı pisləyən qətnamələr qəbul etsə də, Ermənistan buna məhəl qoymur. Azərbaycanın mövqeyi qətidir. İşğal olunan ərazilər boşaldılmalı, məcburi köçkünlər doğma torpaqlarına qayıtmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.*

*Ölkəmizin xarici siyasətindən danışan dövlətimizin başçısı dedi ki, Azərbaycan bütün ölkələrlə qarşılıqlı tərəfdaşlıq münasibətləri qurmaqda maraqlıdır. Avropa İttifaqı ilə də əlaqələr genişlənir.*

*Dövlətimizin başçısı bildirdi ki, Ermənistan təkcə Dağlıq Qarabağı yox, onun ətrafındakı 7 rayonu da işğal etmiş və həmin ərazilərdəki infrastrukturu məhv etmişdir. Dağlıq Qarabağın tarixi Azərbaycan torpağı olduğunu deyən prezident İlham Əliyev diqqətə çatdırdı ki, Azərbaycan heç vaxt Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Münaqişənin yeganə həll yolu Ermənistanın işğal altında saxladığı torpaqları azad etməsidir. Bundan sonra Azərbaycan Dağlıq Qarabağa ən yüksək özünüidarə statusu verə bilər. İşğal siyasətinin sonu yoxdur.*

*Ölkəmizin regiondakı mövqeyi ilə bağlı suala cavab verən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Xəzər hövzəsində geniş tranzit imkanlarına malikdir və bu imkanları bütün tərəfdaş ölkələrlə paylaşır. Azərbaycanın məqsədinin dünyada ən inkişaf etmiş ölkələrdən birinə çevrilmək olduğunu diqqətə çatdıran prezident İlham Əliyev vurğuladı ki, iqtisadi inkişafı nəticəsində son illərdə ölkədə 700 mindən çox yeni iş yeri yaradılmış, bununla da insanların rifah halı yaxşılaşmış, ölkəmizin maliyyə imkanları genişlənmişdir.*

*Dövlətimizin başçısı dedi ki, bir müddət öncə Azərbaycan qaz idxal edən ölkə idi. İndi isə ölkəmiz əsas qaz ixracatçılarından birinə çevrilmişdir. Azərbaycan qazı hazırda Gürcüstana, Türkiyəyə, oradan da Avropa İttifaqı bazarına ixrac olunur.*

*Prezident İlham Əliyev bildirdi ki, Avropa İttifaqının «Şərq tərəfdaşlığı» təşəbbüsü çərçivəsində əməkdaşlıq Azərbaycana və Avropa İttifaqına fayda verəcəkdir.*

*Türkiyə–Ermənistan əlaqələri ilə bağlı suala cavabında prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan heç bir dövlətin siyasətinə qarışmır. Amma məlumdur ki, Ermənistan–Türkiyə sərhədləri Azərbaycan ərazilərinin işğalına görə bağlanmışdır. Bu işğal indi də davam edir.*

## AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞ

*Brüssel*

*28 aprel 2009-cu il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı İlham Əliyevi Avropa Komissiyasının sədri Joze Manuel Barrozu səmimiyyətlə qarşıladı. Onlar Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqları önündə xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident İlham Əliyevin Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşü oldu.*

*Joze Manuel Barrozu bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr genişlənir və bu, müxtəlif sahələrdə özünü göstərir. Əlaqələrimiz Avropa Qonşuluq Siyasəti çərçivəsində uğurla inkişaf edir və bu əlaqələr «Şərq tərəfdaşlığı» təşəbbüsünün reallaşması ilə yeni mərhələyə daxil olur.*

*Avropa İttifaqı Azərbaycan ilə enerji sahəsində də uğurla əməkdaşlıq edir və Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.*

*Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişlənməsinin Azərbaycanın Avropa dəyərlərinə verdiyi önəmin göstəricisi olduğunu deyən Barrozu gələcəkdə tərəflər arasında daha konkret layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğuladı.*

*Avropa Komissiyasının sədri Azərbaycanın iqtisadi sahədə yüksək nailiyyətlər qazandığını söylədi və ölkəmizin böyük potensiala malik olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirərək qeyd etdi ki, Azərbaycan bundan sonra da Avropaya inteqrasiyanı davam etdirmək əzmindədir.*

*Azərbaycanda gedən iqtisadi inkişafdan danışan dövlətimizin başçısı ölkəmizin bu sahədə böyük nailiyyətlər əldə etdiyini, Azərbaycanın regional iqtisadi əməkdaşlığa, bölgənin təhlükəsizliyinin təmin olunması işinə öz töhfəsini verdiyini bildirdi.*

*Bütün bunların Avropa İttifaqı ilə Azərbaycan arasında qarşılıqlı faydalı əlaqələrin inkişafına imkan yaratdığını deyən Azərbaycan prezidenti İlham Əliyev bildirdi ki, ölkəmiz böyük energetika layihələrinin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməyə hazırdır.*

*Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN BİRGƏ MƏTBUAT KONFRANSI

*28 aprel 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu görüşdən sonra birgə mətbuat konfransı keçirmişlər.*

*Cənab Joze Manuel Barrozu və prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.*

### Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun çıxışı

Xanımlar və cənablar, sizi salamlayıram.

Mən prezident Əliyevi Brüsseldə yenidən salamlamaqdan məmnunam. Sonuncu dəfə biz burada görüş keçirdik və enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunu imzaladıq. Bu gün bizim çox yaxşı, konstruktiv və açıq söhbətimiz oldu. Mən minnətdarlığımı bildirmək istəyirəm ki, danışıqlarımız zamanı həqiqətən səmimiyyət və açıqlıq ruhunu hiss etdik. Azərbaycan Cənubi Qafqaz regionunda olduqca mühüm tərəfdaşdır. Əminəm ki, dialoq və əməkdaşlığımızın intensivləşdirilməsi hər iki tərəfə böyük fayda gətirəcəkdir. Artıq 10 ildir ki, həyata keçirilən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi möhkəm bünövrədir. Avropa İttifaqı Azərbaycanın ümumi xarici ticarətində təxminən 30 faizi təşkil edərək, bu ölkənin əsas ticari tərəfdaşıdır. Son illər Azərbaycan iqtisadiyyatı mühüm artım rəqəmlərini nümayiş etdirir. 2008-ci ildə ölkənin iqtisadi artımı 10,8 faiz səviyyəsində olmuşdur. Bu, əsasən neft və qaz sektoru ilə bağlıdır. Lakin hazırkı maliyyə və

iqtisadi böhran həmin inkişafa ciddi təhlükədir. Bu böhran bizə də aiddir. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın uzunmüddətli inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Biz etiraf edirik ki, münasibətlərimizi irəliyə doğru aparmaq istəyirik və bunu edə bilərik. Bu məsələ prezident Əliyevin mənimlə görüşündə vurğulanmışdır. Bir neçə gündən sonra Praqada təqdim olunacaq «Şərq tərəfdaşlığı» isə fürsəti təmin edir.

Mən, həmçinin regional sabitlik sahəsində əlavə irəliləyişin vacibliyini qeyd etdim. Həmin məsələ ilə bağlı özümün və Avropa İttifaqının fikirlərini bölüşdüm. Hesab edirik ki, enerji Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx münasibətlər üçün çox mühüm amildir. Əməkdaşlığımızın gücləndirilməsi ilə bağlı fikirlərdə yekdilik.

Bildiyiniz kimi, təhlükəsizlik Avropa İttifaqı üçün ən vacib prioritetdir. Azərbaycan həm hasilatçı, həm tranzit ölkə baxımından əhəmiyyətli tərəfdaşdır. Vəziyyəti təhlil etdiyinə görə prezident Əliyevə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Mən prezident Əliyev ilə xüsusi olaraq Nabukko layihəsini müzakirə etdim. Hesab edirik ki, bu layihə bütöv region və Avropa üçün önəmlidir. Azərbaycan tərəfindən enerji siyasəti sahəsində qəbul edilmiş çətin, lakin cəsarətli qərarları alqışlayıram. Fikrimizcə, Azərbaycan ilə Avropa İttifaqı konkret fayda əldə edə bilərlər. Biz Azərbaycan ilə bir çox sahələrdə birgə işləmək arzusundayıq və sıx əməkdaşlığın aparılması məqsədilə Azərbaycan tərəfindən atılmış bütün addımları alqışlayırıq. Hesab edirəm ki, bu həm Azərbaycanın, həm də bütövlükdə Avropa İttifaqının marağındadır.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Öncə mən Brüsselə dəvətinə görə cənab sədrə minnətdarlığımı bildirmək istəyirəm. Sonuncu səfərim zamanı

biz strateji enerji tərəfdaşlığı haqqında Memorandum imzaladıq. Həmin vaxtdan etibarən Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf etmişdir. Bugünkü söhbət bir daha göstərdi ki, münasibətlər hər iki tərəf üçün necə inkişaf etməlidir. Mən ölkəmizin iqtisadi inkişafı ilə bağlı söylədiyi sözlərə görə cənab sədrə dərin minnətdarlığımı bildirirəm. Faktiki olaraq, son 5 ildə ölkəmizdə görünməmiş iqtisadi artım müşahidə olunmuşdur. Ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə, büdcə xərcləri isə 10 dəfə artmışdır. Bu il iqtisadi böhrana və neftin qiymətlərinin bir neçə dəfə aşağı düşməsinə baxmayaraq, biz artımı davam etdirəcəyik. Cari ilin birinci rübündə iqtisadiyyatımız 4 faizdən çox artmış, qeyri-neft iqtisadiyyatı 14 faiz artmışdır. Bizim iqtisadiyyatımız artıq neft və qazdan asılı deyil. Neft və qaz iqtisadiyyatımızda əvvəl olduğu kimi, həlledici rol oynamır. Biz iqtisadi islahatları davam etdiririk. Ötən il Dünya Bankı özünün «Doing Business» hesabatında Azərbaycanı bir nömrəli islahatçı ölkə elan etmişdir. Bizim üçün Avropa İttifaqı ilə münasibətlər vacibdir, istəyirik ki, həyatımızın bütün meyarları Avropa İttifaqının meyarlarına uyğun olsun.

Enerji cənab sədr ilə ciddi şəkildə müzakirə etdiyimiz məsələlərdən biridir. Mən Avropada müzakirə olunan layihələrə bir daha öz dəstəyimi bildirdim. Azərbaycan Xəzərdən Qərbə gedən boru kəmərlərinin tikintisini başlayan ölkə oldu. Məhz bizim təşəbbüslərimiz və işlərimiz əsasında bu gün biz Nabukko, Türkiyə–Yunanıstan–İtaliya, Transadriatik qaz kəmərləri və digər layihələr haqqında danışa bilərik, çünki ilkin zəruri işləri artıq yerinə yetirmişik. Bu gün Azərbaycan regional enerji təhlükəsizliyi və Avropanın enerji təhlükəsizliyində mühüm rolunu davam etdirir. Əminəm ki, bu səfər və gələcəkdə atılacaq addımlar həmin münasibətləri möhkəmləndirəcəkdir.

Mən dəvətə, məhsuldar və səmimi söhbətə görə cənab

sədrə bir daha minnətdarlığımı bildirmək istəyirəm və hesab edirəm ki, bu söhbətlər gələcəyimiz üçün çox vacibdir.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu çıxışlardan sonra jurnalistlərin suallarını cavablandırdılar .*

**S u a l : Mənim sualım prezident Əliyev və cənab Barrozuyadır. Həm Azərbaycan, həm də Ermənistan «Şərq tərəfdaşlığı»nın üzvləridir. Halbuki Ermənistan Azərbaycan ərazilərini hələ də işğal altında saxlayır. Vəziyyətlə bağlı rəyinizi bilmək istərdik.**

**İ l h a m  Ə l i y e v:** Belə suala mən Azərbaycanda tez-tez cavab verirəm, ona görə də özüm birinci başlayım. Biz bu məsələni cənab sədrlə müzakirə etdik. Uzun illərdir Ermənistan tərəfindən torpaqlarımızın davamlı işğalı nəinki Azərbaycan, o cümlədən regional təhlükəsizlik və sabitlik üçün ən böyük təhdiddir. Bu, regionumuzda təxminən iki onillikdir ki, müşahidə etdiyimiz ən böyük ədalətsizlikdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri qonşu ölkənin işğalı altındadır. Azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağın inzibati sərhədlərinin ətrafında yerləşən 7 rayon hazırda Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır. Biz münaqişəni beynəlxalq hüquq normaları, o cümlədən ATƏT-in qərarları və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazimizdən qeyd-şərtsiz çıxmasını tələb edən qətnamələri əsasında həll etməyə çalışırıq. Öz müqəddəratını təyin etmək hüququ başqa bir ölkənin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmamalıdır. Ermənilər bir millət kimi, öz müqəddəratını artıq təyin ediblər, suveren Ermənistan dövlətinə malikdirlər. Əgər bu məntiqlə yanaşsaq, dünyada əhalisi erməni olan 20 dövlət yarana bilər. İkincisi, ermənilərin və azərbaycanlıların Dağlıq

Qarabağda öz müqəddəratını təyin etməsi suveren Azərbaycan dövlətinin hüdudları çərçivəsində baş verə bilər və verməlidir. Beynəlxalq hüququn normaları bunu tələb edir. Azərbaycan bu mövqedə qətiyyətlə dayanır və əminəm ki, münaqişə yalnız bu əsaslarla həll oluna bilər.

**J o z e M a n u e l B a r r o z u:** Sizin qeyd etdiyiniz kimi, həm Azərbaycan, həm də Ermənistan «Şərq tərəfdaşlığı» çərçivəsində tərəfdaşlarımızdır. Bir daha vurğulayım ki, biz Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədi ilə Ermənistan və Azərbaycan arasında danışıqların davam etdirilməsinə yönəlmiş bütün səyləri yüksək qiymətləndiririk. Ümid edirik ki, bu sahədə müəyyən irəliləyiş olacaq. Biz bu yaxınlarda müzakirələrin keçirilməsinə çağırırıq. Bilirəm ki, prezident Əliyev Praqada Ermənistan prezidenti ilə görüşəcək. Biz bu problemin həllinə yönəlmiş səyləri dəstəkləyirik. Biz regionda gərginliyin azaldılması üçün atılan hər bir addımı dəstəkləyəcəyik. Regionda daha yaxşı mühit yaratmaq üçün, müəyyən irəliləyişə nail olmaqdan ötrü bir sıra konkret aspektlər vacibdir.

**S u a l: Sualım sədr Barrozuya və prezident Əliyevədir. Ermənistan ilə Türkiyə arasında son yaxınlaşmanı müzakirə etdinizmi? Məsələ ilə bağlı mövqeyinizi bilmək istərdik.**

**J o z e M a n u e l B a r r o z u:** Bu dəfə mən başlayım. Bəli, məsələni müzakirə etdik. Bizim çox yaxşı və səmimi söhbətimiz oldu. Dostlar arasında hər bir şey müzakirə olunur. Biz bu məsələni çox açıq şəkildə müzakirə etdik. Mən məsələnin Azərbaycan üçün həssaslığını tam anlayıram. Prezident Əliyev məsələnin Azərbaycan xalqı üçün nə olduğunu çox aydın şəkildə bildirdi. Siz anlayırsınız ki, Avropa İttifaqı kimi, biz regionda gərginliyin azaldılmasından çox məmnunuq. Türkiyə ilə Ermənistan arasında gərginliyin azaldılması faktına gəldikdə isə hesab edirəm ki, biz bunu alqışlayırıq. Türkiyə ilə Ermənistan arasında ənənəvi olaraq çox mühüm problemlər var. Lakin bu o demək deyil ki, biz Dağlıq Qarabağ məsələsinin həllini istəmirik. Biz çox

istəyirik ki, Azərbaycan və Ermənistan problemin həllinə nail olsunlar. Bu gün mən prezident Əliyevə bunu bildirdim və məsələnin Azərbaycan xalqı üçün nə qədər həssas olduğunu onun tərəfindən çox açıq və aydın şəkildə izah edildiyinə görə, ona minnətdarlığımı bildirmək istəyirəm.

**İ l h a m Ə l i y e v:** Biz sədr Barrozu ilə geniş şəkildə bir çox məsələləri, o cümlədən regional inkişaf və əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə ki, biz regional əməkdaşlıqdan danışarkən regiondakı son hadisələrdən yan keçə bilməzdik. Bu məsələ ilə bağlı mövqeyimizi dəfələrlə bildirmişik. Mövqe ondan ibarətdir ki, biz heç vaxt nə hər hansı bir ölkənin daxili işlərinə qarışırıq, nə də iki suveren ölkə arasındakı münasibətlərə. Bu, Türkiyə və Ermənistan tərəfindən qəbul edilən qərardır. Münasibətlərini necə davam etdirmək onların öz seçimidir. Məsələnin tarixi kökləri ilə bağlı bəzi şərhlərə gəldikdə isə xatırlatmaq istəyirəm ki, Türkiyə ilə Ermənistan arasında sərhəd 1993-cü ildə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində bağlanmışdır və bu gün işğal davam edir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini hələ də işğal altında saxlayır. Biz belə bir mövqedə deyilik ki, bu iki ölkə arasında münasibətlərin irəliyə getməsinə imkan verək və ya onun qarşısını alaq. Yalnız bir şeyi qeyd etmək istəyirəm ki, bizim də öz siyasətimizi regionda mövcud olan yeni reallığa uyğunlaşdırmaq, regionda yarana biləcək yeni vəziyyətə uyğun addımlar atmaq hüququmuz var. Məsələ ilə bağlı müxtəlif mənbələrdən ziddiyyətli şərhlər eşidirik. Bəziləri deyir ki, ilkin şərtlərlə «yol xəritəsi» tərtib edilmişdir. Digər mənbələrdən eşidirik ki, ilkin şərtlər haqqında «yol xəritəsi»ndə heç nə deyilməyib. Bu, bir növ söz oyunudur. Hesab edirəm ki, dünya, region və Azərbaycan xalqı nəyin baş verdiyini bilməlidir. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması Türkiyə ilə Ermənistan arasında yaxınlaşma kontekstindən çıxarılıb, ya yox? Bu, çox sadə cavab tələb edən bir sualdır.

**S u a l: Azərbaycanda demokratik inkişafla bağlı göstəricilərə gəldikdə nə deyə bilərsiniz? Bu baxımdan əməkdaşlıq sazişi əsasında yeni mərhələ haqqında danışmaq olarmı?**

**J o z e M a n u e l B a r r o z u:** Bu yaxınlarda biz öz hesabatımızı dərc etdik. Mənim prezident Əliyevlə çox mehriban və açıq söhbətim oldu. Biz Azərbaycanda qanunun aliliyi ilə bağlı göstərilən səyləri çox yüksək dəyərləndiririk. Bir neçə dəfə burada qeyd edilmişdir ki, ölkədəki meyarlar Avropa İttifaqının meyarlarına uyğunlaşdırılmalıdır. Biz bu sahədə irəliləyişi görmək arzusundayıq. Cənab Əliyevin dediyi kimi, iqtisadi islahatlar siyasi islahatlarla müşayiət olunmalıdır. Azərbaycan öz demokratik sistemi və təsisatları, qanunun aliliyi baxımından bir çox işlər görmüşdür.

**İ l h a m Ə l i y e v:** Əlavə etmək istəyirəm ki, çiçəklənən davamlı cəmiyyəti qanunun aliliyi və cəmiyyətin güclü şəkildə demokratikləşməsi olmadan qurmaq mümkün deyil. İnanıram ki, ciddi iqtisadi və sosial problemlər, o cümlədən yoxsulluq olan ölkədə əsl demokratik dövlət qurmaq çox çətin olacaq. Ona görə də səylərimiz uğurla azaltdığımız yoxsulluğun aradan qaldırılmasına yönəlib. Son 5 ildə yoxsulluğun səviyyəsi xeyli azalmış, demokratikləşmə uğurla getmişdir. Avropa İttifaqı və Avropa Şurası ilə münasibətlərimiz gündəlikdə bu məqsədi güdür. Azərbaycan güclü iqtisadi potensiala malik, özünü təmin edən ölkədir. Azərbaycan müstəqil ölkə kimi yaşamaq və uğurla inkişaf etmək qabiliyyətini artıq nümayiş etdirmişdir. Biz öz siyasi sistemini, sosial problemlərin həllini və iqtisadi azadlıqları Avropa İttifaqının meyarlarına uyğunlaşdıran müasir ölkəni, müasir Azərbaycanı qurmaq istəyirik və hesab edirəm ki, Avropa İttifaqı, xüsusən də Qonşuluq Proqramı və «Şərq tərəfdaşlığı» bu müsbət meyli gücləndirəcəkdir. Sağ olun.

## NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞ

*Brüssel*

*29 aprel 2009-cu il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.*

*NATO-nun Baş katibi dövlətimizin başçısını NATO-nun mənzil-qərargahının önündə böyük səmimiyyətlə qarşıladı.*

*Görüşdə Baş katib dedi ki, Azərbaycan ilə əməkdaşlıq uğurla inkişaf edir və NATO bu əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycanın regionda xüsusi rolunu vurğulayan Yaap de Hoop Sxeffer bildirdi ki, NATO Azərbaycana bölgədə mühüm rol oynayan tərəfdaş ölkə kimi yanaşır və prezident İlham Əliyevin bu səfəri NATO–Azərbaycan münasibətlərinin genişlənməsinə xidmət edəcəkdir.*

*NATO-nun Baş katibi Azərbaycanın antiterror əməliyyatlarında iştirakını yüksək qiymətləndirdi və dedi ki, ölkəniz «Fərdi tərəfdaşlığın əməliyyat planı»nda da fəal iştirak edir.*

*Prezident İlham Əliyev bildirdi ki, NATO–Azərbaycan əlaqələri inkişaf edir, Azərbaycan NATO-nun müxtəlif proqramlarında və tədbirlərində fəal iştirak edir.*

*«Fərdi tərəfdaşlığın əməliyyat planı»nda ölkəmizin fəal iştirak etdiyini vurğulayan prezident İlham Əliyev dedi ki, Azərbaycan–NATO əlaqələri ölkəmizin Avroatlantik strukturlara inteqrasiyasının tərkib hissələrindən biridir.*

*Azərbaycanın dövlət başçısı ümidvar olduğunu bildirdi ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATLARLA ÇIXIŞLARI

*29 aprel 2009-cu il*

*Aprelin 29-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.*

### NATO-nun Baş katibi Yaap De Hoop Sxefferin bəyanatı

Sabahınız xeyir, xanımlar və cənablar!

Deyə bilərəm ki, Baş katib kimi, mən və Şimali Atlantika Şurası Azərbaycan prezidenti cənab Əliyevi Şimali Atlantika Şurasında yenidən qəbul etməkdən olduqca məmnunuq.

Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır. Artıq 15 ildir ki, «Sülh naminə tərəfdaşlıq» proqramı, 2005-ci ildən etibarən isə «Fərdi tərəfdaşlığın əməliyyat planı» çərçivəsində çalışırıq. Təbii ki, Azərbaycan nəinki regionda, o cümlədən onun hüdudlarından kənarda mühüm iştirakçıdır. Azərbaycan enerji təhlükəsizliyi baxımından çox vacib bir ölkədir və NATO-nun çox dəyərli tərəfdaşıdır. Biz həmin tərəfdaşlığı genişləndiririk. Mən Əfqanıstanda İSAF əməliyyatları çərçivəsində Azərbaycanın verdiyi vacib töhfəsinə görə prezident Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Biz bu işləri davam etdiririk və gələcəkdə də bu əsaslarla işləyəcəyik.

Bir neçə il əvvəl mən prezident Əliyevlə şəxsi münasibətlər qurmuşuq. Mən NATO-nun Baş katibi olmağımla yanaşı, ATƏT-in keçmiş sədri kimi, ümidvar olduğumu

bildirmək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi, NATO dövlət və hökumət başçılarının bu ayın əvvəlində Strasburqda keçirilmiş zirvə görüşündə qeyd edildiyi kimi, çox vacib bildiyim mühüm prinsip – ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapmalıdır.

Prezident Əliyev Azərbaycandakı vəziyyət, regiondakı enerji durumu və siyasi vəziyyət haqqında çox maraqlı təqdimatla çıxış etdi. Təbii ki, prezident Əliyev Dağlıq Qarabağ məsələsinə də diqqət yetirdi.

Cənab Prezident, Sizi burada görməyimizdən çox şad olduq və məmnuniyyətlə sözü Sizə verirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Çox sağ olun, cənab Baş katib!

Dəvətə görə bir daha olduqca minnətdaram. Burada yenidən olmağıma və Sizinlə görüşmək, eləcə də Şurada çıxış etmək imkanına görə çox şadam.

Öncə mən, cənab Baş katib, şəxsən Sizə Azərbaycan–NATO münasibətlərinə verdiyiniz töhfəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq. Sizin Baş katib kimi fəaliyyətiniz təşkilatı daha da gücləndirmişdir. Apardığınız iş Azərbaycan kimi ölkələri təşkilata daha da yaxınlaşdırmış və bir çox tədbirlərdə iştirakını mümkün etmişdir. Təkcə ötən il Azərbaycan təmsilçiləri NATO-nun təşkil etdiyi 200-dən çox əməkdaşlıq tədbirində iştirak etmişlər. Biz bu tərəfdaşlığı yüksək dəyərləndiririk. Azərbaycan Əfqanıstanda öz hərbçilərinin sayını iki dəfə artırmaq üzrədir. Biz öz regionumuz və bütün dünyada sülh, sabitlik və təhlükəsizlik kimi ümumi işə və antiterror əməliyyatlarına verdiyimiz töhfəni davam etdirəcəyik.

Bu gün müzakirə etdiyimiz məsələlər arasında təbii ki, NATO–Azərbaycan münasibətlərinə və regional vəziyyətə dair məsələlər də var idi. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ərazi bütövlüyü prinsipinə

əsaslanan qəti mövqeyinə görə NATO-ya olduqca minnətdarıq. Bu, regiona çox yaxşı mesajdır. Hesab edirəm ki, biz münaqişənin həlli istiqamətində yalnız bu prinsip əsasında irəliyə doğru gedə bilərik.

Bu gün biz enerji təhlükəsizliyi və əməkdaşlığını müzakirə etdik. Regionda enerji təhlükəsizliyi olmadan ümumi təhlükəsizlikdən danışmaq mümkün deyil. Enerji təhlükəsizliyi və əməkdaşlığı bu gün dünyada daha əhəmiyyətli məsələlərə çevrilmişdir. Yaxşı resurslara, infrastruktura və coğrafi mövqeyə, o cümlədən önəmli kommunikasiyalara, siyasi əlaqələrə və qonşuluğa malik olan Azərbaycan gələcəkdə daha mühüm rol oynamağı planlaşdırır.

Bu günə qədər rolumuz regional hüdudlarla məhdudlaşırdı. İndi isə qlobal səviyyədə qarşılıqlı əməkdaşlıq üçün çox yaxşı imkanlar var. Boru kəmərlərimiz, neft və qaz ehtiyatları regionun bugünkü sabitliyi və təhlükəsizliyinə xidmət edir və gələcəkdə qlobal enerji təhlükəsizliyinə töhfə verəcəkdir. Buna görə, bu məsələlər gündəliyimizdə davamlı olaraq birinci yeri tutacaqdır.

Azərbaycan siyasi və iqtisadi dəyişikliklər siyasətini aparmaqdadır. Bu günə qədər bu siyasət uğurlu olmuşdur. NATO–Azərbaycan əlaqələri, o cümlədən «Fərdi tərəfdaşlığın əməliyyat planı» formatı ölkəmizdə ümumi siyasi dəyişikliklərdə mühüm rol oynayır.

Yekun olaraq bildirmək istəyirəm ki, biz NATO ilə əlaqələri yüksək dəyərləndiririk. Münasibətlərimizin uzun – 15 illik tarixi var. Həmin vaxtdan biz «Sülh naminə tərəfdaşlıq» proqramının üzvüyük və bu səmərəli əməkdaşlığı davam etdirmək istəyirik.

## AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ, ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ HAVYER SOLANA İLƏ GÖRÜŞ

*Brüssel*

*29 aprel 2009-cu il*

*Aprelin 29-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Havyer Solana ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivlərinə, regiondakı vəziyyətə, enerji əməkdaşlığına, Ermənistan–Azərbaycan, Dağlıq Qarabaq münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ BAŞ KATİBİ HAVYER SOLANANIN BƏYANATLARLA ÇIXIŞLARI

*29 aprel 2009-cu il*

*Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Havyer Solana görüşdən sonra mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.*

### Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi Havyer Solananın bəyanatı

İcazə verin mən qısaca olaraq bildirim ki, prezident Əliyevi burada qəbul etməkdən olduqca məmnunam. Azərbaycan Avropa İttifaqı üçün çox önəmli bir ölkədir. Bu ölkə ilə bizim «Şərq tərəfdaşlığı» və «Avropa Qonşuluq Siyasəti» çərçivəsində, həmçinin enerji sahəsində xüsusi əlaqələrimiz var. Bizim kifayət qədər vaxtımız var ki, görmək istədiyimiz bütün məsələləri eyni gözlə və eyni baxışlarla nəzərdən keçirək. Söz verirəm ki, bu söhbəti davam etdirmək üçün Azərbaycana səfər edəcəyəm.

Azərbaycan bizim üçün çox önəmli ölkədir. Bu yaxınlarda biz bir sıra tədbirlərdə görüşəcəyik. Hesab edirəm ki, yenidən bir araya gələrək tərəfdaşlıq, o cümlədən enerji və «Cənub dəhlizi» haqqında müzakirələrimizi davam etdirəcəyik. Ümid edirəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli əlaqələr daha da dərinləşəcəkdir. Bu bizim məqsədimizdir və biz bu istiqamətdə də çalışacağıq.

Cənab Prezident, buraya səfər etdiyinizə, ayırdığınız vaxta və danışıqlar zamanı bölüşdüyünüz fikirlərə görə Sizə dərin minnətdarlığımı bildirirəm. İndi söz Sizindir.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Sağ olun. Dəvətə görə Sizə təşəkkür edirəm. Dünən və bu gün apardığım danışıqlardan çox məmnunam. Bu müzakirələr Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrin davamlı inkişafı üçün geniş imkanlar yaradır. Biz əlaqələrə böyük önəm veririk və əməkdaşlığın praktiki cəhətlərini müzakirə etdik. Əlaqələrimizin gündəliyi genişlənir. Hazırda bu gündəlik regional inkişafa, iqtisadi əməkdaşlığa, siyasi islahatlara və təbii ki, enerji təhlükəsizliyi və şaxələndirməyə dair bir sıra məsələləri özündə əks etdirir.

Münaqişələrin həlli, regiondakı təhlükəsizlik – bunlar bir-biri ilə bağlı məsələlərdir və bu məsələlərin həlli üçün biz Avropa İttifaqı ilə Azərbaycan arasındakı səmərəli dialoqu davam etdirəcəyik. Regional inkişaf məsələləri üzrə bizim baxışlarımız üst-üstə düşür. Bu gün qitənin təhlükəsizliyi sahəsində ən mühüm məsələlərdən biri sayılan enerji təhlükəsizliyinə gəldikdə isə Azərbaycan bir dost, həmçinin karbohidrogen ehtiyatlarının etibarlı təchizat mənbəyi və etibarlı tranzit ölkəsi kimi, enerji şaxələndirilməsində öz rolunu davam etdirəcəkdir. Bu hamımız üçün vacibdir.

Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələr qarşılıqlı şəkildə faydalıdır. Ümid edirəm ki, «Şərq tərəfdaşlığı» təşəbbüsü çərçivəsində yaranacaq yeni format bu əlaqələri möhkəmləndirəcəkdir.

Bir daha qəbul edən tərəfə qonaqpərvərliyə görə təşəkkür etmək istəyirəm və cənab Solananı istənilən münasib bir vaxtda Azərbaycana səfərə dəvət edirəm.

Sağ olun.

## Səfər başa çatdı

*Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatmışdır.*

*Brüsselin «Abelaq» hava limanında prezident İlham Əliyevi Belçika Krallığının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINDA BAŞ VERMİŞ FACİƏ İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

2009-cu il aprel ayının 30-da Azərbaycan Dövlət Neft Akademiyasında baş vermiş faciə ilə bağlı hədsiz kədərləndiyimi bildirirəm. Həlak olanların ailələrinə, yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verərək, Ulu Tanrıdan onlara rəhmət diləyirəm. Bu çətin günlərinizdə biz hamımız ağır dərdinizi bölüşərək, sizə səbir və təmkinlik diləyirik. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti bu hadisə ilə əlaqədar bütün lazımi tədbirləri həyata keçirəcəkdir.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2009-cu il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Qaşqadərya vilayətində baş vermiş avtomobil qəzası nəticəsində çoxsaylı insanların həlak olması barədə xəbər məni dərindən kədərləndirmişdir.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verirəm, zərər çəkənlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2009-cu il*

## AVRASİYA DÖVLƏTLƏRİ XII İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi – Avrasiya Dövlətləri XII İqtisadi zirvə toplantısının iştirakçılarını səmimi-qəlbdən salamlayır və işinizə uğurlar arzulayıram.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə hər il Türkiyədə keçirilən və artıq xoş ənənəyə çevrilən Avrasiya İqtisadi zirvə toplantıları regional əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və mədəni əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verir. Avrasiya və Afrika ölkələrindən, bir sıra beynəlxalq təşkilatlardan nüfuzlu nümayəndə heyətlərinin iştirak etdiyi bu toplantılarda Azərbaycan Respublikası müntəzəm olaraq təmsil olunur.

Qloballaşan dünyada sülhün və təhlükəsizliyin təmin olunması üçün qarşılıqlı faydalı əməkdaşlığın qurulması böyük əhəmiyyətə malikdir. Azərbaycan özünün iqtisadi potensialından və geosiyasi imkanlarından tərəfdaş ölkələrin sosial-iqtisadi inkişafı və regional əlaqələrin möhkəmlənməsi naminə istifadə olunmasına hərtərəfli şərait yaradır. Azərbaycanın təşəbbüsü və digər qonşu ölkələrin birgə səyləri nəticəsində həyata keçirilən mühüm transmilli layihələr – Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərləri, tikilməkdə olan Bakı–Tbilisi–Qars dəmir yolu regionda və dünyada dövlətlərarası iqtisadi əməkdaşlığa, bəşəriyyətin təhlükəsizliyi və əmin-amanlığına dövlətimizin əməli töhfəsi kimi qiymətləndirilə bilər.

2009-cu ilin əvvəllərindən başlayaraq maliyyə-iqtisadi böhranın nəticələrini aradan qaldırmaq üçün beynəlxalq aləmdə intensiv müzakirələr aparılır və müvafiq tədbirlər görülür. Düşünürəm ki, Avrasiya zirvə toplantısında qarşı-

lıqlı əməkdaşlığın geniş spektrini əhatə edən səmərəli müzakirələr və qəbul edilən qərarlar region dövlətlərin iqtisadi, siyasi və mədəni əlaqələrinin daha da inkişafına təkan verəcək, qlobal böhranın dəf olunmasına və xalqlarımızın rifahına xidmət edəcəkdir.

Zirvə toplantısının qarşılıqlı faydalı münasibətlər və beynəlxalq əməkdaşlıq yolunda ciddi addım olacağına inanır və onun işinə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2009-cu il*

## ATƏT-in BAKI OFİSİNİN YENİ TƏYİN OLUNMUŞ RƏHBƏRİ BİLGE CANKOREL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri Bilge Cankoreli qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olundu, əməkdaşlığın müxtəlif istiqamətlərinə dair ATƏT-in Bakı ofisinin fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı ATƏT-in Bakı ofisinin rəhbəri vəzifəsinə təyin olunması münasibətilə Bilge Cankoreli təbrik etdi və fəaliyyətində ona uğurlar arzuladı. Bilge Cankorel Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini bildirdi.*

## PAYTAXTIN SURAXANI RAYONUNDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ, ÜMUMMİLLİ LİDERİN ADINI DAŞIYAN PARK VƏ RAYON İCRA HAKİMİYYƏTİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

*4 may 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 4-də Bakının Suraxanı rayonunda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmiş, ümummilli liderin adını daşıyan mədəniyyət və istirahət parkı, həmçinin rayon icra hakimiyyətinin yeni binası ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısında ümummilli liderin bürüncdən hazırlanmış abidəsi önünə gül dəstəsi qoydu və açılışı bildirən lenti kəsdi, Mərkəzlə tanış oldu. Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Prezidentə məlumat verdi ki, Mərkəzin üçmərtəbəli binası ümummilli liderin adını daşıyan parkın ən gözəl guşəsində orijinal layihə əsasında inşa edilmişdir. Hər mərtəbəsinin sahəsi 360 kvadratmetrdir.*

*Mərkəzdə ümummilli liderin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, fotoşəkillər və eksponatlar nümayiş etdirilir.*

*Mərkəzin birinci mərtəbəsi ilə tanış olan prezident İlham Əliyev ulu öndərin həm sovet hakimiyyəti, həm də müstəqillik illərində Suraxanı rayonunda müxtəlif tədbirlərdə iştirakını əks etdirən fotoşəkillərə baxdı. Dövlətimizin başçısına buradakı multimedia və rəsm studiyaları, elektron kitabxana haqqında ətraflı məlumat verildi. Elektron kitabxana hələlik 50 min səhifəlik 200 adda müxtəlif kitabları əhatə edir. Multimedia studiyasında uşaqlar üçün ulu öndər Heydər*

*Əliyevin dövlətçilik fəaliyyəti haqqında üçhissəli film hazırlanmışdır. Mərkəzin xüsusi internet səhifəsi yaradılmışdır ki, onun fəaliyyəti ilə tanış olmaq istəyənlər girişdə quraşdırılan elektron informasiya köşkünün xidmətindən istifadə edə bilərlər.*

*İkinci mərtəbədəki sərgi salonunda əməkdar rəssam Rafael Abbasovun 2008-ci ildə yağlı boya ilə çəkdiyi «Ulu öndər» əsəri və ümummilli liderin həyatının müxtəlif anlarını əks etdirən şəkillər nümayiş etdirilir. Mərkəzi ziyarətə gələn qonaqlarla, xüsusən də gənclərlə ulu öndərin zəngin irsini, həyat və fəaliyyətinin müxtəlif dövrlərini öyrənmək məqsədi ilə məşğələlər keçirilməsi üçün xüsusi fərdi səs sistemi olan oturacaqlar və plazma panellərlə təmin olunmuş üç elektron auditoriya yaradılmışdır.*

*Üçüncü mərtəbədə «Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir» mövzusunda elektron sərgi nümayiş etdirilir, həmçinin müasir texnoloji avadanlıqla təchiz olunmuş konfrans zalı – lektoriya fəaliyyət göstərir.*

*Mərkəzdə toplanmış materiallar həyatının mənasını xalqına xidmətdə görən ulu öndərin zəngin və çoxşaxəli fəaliyyəti barədə dolğun təsəvvür yaradır.*

*Dövlətimizin başçısı Mərkəzlə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

## Ümummilli liderin adını daşıyan yeni mədəniyyət və istirahət parkı ilə tanışlıq

*Mayın 4-də dövlət başçısı ümummilli lider Heydər Əliyevin adını daşıyan yeni mədəniyyət və istirahət parkı ilə tanış oldu. Azərbaycan prezidenti İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yaradılan və Suraxanı rayonunun Əmircan qəsəbəsinə xüsusi yaraşıq verən park sakinlərin istirahət guşələrindən biridir.*

*Prezidentə məlumat verildi ki, parkın ərazisi 4 hektardır və onun 3 hektarı yaşıllaşdırılmışdır. Burada 15 min müxtəlif*

*ağac və gül kolları əkilmiş, ərazi yaşıl çəmənlə örtülmüş, əyləncə, ən müasir tələblərə cavab verən idman-trenajor qurğuları, kölgəliklər quraşdırılmış, uşaq meydançası və qumluq sahə düzəldilmişdir. Parkda müxtəlif formalı 100-ə qədər oturacaq, ən müasir işıqlandırma sistemi quraşdırılmış, musiqili fəvvarələr və «Su teatrı» yaradılmışdır. Fəvvarələrin ətrafında amfiteatrı olan meydanda təqribən 3 min nəfərin iştirak edə biləcəyi kütləvi tədbirlər keçiriləcəkdir.*

*Buradakı «Bayraq meydanı»nda hündürlüyü 26 metr olan qüllədə Azərbaycan Respublikasının Dövlət bayrağı dalğalanır. Həmin meydanda «Günəş saatı» da vardır. Gənc heykəltəraşların əl işlərindən ibarət heykəltəraşlıq guşəsi parka xüsusi yaraşıq verir. Parkın ərazisində müxtəlif yerlərdə xüsusi müşahidə kameraları quraşdırılmış, mühafizə təmin edilmişdir.*

## Suraxanı Rayon İcra Hakimiyyətinin yeni inzibati binası ilə tanışlıq

*Mayın 4-də Azərbaycan prezidenti İlham Əliyev Suraxanı Rayon İcra Hakimiyyətinin yeni inzibati binası ilə tanış oldu. Prezidentə məlumat verildi ki, binanın ümumi sahəsi 4186 kvadratmetrdir. Yeraltı avtomobil dayanacağı olan binanın birinci mərtəbəsində vestibül, qəbul otağı, 70 yerlik yeməkxana, qarderob və 320 yerlik akt zalı yerləşir. Akt zalı ayrıca tikilərək keçid vasitəsilə əsas korpusa birləşir. İkinci, üçüncü və dördüncü mərtəbələrdə işçi və xidməti otaqlar, qəbul otaqları və konfrans zalı vardır. Kompleksdə işıqlandırma, su təchizatı, havalandırma, rabitə, videomüşahidə, təhlükəsizlik, kompyuter, televiziya sistemləri qurulmuşdur. Prezident İlham Əliyev akt zalı, konfrans salonu, iş otaqları ilə tanış oldu, dördüncü mərtəbədəki açıq eyvandan Heydər Əliyev parkını seyr etdi.*

*Dövlətimizin başçısı yaradılmış şəraitdən, habelə ərazidə aparılmış yenidənqurma və abadlıq işlərindən razılığını bildirdi, tövsiyələrini verdi.*

**Nərimanov rayonundakı Psixonevroloji Uşaq Evinin yenidənqurmadan sonra açılışı mərasimi**

*Mayın 4-də Bakının Nərimanov rayonundakı Psixonevroloji Uşaq Evinin yenidənqurmadan sonra açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Dövlət başçısı və xanımı öncə uşaq evinin əvvəlki vəziyyəti və tikinti işlərini əks etdirən fotoşəkillərə baxdılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva uşaq evinin açılışını bildirən lenti kəsdilər və bina ilə yaxından tanış oldular.*

*Bildirildi ki, respublikamızda analoqu olmayan Psixonevroloji Uşaq Evinin əvvəlki binası müasir tələblərə cavab vermirdi. Təxminən 1000 kvadratmetr sahədən, ikimərtəbəli binadan ibarət olan müəssisədəki şərait uşaqların təlim-tərbiyəsi üçün uyğun deyildi. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəfələrlə bu müəssisədə olması, tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanması, mövcud problemlərin həllinə dair tapşırıqlar verməsi Psixonevroloji Uşaq Evinin yeni, müasir standartlara uyğun bina ilə təmin edilməsinə şərait yaratmışdı. Keçən ilin may ayında yeni binanın layihəsi təsdiq olunmuş və tikinti işlərinə başlanılmışdır. Artıq bir ilin tamamında 4800 kvadratmetr sahəsi olan beşmərtəbəli yeni bina istifadəyə verilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan binada tikinti işlərini «İlandağ» şirkəti həyata keçirmişdir. Gələcəkdə Daun Mərkəzinin tikintisi də planlaşdırılır.*

*Mərkəzin eskiz layihəsi dövlət başçısına təqdim olundu. Bildirildi ki, binanın inşasında xarici ölkələrdən gətirilmiş tikinti materialları və avadanlıqlardan istifadə olunmuşdur. Milli memarlıq üslubunda inşa olunan binanın həyatində də yenidənqurma işləri aparılmış, uşaqların və işçilərin istirahəti üçün hər cür şərait yaradılmış, fəvvarə kompleksi tikilmiş, 2 min kvadratmetr ərazidə yaşıllıq salınmışdır.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin portreti və onun müxtəlif tədbirlərdə uşaqlarla birgə fotoşəkillərindən ibarət stend quraşdırılmışdır. Dövlət başçısı İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqlarla birgə fotoşəkilləri də vardır.*

*Uşaq evinin birinci mərtəbəsində psixoloq, aromaterapiya, okulist, psixonevroloq, kiçik manipulyasiya, nevropatoloq-loqoped, pediatr, lor, ultrasəs müayinəsi, fizioterapiya otaqları və qəbul şöbəsi yerləşir.*

*Fizioterapiya müalicə-idman zalının döşəməsinə yüksək texnologiya əsasında hazırlanmış örtük çəkilmişdir. Burada basketbol lövhələri, futbol qapıları, evcik oyun dəsti, elektrokarlar, velosipedlər, sürüşkən və gimnastik elementlər quraşdırılmış, kitabxanada müxtəlif nağılların diskləri, nəfis tərtibatlı kitablar vardır. Autist xəstəlikləri olanlar üçün nəzərdə tutulmuş otaqda rəngarəng yumşaq oyuncaqlar qoyulmuşdur. 80 nəfərlik akt zalında müasir oturacaqlar və projektor quraşdırılmışdır.*

*İkinci mərtəbədə funksional qüsurlu uşaqlar üçün aksessuarlar yerləşdirilmiş, terapiya zalında hər cür şərait yaradılmışdır.*

*Üçüncü mərtəbədə isə funksional qüsurlu nisbətən böyük uşaqlar üçün hamam otağı yaradılmış, fəal terapiya zalında uşaqların məşğələləri üçün hər cür şərait vardır, yerimə qabiliyyətinin bərpası ilə əlaqədar xüsusi qurğular yerləşdirilmişdir.*

*Sonda Mehriban xanım Əliyeva Heydər Əliyev Fondu adından Psixonevroloji Uşaq Evinə avtobus hədiyyə etdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum, qardaşım!

Mardin əyalətində baş vermiş faciəli hadisə nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə sarsıldım.

Bu ağır anlarda Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 may 2009-cu il*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün Norveç xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 may 2009-cu il*

## ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM MERİ UORLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ABŞ Müdafiə nazirinin Avropa və NATO siyasəti məsələləri üzrə müşaviri xanım Meri Uorlikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Meri Uorlik Azərbaycan Dövlət Neft Akademiyasında çoxsaylı insanların həlak olması ilə nəticələnmiş faciəli hadisə ilə əlaqədar ABŞ prezidenti Barak Obamanın başsağlığını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmasının 15 illiyi münasibətilə Bakıda keçirilən «NATO–Azərbaycan: keçmişi qiymətləndirərək gələcəyə baxış» mövzusuna həsr olunmuş beynəlxalq konfransda iştirak etmək üçün səfər etdiyini dedi. Xanım Meri Uorlik İraqda və Əfqanıstanda aparılan sülhməramlı əməliyyatlara Azərbaycanın verdiyi töhfəyə görə ABŞ-ın minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı ABŞ prezidentinin başsağlığına görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan–NATO əməkdaşlığına toxunan dövlətimizin başçısı bu əlaqələrin genişlənməsindən məmnunluğunu bildirdi.*

## BAKI TENNİS AKADEMİYASININ AÇILIŞI MƏRASİMİ

*5 may 2009-cu il*

*Mayın 5-də Bakı Tennis Akademiyasının açılışı mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev və xanımı mərasimdə iştirak etmək üçün xarici ölkələrdən gəlmiş qonaqlarla və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.*

*Azərbaycan Tennis Akademiyasının prezidenti, Milli Məclisin sədri Oqtay Əsədov mərasimdə iştirak edən Rusiya Tennis Federasiyasının prezidenti Şamil Tarpişevi, gürcüstanlı məşhur tennisçi Leyla Mesxini və Xorvatiyadan olan nümayəndələri dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev Bakı Tennis Akademiyasının açılışını bildirən lenti kəsdi.*

*Sonra yeniyetmə tennisçilərin nümunəvi çıxışları təqdim olundu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, mayın 5-dən 10-dək bu kompleksdə yeniyetmələr arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 86 illiyinə həsr olunan tennis turniri keçiriləcək. Belə bir kompleksin tikilməsi və yarışın keçirilməsi göstərir ki, Azərbaycanda idmanın bu növünə də böyük maraq vardır.*

*Bildirildi ki, ilk dəfədir Azərbaycan paytaxtında Tennis Akademiyası inşa olunur. 2008-ci ilin martında Bakının 8-ci mikrorayonunda tikintisinə başlanılmış akademiyanın ərazisi 2,7 hektardır. Mərkəzi kort da daxil olmaqla, kompleksin*

*4070 kvadratmetrlik sahəsində idmanın bu növü ilə məşğul olmaq üçün hər cür şərait yaradılmışdır. Avadanlıqları İtaliyadan gətirilmiş iritutumlu su anbarı, nasos stansiyası, elektrik idarəetmə otağı və transformator yarımstansiyası tikilmişdir. Bu qurğular akademiyanın su və elektrik enerjisi ilə etibarlı təmin olunmasına imkan verəcəkdir.*

*Dövlətimizin başçısı qapalı məşq kortlarına baxdı, burada yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, Bakı Tennis Akademiyasının müasir tələblərə cavab verməsini təmin etmək məqsədi ilə kortların tikintisi, qurğu və avadanlığın quraşdırılması zamanı yerli və xarici mütəxəssislərin gücündən istifadə olunmuşdur. Bu işdə Avropada yaxşı tanınmış, acıq və qapalı kortların, idman meydançaları və komplekslərin tikintisində xüsusi təcrübəsi olan Xorvatiyanın «Concept-90» şirkətinin son texnologiyalar əsasında istehsal etdiyi örtüklərdən istifadə edilmişdir.*

*Burada gənclər peşəkar mütəxəssislərin köməyi ilə tennisin sirlərinə yiyələnəcəklər. Akademiyada xaricdən dəvət olunmuş məşqçilər dərs keçəcəklər. Uzunluğu 126 metr, eni 36 metr olan və 407 tamaşaçı tutan qapalı zalda beynəlxalq standartlara cavab verən şərait yaradılmışdır. Kortların hər birinin sahəsi beynəlxalq standartlara uyğun olaraq 670 kvadratmetrə bərabərdir. İlin bütün fəsillərində burada yerli və beynəlxalq yarışların və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılmışdır.*

*Dövlətimizin başçısı burada yeniyetmə tennisçilərin oyununu izlədi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin ərazisindəki kafedə yaradılan şəraitlə də tanış oldular və Bakı Tennis Akademiyasının maketinə və baş planına baxdılar. Bildirildi ki, gələcəkdə akademiyanın ərazisi daha da genişləndiriləcək, burada yeni binalar inşa olunacaqdır. Akademiyanın gələcək görüntülərindən ibarət videoçarxın nümayişi oldu. Bildirildi ki, beynəlxalq standartlara cavab verən və Avropada ən müasir komplekslərdən olan Bakı*

*Tennis Akademiyasının ərazisində idman hovuzu və məşq zalı bu ilin sentyabrında istifadəyə veriləcək. Yaxın gələcəkdə isə yeddimərtəbəli, dörddulduzlu mehmanxana və ümumi sahəsi 2510 kvadratmetr olacaq 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa ediləcəkdir. Stadionda tennis ilə yanaşı, voleybol, mini futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçiriləcəkdir.*

*Bakı Tennis Akademiyası ilə tanışlıqdan sonra dövlətimizin başçısı tikintidə iştirak edən inşaatçılarla görüşdü.*

*İnşaatçıları təbrik edən prezident İlham Əliyev dedi*:

– Çox gözəl obyekt tikmisiniz. Ən yüksək standartlara cavab verir. Həm idman üçün, həm insanların sağlamlığı, dincəlməsi üçün bütün şərait var. Çox şadam ki, bu gözəl işləri yerli şirkət görüb. Bu onu göstərir ki, Azərbaycanda müasir, güclü sənaye və tikinti potensialı var. Əvvəllər belə işlərlə xarici şirkətlər daha çox məşğul idi. İndi həm yerli şirkətlər gözəl memarlıq əsərləri yaradır, həm də insanlarımız işlə təmin olunurlar. Buna görə sizə minnətdaram. Çox yaxşı işləmisiniz. Hazırlaşın, növbəti obyektlərin tikintisində fəal iştirak etmək üçün imkanlarımız var. Bir daha təbrik edirəm.

*Dövlətimizin başçısı Bakı Tennis Akademiyasında yaradılmış şəraitdən, habelə ərazidə aparılmış yenidənqurma və abadlıq işlərindən razılığını bildirdi, tövsiyələrini verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRİ

*6 may 2009-cu il*

*Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çexiya Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Çexiya Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Praqa şəhərinin «Ruzine» hava limanında Çexiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUSUN GÖRÜŞÜ

*Praqa*

*6 may 2009-cu il*

*Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çexiya Respublikasının Prezidenti Vatslav Klaus ilə görüşmüşdür.*

*Prezident sarayının qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Çexiya prezidenti Vatslav Klaus Azərbaycan prezidenti İlham Əliyevi səmimiyyətlə qarşıladı.*

*Ölkələrimizin siyasi əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan Çexiya prezidenti bu görüşün ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivi barədə fikir mübadiləsi aparılmasına yaxşı imkanlar yaratdığını qeyd etdi.*

*Çexiyanın Azərbaycanda səfirliyini açmağı planlaşdırdığını diqqətə çatdıran Vatslav Klaus bildirdi ki, bu, əlaqələrin genişləndirilməsinə kömək edəcəkdir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin son illərdə uğurla inkişaf etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı ölkəmizdə gedən iqtisadi inkişaf prosesi haqqında danışdı.*

*Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin uğurla inkişaf etdiyini və genişləndiyini bildirdi, Ermənistanın Azərbaycana davam edən təcavüzü barədə ətraflı məlumat verən prezident İlham Əliyev bunun regionda sülhə və sabitliyə ciddi maneə olduğunu dedi.*

*Dövlət başçıları ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə etdilər.*

## İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞ

*Praqa*

*6 may 2009-cu il*

*Çexiyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Praqada İsrail Dövləti Baş nazirinin müavini və Xarici İşlər naziri Aviqdor Liberman ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq əlaqələri müzakirə edildi, beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ

*Praqa*

*7 may 2009-cu il*

*Mayın 7-də Praqada Avropa İttifaqının «Şərq tərəfdaşlığı» sammiti keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.*

*Avropa İttifaqı ölkələrinin, eləcə də «Şərq tərəfdaşlığı» təşəbbüsünün üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirak etdiyi sammiti giriş sözü ilə hazırda Avropa İttifaqına sədrlik edən Çexiyanın Baş naziri Mirek Topolanek açaraq qonaqları salamladı.*

*Azərbaycan prezidenti İlham Əliyev sammitdə çıxış etdi.*

*«Şərq tərəfdaşlığı» sammitinin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu proqramın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da yaxınlaşmasına və genişlənməsinə təkan verəcəyini dedi.*

*Ölkəmizin siyasi, iqtisadi və digər sahələrdə inkişafını qeyd edən dövlətimizin başçısı dedi ki, bu islahatlar Azərbaycanın Avropa ailəsinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Prezident İlham Əliyev ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynadığını diqqətə çatdırdı. Dövlətimizin başçısı dedi ki, Azərbaycan Avropa İttifaqı ilə qeyri-enerji sahələrində əlaqələrinin daha da genişləndirilməsində maraqlıdır.*

*Prezident İlham Əliyev Ermənistanın Azərbaycana davam edən təcavüzü barədə də məlumat verdi.*

*Sammitdə Avropa İttifaqının «Şərq tərəfdaşlığı» proqramı qəbul edildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Praqa*

*7 may 2009-cu il*

*Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Türkiyə ilə Ermənistan arasında aparılan danışıqlar və enerji məsələləri ilə bağlı müzakirələr aparıldı.*

## ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ SERJ SARKİSYAN İLƏ GÖRÜŞ

*Praqa*

*7 may 2009-cu il*

*Mayın 7-də Praqada, ABŞ səfirliyinin iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Hər iki ölkənin xarici işlər nazirlərinin və ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirak etdikləri görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## FRANSANIN BAŞ NAZİRİ FRANSUA FİYON İLƏ GÖRÜŞ

*Praqa*

*7 may 2009-cu il*

*Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın Baş naziri Fransua Fiyon ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə olundu, ölkələrimiz arasında ikitərəfli münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, regional və digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ DEVİD MİLİBEND İLƏ GÖRÜŞ

*Praqa*

*7 may 2009-cu il*

*Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın Xarici İşlər nazi-ri Devid Milibend ilə görüşmüşdür.*

*Görüşdə Devid Milibend Böyük Britaniya Baş nazirinin salamını Azərbaycan prezidentinə çatdırdı, ölkələrimiz arasında ikitərəfli əlaqələrin, o cümlədən siyasi, iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.*

*Devid Milibend Böyük Britaniya Baş nazirinin Azər-baycan prezidenti İlham Əliyevi bu ölkəyə səfərə dəvətini çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar, regional, beynəlxalq və enerji məsələləri barədə fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Böyük Britaniya Baş nazirinin dəvətinə görə minnətdarlığını bildirdi, onun da salamını Baş nazirə çatdırmağı xahiş etdi və səfərə dəvəti qəbul etdiyini vurğuladı.*

## NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ YAN PETER BALKENENDE İLƏ GÖRÜŞ

*Praqa*

*7 may 2009-cu il*

*Mayın 7-də Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Niderland Krallığının Baş naziri Yan Peter Balkenende ilə görüşmüşdür.*

*Görüşdə Baş nazir Yan Peter Balkenende Azərbaycanın çox əlverişli geosiyasi məkanda yerləşdiyini və iqtisadi əməkdaşlıq üçün böyük potensiala malik olduğunu vurğuladı. O, Niderland şirkətlərinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi.*

*Azərbaycanın da Niderland Krallığı ilə ikitərəfli əlaqələri genişləndirmək istədiyini qeyd edən prezident İlham Əliyev dedi ki, ölkəmiz bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin inkişafında maraqlıdır.*

*Dövlətimizin başçısı Azərbaycanda iqtisadi fəaliyyətə başlamaq istəyən Niderland şirkətlərinə dövlət tərəfindən lazımi dəstəyin veriləcəyini bildirdi.*

*Sonra görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## «CƏNUB DƏHLİZİ – YENİ İPƏK YOLU» SAMMİTİNDƏ

*Praqa*

*8 may 2009-cu il*

*Mayın 8-də Praqada «Cənub dəhlizi – Yeni İpək yolu» sammiti keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Avropa Komissiyasının sədri Joze Manuel Barrozu, Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Havyer Solana, Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Piyebalqs, ABŞ-ın, Ukraynanın və digər ölkələrin beynəlxalq iqtisadi və maliyyə qurumlarının nümayəndələri sammitdə iştirak etmişlər.*

*Hazırda Avropa İttifaqına sədrlik edən Çexiyanın Baş naziri Mirek Topolanek Azərbaycan prezidenti İlham Əliyevi və sammitdə iştirak edən digər dövlət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı. M.Topolanek enerji məsələlərinin hazırda ən aktual problemlərdən biri olduğunu vurğulayan Çexiyanın Baş naziri, bu baxımdan «Cənub dəhlizi – Yeni İpək yolu» sammitinin əhəmiyyətini xüsusi qeyd etdi, ümidvar olduğunu bildirdi ki, tədbirin nəticələri səmərəli olacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev sammitdə çıxış etdi.*

*Dövlətimizin başçısı ölkəmizin böyük enerji potensialı, zəngin neft-qaz yataqları, geniş ixracat imkanları barədə danışdı, keçən əsrin 90-cı illərinin ortalarında Azərbaycanın*

*təşəbbüsü və iştirakı ilə qlobal enerji layihələrinin, neft boru kəmərlərinin, sonra isə qaz kəmərlərinin inşasının uzaqgörən bir strategiya olduğunu bildirdi.*

*Prezident İlham Əliyev dedi ki, bu layihələr hazırda enerji sahəsində regional və beynəlxalq səviyyədə geniş əməkdaşlıq üçün böyük imkanlar yaradır.*

*Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolundan danışan dövlətimizin başçısı dedi ki, bu rol getdikcə artır, ölkəmiz özünün neft və qazının nəqlində çoxşaxəliliyə böyük diqqət yetirir. Azərbaycandan müxtəlif istiqamətlərə neft-qaz kəmərlərinin fəaliyyət göstərməsi çoxşaxəliliyin təmin olunmasına töhfədir.*

*Azərbaycan prezidenti sabitliyin, siyasi dəstəyin, iqtisadi imkanların, maliyyə əsaslarının mövcudluğunun və digər amillərin enerji sahəsində əməkdaşlıq üçün əsas olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev «Cənub dəhlizi – Yeni İpək yolu» sammitinin əhəmiyyətini qeyd etdi.*

## ABŞ-ın AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞ

*8 may 2009-cu il*

*Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Praqada ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.*

*Görüşdə keçirilmiş «Cənub dəhlizi – Yeni İpək yolu» sammitinin əhəmiyyəti qeyd olundu.*

*Bildirildi ki, Azərbaycan ilə ABŞ arasında energetika sahəsində həyata keçirilən uğurlu əməkdaşlıq regional səviyyədə də enerji əməkdaşlığının genişlənməsinə xidmət edir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

### Səfər başa çatdı

*Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çexiya Respublikasına işgüzar səfəri başa çatmışdır.*

*Praqa şəhərinin «Ruzine» hava limanında prezident İlham Əliyevi Çexiya Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## 9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİM

*9 may 2009-cu il*

*İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 64-cü ildönümü münasibətilə mayın 9-da ölkəmizin paytaxtında təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Azərbaycan xalqı faşizm üzərində tarixi qələbəyə sanballı töhfə vermişdir. Bu qələbənin əldə olunmasında, SSRİ-nin bu müharibədə qazandığı tarixi qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 600 min oğul və qızını cəbhəyə yola salmışdı. Onların təxminən yarısı döyüşlərdə həlak olmuşdur. Müharibə zamanı göstərdikləri igidliyə görə ölkəmizin 130-dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmiş. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşmuşlar.*

*Böyük Qələbəyə Bakı neftinin töhfəsi əvəzsiz olmuşdur. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə böyük diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndərin bu siyasəti prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Qələbə bayramı ərəfəsində dövlətimizin başçısının sərəncamı ilə müharibə iştirakçılarına, onların ailələrinə*

*birdəfəlik maddi yardımın edilməsi bu qayğının bariz nümunəsidir.*

*Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, paytaxt sakinləri prezident İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi, müharibənin çətin sınaqlarından keçmiş veteranların problemləri, qayğıları ilə maraqlandı. Azərbaycan prezidenti İlham Əliyev daha sonra tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə səmimi görüşdü, Qələbə günü münasibətilə onları təbrik etdi, qəhrəmanın abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi.*

* * *

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## BAKIDA TALASSEMİYA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*9 may 2009-cu il*

*Mayın 9-da Bakının Nərimanov rayonundakı Fətəli Xan Xoyski prospektində Talassemiya Mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Dövlətimizin başçısı və xanımı Mərkəzin açılışını bildirən lenti kəsdilər.*

*Sonra Mərkəzlə tanışlıq oldu. Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, ulu öndərin anadan olmasının 86-cı ildönümü ərəfəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün istifadəyə verilən Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanlar və onların yaxınları üçün ümid yeridir.*

*Uşaqların sağlamlığının qorunması fəaliyyətinin prioritet istiqamətlərindən biri olan Heydər Əliyev Fondunun «Talassemiyasız həyat naminə» proqramı çərçivəsində inşa olunmuş Talassemiya Mərkəzinin binası zirzəmidən, beş mərtəbədən və mansard hissədən ibarətdir. Tikinti işlərinə 2006-cı ildən başlanılmışdır və layihənin ümumi dəyəri 18 milyon ABŞ dollarıdır. Türk Əməkdaşlıq və İnkişaf Agentliyi Mərkəzi 590 min dollar dəyərində avadanlıqla təchiz etmişdir.*

*Ümumi sahəsi 7 min 720 kvadratmetr olan bina tam hermetikdir, xarici divarları isti və soyuğa qarşı izolə olunmuşdur.*

*Foyedə ulu öndər Heydər Əliyevə həsr olunmuş guşə yaradılmış, altı metr uzunluğu olan akvarium quraşdırılmışdır.*

*Birinci mərtəbədə qeydiyyat şöbəsi, donor mərkəzi, həkim otağı, ultrasəs müayinəsi və köməkçi otaqlar, laboratoriya vardır. Laboratoriyada qan qrupunu avtomatik təyin edən aparat və digər lazımi avadanlıqlar quraşdırılmışdır.*

*İkinci mərtəbə poliklinikadır. Burada Baş həkimin otağı, iki hissədən ibarət transfuziya zalı, 12 otağı olan klinika, ümumi laboratoriya, manipulyasiya və şüa diaqnostikası otaqları fəaliyyət göstərəcəkdir.*

*Sahəsi 1280 kvadratmetr olan üçüncü mərtəbədə iliyin köçürülməsi üçün əməliyyat otağı, hərəsi bir nəfərlik 5 reanimasiya palatası, 2 manipulyasiya otağı, sterilləşdirmə mərkəzi, molekulyar diaqnostika laboratoriyası yerləşir. Xəstələr müasir palatalarda müalicə alacaqlar. Reanimasiya palatalarının və əməliyyat otağının yerləşdiyi hissəni laminar hava ilə təmin etmək üçün xüsusi havalandırma sistemi quraşdırılmışdır. Dördüncü mərtəbədə hər biri iki nəfərlik on üç palata, hərəsi bir nəfərlik 4 palata, uşaqlar üçün oyun otağı vardır. Beşinci mərtəbədə kafe, yeməkxana, kitabxana, internet mərkəzi, 110 nəfərlik konfrans salonu fəaliyyət göstərəcəkdir.*

*Məlumat verildi ki, yaxın gələcəkdə burada talassemiyanın radikal müalicəsi üsulunun tətbiqi də nəzərdə tutulur. Bu isə xəstənin tam sağalması deməkdir. Burada quraşdırılan avadanlıq müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır.*

*Paytaxtımızda yeni müalicə mərkəzinin istifadəyə verilməsi Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrindən biridir.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2009-cu il*

*Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 86-cı ildönümüdür. Qədirbilən Azərbaycan xalqı, dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər altıncı ildir ki, bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Mayın 10-da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, paytaxtın qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndərin məzarı önünə əklillər, təzətər güllər qoyur, əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli liderin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və gül dəstələri qoydular.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 86-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ PAYTAXTDA KEÇİRİLƏN MÖHTƏŞƏM GÜL BAYRAMI

*10 may 2009-cu il*

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü ilə əlaqədar Heydər Əliyev sarayının qarşısındakı parkda möhtəşəm gül bayramı təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızları gül bayramında olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, gül bayramında dünyanın 81 ölkəsindən gətirilmiş 1,5 milyondan çox müxtəlif güllərdən istifadə olunmuşdur.*

*Müstəqil dövlətimizin xilaskarı və qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin əzəmətli abidəsinin ətrafı gül-çiçəyə qərq edilmiş, postament güllərlə hörülmüşdü.*

*Prezident İlham Əliyev və ailə üzvləri ulu öndərin abidəsini ziyarət etdilər, gül-çiçəyə qərq edilmiş parkın gözəlliyini seyr etdilər.*

*Müxtəlif çiçəklərdən yığılan «xalça»lar və türk dünyasının böyük oğlu Heydər Əliyevin portreti orijinallığı ilə göz oxşayırdı. Yer kürəsinin maketi üzərində səkkizguşəli ulduzun içərisində qızıl güllərdən yığılmış «86» rəqəminin təsvir olunduğu kompozisiya gözəlliyi ilə diqqəti cəlb edirdi. Xarici ölkələrdən gətirilmiş və Azərbaycanda yetişdirilmiş cürbəcür çiçək və güllərdən, bitkilərdən, yarpaqlardan hazırlanan rəngarəng kompozisiyalar bayrama gələnləri heyran edirdi. Fəvvarələrin ətrafından tutmuş, hər tərəf bir-birindən gözəl,*

*bahar təravətli gül-çiçək içində idi. Bir-birini əvəz edən musiqi nömrələri bayram ovqatını daha da yüksəldirdi.*

*Prezident İlham Əliyevə və ailə üzvlərinə Hollandiyadan gətirilmiş zambaq buketləri təqdim olundu. Məlumat verildi ki, qızılı-bənövşəyi rəngli bu güllər Hollandiya Zambaqlarının Kultivasiyası üzrə Kral Assosiasiyası tərəfindən dünyada ilk dəfə olaraq ümummilli lider Heydər Əliyevin adına yetişdirilmişdir. Sertifikatın iki nüsxəsi prezident İlham Əliyevə təqdim olundu. Sertifikatlardan daha biri Zambaqların Kultivasiyası Beynəlxalq Reyestr Təşkilatına, digəri isə Hollandiya Zambaqlarının Kultivasiyası üzrə Kral Assosiasiyasına təqdim edilmişdir. Dövlətimizin başçısı yeni uğurlu növ yetişdirilməsi münasibətilə Assosiasiyanın nümayəndələrini təbrik edərək, onlara müvəffəqiyyətlər arzuladı.*

*Gül kimi bəzənmiş və bayramı daha da gözəlləşdirən uşaqlar prezident İlham Əliyevi və ailə üzvlərini özlərinə xas səmimiyyətlə salamladılar. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva uşaqlarla söhbət etdilər, xatirə şəkli çəkdirdilər.*

*Güldən hazırlanmış müxtəlif mənzərələr, orijinal lövhələrdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərinə aid fotoşəkillər böyük maraq doğurdu.*

*Dövlətimizin başçısı və ailə üzvləri ümummilli lider Heydər Əliyevin güllərdən yığılmış portreti önündə xatirə şəkli çəkdirdilər.*

## PAYTAXTIN «SAHİL» BAĞINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*10 may 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 10-da paytaxtın Səbail rayonundakı «Sahil» bağında aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva qızları Leyla və Arzu ilə birlikdə parkı gəzdilər.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bağda aparılmış əsaslı təmir və yenidənqurma işləri barədə məlumat verdi.*

*Bildirildi ki, «Sahil» bağı da dövlət başçısının paytaxtda parkların və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılmışdır. Bağda kompyuterlə idarə olunan 3 yeni fəvvarədən ibarət kompleks yaradılmışdır. Fəvvarə kompleksi italiyalı mütəxəssislər tərəfindən quraşdırılmışdır.*

*Bağın 12 min kvadratmetr ərazisinin asfalt örtüyü ləğv edilmiş, onun yerinə Braziliya, İsveç, Çin və İtaliyadan gətirilən qranit-mərmər döşənmişdir. Burada, həmçinin müxtəlif hava şəraitinə davamlı materialdan hazırlanmış oturacaqlar qoyulmuş, Hollandiyadan gətirilmiş müxtəlif ağaclar və gül kolları əkilmiş, çəmənlik salınmışdır. İşıqlandırma sistemində İtaliya istehsalı olan yüksək keyfiyyətli avadanlıqdan istifadə edilmişdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, əlavə tövsiyə və tapşırıqlarını verdi.*

## YASAMAL RAYONUNDA İZMİR PARKININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*10 may 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 10-da paytaxtın Yasamal rayonundakı İzmir parkına gələrək, bu istirahət guşəsinin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı xanımı Mehriban Əliyeva və qızları ilə birlikdə parkı gəzdi.*

*Prezident İlham Əliyevə parkda aparılmış əsaslı təmir və yenidənqurma işləri barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, sakinlərin istirahəti üçün yararsız vəziyyətdə olan park dövlətimizin başçısının Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılmışdır. Bir hektara yaxın ərazini əhatə edən parkda hündürlüyü 8 metr, diametri 14 metr, çəkisi 10 ton olan qranit daşdan və çuqundan hazırlanmış yeni müasir fəvvarə quraşdırılmışdır. 5 iş rejimi olan fəvvarə 300 lampa ilə işıqlandırılmışdır.*

*Parkın ərazisinə Hindistanda istehsal olunmuş təbii daşlar və piltələr döşənmişdir. Ərazidə Belçika və İtaliyadan gətirilmiş müxtəlif ağaclar və gül kolları əkilmiş, yaşıllıq salınmışdır. Müasir tələblər səviyyəsində qurulan parkın işıqlandırma sistemi Almaniya istehsalı olan yüksək keyfiyyətli avadanlıqdan yığılmışdır. Ərazidə 85 orijinal çıraq quraşdırılmış, 85 rahat oturacaq qoyulmuşdur.*

*Dövlətimizin başçısı parkda görülmüş əsaslı təmir və yenidənqurma işlərindən razı qalmışdır.*

## İNŞAATÇILAR PROSPEKTİNDƏKİ MÜŞFİQ PARKININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*10 may 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 10-da paytaxtın İnşaatçılar prospektindəki Müşfiq parkının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva birlikdə parkı gəzdilər.*

*Prezident İlham Əliyevə parkda aparılmış əsaslı təmir və yenidənqurma işləri barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, ərazisi 2100 kvadratmetr olan park qısa vaxt ərzində aparılmış bərpa işləri nəticəsində tamamilə yeni görkəm almışdır. XX əsr Azərbaycan poeziyasının qüdrətli simalarından biri olan Mikayıl Müşfiqin 1968-ci ildə bu parkda qoyulan abidəsi də bərpa olunmuşdur.*

*Xatırladaq ki, prezident İlham Əliyev milli ədəbiyyatımızın şeir xəzinəsinə qiymətli incilər bəxş etmiş Mikayıl Müşfiqin 100 illik yubileyinin qeyd olunması haqqında 2007-ci ildə sərəncam imzalamışdır.*

*Parkda yaraşıqlı çıraqlar, rahat oturacaqlar qoyulmuş, yerə təbii daş piltələr döşənmiş, pilləkənlər və divarlar mərmərdən işlənmiş, nikel tutacaqlar quraşdırılmışdır. Bütün ağaclar saxlanılmaqla, gül və dekorativ kollar, yeni ağaclar əkilmiş, yaxınlıqdakı yaşayış binası təmir olunmuşdur.*

*Prezident İlham Əliyev parkda aparılmış işlərdən razılığını bildirdi, şəhərdə aparılan yenidənqurma işləri ilə bağlı tövsiyələrini verdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 86-cı İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 5 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*«Buta» sarayı*

*10 may 2009-cu il*

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Bu gün bu qısa filmdə səslənən sözləri mən düz 5 il əvvəl – 2004-cü il mayın 10-da, Heydər Əliyev Fondunun təsis günündə demişəm və bu sözlər bu gün də aktualdır. Bu sözlər həm keçmiş haqqında, həm gələcək haqqındadır. Ulu öndər Heydər Əliyev haqqında çoxlu kitablar, elmi əsərlər yazılıb, çoxlu fikirlər səslənib. Bir şeyi əlavə edə bilərəm ki, Heydər Əliyev bütün dövrlərdə bütün sınaqlardan şərəflə çıxmışdır. Bütün mübarizələrdə – istər daxili, istər beynəlxalq müstəvidə, bütün dövrlərdə doğma Vətənini müdafiə etmişdir və qələbə qazanmışdır. Əgər tarixə bir daha nəzər salsaq görərik ki, Heydər Əliyevsiz dövrlər Azərbaycan üçün böyük fəlakətlərlə nəticələndi. Yaşadığımız indiki dövr Azərbaycan üçün uğurludur və bunun da tək səbəbi var. Heydər Əliyev siyasəti yaşayır, ideyaları yaşayır, qurduğu müstəqil dövlət yaşayır.

1969-cu ilə qədər Azərbaycan haqqında sovet məkanında o qədər də çox məlumat yox idi. 1970–80-ci illərin əvvəlləri Azərbaycanın intibah dovrü olmuş, ölkə sürətlə inkişaf etmişdir. 1983–93-cü illərdə, Heydər Əliyevin Azərbaycanda olmadığı dövrdə yavaş-yavaş Azərbaycan yenə tənəzzülə

uğradı və bu tənəzzül təzəcə əldə edilmiş müstəqilliyin itirilməsi ilə nəticələnirdi. Formal olaraq müstəqillik 1991-ci ildə əldə edilsə də, ölkənin gələcəyi sual altında idi. Azərbaycan müstəqil ölkə kimi yaşaya bilmirdi, müxtəlif təzyiqlərə məruz qalırdı və bu təzyiqə davam gətirə bilmirdi. Azərbaycanın dövlət quruculuğu məhz 1993-cü ildən, Heydər Əliyev siyasi rəhbərliyə qayıtdıqdan sonra başlanmışdır və 10 il ərzində Azərbaycan yenə də postsovet məkanında ən geridə qalmış, ən problemli ölkədən ən qabaqcıl ölkəyə çevrilmişdir. Bugünkü həyat, Heydər Əliyevsiz keçdiyimiz bu yol onun əyani sübutudur. Əgər bu siyasət davam etdirilməsəydi, bilmək olmaz Azərbaycan hansı fəlakətlərlə üzləşə bilərdi, hansı vəziyyətə düşə bilərdi.

1993–2003-cü illərdə qoyulmuş möhkəm təməl, başlanmış islahatlar, irəli sürülmüş təşəbbüslər bugünkü reallığı mümkün edibdir. Məhz o illərdə iqtisadi sahədə, energetika sahəsində böyük addımlar atılmış, neft strategiyasına başlanılmışdır. Bugünkü uğurlara görə biz ulu öndərə borcluyuq. Onun uzaqgörənliyi, cəsarəti, fədakarlığı bugünkü günü mümkün etmişdir və biz – onun davamçıları onun siyasətini bundan sonra da davam etdirəcək, Azərbaycanı bundan sonra da onun yolu ilə irəliyə aparacağıq. Azərbaycan dövləti öz milli və dini ənənələrinə sadiq müasir, dünyəvi dövlətdir. Azərbaycanın müasirləşməsi, modernləşməsi işində bundan sonra da çalışacaq, ölkəmizi inkişaf etmiş ölkələrin sırasına daxil edəcəyik. Bu potensial var – həm insani potensial, həm siyasi iradə, həm iqtisadi potensial. Azərbaycanın qarşısında bütün yollar açıqdır, biz inkişaf yolu ilə gedirik. Bu inkişaf yolunu Heydər Əliyev bizə göstərmişdir və onun Azərbaycan xalqına və onun davamçılarına ən böyük vəsiyyəti də ondan ibarət idi ki, Azərbaycanı qoruyun, müstəqilliyini möhkəmləndirin, daxili potensialından səmərəli istifadə edin.

Bu gün ölkədə gedən proseslər, bölgədəki mövqelərimiz, dünya proseslərinə təsir imkanlarımızın genişlənməsi bir

məqsədi güdür – Azərbaycan dövləti daha da möhkəmlənsin, daha da yaxşı, təhlükəsizlik, sülh şəraitində, rifah içində yaşasın.

Mən çox şadam və çox böyük qürur hissi keçirirəm ki, biz – Heydər Əliyevin davamçıları ölkəmizi onun istədiyi kimi idarə edirik. Heydər Əliyev kimi, siyasətimizi xalqın inamına arxalanaraq aparırıq. Bu hər bir ölkənin uğurlu inkişafı üçün başlıca şərtdir. Çünki ən başlıca şərt xalqla iqtidar arasında olan birlikdir, cəmiyyətin ümumi bir ideya – milli ideya ətrafında birləşməsi və vətəndaş həmrəyliyidir. Bu ideyanı – azərbaycançılıq ideologiyasını da bizə Heydər Əliyev əmanət edib. Bu bizim dövlətimizin əsas ideoloji sütunudur. Biz bu möhkəm zəmin üzərində müasir dövlət qururuq. O dövləti ki, dünyada özünəlayiq yerini tuta bildi, öz hesabına yaşayır, müstəqil həyat sürür və dövlət müstəqilliyini hər şeydən üstün tutur.

Bu gün biz iki gözəl hadisəni – Heydər Əliyevin doğum gününü və onun adını daşıyan fondun 5 illik yubileyini qeyd edirik. Heydər Əliyev Fondu 5 ildə, sözün əsl mənasında, ümumxalq fondu olmuşdur. Fondun xətti ilə görülən işlər, tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. Təhsil, səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsində, olduğu kimi təqdimatında, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılmasında Heydər Əliyev Fondunun rolunu çox yüksək qiymətləndirirəm. Fond sübut etdi ki, əgər istək, iradə və xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Fondun çoxşaxəli fəaliyyətini bir sözlə xarakterizə etmək mümkündürsə, mən «Xoş niyyət» deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük.

Statistik rəqəmləri gətirmək istəmirəm, bunlar hamısı tarixdə var. Nə qədər insana şəfa verildi, nə qədər uşaq qayğı gördü, nə qədər kimsəsiz uşağa əl uzadıldı. Yeni

tikilmiş uşaq evlərində yaşayan uşaqlar artıq gələcəyə inanır, öz doğma Vətənində yaşamaqdan qürur hissi keçirirlər. Fondun təşəbbüsü ilə geniş məktəb tikintisi başlanmışdır. Heydər Əliyev Fondu mədəniyyət sahəsində və digər sahələrdə, ölkə həyatında önəmli bir amilə çevrilibdir və əminəm ki, bundan sonrakı fəaliyyətində də ümumbəşəri prinsipləri irəliyə aparacaqdır.

Heydər Əliyev Fondu milli fonddur, çünki bütün təşəbbüsləri milli ruha əsaslanır. Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, dünyada təqdim edilməsi fondun üzərinə düşübdür. Fond və rəhbərliyi bu işləri öz təşəbbüsü ilə görür. Mən fondun fəaliyyətini təqdir edirəm. Heç şübhə etmirəm ki, bundan sonra da Azərbaycanın gələcək inkişafında fondun rolu böyük olacaqdır.

Əziz dostlar, bu gözəl gündə mən sizin hamınızı yeni tikilmiş bu gözəl «Buta» sarayında salamlayıram. Bu gün ulu öndər Heydər Əliyevin xatirəsini yad etdik. Mən bu gün bu kürsüdən Azərbaycan xalqına dərin hörmət və məhəbbətimi ifadə edirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik və cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Sonra Heydər Əliyev mükafatının təqdimetmə mərasimi oldu.*

*Qeyd edək ki, 2004-cü ildə təsis edilmiş Heydər Əliyev mükafatı ilk dəfə təqdim olunurdu. Heydər Əliyev mükafatı komissiyası öz iclaslarında ölkənin ən yüksək mükafatına layiq görülən şəxsiyyətlərin yaradıcılıq yolunu və fəaliyyətini araşdırmışdır. Komissiya 2009-cu il 5 may tarixli iclasında öz qərarı ilə Azərbaycan Respublikasının Prezidentinə sərəncam vermək üçün 3 namizəd təqdim etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan təsviri sənətinin inkişafındakı xüsusi xidmətlərinə görə heykəltəraş, Xalq rəssamı Ömər Eldarova Heydər Əliyev mükafatını təqdim etdi.*

*Ömər Eldarov təşəkkür edərək dedi:*

Əziz dostlar! Mən xoşbəxtəm desəm heç nə deməmək kimi olar. Çox həyəcanlıyam, ona görə də danışığım səlis olmayacaq. Respublikamızda mövcud olan ən böyük mükafatı almaq mənim üçün çox böyük fərəhdir. Bu mükafat dövlətimizin banisi Heydər Əliyevin adını daşıyır. Heydər Əliyev bu gün çiçəklənən dövlətin bütün əsaslarını uzun illər boyu yaratmışdır.

Çox sağ olun, İlham Heydər oğlu!

*Dövlətimizin başçısı ölkəmizin musiqi mədəniyyətinin inkişafındakı xüsusi xidmətlərinə görə bəstəkar, Xalq artisti Arif Məlikova Heydər Əliyev mükafatını təqdim etdi.*

*Arif Məlikov dedi:*

– Azərbaycan prezidentinə, onun xanımına dərin təşəkkürümü bildirir və bu gün xatirəsini böyük ehtiramla yad etdiyimiz dahi şəxsiyyətin qarşısında baş əyirəm. Bu nişanı həmişə fəxrlə döşümdə daşıyacağam. Mən Heydər Əliyevlə uzun illər ünsiyyətdə olmuşam və bu ünsiyyətin nəticəsində borc bildim ki, bir neçə il üzərində işlədiyim səkkizinci simfoniyanı ona həsr edim. Bu yaxınlarda Prezidentin sərəncamı ilə mənim yubiley günlərimi keçirəndə ilk gecədə səkkizinci simfoniya səsləndi. Yeddinci simfoniya İhsan Doğramacıya həsr olunmuşdu. İki simfoniya birlikdə səsləndi. Mən bununla fəxr edirəm. Səkkizinci simfoniya CD və DVD formatında buraxılıb. Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun.

*Prezident İlham Əliyev Heydər Əliyev mükafatını Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təqdim etdi.*

*Mehriban xanım Əliyeva dedi:*

– İlk növbədə, cənab Prezident, Sizə və mənim fəaliyyətimə yüksək qiymət verən bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Vətənimizə ləyaqətlə xidmət etmək hər birimizin borcudur. Heydər Əliyev mükafatı ilə təltif olunmaq mənim üçün ən böyük şərəfdir. Mənə inanan, kömək edən, məni dəstəkləyən bütün insanlara bir daha öz dərin təşəkkürümü bildirirəm. Mənim üçün tükənməz güc mənbəyi olan ailəmə – atama, uşaqlarıma və həyat yoldaşıma hədsiz məhəbbətimi və dərin hörmətimi bildirirəm. Sonda mənə verilən pul mükafatını Silahlı Qüvvələrə Yardım Fonduna keçirməyimi elan edirəm. Təşəkkür edirəm, çox sağ olun.

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB ZUMAYA**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Cənubi Afrika Respublikası xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2009-cu il*

## ABŞ-ın XARİCİ ƏLAQƏLƏR ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ABŞ-ın Xarici Əlaqələr Şurasının üzvlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ABŞ nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq, ölkəmiz haqqında əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə olduğu kimi çatdırmaq və ikitərəfli əməkdaşlığımıza töhfə vermək baxımından əhəmiyyətini vurğuladı.*

*Görüşdə dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, regionda gedən proseslər və digər məsələlərlə bağlı qonaqları maraqlandıran suallara cavab verdi.*

## SLOVAKİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, ƏDLİYYƏ NAZİRİ ŞTEFAN HARABİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Slovakiyanın Baş nazirinin müavini, Ədliyyə naziri Ştefan Harabini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında uğurla inkişaf edən əməkdaşlıq çərçivəsində ədliyyə sistemlərinin əlaqələrinin inkişaf etdirilməsi üçün geniş hüquqi bazanın mövcud olduğu vurğulandı.*

## TÜRKİYƏNİN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ HASAN GERÇƏKƏR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Türkiyənin Ali Məhkəməsinin sədri Hasan Gerçəkəri qəbul etmişdir.*

*Türkiyənin Ali Məhkəməsinin sədri Hasan Gerçəkər qeyd etdi ki, dost və qardaş ölkələr olan Azərbaycan ilə Türkiyə arasında əlaqələr bütün sahələrdə, o cümlədən məhkəmə sistemi sahəsində də uğurla inkişaf edir. O, Azərbaycan Ali Məhkəməsinin yeni binasının açılış mərasimində iştirakından məmnunluğunu bildirdi.*

*Azərbaycan Ali Məhkəməsinin yeni binasının açılışını əlamətdar hadisə kimi dəyərləndirən dövlətimizin başçısı ölkəmizdə demokratik və hüquqi islahatların uğurla həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev yeni binanın istifadəyə verilməsini ölkəmizdə məhkəmə sisteminin daha da təkmilləşdirilməsi işinə xidmət edəcəyini bildirdi.*

## «TELİASONERA» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU LARS NYUBERQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də «TeliaSonera» şirkətinin prezidenti və baş icraçı direktoru Lars Nyuberqi qəbul etmişdir.*

*«TeliaSonera» şirkətinin prezidenti və baş icraçı direktoru Lars Nyuberq sonuncu dəfə ölkəmizdə ötən il səfərdə olduğunu və dünyadakı maliyyə böhranına baxmayaraq, Azərbaycanda sürətli tikinti və quruculuq işlərinin getdiyini məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı dünyadakı maliyyə böhranının Azərbaycan iqtisadiyyatına o qədər də təsir göstərmədiyini, ölkədə iqtisadi inkişaf proseslərinin davam etdiyini dedi. Hazırkı dövrdə qeyri-neft sektorunda ÜDM-in 14 faiz artdığını qeyd edən prezident İlham Əliyev bu göstəricilərin getdikcə artacağını bildirdi. İnformasiya, kommunikasiya və texnologiyalar sektorunun Azərbaycanda prioritet sahələrdən biri olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizdə bu istiqamətdə də böyük işlərin görüldüyünü qeyd etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*12 may 2009-cu il*

*Mayın 12-də Azərbaycan Respublikası Ali Məhkəməsi üçün inşa edilmiş yeni inzibati binanın təntənəli açılışı mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasimə toplaşan dövlət və hökumət rəsmiləri, xarici qonaqlar, diplomatik korpusun və hüquq mühafizə orqanlarının nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi.*

*Mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş Slovakiya Baş nazirinin müavini – Ədliyyə naziri Ştefan Harabi, Türkiyənin Ali Məhkəməsinin sədri Hasan Gerçəkər və Gürcüstanın Ali Məhkəməsinin sədri Konstantin Kublaşvili prezident İlham Əliyevə təqdim edildi.*

*Binanın birinci mərtəbəsində ümummilli lider, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin ağ qranitdən abidəsi ucaldılmışdır. Prezident İlham Əliyev və mərasimdə iştirak edən qonaqlar abidəni ziyarət etdilər.*

*Dövlət başçısına məlumat verildi ki, paytaxtın Xətai rayonu ərazisində 2006-cı ildə prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Ali Məhkəmənin yeni binası üçün klassik-eklektika üslubu seçilmiş, milli daş memarlığının elementləri, eləcə də dövlət atributları nəzərə alınmışdır. Müəllifi gənc memar Vüqar Həsənov olan bina memarlıq həlli baxımından mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmiş və Azərbaycan Memarlar İttifaqının «Müstəqillik dövrünün ən yaxşı*

*layihəsi» nominasiyası üzrə ikinci mükafata layiq görülmüşdür.*

*Tikinti işlərinin aparılması üçün 1,4 hektar torpaq sahəsi ayrılmışdır. Hündürlüyü 29 metr olan binanın ümumi tikinti sahəsi 22916,36 kvadratmetr, ümumi yararlı sahəsi isə 14388,92 kvadratmetrdir.*

*İnşaat işlərini «Xəzər» Gənclərin Elmi-Texniki Yaradıcılıq Mərkəzinin həyata keçirdiyi binada mərkəzləşdirilmiş havalandırma sistemləri, 5 lift quraşdırılmışdır. Liftlərin 4-ü xidməti, 1-i isə mühakimə olunanlar üçün nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev iclas zallarında yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, Almaniyanın «Bosch» firmasının avadanlığı quraşdırılmış zallarda ən müasir avtomatlaşdırılmış şəbəkə yaradılmışdır. Bu texnologiyaların tətbiqi, audio və video təchizat mühakimə olunanların iclas zalına gətirilmədən, izolyatordan birbaşa dindirilməsinə imkan verir. İstənilən məhkəmə prosesi onlayn rejimində kütləvi informasiya vasitələri nümayəndələrinə və aidiyyəti qurumlara təqdim edilə bilər. Prezident İlham Əliyevə binanın girişində quraşdırılmış informasiya köşkləri barədə də məlumat verildi ki, bu köşklər vasitəsilə məhkumun adını və soyadını qeyd etməklə tabloda həmin işlə bağlı bütün məlumatları əldə etmək olar.*

*Binanın digər mərtəbələri ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, 2-ci və 3-cü mərtəbələrdə sədarət və hakimlərin iş otaqları yerləşir. Otaqların arakəsməsi şüşədəndir. Kitabxana (520 kvadratmetr), muzey (400 kvadratmetr), konfrans zalı (400 kvadratmetr) və plenum zalı (285 kvadratmetr) 4-cü mərtəbədə, yeməkxana və texniki otaqlar isə sonuncu mərtəbədə yerləşmişdir.*

*Dövlətimizin başçısı muzeydə Azərbaycanın məhkəmə-hüquq sisteminin tarixi və ulu öndər Heydər Əliyevin dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış oldu.*

*Prezident İlham Əliyev binanın beşinci mərtəbəsindəki eyvandan paytaxtın panoramını seyr etdi.*

*Sonra müstəqil Azərbaycan dövlətində məhkəmə-hüquq islahatlarının tarixinə, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdikləri silsilə tədbirlərə və Ali Məhkəmənin yeni binasına həsr olunmuş «Ədalət mühakiməsi» adlı film nümayiş olundu.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı Ali Məhkəmənin yeni binasının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl bina həm şəhərimizə əlavə yaraşıq verir, həm də bu binada işləmək, fəaliyyət göstərmək üçün ən gözəl şərait yaradılıbdır. Bu binada ən yüksək standartlar tətbiq olunub, həm memarlıq baxımından, həm daxili tərtibat, dizayn baxımından dünyanın ən yüksək standartlarına cavab verən binadır.

Təxminən 3 il əvvəl burada binanın təməl daşını qoyduq. Burada əvvəllər bir zavod yerləşirdi ki, fəaliyyətini dayandırmışdı. Şəhərimizin ümumi abadlıq işlərinə göstərilən diqqətin əlaməti olaraq Ali Məhkəmənin binasının məhz bu yerdə tikilməsi nəzərdə tutulmuşdur. Çünki bura şəhərin mərkəzidir, Bakıya girişdir və son 3 ildə bu yol da genişləndirildi, binanın ətrafında yerləşən köhnə binaların siması da dəyişdirildi. Bir sözlə, indi şəhərin bu hissəsi paytaxtımızın ən gözəl yerlərindən biridir.

Mən binanın təməl daşının qoyulması mərasimində demişdim ki, Ali Məhkəmə ədalət sarayı olmalıdır. Çox vacibdir ki, burada qəbul edilmiş bütün qərarlar ədalətli olsun. Çünki ədalət hər bir cəmiyyətin inkişafı üçün başlıca amildir. Hər yerdə ədalət olmalıdır, ilk növbədə məhkəmə sistemində. Çünki burada qəbul edilmiş qərarlar insanların

taleyinə təsir göstərir. Cinayət cəzasız qalmamalı, günahsız insanlar da cəzalandırılmamalıdırlar.

Son illər Azərbaycanda məhkəmə-hüquq sistemində aparılmış köklü islahatlar öz bəhrəsini verir. İnsanların məhkəmə orqanlarının qərarlarına inamı artır. Biz bunu görürük, bilirik və yerlərdən bu məsələ ilə əlaqədar gələn şikayətlərin sayı azalır, məhkəmə qərarları ədalətli çıxarılır. Düzdür, hər bir yerdə olduğu kimi, biz ədalətsizlikləri də görürük. Bizim vəzifəmiz ondan ibarətdir ki, ədalətsizlikləri aradan qaldıraq. Ədalətli idarə hər bir cəmiyyətin inkişafı üçün çox vacibdir. Qanunun aliliyi Azərbaycanda tam şəkildə bərqərar olunmalıdır. Qəbul edilmiş qərarlar, məhkəmə – hüquq sistemində aparılmış islahatlar, yeniliklər dünyada mövcud olan ən mütərəqqi təcrübənin Azərbaycanda tətbiq edilməsi ölkəmizi gücləndirir.

Ölkənin gücü təkcə iqtisadi artımla ölçülmür, həmçinin insanların ölkədə azad şəkildə yaşamasından, demokratiyanın inkişafından, məhkəmələrin azad fəaliyyət göstərməsindən asılıdır. Azərbaycan demokratiyanın inkişafı sahəsində çox böyük və uğurlu yol keçmişdir. Ölkəmiz demokratik əsaslarla idarə olunur, xalqın iradəsinə əsaslanır. Xalqla iqtidar arasındakı birlik məhz ölkədə demokratik vəziyyətin nə qədər möhkəm olduğunu göstərir. Demokratiyanın inkişafı prosesi dünyada getməlidir, o cümlədən müstəqilliyini nisbətən təzə əldə etmiş ölkələrdə. Azərbaycan dünya birliyinə inteqrasiya yolunu seçibdir, müasirləşir, zənginləşir.

Hər hansı bir kateqoriyadan olan insanlara heç bir güzəşt edilməməlidir. Hamı qanun qarşısında bərabərdir və hamı qanun qarşısında öz məsuliyyətini dərk etməlidir. Məhz o halda cəmiyyətdə tam şəkildə ədalət bərqərar olunacaqdır.

Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olması, asayişin qorunması, hüquq mühafizə orqanlarının fəaliyyətini tənzimləyən qanunların qəbul edilməsi bir məqsəd güdür: ölkəmiz daha da möhkəmlənsin, müasirləşsin, dünyada mövcud olan ən gözəl təcrübəni Azərbaycanda tətbiq

edək, öz imkanlarımızı genişləndirək və ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı üçün möhkəm əsaslar yaradaq.

Azərbaycanda islahatların aparılması keçən əsrin 90-cı illərinin ortalarından başlanmışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həm iqtisadi islahatlar, həm siyasi islahatlar, müstəqil Azərbaycanın 1995-ci ildə Konstitusiyasının qəbul edilməsi mühüm hadisə olmuşdur. Seçki prosesinin təkmilləşməsi məsələləri böyük əhəmiyyət daşıyır. Bu istiqamətdə Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. Azərbaycanda keçirilən seçkilər beynəlxalq standartlara uyğundur və bunu bütün beynəlxalq qurumlar təsdiq edir.

Bir sözlə, ölkəmizin gələcək inkişafı üçün bizdə bütün əsaslar – güclü iqtisadiyyat, iqtisadi potensial vardır. Azərbaycan hətta ən böhranlı vaxtlarda da göstərdi ki, biz uğurla inkişaf edə bilərik. İqtisadiyyatımız böhrana baxmayaraq, dörd ayda 4,5 faiz artmışdır. Qeyri-neft iqtisadiyyatı təxminən 14 faiz artmışdır. Biz öz hesabımıza yaşayırıq və yaşayacağıq. Demokratik proseslər Azərbaycanda çox uğurla gedir. Azərbaycanda bütün azadlıqlar – söz azadlığı, vicdan azadlığı, bütün başqa azadlıqlar mövcuddur. Azərbaycanda açıq cəmiyyət, vətəndaş cəmiyyəti formalaşır, insanlar azaddır və hesab edirəm ki, bizim uğurlarımızın əsas səbəbi məhz bu amillərin sintezindədir.

Əziz dostlar, mən bu gözəl binanın – ədalət sarayının açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Məhkəmə-hüquq sistemində, hüquq mühafizə orqanlarında çalışan bütün insanlara uğurlar və xoşbəxtlik arzulayıram. Sağ olun.

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*13 may 2009-cu il*

*Mayın 13-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana işgüzar səfərə gəlmişdir.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə hökuməti başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Hörmətli qonağı Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və digər rəsmi şəxslər qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*13 may 2009-cu il*

*Mayın 13-də Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə hazırkı vəziyyəti və perspektivi, eləcə də regional və beynəlxalq məsələlər müzakirə edilmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*13 may 2009-cu il*

*Mayın 13-də Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşdən sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Baş nazir!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz!

Hörmətli cənab Baş nazir, biz indi sizinlə təkbətək görüşdə Türkiyə–Azərbaycan əlaqələrinin müxtəlif sahələrini geniş müzakirə etdik. Çox səmərəli, səmimi söhbət etdik. Həm bu vaxta qədər əldə edilmiş uğurları bir daha gözdən keçirdik və gələcək haqqında da öz fikirlərimizi bölüşdük.

Sizin səfəriniz çox önəmli səfərdir. Türkiyə–Azərbaycan əlaqələri yüksək səviyyədə inkişaf edir və əminəm ki, bu səfər əlaqələri daha da gücləndirəcək, genişləndirəcəkdir. Siz Azərbaycana böyük heyətlə gəlmisiniz və əminəm ki, nümayəndə heyətində təmsil olunan dostlarımız azərbaycanlı həmkarları ilə də ikitərəfli söhbətlər aparacaq və bütün sahələrdə daha da geniş əməkdaşlıq üçün yaxşı imkanlar yaradacaqlar.

Bir daha xoş gəlmisiniz və nümayəndə heyətinin bütün üzvlərinə öz hörmətimi bildirirəm.

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n :** Mən də çox təşəkkür edirəm. Hörmətli Prezidenti və dəyərli nümayəndə heyətini şəxsən öz adımdan və nümayəndə heyətimizin adından ən səmimi duyğularla salamlayıram.

Təbii ki, bu görüşümüzdə, xüsusilə təkbətək görüşümüzdə Türkiyə ilə Azərbaycan arasında əlaqələrimizi təkrar gözdən keçirmək fürsətini tapdıq. Bu əlaqələrimizin hər keçən gün daha irəli getdiyini yenidən dəqiqləşdirdik, təsdiq etdik. İnanıram ki, qarşıdakı müddətdə bunlar daha fərqli bir şəkildə inkişaf edəcəkdir. Regional problemləri, xüsusilə bölgədə enerji sahəsindəki məsələləri Türkiyə ilə Azərbaycan arasında dəyərləndirmək imkanımız oldu.

Əlbəttə, Türkiyə ilə Azərbaycan arasında «bir millət, iki dövlət» anlayışının gələcəyə aparılması istiqamətində bizim aramızdakı birliyimizi, bərabərliyimizi, sağdan, soldan gələ biləcək, bizə aid olmayan hər hansı bir düşüncələr poza bilməz. Bu cür fitnə-fəsad ocaqlarına heç bir zaman fürsət verməməliyik. Bu mövzudakı düşüncələrimizi paylaşmağın xoşbəxtliyi içərisində olduq.

İnanıram ki, bütün nazirlərimiz də – təbii ki, bu heyətdə yeni kabinetdə vəzifə tutan nazirlər var– azərbaycanlı həmkarları ilə qarşılıqlı fəaliyyəti daha da sürətləndirməklə bu addımları atacaqlar.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*13 may 2009-cu il*

*Mayın 13-də geniş tərkibdə görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransı keçirmişlər.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə mən Baş naziri bir daha Azərbaycanda salamlayıram, xoş gəlmisiniz! Bu gün biz sizinlə çox səmərəli işlədik, geniş fikir mübadiləsi apardıq. Həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlarda Türkiyə–Azərbaycan əlaqələrinin müxtəlif sahələri nəzərdən keçirildi, təhlil edildi. Əldə edilmiş nailiyyətlər, uğurlar haqqında danışdıq və şübhəsiz ki, gələcək əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıldı.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr həmişə olduğu kimi, çox yüksək səviyyədədir. Xalqlarımız qardaşdır və bu birlik, qardaşlıq, əlbəttə ki, ikitərəfli əlaqələrin inkişafına

xüsusi önəm verir. Biz bu gün həm ikitərəfli məsələləri geniş müzakirə etdik, həm də bölgədə mövcud olan vəziyyət nəzərdən keçirildi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli yolları müzakirə olundu və danışıqlar prosesi haqqında mən hörmətli cənab Baş nazirə öz fikirlərimi bildirdim. Regional vəziyyət, regionda baş verən hadisələr şübhəsiz ki, diqqətimizdən kənarda qalmadı. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr, enerji sektorunda əldə edilmiş nailiyyətlər və perspektivlər haqqında da səmimi söhbətimiz olmuşdur.

Türkiyə-–Azərbaycan əlaqələri çoxşaxəlidir, bu əlaqələrin çox böyük tarixi vardır.

Beynəlxalq məsələlərdə Türkiyə ilə Azərbaycan bir çox hallarda vahid mövqedən çıxış edir. Əlbəttə, eyni bölgədə yerləşdiyimizə görə istəyirik ki, bölgədə sülh mümkün qədər tez təmin olunsun, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun və beləliklə, bölgə geniş mənada əməkdaşlıq çərçivəsində inkişaf etsin.

Mən aparılan danışıqlardan və keçirdiyimiz söhbətlərdən razıyam. Hesab edirəm ki, hər zaman olduğu kimi, səmimi söhbətlər bir çox məsələyə aydınlıq gətirdi və ən önəmlisi gələcək birgə fəaliyyət və əməkdaşlıq üçün çox gözəl şərait yaratdı.

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli Cümhur başqanı!

Dəyərli mətbuat nümayəndələri!

Buraya dəvət olunmuş bütün qonaqları və dəyərli mətbuat nümayəndələrini ən səmimi duyğularımla salamlayıram.

Həqiqətən, dost və qardaş Azərbaycanda olmaqdan duyduğum məmnunluğu xüsusilə ifadə etmək istəyirəm. Bu gün dəyərli qardaşım hörmətli İlham Əliyevlə Türkiyə ilə

Azərbaycan arasındakı ikitərəfli əlaqələri ən geniş şəkildə müzakirə etmək fürsəti əldə etdik. Təbii ki, bizim tarixi birliyimiz müzakirə mövzusu deyil. Buna kölgə salmaq istəyənlərə də şübhəsiz ki, bu görüşlərimiz ən gözəl cavabı vermiş olacaqdır. Görüşümüzdə müzakirə edilən ən önəmli məsələ şübhəsiz ki, budur. Bir az sonra parlamentdə edəcəyim çıxışda bunları çox açıq şəkildə ifadə edəcəyəm.

Təbii ki, ikitərəfli əlaqələrimizin təməlində bizim «bir millət, iki dövlət» anlayışımız eynilə davam etməkdədir. Xüsusilə Azərbaycanın Dağlıq Qarabağ məsələsindəki həssaslığı, həmçinin bizim də həssaslığımızdır. Dağlıq Qarabağ məsələsində bu günə qədər yol verilmiş bəzi möhtəkirlikləri Türkiyə olaraq, Türkiyə Cümhuriyyətinin hazırkı hökuməti olaraq bizim qəbul etməyimiz mümkün deyildir. Bu günə qədər necə qəbul edilməyibsə, bu gün də eyni şəkildə qəbul edilə bilməz, inanıram ki, belə bir şey bundan sonra da əsla qəbul edilməyəcəkdir. Çünki burada bir səbəb-nəticə bağlılığı vardır. Dağlıq Qarabağın işğalı bir səbəbdir. Sərhədlərin bağlanması bir nəticədir. Dağlıq Qarabağ işğal edildiyi üçün Türkiyə sərhədləri bağlamışdır. İşğala son qoyulmayınca bilavasitə sərhədlərin açılması da mümkün deyildir. Bunu çox açıq şəkildə bir çox yerdə ifadə etdiyim kimi, bu gün Bakıda da bunu ifadə edirəm.

Təbii ki, burada digər bir atılmalı olan addım Minsk qrupu üçlüyünün – ABŞ, Rusiya, Fransa – 17 il sürən müzakirələri sürətləndirməsi və qısa bir zamanda nəticə əldə olunmasıdır. İnanıram ki, son qərar dəyərli qardaşım Əliyevlə Ermənistan prezidenti Sarkisyanın görüşlərində əldə ediləcəkdir. Ondan sonra bizim də üzərimizə bir vəzifə düşərsə, həmin vəzifəni icra edərik.

Təbii ki, bölgədəki problemləri, həmçinin enerji məsələsini də müzakirə etmək fürsətimiz oldu. Bu gün Azərbaycan ixracatçı ölkədir. Təbii qaz üzrə hazırda xüsusilə önəmli ixracatçı ölkədir və ixracatçı ölkə olaraq da həm bizim Azərbaycanla təbii qazla bağlı ikitərəfli anlaşmaları-

mız, həm də regional və qonşu ölkələrlə bağlı ola biləcək anlaşmalarımız var. Bu istiqamətlərdə də söhbətimiz olmuşdur. Təbii ki, nəqletmədə gələcəyə doğru hansı addımları ata biləcəyimiz barədə də müzakirələr oldu. Nazirlərimizin bir-biriləri ilə görüşləri oldu və belə görüşlər bu gün də davam edəcəkdir.

Əminəm ki, Azərbaycandakı bu görüşümüz gələcəyə doğru daha da fərqli, daha da güclü təməllərin eyni şəkildə yüksəlməsinə bir zəmin olacaqdır. Mən bununla əlaqədar şəxsən öz adımdan və nümayəndə heyətim adından bir daha hörmətli Cümhur başqanına təşəkkür edirəm və sizlərə də minnətdarlığımı bildirirəm.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l (*ANS, Azərbaycan*): Sualım cənab Baş nazirədir. Cənab Baş nazir, Siz qeyd etdiniz ki, işğal amili ortadan qalxmayınca sərhədlər açılmayacaqdır. Ermənistan mətbuatında fevralın əvvəllərindən bəri sərhədlərin açılmasına dair məlumatla bağlı Türkiyənin Xarici İşlər Nazirliyi, Türkiyə səfirliyi birbaşa suallara cavab vermədi. Yalnız aprelin ortalarında Siz cavab verdiniz ki, işğal amili ortadan qalxmayınca sərhədlər açılmayacaqdır. Nə üçün Türkiyə tərəfi bu şübhələr üçün yer qoydu?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Əgər mənim Londonda və Türkiyə parlamentindəki qrup danışıqlarında etdiyim açıqlamalarımı izləsəydiniz inanıram ki, mənə bu sualı verməzdiniz. Türkiyədə parlamentdəki qrup danışıqlarında və televiziya proqramlarında da açıqladım. Londonda iştirak etdiyim «Böyük 20-lər»in zirvə toplantısından sonra keçirdiyim konfransda yenə eyni şəkildə açıqladım. İsrarla üzərində dayandığım məsələ budur – bizim sərhəd-

lərimiz Dağlıq Qarabağın işğalından sonra bağlanmışdır. İndi də işğal ortadan qalxmayınca biz sərhədlərimizi açmayacağıq. Bunu kim söyləyir? Bunu Türkiyə Cümhuriyyətinin Baş naziri söyləyir. Bundan başqa daha zəmanətli ifadə ola bilərmi?!

**S u a l (***Ceyda Karan – «Radikal» qəzeti, Türkiyə***): Mənim sualım hörmətli Əliyevədir. Keçən ay Brüsseldə etdiyiniz açıqlamada Türkiyə ilə Ermənistan arasındakı «Yol xəritəsi»ndə Dağlıq Qarabağın əsas şərt olub-olmadığı məsələsində sadə bir cavab gözləyirik demişdiniz. Buna cavab ala bildinizmi?**

**İ l h a m  Ə l i y e v:** Məncə, hörmətli cənab Baş nazir, dəyərli qardaşımın sözləri bu suala ən gözəl cavabdır. Mən bu suala görə də, cavaba görə də minnətdaram. Çünki bundan açıq-aydın cavab ola bilməz.

Son aylar Azərbaycan cəmiyyətində müəyyən mənada bir narahatlıq hissləri var idi. O hisslərin yəqin ki, müəyyən təbii səbəbləri də var idi. Ancaq bu gün mən üzümü Azərbaycan xalqına tutub bunu demək istəyirəm ki, şübhə üçün heç bir yer qalmadı. Türkiyə hökumətinin başçısı, Türkiyə cümhur başqanı dəfələrlə bu məsələyə aydınlıq gətirmiş və bu gün dəyərli qardaşım cənab Baş nazirin sözləri bunun ən gözəl cavabıdır.

**S u a l (***Nərmin Yüzdəri – NTV, Türkiyə***): Mənim də sualım hörmətli prezident Əliyevə olacaq. Əslində hörmətli Baş nazirə verdiyimiz sualın başqa bir tərəfi. Dediniz ki, heç bir şübhə qalmadı. Hörmətli Baş nazir, hörmətli Cümhur başqanı Türkiyədə dəfələrlə Dağlıq Qarabağ problemi həll olunmayınca sərhədlərin açılmayacağını söylədiyi halda, bilmək istərdik bu şübhələr nədən yarandı?**

**İkincisi, bu hadisələrdən sonra Azərbaycanın Rusiyaya yaxınlaşması haqqında bəzi xəbərlər, şərhlər yayıldı. Azərbaycanın Rusiya ilə əlaqələrində, siyasətində bir dəyişiklik varmı?**

**Son olaraq Türkiyəyə verilən qaza yaxın zamanda qiymət artımı gözlənilirmi? Bu istiqamətdə xəbərlər yayılmışdı.**

**İ l h a m Ə l i y e v:** Bu bir sual olmadı, üç sual oldu və elə suallardır ki, bunu bir sözlə cavablandırmaq çətin olacaq, ancaq mən çalışaram.

Birincisi, məsələnin xronologiyasına baxsaq görərik ki, erməni mətbuatında Türkiyə–Ermənistan sərhədlərinin açılması ilə bağlı məlumatlar fevral ayının birinci yarısından yayımlanmağa başlamışdır və bu məlumatlar bir müddət cavabsız qaldı. Yəni bu məlumatlara lazımi səviyyədə cavabı, hər halda, Azərbaycan cəmiyyəti görmədi, yəni heç bir şərh verilməmişdir. Yəqin ki, müəyyən şübhələrin ortaya çıxmasının birinci səbəbi budur.

Digər tərəfdən, müxtəlif ölkələri təmsil edən yüksək vəzifəli şəxslər çıxışlarında və sözlərində yenə də bir növ Türkiyə–Ermənistan əlaqələrinin normallaşması məsələlərinə əldə edilmiş bir fakt kimi yanaşırdılar. Belə olan halda, əlbəttə ki, Azərbaycanda müəyyən fikirlər ortaya çıxdı, müəyyən şübhələr oyandı. Aprel ayının ortalarında bu şübhələrə son qoyuldu. Məhz Türkiyənin yüksək vəzifəli şəxsləri – Baş nazirin, Prezidentin birmənalı sözlərindən sonra bu məsələyə son qoyuldu. Artıq mən hesab edirəm ki, bu tarixdir və biz bu tarixə qayıtmamalıyıq.

O ki qaldı Azərbaycanın hansısa ölkə ilə yaxınlaşma siyasətinə, biz bütün ölkələrlə normal dostluq münasibətlərinin qurulmasına tərəfdarıq. Azərbaycan–Rusiya münasibətlərinin də çox böyük tarixi vardır və hər iki ölkə üçün bu münasibətlər əhəmiyyətlidir. Onu da qeyd etmək istəyirəm ki, Rusiya prezidenti cənab Medvedev ilk xarici səfərlərindən birini bir il bundan əvvəl məhz Azərbaycana etmişdir. O səfər zamanı Rusiya ilə Azərbaycan arasında dostluq və strateji tərəfdaşlıq haqqında müqavilə bağlanmışdır. Bu müqavilə çox böyük siyasi məna daşıyır. Bizim Rusiya ilə münasibətlərimiz onsuz da yaxındır və hansısa müvəqqəti qeyri-müəyyən vəziyyəti nəzərə alıb əlavə addımlar atmağa

ehtiyac yoxdur. Biz istəyirik ki, bütün ölkələrlə münasibətlərimiz yaxın olsun, yaxşı olsun, qarşılıqlı hörmət, etimad, bir-birinin işlərinə qarışmamaq əsasında qurulsun. Bizim qonşularımızla münasibətlər məhz bu məqsədləri güdür və bu əsaslarda qurulubdur.

Üçüncü suala gəldikdə isə, bu məsələnin də son aylar ərzində mövcud olan ab-hava ilə heç bir əlaqəsi yoxdur. Çünki Türkiyə ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlığın uzun tarixi vardır, razılaşdırılmış kontraktda müəyyən müddəalar vardır. O müddəalar tələb edirdi ki, qiymətlərə vaxtaşırı yenidən baxılsın. Amma qiymətin dəyişməsi dünyada neftin qiymətindən asılıdır. Yəni qazın qiyməti neftin qiymətinə bağlıdır və belə olan halda qiymətlərə vaxtaşırı yenidən baxılır. Bu məsələni bölgədə yarana biləcək, yaxud yaranmaqda olan və olmayan vəziyyətlə bağlamaq düzgün olmazdı.

**S u a l: (*ATV, Azərbaycan*): Sualımın birinci hissəsi cənab Ərdoğanadır. Bildiyiniz kimi, Türkiyə 2008-ci ildə Rusiyadan qazı 400–450 dollara, Əlcəzairdən 300–350 dollara alırdı. Azərbaycan qazı isə Türkiyəyə 120 dollar civarında satılır. Sizcə, bu nə dərəcədə ədalətlidir və nə üçün bir ildən çoxdur ki, Türkiyə Azərbaycan qazının Avropaya ixrac olunması işinə imkan vermir?**

**Sualımın ikinci hissəsi Azərbaycan prezidentinədir. Cənab Prezident, gələcəkdə qaz ixracı ilə bağlı hansı təkliflər nəzərdən keçirilir?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Təbii ki, ilk müqavilə bağlandığı zamandan bu rəqəm bu işin başladığı vəziyyətdədir. İndiki halda təbii ki, mən bu rəqəmin ədalətli olduğunu hesab etmirəm. Ədalətli rəqəm deyil. Ona görə biz bu gün dəyərli qardaşım, hörmətli cümhur başqanı Əliyevlə bu söhbətləri etdik. ARDNŞ-in başçısı hörmətli R.Abdullayevlə Enerji nazirim bu gün görüşəcəklər və bu görüşmələrdən sonra, inşaallah, bunu daha ədalətli bir rəqəmə çatdıracağıq.

**İ l h a m  Ə l i y e v:** Təkliflərə gəldikdə isə bildiyiniz kimi, Azərbaycanın çox böyük qaz ehtiyatları vardır. Təsdiq edilmiş minimum rəqəmlər onu göstərir ki, Azərbaycanın ən azı 2 trilyon kubmetr qaz potensialı vardır və əlavə qazma işlərinin aparılması nəticəsində bu rəqəm iki dəfə arta da bilər.

Bu gün Azərbaycan qazı Türkiyəyə, Gürcüstana birbaşa ixrac edilir və növbəti illərdə bu ixracın həcmi arta da bilər və artmalıdır. Biz «Şahdəniz» yatağının ancaq birinci mərhələsini icra edirik. «Şahdəniz» layihəsinin ikinci mərhələsini başlamaq üçün müəyyən şərtlər olmalıdır. Həm alqı-satqı müqavilələri, həm tranzit anlaşması imzalanmalıdır.

Bu yaxınlarda Praqada «Cənub dəhlizi» mövzusunda Enerji zirvəsi keçirilmişdir və çox önəmli qərarlar qəbul edilmişdir. Azərbaycan Avropanın enerji təhlükəsizliyi işinə öz töhfəsini verir və verməkdə davam edəcəkdir. Digər tərəfdən, Azərbaycana başqa yerlərdən də təkliflər daxil oldu. Bildiyiniz kimi, qaz bazarı çox genişdir və Azərbaycanın hüdudlarından kənarda hər yerdə Azərbaycan qazına ehtiyac var. Biz digər qonşu ölkələrdən də rəsmi təklifləri aldıq və bu təkliflər indi nəzərdən keçirilir.

Bir sözlə, biz neft sahəsində olduğu kimi, qaz sahəsində də şaxələndirmə siyasətimizi uğurla aparırıq. Bu siyasət bizim maraqlarımıza cavab verir və əminəm ki, bizim üçün dost, qardaş ölkələrin də maraqlarına cavab verir. Hesab edirəm ki, indiki mərhələdə çox ciddi addımlar atılmalıdır ki, qaz sahəsində əməkdaşlıq daha yeni müstəviyə qalxsın. Bu gün əldə edilmiş razılaşmalar daha çox regional xarakter daşıyır. Ancaq həm bizdə potensial var, həm də potensial istehlakçılarda maraq var ki, bu əməkdaşlığın həcmi böyüsün və əməkdaşlıq genişlənsin. Azərbaycan etibarlı tərəfdaş kimi, bu sahədə öz rolunu davam etməyə hazırdır.

## ABŞ-ın XARİCİ ƏLAQƏLƏR ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ABŞ-ın Xarici Əlaqələr Şurasının üzvlərini qəbul etmişdir. Görüşdə prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması istiqamətində danışıqların hazırkı vəziyyəti ilə əlaqədar verilən sualı belə cavablandırmışdır:*

– Hazırda vəziyyətlə bağlı müxtəlif yanaşmalar, qiymətləndirmələr var. Bəzilərinə belə gələ bilər ki, biz razılaşmaya yaxınıq, digərləri isə iddia edə bilərlər ki, bu istiqamətdə hələ çox iş görülməlidir. Danışıqlarda irəliləyişə gəldikdə, mən bunu müsbət istiqamətdə gedən proses kimi dəyərləndirirəm. Razılaşmanın müəyyən məsələləri ilə bağlı irəliləyişə nail olunmuşdur, halbuki bir neçə il əvvəl bu mümkün deyildi. Lakin bu irəliləyiş məsələnin nizamlanmasına nail olmaq və razılaşmanın əldə edilməsi üçün kifayət etmir.

Minsk qrupunun yaranmasından 17 il keçib və irəliləyişlərə baxmayaraq, heç bir nəticə yoxdur. Vəziyyət əvvəllər olduğu kimi qalmaqda davam edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən 7 rayon ermənilər tərəfindən zəbt olunmuşdur. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir və bu vəziyyət indi də davam etməkdədir.

Münaqişənin nizamlanması beynəlxalq hüquq normalarının əsasları üzərində həll olunmalıdır. Münaqişə yalnız və

yalnız beynəlxalq hüquq normaları əsasında nizamlanmalıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Torpaqlarımızın işğal faktı beynəlxalq birlik tərəfindən tanınmışdır. Azərbaycanın ərazi bütövlüyü də beynəlxalq səviyyədə qəbul edilmiş və dəstəklənmişdir. Minsk qrupunun həmsədrləri Azərbaycanın ərazi bütövlüyünün müdafiə olunması ilə bağlı bir neçə dəfə açıq bəyanatlar vermişlər. Azərbaycan BMT-yə üzv olarkən ərazi bütövlüyümüz bu təşkilat tərəfindən tanınmışdır.

Ermənistan tərəfinin bir arqument kimi ortaya qoymağa çalışdığı öz müqəddəratını təyin etmək hüququ ilə bağlı demək istəyirəm ki, ermənilər Ermənistan dövlətini yaradarkən artıq bu hüquqdan istifadə etmişlər. Əgər onların bu məntiqlərinə əsaslanılarsa, dünyada xeyli sayda erməni dövləti yaranar. Bu, səhv yanaşmadır. Biz həmişə danışıqlarda Ermənistan tərəfinin diqqətini Helsinki Yekun Aktına yönəltməyə çalışırıq. Bu yekun aktında ərazi bütövlüyünün toxunulmazlığı və öz müqəddəratını təyinetmə hüquqları barədə müddəalar açıq şəkildə öz əksini tapmışdır: öz müqəddəratını təyinetmə hər hansı bir dövlətin beynəlxalq səviyyədə tanınmış ərazilərinin bütövlüyü prinsipini poza bilməz. Buna görə də münaqişədə nizama salınma beynəlxalq hüquq normalarına əsaslanmalıdır ki, bu da öz növbəsində ərazi bütövlüyümüzü bərpa etməyə, orada ermənilərin və münaqişədən əvvəl Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalinin öz torpaqlarına qayıdaraq sülh şəraitində yaşamasına imkan verəcəkdir. Bu gün Avropada sərhədlərin açıldığı və inteqrasiya proseslərinin getdiyi bir dövrdə heç bir ölkə öz gələcəyini təcrid olunmuş şəkildə qurmamalıdır. Bu gün Ermənistanın düşdüyü vəziyyəti onlar təcavüzkar siyasət həyata keçirməklə özləri yaratmışlar.

**İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAHA**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–İordaniya münasibətlərinin hazırkı səviyyəsi böyük məmnunluq doğurur. Gündən-günə artan təmaslarımız, genişlənən əlaqələrimiz və qarşılıqlı maraq doğuran əməkdaşlığımız münasibətlərimizin çoxşaxəli perspektivlərə malik olduğunu bir daha təsdiqləyir.

Əminəm ki, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin daim möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı və dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 may 2009-cu il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏLİ ABDULLAH SALEHƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının milli bayramı – Yəmən birliyi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yəmən arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 may 2009-cu il*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ BERNAR FASYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bernar Fasyeni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması barədə danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## AVROPA ƏDALƏTLİ OYUNLAR HƏRƏKATININ İCRAÇI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Avropa Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkəmizin regiondakı rolu və idmanın inkişafı barədə qonaqlara məlumat verərək bildirdi ki, Azərbaycanda Milli Olimpiya Hərəkatı uğurla davam edir. Bunun sayəsində Azərbaycan idmançıları Olimpiya oyunlarında və digər beynəlxalq idman yarışlarında yüksək nəticələr əldə edirlər.*

*Ölkəmizdə idmanın inkişafı üçün yaradılan infrastruktur barədə danışan prezident İlham Əliyev dedi ki, indi Azərbaycanın hər yerində beynəlxalq standartlara cavab verən idman qurğuları tikilib və dünyada hökm sürən böhrana baxmayaraq bu proses bu gün də davam etdirilir.*

*Dövlətimizin başçısı qeyd etdi ki, 2016-cı il Olimpiya oyunlarının Bakıda keçirilməsi barədə müraciətimiz müsbət həll olunmasa da bu bizi ruhdan salmır. Bu bizim ilk cəhdimiz idi. Təcrübə göstərir ki, dünyanın heç bir ölkəsi ilk cəhddən buna nail ola bilməmişdir.*

*İdmanın Azərbaycanın ictimai həyatının mühüm amilinə çevrildiyini diqqətə çatdıran prezident İlham Əliyev bu sahədə beynəlxalq qurumlarla əlaqələrə mühüm əhəmiyyət verildiyini söylədi. Dövlətimizin başçısı bu baxımdan Avropa Ədalətli*

*Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyətinin ölkəmizə səfərinin də əməkdaşlığı genişləndirmək baxımından faydalı olacağını dedi.*

*Avropa Ədalətli Oyunlar Hərəkatının prezidenti Karlos Qonsalves nümayəndə heyətinin üzvlərini Azərbaycan prezidentinə təqdim etdi. Qonaq 1974-cü ildən qeyri-hökumət idman təşkilatı kimi İsveçrədə yaranan və 40 idman ailəsini özündə birləşdirən Avropa Ədalətli Oyunlar Hərəkatı İcraçı Komitəsi adından dövlətimizin başçısına səmimi qəbula görə təşəkkür etdi.*

*Azərbaycan Milli Olimpiya Komitəsinin yarandığı vaxtdan bəri keçdiyi inkişaf yolundan və qazandığı uğurlardan xəbərdar olduqlarını söyləyən Karlos Qonsalves, Azərbaycanın Avropanın Ədalətli Oyunlar Hərəkatına verdiyi dəstəyi və onun fəaliyyətində yaxından iştirakını nəzərə alaraq Avropanın Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin ötən ilin mayında Nikosiya şəhərindəki iclasında qurumun 15-ci konqresinin bu ilin oktyabrında Bakıda keçiriləcəyinə dair yekdilliklə qərar qəbul edildiyini bildirdi.*

*Son illər Azərbaycanın idmanda qazandığı böyük nailiyyətlərdən danışan Karlos Qonsalves prezident İlham Əliyevin bu sahədə xidmətlərindən xəbərdar olduqlarını söyləyərək dedi:*

– Zati-aliləri, idman fəaliyyətlərinizdə və gündəlik həyatınızda olimpiya tərbiyəsinin, ədalətli oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyiniz hərtərəfli dəstəyi də bilirik. Buna görə də Olimpiya Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsi Sizin təşkilatın tarixində ilk dəfə olaraq Avropa Ədalətli Oyunlar Hərəkatının «Şərəf» nişanı ilə təltif edilməyinizə dair qərar qəbul etmişdir. Bu, ümumi məqsədlərimizə nail olmaq üçün verdiyiniz böyük töhfələrə görə bizim Sizə dərin minnətdarlığımızın ifadəsidir.

Səmimi qəbula görə Sizə bir daha minnətdarlığımızı bildiririk. Zati-aliləri, icazə verin Avropa ədalətli oyunlar

ictimaiyyəti adından Azərbaycan xalqına ən xoş arzularımızı, sülh və əmin-amanlıq diləklərimizi çatdırım. Zatialiləri, bir daha təşəkkür edirəm.

*Sonra Avropa Ədalətli Oyunlar Hərəkatının vitse-prezidenti Ərdoğan Arpinar çıxış etdi:*

– Möhtərəm Prezident, Azərbaycan xalqının yüzdə yüz çoxluğu ilə Sizi təkrar bu ali vəzifəyə gətirdiyi üçün təbrik edirik. Türkiyə buna görə çox məmnundur. Şərəfli vəzifənizə layiq olduğunuzu hər bir işdə göstərdiniz.

Xatırlayırsınızsa, Azərbaycan Milli Olimpiya Komitəsinin 15-ci ildönümü tədbirində mən də iştirak edirdim. Orada Xəzər və Çingiz müəllimlə birlikdə bizə deyildi ki, toplantını keçirin və söz verildi. Bu toplantı ona görə həyata keçirilir. Göründüyü kimi, Azərbaycan prezidenti nə söz verirsə, o sözün üstündə durur.

*Sonra Karlos Qonsalves və Ərdoğan Arpinar Avropa Ədalətli Oyunlar Hərəkatının «Şərəf» nişanını dövlətimizin başçısına təqdim etdilər.*

*Prezident İlham Əliyev yüksək mükafata görə təşəkkürünü bildirərək dedi ki, bu mükafatı Azərbaycanda həyata keçirilən bütün işlərə dəstəyin əlaməti hesab edir. Dövlətimizin başçısı dedi:*

– Azərbaycanda idmanın inkişafına münasibətimiz çox genişdir. Bu, təkcə beynəlxalq standartlara cavab verən yeni idman qurğularının yaradılması ilə deyil, həmçinin idmanın və olimpiya hərəkatının Azərbaycanda geniş vüsət alması ilə ölçülür. Bu, idmançılara, idman veteranlarına olan böyük dəstəyin və hörmətin, ölkədə gənc nəsil arasında idmanın inkişaf etdirilməsinə yönələn səylərin əlamətidir. Gənc idmançılarımız Olimpiya oyunlarının qalibi olanda biz dərhal uşaqlar arasında idmana marağın artmasının şahidi olduq. İdmançılar cəmiyyətimizdə çox hörmətli şəxslərə çevriləndə bu, gənc nəsli öz bacarıqlarını sınamağa sövq edir. İndi bizim çox müasir idman infrastrukturumuz var və idmanda bacarıqları sınamaq üçün hamıya yaxşı şərait yaradılmışdır.

*Dövlətimizin başçısı Avropa Ədalətli Oyunlar Hərəkatının idman etik normalarının bərqərar olunmasında və bütövlükdə dünyada olimpiya hərəkatındakı rolunu yüksək qiymətləndirdi və qurumun fəaliyyətinin olimpiya ideyalarına, yəni dostluğa, əməkdaşlığa, bütün müxtəlif etnik və dini mənsubiyyətli insanlar arasında ünsiyyətə əsaslandığını vurğuladı.*

*Prezident İlham Əliyev idmanın təkcə nəticə, qələbə və ya uğurdan ibarət olmadığını, onun həm də sülhün bərqərar olunmasında, təhlükəsizliyin təmin edilməsində, mədəniyyətlər və dinlər arasında dialoqun yaradılmasında çox mühüm bir vasitə olduğunu dedi.*

*Azərbaycan Prezidenti ölkəmizdə bütün beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırdı və oktyabrda Avropa Ədalətli Oyunlar Hərəkatının konqresinin də Bakıda uğurla keçəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev dövlət başçısı olmaqla yanaşı, Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyini də söylədi və bildirdi ki, ölkə həyatının bütün sahələri kimi, idmanın inkişafına da qayğı daim diqqətdədir.*

*Dövlətimizin başçısı Avropa Ədalətli Oyunlar Hərəkatının nümayəndələrinə uğurlar arzuladı.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Gürcüstanın milli bayramı – Dövlət müstəqilliyinin bərpası günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan və Gürcüstan xalqları tarixən dostluq, mehriban qonşuluq şəraitində yaşamış, sıx tellərlə bir-birinə bağlı olmuşlar. Bu xoş ənənələr bu gün də müvəffəqiyyətlə davam edərək dövlətlərarası münasibətlərimizin inkişafında, əməkdaşlığımızın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində mühüm rol oynamışdır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq bundan sonra da genişlənəcək və inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq və firavanlıq diləyirəm.

*Səmimiyyətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 may 2009-cu il*

## İSVEÇRƏ KONFEDERASİYASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ MİXAEL AMBÜL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də İsveçrə Konfederasiyasının Xarici Işlər üzrə Dövlət katibi Mixael Ambülü qəbul etmişdir.*

*İsveçrə Konfederasiyasının Xarici İşlər üzrə Dövlət katibi Mixael Ambül Azərbaycan ilə İsveçrə arasında siyasi sahədə dialoqun və məsləhətləşmələrin aparılmasının əhəmiyyətini vurğulayaraq səfərinin bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsi işinə yaxşı imkan yaratdığını qeyd etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin sürətlə və uğurla inkişaf etdiyini bildirdi. İkitərəfli əlaqələrlə və regional vəziyyətlə bağlı fikir mübadiləsi aparmağın önəmini qeyd edən prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, İsveçrə Konfederasiyasının Xarici İşlər üzrə Dövlət katibi Mixael Ambülün ölkəmizə bu səfəri ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.*

## ESTONİYANIN SABİQ PREZİDENTİ ARNOLD RÜYTEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Estoniyanın sabiq prezidenti Arnold Rüyteli qəbul etmişdir.*

*Estoniyanın sabiq prezidenti xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini ehtiramla xatırladı, istər sovetlər dönəmində, istərsə də müstəqilliyin ilk illərində xalqlarımızın üzləşdiyi ən çətin və böhranlı vaxtlarda ulu öndərin dəstəyini daim yaxından hiss etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Estoniyanın sabiq prezidenti Arnold Rüytelin ulu öndərlə həmişə yaxşı münasibətlərindən xəbərdar olduğunu dedi. Prezident İlham Əliyev dövlət başçıları arasında şəxsi münasibətlərin ikitərəfli əlaqələrin daha da genişlənməsində mühüm rol oynadığını vurğulayaraq, hazırda Azərbaycan–Estoniya münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin adından Estoniyanın sabiq prezidenti Arnold Rüytelin şərəfinə nahar verildi.*

## DÖVLƏT BAYRAĞI MEYDANINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*18 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Dövlət Bayrağı Meydanına gələrək, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə maraqlanmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması haqqında Sərəncam imzalamışdır. Həmin sərəncama uyğun olaraq, 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində – Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət Bayrağı Meydanının təməli qoyulmuş, inşaat işlərinə başlanılmışdır.*

*Tikinti işlərinin gedişi ilə müntəzəm maraqlanan dövlətimizin başçısı bir neçə dəfə bu meydana gələrək, inşaat işlərinin yüksək keyfiyyətlə aparılması ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını vermişdir.*

*Mayın 18-də Azərbaycan prezidenti İlham Əliyev görülən işlərin gedişi ilə yaxından tanış olmaq üçün Dövlət Bayrağı Meydanına gəldi. Dövlətimizin başçısına həyata keçirilən inşaat işləri barədə məlumat verildi. Bildirildi ki, 20 min kvadratmetr ərazisi olan meydanda bütün lazımi infrastrukturun yaradılması istiqamətində ardıcıl işlər aparılır. Dayağının hündürlüyü 162 metr olan Dövlət bayrağının uzunluğu 70 metr, eni 35 metr, ümumi sahəsi 2450 kvadratmetrdir. Dövlət bayrağının çəkisi 350 kiloqram olacaqdır.*

*Prezident İlham Əliyev tikintinin keyfiyyəti və texniki göstəriciləri ilə maraqlandı, görülən işlərin yüksək standartlara uyğun olaraq həyata keçirilməsi ilə bağlı lazımi tapşırıqlarını verdi.*

## LİTVA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

Hörmətli xanım Qribauskayte!

Litva Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Litva arasında münasibətlərə xüsusi əhəmiyyət veririk. Əminəm ki, bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərimiz, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və layihələr çərçivəsində əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət, dost Litva xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2009-cu il*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ FEDERAL NAZİRİ ƏBDÜL QƏYYUM XAN CATOY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Pakistan İslam Respublikasının Müdafiə Sənayesi Federal naziri Əbdül Qəyyum Xan Catoyu qəbul etmişdir.*

*Əbdül Qəyyum Xan Catoy Pakistan İslam Respublikasının prezidenti Asif Əli Zərdarinin və Baş nazir Seyid Yusif Rza Gilaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Azərbaycanın Pakistan üçün dost və qardaş ölkə olduğunu vurğulayan Əbdül Qəyyum Xan Catoy bildirdi ki, Azərbaycana bu səfəri rəhbərlik etdiyi nazirliklə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi arasında gələcək əməkdaşlıqla bağlı müzakirələr aparmaq üçün yaxşı imkan yaradır.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən müdafiə sənayesi sahəsində də uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Pakistana səfərini və həmin səfər zamanı Müdafiə Sənayesi Nazirliyi nəzdində Hərbi İxraca Yardım Təşkilatının istehsalı olan məhsulların nümayiş etdirildiyi sərgi ilə tanışlığını xatırladı.*

*Prezident İlham Əliyev Pakistan prezidenti Asif Əli Zərdarinin və Baş nazir Seyid Yusif Rza Gilaninin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Pakistanın prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Avropa İttifaqı Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr, «Şərq tərəfdaşlığı» proqramı çərçivəsində əməkdaşlıq və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## MACARISTAN PARLAMENTİNİN AVROPA İŞLƏRİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ MATYAS EÖRŞİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Macarıstan Parlamentinin Avropa İşləri üzrə Komitəsinin sədri Matyas Eörşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanın regionda lider dövlətə çevrildiyini bildirən Macarıstan Parlamentinin Avropa İşləri üzrə Komitəsinin sədri Matyas Eörşi «Şərq tərəfdaşlığı» proqramı çərçivəsində Azərbaycanın ölkəsi ilə əməkdaşlığını yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Macarıstana səfərini xatırlatdı və bu səfərin uğurla keçdiyini qeyd etdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə və Avropa İttifaqı çərçivəsində əmək-daşlığa toxunan prezident İlham Əliyev «Şərq tərəfdaşlığı» proqramının Azərbaycanın Avropa İttifaqı ilə daha sıx əməkdaşlıq etməsinə şərait yaradacağına əminliyini bildirdi.*

## AEROPORT KƏSİŞMƏSİNDƏ YOL QOVŞAĞININ, HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU – BİLGƏH QƏSƏBƏSİ AVTOMOBİL YOLUNUN VƏ PİYADA KEÇİDLƏRİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*19 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da aeroport kəsişməsində yol qovşağının, Heydər Əliyev Beynəlxalq Aeroportu – Bilgəh qəsəbəsi avtomobil yolunun və piyada keçidlərinin tikintisi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin Bakı şəhərinin yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı sərəncam və göstərişlərinə uyğun olaraq aeroport kəsişməsində yeni yol qovşağının, Heydər Əliyev Beynəlxalq Aeroportu – Bilgəh qəsəbəsi avtomobil yolunun və bu ərazidə olan piyada keçidlərinin tikintisinə başlanılmışdır.*

*Dövlətimizin başçısı tikinti işlərinin gedişi ilə yaxından tanış olmaq üçün buraya gəldi.*

*Nəqliyyat Nazirliyinin «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa olunan yolun baş podratçısı «AZVİRT» Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

*Prezidentə yolun texniki göstəriciləri ilə bağlı məlumat verildi. Bildirildi ki, yolun ümumi uzunluğu 19 kilometrə bərabərdir. Əsas yolda 6, köməkçi yolda isə 2 hərəkət zolağı vardır. Hərəkət zolaqlarının eni 3,75 metrdir. Asfalt-beton örtüklü yolun ümumi sahəsi 822 min kvadratmetr, asfalt-beton örtüyünün qalınlığı isə 270 millimetrə bərabər olacaqdır. Qeyd olundu ki, yolda hərəkətin tənzimlənməsi üçün aeroport kəsişməsində müxtəlif səviyyəli yolötürücü qovşağın və 5 yerüstü piyada ke-*

*çidinin tikilməsi nəzərdə tutulur. Aeroport kəsişməsindəki körpü 8 hərəkət zolaqlı olmaqla, uzunluğu 127 metr, sahəsi isə 5080 kvadratmetrdir. Burada drenaj sisteminin və ehtiyat boru keçidlərinin inşası da nəzərdə tutulmuşdur.*

*Tikintinin 20 ay ərzində başa çatdırılacağı bildirildi.*

*İnşaat işlərinin gedişi ilə yaxından maraqlanan prezident İlham Əliyev tikintinin vaxtında və yüksək keyfiyyətlə icra olunması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

*Sonra dövlətimizin başçısı əvvəllər «Binə» və «Sədərək» ticarət mərkəzlərinin yerləşdiyi əraziyə gəldi. Prezident İlham Əliyev burada aparılan abadlıq və quruculuq işləri ilə də tanış oldu, ərazinin yenidən qurulmasının yüksək səviyyədə həyata keçirilməsi ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*20 may 2009-cu il*

*Mayın 20-də Azərbaycana rəsmi səfərə gələn Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev Gürcüstan prezidenti Mixeil Saakaşvilini səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan prezidentinə raport verdi.*

*Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Gürcüstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Mixeil Saakaşviliyə, Gürcüstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*20 may 2009-cu il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*20 may 2009-cu il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Əziz dostlar!

Sizi salamlamağa çox şadam, Azərbaycana xoş gəlmisiniz!

Biz sizi görməyə həmişə şadıq. Bu, mühüm məsələləri müzakirə etmək üçün yaxşı imkandır. Biz bu gün ikitərəfli, regional və beynəlxalq məsələləri müzakirə etdik. Bizim aramızda tam qarşılıqlı anlaşma, irəliləmək, bütün sahələrdə əməkdaşlığı genişləndirmək arzusu var və əlbəttə, dövlət başçıları səviyyəsində əlaqələr xüsusi əhəmiyyət kəsb edir.

Müxtəlif beynəlxalq tədbirlərdə və forumlarda tez-tez görüşmək imkanımız olsa da, həll edilməli məsələləri bu gün Sizin rəsmi səfəriniz çərçivəsində yenidən müzakirə etməyimiz çox vacibdir. Bizim birgə işlədiyimiz illər ərzində Gürcüstan və Azərbaycan bir-birinə daha da yaxınlaşmışdır, biz həm də qlobal əhəmiyyət kəsb edən çoxlu ikitərəfli mühüm məsələləri həll etmişik. Əminəm ki, qarşıdakı illərdə də əməkdaşlığı eyni fəallıqla və bu cür dostluq ruhunda davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz.

**Mixeil Saakaşvili**: Biz Sizinlə birlikdə, dostlarımız arasında olmaqdan çox şadıq və özümüzü xoşbəxt hiss edirik. Məncə, bizim əməkdaşlığımız çox dinamik inkişaf edir. Bu əməkdaşlıq başqa ölkələr arasında olduğu kimi, sadəcə xoş arzulara və yaxşı niyyətlərə yox, konkret planlara və həmin planların həyata keçirilməsinə dair konkret qərara əsaslanır.

Biz görürük ki, İlham Heydər oğlu və onun komandasının üzvləri sadəcə vədlər vermir, öz vədlərini həmişə yerinə yetirirlər. Bizim aramızda qardaşlıq münasibətləri var və mən həmişə demişəm ki, biz əslində qeyri-formal konfederasiya yaradırıq. Əlbəttə, biz iki müstəqil dövlətik, lakin bizim münasibətlərimiz əslində qardaşcasına konfederativ münasibətlərdir. Gürcüstanla Azərbaycanı birləşdirməyən, onları bir-birindən ayıran məsələlər yoxdur. Bizim tezliklə həll edə bilməyəcəyimiz məsələlər yoxdur. Demək istəyirəm ki, bizim bir neçə il əvvəl həyata keçirməyə başladığımız bütün böyük planların çoxu artıq həyata keçmişdir. Qarşıda bizim daha geniş planlarımız var.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*20 may 2009-cu il*

*Mayın 20-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə Azərbaycan–Gürcüstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş»ə dəyişikliklər edilməsi haqqında Protokol»u Azərbaycan tərəfindən «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov, Gürcüstan tərəfindən İqtisadi İnkişaf naziri Laşa Jvaniya imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Saziş»ə dəyişiklik edilməsinə dair Protokol»u Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Gürcüstan tərəfindən İqtisadi İnkişaf naziri Laşa Jvaniya imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında əqli mülkiyyətin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycan tərəfindən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov, Gürcüstan tərəfindən İqtisadi İnkişaf naziri Laşa Jvaniya imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ BƏYANATLARLA ÇIXIŞLARI

*20 may 2009-cu il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Gürcüstan prezidentləri mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Əziz dostlar!

İlk növbədə, cənab Prezident, Sizi və nümayəndə heyətinizin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu gün biz Sizinlə geniş müzakirələr apardıq, ikitərəfli münasibətlər təhlil edildi, regional məsələlərə münasibətimizi bildirdik. Gürcüstan–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Bu əlaqələrin çox böyük tarixi var. Bu tarix bizi daha da sıx birləşdirir. İki müstəqil dövlət öz əlaqələrini bu möhkəm tarixi əsaslar üzərində qurubdur və bu əlaqələr sürətlə irəli gedir.

Səfər çərçivəsində apardığımız danışıqlar və etdiyimiz söhbətlər, əminəm ki, Gürcüstan–Azərbaycan münasibətlərinin gələcək inkişafına çox müsbət təkan verəcəkdir, bunun çox böyük rolu olacaqdır və beləliklə, biz bölgədə ənənəvi dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcəyik.

Regional məsələlərə gəldikdə, Gürcüstan və Azərbaycan tərəfindən birgə icra olunan layihələr region üçün çox mü-

hüm əhəmiyyət daşıyır və daha geniş mənada isə beynəlxalq münasibətlərə müsbət təsirini göstərir. Bu gün müzakirə etdiyimiz məsələlər müxtəlifdir. Energetika sahəsində əldə olunmuş uğurlar bir daha təhlil edildi və biz gələcək birgə layihələr haqqında fikir mübadiləsi apardıq.

Gürcüstan və Azərbaycan bölgədə enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərinə daim böyük diqqət göstərmişdir və birgə səylərimiz nəticəsində bu gün bölgədə tamamilə yeni vəziyyət yaranmışdır. Əlbəttə, çox vacibdir ki, əldə edilmiş uğurlarla kifayətlənməyək, gələcəkdə daha önəmli və böyük layihələri birlikdə icra edək.

Bu gün Avropanın enerji təhlükəsizliyi məsələləri muzakirə edildi. Bu yaxınlarda «Cənub dəhlizi» ilə əlaqədar keçirilmiş tədbirdə Sizinlə bərabər iştirak etdik və bizim mövqeyimiz də birmənalıdır. Biz həm öz maraqlarımızı müdafiə edir, həm də bütün tərəfdaşlarımızla energetika sahəsində çox səmərəli əməkdaşlıq edirik.

Nəqliyyat sahəsində əməkdaşlıq uğurla davam edir. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi uğurla gedir. Bu layihənin gələcək icrası haqqında geniş fikir mübadiləsi apardıq və müvafiq göstərişlər verdik.

Biz ənənəvi olaraq beynəlxalq təşkilatlarda bir-birimizi müdafiə edirik, bir-birimizi dəstəkləyirik və mən əminəm ki, bu qarşılıqlı dəstək gələcəkdə də davam etdiriləcəkdir. Gürcüstan–Azərbaycan münasibətlərinin bölgədə çox böyük əhəmiyyəti vardır. Dostluq və qardaşlıq əlaqələrimizin inkişafı həm xalqlarımız üçün, ölkələrimiz üçün vacibdir, həm də bölgədə sülhün, sabitliyin təmin edilməsi üçün böyük əhəmiyyət daşıyır.

Mən apardığımız danışıqların mahiyyəti haqqında fikirlərimi söyləmişəm. Hesab edirəm ki, bu danışıqlar və gələcək birgə fəaliyyət ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram və Sizə, Gürcüstan xalqına xoşbəxtlik və uğurlar arzulayıram.

## Gürcüstan prezidenti Mixeil Saakaşvilinin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!
Çox hörmətli dostum, əziz qardaşım İlham Heydər oğlu! Mənə və nümayəndə heyətinə göstərilən yüksək səviyyədə diqqətə və qayğıya görə Sizə və dost Azərbaycan xalqına minnətdarlığımı bildirirəm.

Azərbaycan demokratik ölkə kimi sürətlə inkişaf edir, ümummilli lider Heydər Əliyevin xidmətləri Azərbaycanın inkişafında müstəsna rol oynamışdır. Dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin bünövrəsi də ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu gün Azərbaycanla Gürcüstanın qarşılıqlı əməkdaşlığı bu güclü zəmin üzərində uğurla davam edir.

Ölkələrimiz arasında əməkdaşlığın ən vacib istiqamətlərindən biri iqtisadiyyat və digər sahələrdir. Gürcüstan Azərbaycan ilə qaz təchizatı haqqında 5 illik müqavilə imzalamışdır. Bu isə o deməkdir ki, gələn 5 il ərzində gürcü xalqı elektrik enerjisini və digər enerji daşıyıcılarını Azərbaycandan alacaqdır.

Biz strateji layihələr də həyata keçiririk. Bu yaxınlarda Batumidə böyük inşaat layihəsinin icrasına da başlanılacaqdır. Bütün bunlar xalqlarımız və ölkələrimiz arasında inkişaf edən əməkdaşlığın nəticəsidir.

Bir daha Sizi ürəkdən salamlayıram və burada olmaqdan məmnunluğumu bildirir, dost Azərbaycan xalqına xoşbəxtlik və uğurlar arzulayıram.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*21 may 2009-cu il*

*Mayın 20-də «Gülüstan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin adından Gürcüstan prezidenti Mixeil Saakaşvilinin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Gürcüstan prezidentini və qonşu qardaş ölkənin bütün nümayəndə heyətini Azərbaycanda bir daha salamlamaq istəyirəm.

Bu gün biz çox səmərəli danışıqlar apardıq və bu danışıqlar çərçivəsində ikitərəfli əməkdaşlığın uğurları təhlil olundu, həmçinin münasibətlərimizin inkişaf yolları müəyyən edildi.

Ölkələrimiz arasında münasibətlərin tarixi çox qədimdir. Xalqlarımız həmişə yanaşı, qonşuluqda, sülh və mehribanlıq şəraitində yaşamış, bir-birinə kömək etmişlər.

Bizim ikitərəfli münasibətlərimiz çox möhkəm və proqnozlaşdırıla billəndir və düşünürəm ki, gələcəkdə də belə qalacaqdır. Biz əlaqələrimizin gündəliyini konkret işlərlə genişləndirməli, diqqəti operativ həll olunması tələb edilən məsələlər üzərində cəmləşdirməliyik. Biz bu gün məhz bu cür etdik, ölkələrimizin iqtisadiyyatı üçün, enerji təhlükəsizliyi,

nəqliyyat təhlükəsizliyi üçün böyük əhəmiyyətə malik məsələlər barəsində bizdə tam anlaşma var. Ölkələrimizin fəal iştirakı ilə regionda çox iri infrastruktur layihələri həyata keçirilmişdir, indi onlar artıq qlobal miqyaslı gələcək layihələr üçün bazadır. Bu, ilk növbədə energetikaya aiddir.

Neft və qaz sahəsi ilə yanaşı, elektroenergetika sahəsində əməkdaşlıq da böyük maraq doğurur. Burada çox böyük potensial mövcuddur və bizim imkanlarımız bir-birini tamamlayır. Biz elektrik enerji dəhlizinin mövcud neft-qaz dəhlizlərini tamamlaması üçün ciddi səy göstərəcəyik.

Ölkələrimizin nəqliyyat təhlükəsizliyinin təmin edilməsi prosesində fəal iştirak edirik. Gürcüstan və Azərbaycan Qərb ilə Şərq arasında nəqliyyat kommunikasiyalarının mühüm hissəsidir. Gürcüstan dinamik inkişaf edən, həm siyasi, həm də iqtisadi islahatların fəal həyata keçirildiyi islahatçı ölkə kimi, investorlar üçün çox böyük maraq doğurur. Mən çox şadam ki, Azərbaycan şirkətləri, ilk növbədə ARDNŞ Gürcüstanın çox mühüm investorlarından biridir. ARDNŞ-in sərmayələri artıq bu gün yüz milyonlarla ölçülür, gələcəkdə isə yəqin ki, milyardlarla ölçüləcəkdir. Bunlar həm yanacaqdoldurma stansiyaları şəbəkəsi, həm neft məhsulları satışı, həm Gürcüstanın qazlaşdırılması, həm də təbii qazla təmin edilməsidir.

Biz Gürcüstanın enerji təhlükəsizliyini tam təmin etmək və qış dövründə qaz ehtiyatlarından daha səmərəli istifadə etmək üçün gələcəkdə qaz anbarları tikilməsi məsələlərini müzakirə etdik. Bununla da gələcək layihələr üçün artıq bu gün baza olan tamamilə yeni regional şərait yaranır. Bu yaxınlarda Gürcüstan prezidenti və digər həmkarlarımızla birlikdə Praqada enerji dəhlizinə həsr edilmiş konfransda iştirak etdik. Heç kəsə sirr deyil ki, müzakirə olunan layihələr üçün əsas bizim birlikdə həyata keçirdiyimiz layihələrdir. Bu, Bakı–Tbilisi–Ceyhan neft boru kəməridir, həmin kəmər olmasaydı, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi mümkün olmazdı – bu, Bakı–Supsa boru kəməridir.

Bu istiqamətdə gələcək addımlar da bugünkü infrastruktur layihələrinə əsaslanır. Biz onları birlikdə həyata keçirmişik və təbii ki, bu bizə inam verir.

Biz bundan sonra da infrastruktur, investisiya layihələrində fəal iştirak etmək niyyətindəyik. Gürcüstanda təkcə energetikada deyil, həm də nəqliyyat, turizm, servis sahəsində – bütün istiqamətlərdə potensial imkanlar var.

Humanitar sahədə əməkdaşlıq da inkişaf edir. Bu da ölkələrimiz üçün çox böyük əhəmiyyətə malikdir. Bizim Gürcüstanda yaşayan azərbaycanlı qardaşlarımızın gürcü dilini də öz ana dili kimi bilməsi, onların Gürcüstan cəmiyyətinə fəal inteqrasiya etməsi, Gürcüstanın inkişafında layiqli yer tuta bilməsi və daha fəal iştirak etməsi çox vacibdir.

Mən gürcüstanlı qonaqlarımıza ən xoş arzularımı bildirmək, qardaş gürcü xalqına dərin hörmətimi ifadə etmək və bu badəni Gürcüstan prezidentinin sağlığına, gürcü xalqının, bizim dostluğumuzun şərəfinə qaldırmaq istəyirəm.

**Gürcüstan prezidenti Mixeil Saakaşvilinin nitqi**

Hörmətli İlham Heydər oğlu!
Hörmətli dostlar!
Xanımlar və cənablar!

Bakıya gəlmək mənim üçün çox xoşdur. Mən buraya həmişə məmnuniyyətlə gəlirəm və buradan böyük təəssüratla ayrılıram.

İndicə biz Bakının yeni məhəllələrini, genişləndirilmiş yeni küçələrini gəzdik, yeni parklara baxdıq. Məncə, burada baş verənlər bizim üçün nümunə və ilham mənbəyidir. Əgər Azərbaycan bizim arxamızda dayanmasaydı, bilmirəm biz indi harada olardıq və ümumiyyətlə, mövcud olardıqmı?

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin siyasi müdrikliyinin və prezident İlham Əliyevin cəsarətli addımları həlledici rol oynamışdır. Azərbaycan prezidenti İlham Əliyev təkcə region üçün deyil,

bütövlükdə dünya üçün, Avropa üçün çox böyük siyasi xadimdir.

Qonşu dövlət kimi, Azərbaycan çətin anlarda Gürcüstana işıq və qaz vermişdir. Gürcü xalqı bunu heç zaman unutmayacaqdır. Bizi bağlayan tellər təkcə neft kəməri, elektrik xətləri deyil, insanlar arasındakı əlaqələrdir.

Nitqimin sonunda Azərbaycan xalqına və Azərbaycanın dövlət başçısına ən xoş arzularımı bildirirəm

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan–İtaliya münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımız və ölkələrimiz arasındakı dostluğun möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin daha da genişlənməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2009-cu il*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

Milli bayramınız – İsveç bayrağı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsveç arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveç xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2009-cu il*

## *bp* ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də bp şirkətinin vitse-prezidenti Endi İnqlisi qəbul etmişdir.*

*Endi İnqlis dövlətimizin başçısına bp–Azərbaycan şirkətinin işçi heyəti ilə keçirdiyi görüşlər barədə məlumat verərək, ölkəmizdə bp–Azərbaycan şirkətinin həyata keçirdiyi işlərin çox uğurla getdiyini bildirdi. bp şirkətinin vitse-prezidenti «Azəri–Çıraq–Günəşli» layihəsinin növbəti mərhələsi hesab olunan «Çıraq» layihəsi üzrə işlərin də müvəffəqiyyətlə aparıldığını dedi.*

*Dövlətimizin başçısı bp ilə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. İstehsal sahəsində işlərin yaxşı getdiyini bildirən prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

## ZƏRİFƏ ƏLİYEVA ADINA ELMİ-TƏDQİQAT GÖZ XƏSTƏLİKLƏRİ İNSTİTUTUNUN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*22 may 2009-cu il*

*Mayın 22-də Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yeni binasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*İnstitutun kollektivi dövlətimizin başçısını və xanımını hərarətli alqışlarla qarşıladı.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev əvvəlcə binanın baş planı ilə tanış oldu.*

*Bir neçə korpusdan ibarət mərkəzləşdirilmiş institutun yeni binası ən müasir tələblərə cavab verən tibbi müəssisə kimi layihələndirilərək inşa edilmişdir. Regionda və MDB məkanında analoqu olmayan Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yeni binasının istifadəyə verilməsi ölkəmizdə oftalmologiya sahəsində mühüm hadisədir. Bu həm də Azərbaycan oftalmologiyasını dünyada tanıdan akademik Zərifə xanım Əliyevanın xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan mühüm addımdır.*

*Ən müasir standartlara uyğun inşa edilmiş kompleksdə əsas bina, poliklinika, iki stasionar korpus, o cümlədən əməliyyat, reanimasiya, 85 çarpayılıq sağ və 72 çarpayılıq sol yataq blokları, cərrahiyyə bloku və bu korpusları birləşdirən üçmərtəbəli keçid bloku, aptek, yeməkxana, oftalmologiya kafedrası, müxtəlif yardımçı təsərrüfat korpusları, 2 transformator yarımstansiyası, generator, qazanxana, nasosxana, 4 yeraltı su anbarı və avtomobil dayanacağı vardır. İnstitutun ümumu*

*torpaq sahəsi 5,6478 hektardır. Binaların ümumi sahəsi 13.346 kvadratmetr, servis yolunun sahəsi 17.824 kvadratmetr, piyada yolunun sahəsi 868 kvadratmetr, yaşıllığın sahəsi 20.656 kvadratmetr, avtomobil dayanacağının sahəsi isə 6.165 kvadratmetrdir.*

*Binada gün ərzində ambulator şəraitdə ümumilikdə 750-dək xəstəyə diaqnostik müayinə və müalicə xidmətləri göstərmək mümkündür. Binada quraşdırılmış ən müasir avadanlıq imkan verir ki, xəstələr ambulator şəraitdə əməliyyat olunsunlar və həmin gün də evə yazılsınlar. Otaqlarda və palatalarda temperatur xüsusi termostat vasitəsilə tənzimlənir. Xəstələrin tibbi heyətlə əlaqəsi üçün çağırış siqnalı və telefon danışıq sistemi quraşdırılmışdır. Kompleksdə ABŞ, Yaponiya və Almaniyadan gətirilən ən müasir avadanlıq quraşdırılmışdır.*

*Prezident İlham Əliyev institutun yeni binasının açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısı akademik Zərifə Əliyevanın binanın foyesindəki büstünə baxdı, görkəmli oftalmoloq-alimin xatirəsinə yaradılmış muzey ilə tanış oldu. Muzeydə akademik Zərifə Əliyevanın vaxtilə istifadə etdiyi tibbi cihazlar, o cümlədən yarıq lampa, eynək seçmək üçün dəst, görkəmli alimin fotoşəkilləri, sənədlərinin surətləri, müəllifi olduğu və ona həsr edilmiş kitablar nümayiş olunur.*

*Qeyd olundu ki, 190 yerlik 2 yataq bloku ilə yanaşı, ikimərtəbəli əməliyyat blokunda da yüksək səviyyəli şərait yaradılmış, palatalarda ən müasir cihazlar quraşdırılmışdır.*

*Altıncı mərtəbədə yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevə burada quraşdırılan cihazlar barədə məlumat verildi. Bildirildi ki, bu avadanlıq ən ağır cərrahiyyə əməliyyatlarının aparılmasına imkan yaradır.*

*Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev tibb ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Sonra dövlətimizin başçısı institutun akt zalında kollektiv qarşısında çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, əziz səhiyyə işçiləri!

Mən bu gün hamınızı ürəkdən salamlayıram və gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu gün doğrudan da çox əlamətdar bir gündür. Bu gün son illərdə Azərbaycanda səhiyyə sahəsində əldə olunmuş ən böyük uğurlardan birini qeyd edirik. Akademik Zərifə Əliyevanın adını daşıyan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun açılışına toplaşmışıq və bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Bu gözəl, müasir səhiyyə müəssisəsi Azərbaycan xalqına xidmət edəcək və əminəm ki, burada bütün işlər ən yüksək səviyyədə qurulacaqdır. Bu institutun tikintisinin, tarixi çox maraqlıdır. 1985-ci ildə ulu öndər Heydər Əliyevin göstərişi ilə Bakıda yeni, böyük göz xəstəlikləri institutunun binasının tikintisi haqqında göstəriş verilmişdir. Lakin tikinti bir neçə ildən sonra başlamışdır. Keçən əsrin 90-cı illərində, demək olar ki, tikinti dayanmışdı. O illər Azərbaycanda böyük tənəzzüllər var idi və iqtisadi imkanlar məhdud idi, maliyyə vəziyyəti ağır idi.

Ancaq ulu öndərin Azərbaycana qayıdışından sonra burada yenidən canlanma başladı, yeni təkliflər irəli sürüldü, ilkin layihə daha da təkmilləşdirildi və müəyyən müddətdən sonra institutun tikintisinin davam etdirilməsi üçün lazımi tədbirlər də görülməyə başlandı.

Ölkəmiz üçün, insanların sağlamlığı üçün bu vacib tibb ocağının tikintisi yalnız 2004-cü ildə yenidən başlanmışdır. Azərbaycan dövləti bu məqsəd üçün vəsait ayırmış, şirkət müəyyən edilmişdir və deyə bilərəm ki, Azərbaycanda qısa müddət ərzində yeni, ən yüksək dünya standartlarına cavab verən tibb ocağı yaradılmışdır. Məndə olan məlumata görə, bu bölgədə və keçmiş sovet məkanında buna bənzər göz xəstəlikləri institutu tikilməmişdir. Binanın 40 min kvadratmetrdən çox sahəsi var və burada ən müasir avadanlıqlar

quraşdırılmışdır. Bu gün mən institutla tanış olarkən bunu öz gözümlə gördüm. İstənilən əməliyyatı burada aparmaq mümkündür.

Əvvəllər bəzi xəstələr müalicə almaq üçün, əməliyyat olunmaq üçün xaricə üz tutmalı olmuşlar. Artıq bu gözəl oftalmoloji mərkəzdə istənilən əməliyyatı aparmaq mümkündür. Bu bizim böyük nailiyyətimizdir.

Bu Mərkəz akademik Zərifə Əliyevanın adını daşıyır. Zərifə Əliyeva həm çox istedadlı, bilikli alim, həm də çox peşəkar və qayğıkeş həkim idi. Onun tərəfindən çoxsaylı monoqrafiyalar, elmi işlər yazılmışdır. Onun elmi fəaliyyəti o vaxt sovet məkanında yüksək səviyyədə qiymətləndirilmişdir. Oftalmologiya sahəsində ən yüksək mükafat – M.İ.Averbax adına mükafat akademik Zərifə Əliyevaya verilmişdir. Onun həkim-tədqiqatçı kimi də çoxşaxəli fəaliyyəti var idi. 1970–80-ci illərdə onun təşəbbüsü ilə bir neçə sənaye müəssisəsində elmi-tədqiqat laboratoriyaları qurulmuşdu. O laboratoriyaların əsas məqsədi zərərli istehsalın insanların görmə qabiliyyətinə mənfi təsirinin öyrənilməsindən ibarət idi və sıravi vətəndaşlar, fəhlələr o kiçik mərkəzlərdə tibbi yardım alırdılar. Minlərlə insan Zərifə Əliyevanın fəaliyyəti nəticəsində görmə qabiliyyətini bərpa edə bilmişdi. Bu gün onun adını daşıyan bu gözəl Mərkəzdə, bir daha demək istəyirəm ki, ən çətin əməliyyatların aparılması üçün bütün şərait var. Burada elmi fəaliyyətlə məşğul olmaq imkanı da var. Yəni bu institut, sözün əsl mənasında, region üçün əvəzolunmaz tibb müəssisəsidir.

Ümumiyyətlə, son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşməsi işində çox böyük addımlar atılmışdır, böyük işlər görülmüşdür, müvafiq qərarlar verilmişdir. Bizdə indi Tibb Universitetinin terapevtik və cərrahiyyə korpusları tikilir. Hər ikisi özlüyündə böyük xəstəxanadır. Orada ən müasir səviyyədə tikinti işləri gedir. Milli Onkoloji Mərkəzin tikintisi uğurla davam edir və həmçinin onun nəzdində Uşaq Onkologiya Mərkəzi tikilir. Azərbaycanda belə bir Mərkəz

heç vaxt olmamışdır. Əminəm ki, orada da tikinti ən yüksək səviyyədə aparılacaqdır. Böyrəkköçürmə Mərkəzinin tikintisi uğurla gedir. O Mərkəz də nəinki Azərbaycan üçün, bütün bölgə üçün ən qabaqcıl Mərkəz olacaqdır. Bu yaxınlarda Talassemiya Mərkəzinin açılışını qeyd etdik və bu xəstəlikdən əziyyət çəkənlərin vəziyyəti də yaxşılaşdırılacaqdır. Mərkəzin əsasında gələcəkdə böyük qan mərkəzinin yaradılması nəzərdə tutulmuşdur. Bunu etmək üçün bütün imkanlar var.

Bu yaxınlarda hərbi hospitalın, Daxili İşlər Nazirliyinin hospitalının, Gömrük Komitəsinin hospitalının istifadəyə verilməsi ümumi işimizə bir töhfədir. Yəni, Azərbaycanda çox böyük, müasir, ən yüksək standartlara cavab verən mərkəzlər tikilir və Azərbaycan vətəndaşları bu imkanlardan istifadə edirlər.

Bölgələrdə bu istiqamətdə vacib addımlar atılır. Artıq hər bir bölgədə müasir müalicə-diaqnostika mərkəzləri fəaliyyət göstərir, onların sayı artmaqdadır. Bölgələrdə əvvəllər tikilmiş xəstəxanalar bərpa edilir və artıq elə etməliyik ki, Azərbaycanın hər bir yerində yüksək tibbi xidmət almaq imkanı olsun.

Səhiyyə sisteminin səmərəli fəaliyyəti üçün keçən il ən müasir təcili tibb yardımı avtomobilləri alınıbdır. Onlar şəhərimizin bütün rayonlarını əhatə edir və növbəti mərhələdə başqa şəhərlərə də bu maşınlardan göndəriləcəkdir. Bu maşınlar ən müasir avadanlıqla təchiz edilib, onların bir neçəsi reanimobil funksiyasını daşıyır. Onlarda ən müasir rabitə sistemi quraşdırılıbdır.

Bu yaxınlarda Azərbaycan Dövlət Neft Akademiyasında baş vermiş qanlı cinayətin qurbanları olan yaralı insanları atılan bu addımların nəticəsində xilas etmək mümkün olmuşdur. Mən bütün tibb işçilərini bu böyük nailiyyət münasibətilə təbrik edirəm, onlara minnətdarlığımı bildirmək istəyirəm. Çünki o qanlı hadisədə yaralananların əksəriyyəti çox ağır vəziyyətdə idilər. Amma hamısı xilas edildi.

Bu bir də onu göstərir ki, Azərbaycanda səhiyyə sistemində aparılan köklü islahatlar öz bəhrəsini verir. Əgər o yeni təcili tibbi yardım maşınları olmasaydı və həkimlər dərhal hadisə yerinə gəlməsəydilər, yaralı insanları xilas etmək bəlkə də mümkün olmazdı. Bu hadisə ilə əlaqədar mən Daxili İşlər Nazirliyinin fəaliyyətini qeyd etməliyəm. Dərhal hadisə yerinə gəlmiş xüsusi təyinatlı qüvvələrin müdaxiləsi cinayətin daha böyük miqyas almasının qarşısını almışdır. Əgər onlar vaxtında gəlməsəydilər, qurbanların sayı daha çox ola bilərdi.

Bu hadisələr onu göstərir ki, Azərbaycanda bütün sahələrdə işlər ən müasir səviyyədə qurulub, dünya standartlarına cavab verir və bizim istəyimiz məhz bundan ibarətdir. Bizim çox güclü sosial siyasətimiz var. Baxmayaraq ki, 2009-cu il dünya miqyasında böhranlı il kimi tarixdə qalacaq, biz bütün sosial proqramları icra edirik. Heç bir sosial proqramda heç bir məhdudiyyət yoxdur. Qəbul edilmiş bütün qərarlar icra edilir. Azərbaycanda məktəb tikintisi, səhiyyə ocaqlarının tikintisi davam etdirilir.

Azərbaycan xalqı çox yaxşı görür və bilir ki, dünyanı bürümüş maliyyə və iqtisadi böhran Azərbaycana minimum təsir göstərmişdir. Bunun əsas səbəbi vaxtında aparılan iqtisadi islahatlar, sosial islahatlar, sosial məsələlərin həlli və ölkə iqtisadiyyatının hərtərəfli inkişafıdır.

Biz indi belə gözəl elmi və tibbi mərkəzlərin tikintisi ilə məşğuluq. Biz dövlət tərəfindən investisiya layihələrini nəinki məhdudlaşdırmırıq, əksinə, onların sayını da, ayrılan vəsaiti də artırırıq. Çünki bu bizim ölkəmiz, xalqımız üçün lazımdır.

Mən bu gün bütün tibb işçilərinə, səhiyyə sistemində fəaliyyət göstərən bütün insanlara öz hörmətimi bildirmək istəyirəm. Siz böyük və nəcib işlə – insanların sağlamlığının bərpası, sağlamlığının qaytarılması ilə məşğulsunuz. Siz minlərlə, on minlərlə insana yeni həyat vermisiniz. Biz – Azərbaycan dövləti və Azərbaycan hökuməti elə etməliyik

ki, həkimlərin sosial məsələləri də həll olunsun, maaşları daha da çox qaldırılsın – bu istiqamətdə lazımi tədbirlər görülür. Bu, Azərbaycan dövlətinin siyasətidir. Hər bir yerdə iş şəraiti yaxşı olmalıdır, bizim insanlarımız ən müasir şəraitdə işləməli və yaşamalıdırlar.

Mən bu gözəl oftalmoloji mərkəzin açılışı münasibətilə bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Sizə gələcək işinizdə uğurlar azrulayıram. Sağ olun.

* * *

*Sonda dövlətimizin başçısı institutun səyyar klinikasında yaradılan şəraitlə tanış oldu. Qeyd olundu ki, səyyar klinika istənilən yerdə müayinə və müalicənin aparılmasına, hətta cərrahiyyə əməliyyatlarının həyata keçirilməsinə imkan verir. Artıq Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun kollektivi səyyar klinika vasitəsilə bölgələrdə ənənəvi uğurlu əməliyyatlar aparırlar.*

*Bunlar sübut edir ki, Azərbaycanda səhiyyə sisteminin inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirlər davamlı xarakter almışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ, GÖYGÖL VƏ ŞƏMKİR RAYONLARINA SƏFƏRİ

*25 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Gəncə şəhərinə gəlmişdir.*

*Azərbaycanın ən böyük sənaye mərkəzlərindən biri olan Gəncədə son illərdə aparılan quruculuq işləri şəhərin həyatına inkişaf, tərəqqi və müasirlik gətirmişdir. Gəncə bu gün qədimliklə müasirliyin qovuşduğu bir məkana çevrilmişdir.*

*Dövlətimizin başçısı şəhərin mərkəzindəki Heydər Əliyev meydanına gəldi, ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu, şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## HEYDƏR ƏLİYEV MEYDANINDA ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*25 may 2009-cu il*

*Mayın 25-də prezident İlham Əliyev Gəncədə ulu öndər Heydər Əliyevin adını daşıyan meydanda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb səmimi söhbət etmişdir.*

*Gəncə Dövlət Universitetinin professoru Sevda Qurbanəliyeva dövlətimizin başçısına gəncəlilərin ən xoş arzularını çatdıraraq dedi:*

– Möhtərəm cənab Prezident, Sizi Nizami yurdunda böyük sevinclə salamlayırıq, qədim Gəncəyə xoş gəlmisiniz! Qürur hissi keçiririk ki, bu, son illərdə Sizin Gəncəyə 9-cu səfərinizdir. Hər gəlişiniz şəhərimizə böyük yeniliklər gətirir. Biz gəncəlilər hər zaman Sizin qayğınızı hiss edirik və Sizi doğma, ən əziz bir insan kimi, gəncəli kimi qəbul edirik.

Cənab Prezident, bu gün ölkəmizin bütün regionları kimi, Gəncə də sürətlə inkişaf edir, abadlaşır. Burada böyük quruculuq işləri aparılır. Bu Sizin gördüyünüz böyük işlərin nəticəsidir. Qədirbilən gəncəlilər bütün bunlara görə Sizi böyük məhəbbətlə qurucu İlham adlandırırlar.

Cənab Prezident, ölkəmizdə elmə, təhsilə, mədəniyyətə göstərdiyiniz qayğı bir musiqişünas alim kimi, məni çox sevindirir. Mehriban xanımın mənəvi dünyamızda böyük yeri olan muğamlarımıza göstərdiyi həssas münasibət, digər sahələrdə gördüyü işlər hamımızın ürəyindəndir. Biz şəhərimizdəki tarixi-memarlıq abidələrinin bərpasına görə Sizə və Mehriban xanıma daim minnətdar olacağıq.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Mən sizin hamınızı ürəkdən salamlayıram. Gəncədə yenidən olmağımdan çox

məmnunam. Hər dəfə bu şəhərdə olanda, buradakı gözəl yenilikləri görəndə sevinirəm.

Son illər Gəncənin inkişafı üçün doğrudan da çox böyük işlər görülübdür. Həm yerli icra orqanları çox yaxşı işləyiblər, həm şəhər fəalları. Şəhər gözəlləşir, abadlaşır, yeni binalar tikilir. Bu böhranlı aylarda da tikinti, demək olar ki, dayanmır. Düzdür, dünyanı bürümüş böhran istər-istəməz Azərbaycana da öz təsirini göstərir. Ancaq biz çalışırıq ki, bu təsiri minimum səviyyəyə endirək. Böyük müəssisələrin müvəqqəti olaraq dayanması bizi narahat edir, digər tərəfdən, Azərbaycanın artıq mövcud olan qüdrətli iqtisadi potensialı deməyə əsas verir ki, bu, müvəqqəti xarakter daşıyır. Əminəm ki, böyük müəssisələr fəaliyyətini yaxın zamanlarda bərpa edəcək. Orada işləyən insanlar isə dövlət tərəfindən təmin edilir, onların maaşları verilir və veriləcəkdir.

Gəncənin böyük tarixi var və mən çox şadam ki, şəhər öz tarixi simasını saxlamaqla müasirləşir, yeniləşir, çox gözəl binalar tikilir və bəzi köhnə binalar da bərpa olunur, təmir edilir. Mən bu gün Bakıdan maşınla gələrkən böyük yol tikintisini bir daha gördüm. Demək olar ki, Bakı–Gəncə avtomobil yolunun böyük əksəriyyəti artıq tikilib. Az hissə qalıb ki, o da ilin sonuna qədər bərpa edilməlidir, yenidən tikilməlidir və beləliklə, Bakıdan Gəncəyə çox rahat, özü də qısa müddətdə gəlmək mümkün olacaqdır.

Burada qədim tarixi binaların, tarixi abidələrin bərpası çox sevindiricidir. Azərbaycan öz keçmişinə çox böyük hörmətlə yanaşır. Bir neçə gün sonra Respublika gününü qeyd edəcəyik. 91 il əvvəl Şərqdə yaradılmış ilk demokratik respublika dünya miqyasında çox böyük hadisədir. Müstəqilliyin əsasları məhz burada qoyulmuşdur. Bütün dövrlərdə gəncəlilər Azərbaycanın müstəqil ölkə kimi yaşamasında çox mühüm işlər görmüşlər. Bu gün siz də qeyd etdiyiniz kimi, Azərbaycan müstəqil ölkə kimi yaşayır, müstəqil siyasət aparır, xalqın iradəsi ilə idarə olunur. Müstəqil siyasət bizə imkan verir ki, Azərbaycanın milli maraqları tam şəkildə

müdafiə olunsun. İstər iqtisadi, siyasi, istərsə də regionda baş verən hadisələrlə əlaqədar Azərbaycan nəinki öz sözünü deyir, hətta öz maraqlarını müdafiə də edə bilir.

O ki qaldı gələcək işlərimizə, bizim işlərimiz sistemli xarakter daşıyır. Son 5 ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilmiş qərarlar əsasında uğurlu icrası çox müsbət haldır. Növbəti 5 il üçün yeni proqram tərtib olunub və icra edilməyə başlanmışdır.

İqtisadiyyatımızın əsas sahəsi energetikadır və dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi ilə bağlı bütün neft ixrac edən ölkələr, o cümlədən Azərbaycan da müəyyən çətinliklərlə üzləşib. Buna baxmayaraq sosial proqramlar icra olunur, infrastruktur layihələri davam etdirilir. Dünyada iqtisadi tənəzzül müşahidə edilir, Azərbaycanda isə iqtisadi artım. Bu onu göstərir ki, uğurlarımızın əsas səbəbi neftin qiyməti deyil, aparılan islahatlardır və cəmiyyətdəki çox gözəl əhval-ruhiyyə, ab-havadır.

Mən son illər ərzində Gəncədə əldə edilmiş uğurlara görə sizi ürəkdən təbrik edirəm, yeni-yeni uğurlar arzulayıram. Söz verirəm ki, həmişə olduğu kimi, Gəncəyə xüsusi diqqət göstərəcəyəm və şəhərin inkişafı üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Sağ olun.

## 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının və Hökumətinin Gəncədə yerləşdiyi binada xatirə lövhəsinin açılışı mərasimi

*Mayın 25-də prezident İlham Əliyev 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının və hökumətinin Gəncədə yerləşdiyi binada – Azərbaycan Dövlət Aqrar Universitetinin girişində xatirə lövhəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı üzərində* «Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası və hökuməti 16 iyun 1918-ci ildən

16 sentyabr 1918-ci ilə qədər bu binada fəaliyyət göstərib» *sözləri yazılmış lövhənin üstündən örtüyü götürdü.*

*Xatırladaq ki, Azərbaycanın müstəqil dövlət olması ilk dəfə məhz bu binadan radioqram vasitəsilə bütün Avropa ölkələrinə elan edilmişdir.*

## Nizami Gəncəvi abidəsində aparılan yenidənqurma işləri ilə tanışlıq

*Mayın 25-də prezident İlham Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin qədim Gəncənin mərkəzindəki abidəsində aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Məlumat verilmişdir ki, 1949-cu il aprelin 30-da tuncdan qoyulmuş bu möhtəşəm abidənin Daşkəsən mərmərindən hazırlanmış postamenti artıq köhnəlmişdir. Hazırda postamentin mərmər örtüyü yenisi ilə əvəzlənir, abidənin ətrafında abadlıq işləri aparılır, müasir işıqlandırma sistemi quraşdırılır, yeni oturacaqlar qoyulur. Bu ay başlanmış yenidənqurma işlərinin iyunun 15-də – Milli Qurtuluş günündə başa çatdırılması nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı Gəncədə aparılan abadlıq və quruculuq işləri ilə bağlı əlavə tapşırıq və tövsiyələrini verdi.*

## «Ramada Plaza» mehmanxanasının tikintisinin gedişi ilə tanışlıq

*Prezident İlham Əliyev mayın 25-də Gəncədə «Ramada Plaza» mehmanxanasının tikintisinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verilmişdir ki, təməli 2005-ci ilin mayında qoyulmuş binada inşaat işlərini bu ilin ikinci yarısında başa çatdırmaq nəzərdə tutulmuşdur. Ümumi torpaq sahəsi iki hektar olan 12 mərtəbəli mehmanxanada 200-ə qədər nömrə olacaqdır. Nömrələrin 160-ı birotaqlı, 34-ü isə ikiotaqlıdır.*

*«Çıraq» MMC-nin sifarişçisi olduğu mehmanxananın birinci mərtəbəsində üzgüçülük hovuzu, trenajor zalı, biznes mərkəzi, mağazalar, qadın və kişi bərbərxanaları olacaqdır. İkinci mərtəbədə konfrans zalı, milli və Avropa mətbəxinə aid yeməklərin təqdim olunacağı iki restoran, 3–10-cu mərtəbələrdə nömrələr, 11,12-ci mərtəbələrdə kafe, bar, VİP restoran və digər istirahət obyektləri fəaliyyət göstərəcəkdir. Ərazidə ikimərtəbəli 6 kottec də inşa olunacaqdır. 150 nəfərin işlə təmin olunacağı mehmanxananın ərazisində voleybol meydançasının, tennis kortunun, açıq üzgüçülük hovuzunun, yay kafesinin, uşaqlar üçün əyləncə şəhərciyinin və avtomobil dayanacaqlarının yaradılması da nəzərdə tutulmuşdur.*

*Tikintidə Yaponiya, Almaniya, ABŞ, Türkiyə, Rusiya və digər ölkələrdən gətirilən inşaat materiallarından geniş istifadə olunur. Binada Yaponiya istehsalı olan 5 müasir lift quraşdırılacaqdır.*

## Gəncə şəhər polis idarəsinin yeni inzibati binasının açılışı mərasimi

*Mayın 25-də Gəncədə şəhər polis idarəsinin yeni inzibati binasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılışda iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Ali Baş Komandana raport verdi.*

*Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə tanış oldu.*

*Tikintisinə 2008-ci ilin aprelində başlanılmış və ümumi sahəsi 7 min kvadratmetr olan yeni bina zirzəmi də daxil olmaqla, 4 mərtəbədən ibarətdir. Sifarişçi Daxili İşlər Nazirliyinin əsaslı tikinti idarəsidir.*

*Dövlətimizin başçısının tapşırığı ilə 2004-cü ildə qəbul olunmuş «Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı» daxili işlər orqanlarında islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial*

*müdafiəsinin gücləndirilməsində, həmçinin iş şəraitinin daha da yaxşılaşdırılmasında mühüm əhəmiyyət daşıyır.*

*Bildirildi ki, binada növbətçi hissə, əməliyyat-rabitə qovşağı, silah otağı, qeydiyyat və şəxsiyyət vəsiqəsi, istintaq və təhqiqat, mütəşəkkil cinayətkarlıqla mübarizə və cinayət axtarışı, kadrlar şöbələri, post-patrul xidməti, xüsusi təyinatlı əməliyyat taburları, kriminalistik tədqiqatlar, ictimai təhlükəsizlik və yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili, narkotiklərlə mübarizə bölmələri, anbar fəaliyyət göstərir.*

*Binanın yarımzirzəmisində fövqəladə hallar zamanı xüsusi təyinatlı əməliyyat taburunun əməkdaşları üçün 30 yerlik yataqxana da yerləşir.*

*İkinci mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin həyatına, onun polis orqanlarına göstərdiyi diqqət və qayğıya həsr olunmuş guşə yaradılmışdır. Bu mərtəbədə 50 nəfərlik brifinq zalı, dəftərxana da yerləşir.*

*Üçüncü mərtəbənin foyesində prezident, Ali Baş Komandan İlham Əliyevin hüquq mühafizə orqanlarına, xüsusilə polisə göstərdiyi diqqət və qayğını əks etdirən guşə vardır. Mərtəbədə 320 nəfərlik akt zalı da fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı idarənin kollektivini yeni binanın istifadəyə verilməsi münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.*

## Daxili qoşunların «N» hərbi hissəsində zabit yataqxanasının açılışı mərasimi

*Mayın 25-də Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Gəncə şəhərinə səfəri çərçivəsində Daxili Qoşunların «N» hərbi hissəsində zabit yataqxanasının açılışı mərasimində iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Ali Baş Komandana raport verdi.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və yataqxana ilə tanış oldu.*

*Məlumat verildi ki, tikintisinə 2008-ci ilin yanvarında başlanılmış bina 6 min kvadratmetr ərazini əhatə edir. Beşmərtəbəli binada 20 birotaqlı, 32 ikiotaqlı və 8 üçotaqlı mənzil vardır. Birinci mərtəbədə 12 mənzil subay zabit və gizirlər üçün nəzərdə tutulmuşdur. Digər mərtəbələrdəki mənzillərdə isə ailəli zabit və gizirlər yaşayacaqlar. Bütün mənzillər soyuducu, mətbəx mebeli, qaz plitəsi, yataq dəsti və televizorla təmin olunmuşdur. Mərkəzləşdirilmiş istilik sistemi ilə təmin olunmuş binanın qarşısında uşaq şəhərciyi də salınmışdır.*

*Prezident İlham Əliyev yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## GÖYGÖL RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*25 may 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 25-də Gəncə şəhərinə səfərini başa çatdıraraq Göygöl rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi parkda aparılmış abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, abidənin ətrafında salınmış parkın sahəsi 3 hektara yaxındır. Ərazinin 2 hektardan çox hissəsində yaşıllıq zolağı salınmış, müxtəlif dekorativ kollar və ağaclar əkilmişdir. Yaşıllıq zolaqlarının salınmasında milli ornamentlərdən istifadə olunmuşdur.*

*Rayon sakinlərinin sevimli istirahət guşələrindən biri olan parkda müxtəlif ölçülərdə 4 fəvvarə, müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

### Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Mayın 25-də Göygöl Rayon Mərkəzi Xəstəxanasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılışda iştirak etmişdir. Səhiyyə ocağının kollektivi dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladı.*

*Göygöl Rayon Mərkəzi Xəstəxanasının inşasına 2007-ci ilin əvvəlində başlanılmışdır. Obyekti Səhiyyə Nazirliyinin sifarişi ilə «Terminal» istehsal-tikinti müəssisəsi inşa etmişdir. İnşaat işləri zamanı xaricdən gətirilmiş tikinti materialları ilə yanaşı, yerli xammaldan da istifadə edilmişdir.*

*Xəstəxananın ümumi sahəsi 4 hektara yaxın, tikintinin sahəsi isə 1,5 hektardır. Burada əsas korpus, poliklinika, inzibati bina, uşaq-qadın məsləhətxanası, infeksion, patoloji-anatomiya və tibbi ekspertiza şöbələri fəaliyyət göstərir. 180 çarpayılıq səhiyyə ocağının xarici görünüşü də yüksək zövqlə işlənmişdir.*

*Dövlətimizin başçısı tibb ocağının açılışını bildirən lenti kəsdi və xəstəxana ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, birinci mərtəbədə qəbul şöbəsi, poliklinika, manipulyasiya, rentgen, sanitar-təmizləmə, sarğı, müayinə və növbətçi həkim otaqları yerləşir. Poliklinikada analiz qəbulu, ümumi laboratoriya, fizioterapiya, ultrasəs muayinəsi, terapevt, elektroensefaloqramma, elektrokardioqramma, stomatologiya, ginekologiya, endokrinologiya, otolarinqologiya, oftalmoloq ve terapevt otaqları ən son avadanlıqla təchiz olunmuşdur. Şüa-diaqnostika şöbəsində fotolaboratoriya, flüoroqrafiya və rentgen otaqları fəaliyyət göstərir. Terapiya şöbəsinin kardioloji bölümündə eyni vaxtda 20 xəstə müalicə oluna bilər. İkinci mərtəbədəki 30 çarpayılıq uşaq xəstəlikləri, ginekologiya və doğum şöbələri, izolyator, əməliyyat otağı yerləşir. 15 çarpayılıq doğum şöbəsində doğuş zalı, yeni doğulan körpələr üçün xüsusi otaq da yüksək səviyyədə qurulmuşdur.*

*Xəstəxananın avadanlığı Yaponiya, Koreya Respublikası, Almaniya və Avropanın digər ölkələrindən gətirilmişdir.*

* * *

*Sonda prezident İlham Əliyev kollektivi təbrik etdi.*

Hörmətli dostlar!

Əziz həkimlər, Sizi gözəl xəstəxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu xəstəxana dünyanın ən yüksək standartlarına cavab verir, quraşdırılmış avadanlıqlar ən qabaqcıl şirkətlər tərəfindən təmin edilibdir. Binanın həm xarici görünüşü gözəldir, həm müalicə üçün bütün şərait var,

həkimlərin iş şəraiti də yaxşıdır. Burada ən yüksək tibbi xidmət göstərilməlidir.

Mən sizi ürəkdən təbrik edirəm. Doğrudan da bölgənin inkişafı üçün, Göygöl rayonunun inkişafı üçün bu xəstəxananın çox böyük əhəmiyyəti var. Çünki insanların sağlamlığı, sosial problemlərin həlli bir nömrəli məsələdir və indi Azərbaycanın hər yerində gözəl tibb ocaqları yaradılır. Burada olan şərait dünyanın ən inkişaf etmiş ölkələrində olan şəraitə bərabərdir, quraşdırılmış avadanlıq dünya şöhrətli firmaların ən son istehsalıdır. Nazir mənə məlumat verdi ki, həkimlər də təlim kurslarından keçiblər və bu kurslar daim aparılmalıdır. Çünki bütün elmlər kimi, tibb elmi də inkişaf edir, yeniliklər meydana çıxır, yeni avadanlıqlar yaradılır. Mən Göygöl sakinlərindən xahiş edirəm ki, onlar ildə bir dəfə gəlib burada müayinədən keçsinlər. Laboratoriya da var, qan analizləri versinlər.

Səhiyyə sistemində aparılan islahatlar haqqında fikirlərimi mən bu yaxınlarda Bakıda Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun açılışında söyləmişəm. Bu gözəl xəstəxananın timsalında bunu nəinki Bakıda, hər bir rayonda, hər bir bölgədə, rayonun böyüklüyü, kiçikliyindən asılı olmayaraq, ən ucqar yerlərdə bir daha görürük. Göygöl əhali baxımından böyük rayon deyil, rayon mərkəzində haradasa 25 min insan yaşayır. Buna baxmayaraq 180 çarpayılıq xəstəxana istismara verilir və bütün başqa yerlərdə, başqa bölgələrdə bu siyasət davam etdirilir.

Bütövlükdə, Göygöl rayonunun inkişafı son illər uğurla gedir. Yaxşı işlər görülür, müəssisələr tikilir, şəhər abadlaşır. Rayonda quruculuq işləri aparılır, parklar salınır, insanların yaşaması, istirahəti, işləməsi üçün bütün şərait var, daha da yaxşı olmalıdır.

Sizi bir daha xəstəxananın istifadəyə verilməsi münasibətilə təbrik edirəm, hamınıza uğurlar arzulayıram.

**Bağda Cəfərova** (*həkim*): Əfsanəvi Göygölün adını verdiyiniz bu diyara xoş gəlmisiniz! Bizim rayona hər

gəlişiniz böyük bayramdır. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu sosialyönümlü siyasəti Siz uğurla davam etdirirsiniz. İnsanların sağlamlığı uğrunda çox böyük işlər görürsünüz. Sizin rəhbərliyinizlə başqa sahələrdə olduğu kimi, səhiyyə sahəsində də çox mühüm dəyişikliklər aparılır. Ölkəmizdə səhiyyə müəssisələri Mehriban xanım Əliyevanın iştirakı ilə, Sizin iştirakınızla açılmışdır. Siz Talassemiya Mərkəzinin, akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun, Psixonevroloji Uşaq Evinin açılışında şəxsən iştirak etmisiniz. İndi növbəti səhiyyə bayramı bizimkidir. İndiyə qədər bizim xəyallarımızda olan belə bir xəstəxananı tikdiniz, ən yüksək tələblər səviyyəsində təchiz etdiniz və bizə bəxş etdiniz. Təkcə biz həkimlərə deyil, Göygöl rayon sakinlərinə böyük hədiyyə bəxş etmisiniz, Sizə təşəkkürümüzü bildiririk

**İ l h a m Ə l i y e v**: Burada insanlara çox gözəl xidmət göstərilməlidir və insanlar burada şəfa tapmalıdırlar. Onu da qeyd etmək istəyirəm ki, keçən dəfə mən rayona gələndə buranın adı başqa idi və mən fikirləşdim ki, bu rayona daha da gözəl ad verilməlidir. Ancaq o da həqiqətdir ki, Göygöl adını rayon sakinləri özləri seçdilər. Mən demişdim ki, rayonda bir müzakirə getsin, diskussiyalar, fikir mübadiləsi aparılsın: hansı ad daha münasibdir və ya hansı adın daha da böyük tarixi və mədəni əhəmiyyəti var?! O vaxt bir neçə ad müzakirə edildi və mən çox şadam ki, məhz rayon sakinləri tərəfindən Göygöl adı seçildi. Bu doğrudan da gözəl addır. Göygöl gölü Azərbaycanın ən gözəl təbii sərvətlərindən biridir.

Dünyanın ən qabaqcıl ölkələrinin xəstəxanalarında hansı avadanlıq varsa, ondan burada vardır. Onu da təmin etməliyik ki, tibbi xidmət yüksək səviyyədə olsun. Bu işlərdə sizə uğurlar arzulayıram. Bütün Göygöl sakinlərinə can-sağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## Mədəniyyət və istirahət parkının açılışı mərasimi

*Mayın 25-də Göygöl rayon mərkəzində mədəniyyət və istirahət parkının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılışda iştirak etmişdir.*

*Əsaslı təmirinə bu il başlanılan parkın ərazisi 3 hektardır. Burada rayon sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Müxtəlif mərasimlərin keçirilməsi üçün 300 nəfərdən çox tamaşaçı tutan Yaşıl Teatr parka xüsusi gözəllik verir. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün parkda gənclər evi, stolüstü oyunlar zalı, tir fəaliyyət göstərir.*

*Bundan başqa, parkın ərazisində 200 kvadratmetr sahəsi olan idman meydançası, uşaqlar üçün xüsusi attraksionlar quraşdırılmış əyləncə meydançası da vardır.*

*Parkın ərazisinin 2 hektarında yaşıllıq sahələri salınmış, 2 mindən çox bəzək kolu və ağac əkilmiş, kənardan münbit torpaq gətirilmişdir. Yaşıllıq sahəsini suvarmaq məqsədi ilə hər bir xiyabana ayrıca su xətti çəkilmiş, parkda müasir işıqlandırma sistemi quraşdırılmış, 250 dekorativ işıq dirəyi qoyulmuşdur.*

## ŞƏMKİR RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*25 may 2009-cu il*

*Mayın 25-də prezident İlham Əliyev Göygölə səfərini başa çatdıraraq Şəmkir rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Şəmkirin mərkəzi parkındakı abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev abidənin ətrafında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, burada əsaslı quruculuq və abadlıq işləri aparılmışdır, şəhərin bu hissəsi sakinlərin mənalı istirahət ocaqlarından birinə çevrilmişdir. Mərkəzi parkda salınan geniş yaşıllıq zolaqları həm şəhərin simasına xüsusi yaraşıq verir, həm də ulu öndərin xatirəsinin əbədiləşdirildiyi bu məkana xoş ovqat gətirir.*

### Olimpiya İdman Kompleksinin açılışı

*Mayın 25-də Şəmkir Olimpiya İdman Kompleksinin açılışı mərasimi olmuşdur.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasimə toplaşmış rayon ictimaiyyətinin nümayəndələri, idmançılar dövlətimizin başçısını mehribanlıqla, hərarətli alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdikdən sonra komplekslə yaxından tanış oldu.*

*Məlumat verildi ki, tikintisi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş bu kompleksin təməli 2006-cı il noyabrın 1-də prezident İlham Əliyev tərəfindən*

*qoyulmuşdur. Obyektin layihəsini Gənclər və İdman Nazirliyinin sifarişi ilə «Azərinşaatlayihə» İnstitutu hazırlamışdır.*

*Kompleksin ərazisi 9 hektar, əsas korpusu isə üçmərtəbəlidir. Əsas korpusda həndbol, futzal, voleybol, basketbol oyunlarının keçirilməsi üçün əsas zal yerləşir. 682 tamaşaçı tutan zalda elektron tablo quraşdırılmışdır. Burada digər idman növləri üçün də meydançalar vardır. Qapalı üzgüçülük hovuzu xüsusi antimikrob örtüklə, süzgəc və xlor vannası ilə təchiz edilmişdir. Əsas binada idman zallarından başqa, trenajor zalı, stolüstü oyunlar üçün nəzərdə tutulan bölmələr, yeməkxana və digər yardımçı otaqlar yerləşir. Kompleksin ərazisində 2 tennis kortu, 2 voleybol və 1 basketbol meydançası vardır.*

*Kompleksə idman oyunları, güləş, boks, ağır atletika və gimnastika salonları, 30 yerlik mehmanxana və 73 yerlik yeməkxana, 2 min tamaşaçı yeri olan futbol stadionu, avtomobil dayanacağı və birmərtəbəli kotteclər daxildir.*

*Dövlətimizin başçısı kompleksdə gənc idmançıların çıxışlarını, onların fiziki hazırlıq səviyyəsini izlədi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ İDMANÇILARI İLƏ GÖRÜŞÜ

*25 may 2009-cu il*

*Mayın 25-də İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və idmançıları ilə görüşdü.*

**Mikayıl Sadıqov** (*Şəmkir güləş məktəbinin direktoru*): Cənab Prezident, icazə verin Sizi bütün şəmkirlilər adından salamlayım və Şəmkirə «Xoş gəlmisiniz!» deyim.

Möhtərəm Prezident, şəmkirlilər bu günü çox səbirsizliklə gözləyirdilər. 2 il əvvəl Siz burada Olimpiya İdman Kompleksinin təməlini qoyanda çıxış edərək söz verdiniz ki, mən bu kompleksin açılışında şəxsən iştirak edəcəyəm. Sözünüzə əməl edib Şəmkirə gələrək olimpiya kompleksinin açılışında iştirak etdiyinizə görə Sizə bütün şəmkirlilər adından təşəkkürümüzü bildiririk.

Cənab Prezident, bu gün açılışını etdiyimiz Şəmkir Olimpiya İdman Kompleksi Sizin idmançılara hədiyyə etdiyiniz 19-cu olimpiya kompleksidir və tikilməkdə olan, yaxın vaxtlarda istifadəyə veriləcək kompleksləri də bunun üstünə əlavə etsək, onda bunların sayı 35-ə çatacaqdır. İnkişaf etmiş heç bir Avropa ölkəsində qısa müddət ərzində bu qədər idman obyektləri tikilib istifadəyə verilməmişdir.

Sizin çəkdiyiniz zəhmət hədər getmir və çempionlarımızın sayı günbəgün çoxalır. Bu il güləş ili olub. Güləşçilərimiz ikinci dəfə dünya kubokunu Bakıya gətirdilər. Az sonra Pribaltika ölkələrində güləşçilərimiz misli görünməmiş qələbələr qazandılar. Bu uğurlar Sizin çəkdiyiniz zəhmətin, göstərdiyiniz diqqət və qayğının bəhrələridir.

Cənab Prezident, Sizi əmin edirəm ki, bu gün açılışını etdiyiniz Şəmkir Olimpiya İdman Kompleksinə gənclərin böyük axını olacaqdır. Şəmkir idmançılar şəhəridir. Mən Sizi əmin edirəm ki, yaxın gələcəkdə Şəmkirdə, bax, bu idman zalında şəmkirli gənclər qısa müddət ərzində idmanın müxtəlif bölmələrində idmanla məşğul olub, öz ustalıqlarını artırıb, tezliklə Azərbaycan yığma komandasının tərkibində dünya və Avropa birinciliklərində bayrağımızı yüksəklərə qaldıracaqlar. Mən Sizə şəmkirlilər adından bir daha uzun ömür, cansağlığı arzulayıram.

**İ l h a m   Ə l i y e v**: Çox sağ olun, təşəkkür edirəm. Sizi gözəl Olimpiya İdman Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

İki il yarım əvvəl bu yerdə – bura boş bir yer idi – təməl daşını bərabər atdıq. Düz deyirsiniz, o vaxt demişdim ki, açılışında özüm gəlib iştirak edəcəyəm və bu gün çox böyük məmnuniyyət hissi ilə bu gözəl binanın qarşısında sizinlə görüşürük.

Doğrudan da bu, şəmkirlilərə gözəl hədiyyədir və burada idmanla məşğul olmaq üçün gözəl şərait var. Gənclərin asudə vaxtlarının səmərəli keçməsi üçün gözəl imkanlar var – üzgüçülük hovuzu, açıq meydançalar, tennis, basketbol, futbol, voleybol zalları. Bura idman və gənclər mərkəzidir, şəhərə də əlavə yaraşıq verir. Bu gözəl bina şəhərin girişində yerləşir. O ki qaldı idmanın ümumi inkişafına, Azərbaycan idman dövlətidir. Bunu təkcə biz yox, dünyanın idman aləmi deyir. Həm beynəlxalq yarışlarda, Olimpiya oyunlarında, qeyd etdiyiniz güləş üzrə Avropa çempionatında, dünya kubokunda uğurlarımız deməyə əsas verir ki, Azərbaycan dünya miqyasında birincilər sırasındadır. Həm yeniyetmələr, həm uşaqlar, həm də ki, peşəkar idmançılarımız çox böyük istedada malikdirlər. Şəmkirdə də ənənəvi olaraq həmişə yaxşı idmançılar olub. Bu gün idmanla məşğul olmaq üçün ən gözəl şərait də var. Mən çox istəyirəm ki, burada idman bölmələri təşkil edilsin və uşaqlar bu idman bölmələrinə gəlib idmanla məşğul olsunlar.

Azərbaycanda idman artıq çox geniş yayılır, hər yerdə idman kompleksləri tikilir. Bu, uzunmüddətli proqramdır. Biz bütün yerlərdə, bütün şəhərlərdə gözəl idman infrastrukturu yaradırıq. Şəmkirdə bu gözəl idman kompleksi, deyə bilərəm ki, Azərbaycanda tikilmiş komplekslər içində birincilər sırasındadır.

Bizim böyük planlarımız var. Azərbaycanda indi müxtəlif beynəlxalq yarışlar keçirilir. Hətta biz Olimpiya oyunlarını Azərbaycanda keçirmək istədik. Ancaq bizim birinci müraciətimiz hələ ki, cavabsız qaldı. O da təbiidir. Dünyada elə hal olmayıb ki, ilk dəfə hansısa ölkə müraciət etsin və Olimpiya oyunlarını keçirməyə müvəffəq olsun. Amma bizim müraciətimiz onu göstərir ki, biz buna qadirik.

Şəmkirin ümumi inkişafı da çox ürəkaçandır. Burada gözəl işlər görülüb, yeni müəssisələr, iş yerləri açılır, şəhər abadlaşır. Bu gün bura gəlməzdən əvvəl Şəmkirçay su anbarının təməl daşını qoyduq. Böyük layihədir. Bu layihə hələ Sovet İttifaqı zamanında dəfələrlə beşillik plana salınırdı, çıxarılırdı. Ona görə ki, vəsait yox idi. Son bir neçə ildə biz bu layihə üzərində ciddi işlədik. Düzdür, çox böyük vəsait tələb edir, haradasa, 400 milyon manat dəyərində investisiya qoyulacaqdır. Amma biz qərara gəldik ki, bunu etməliyik. Çünki bu, bölgə üçün lazımdır. On minlərlə hektar torpaq suvarılacaqdır. Minlərlə insan işlə təmin olunacaqdır. Kənd təsərrüfatının inkişafı sürətlə gedəcək. Bu tikinti zamanı yüzlərlə, minlərlə insan burada işləyəcəklər, özləri üçün iş yerləri tapacaqlar. Yəni, bu investisiya rayon infrastrukturuna öz müsbət təsirini göstərəcəkdir. Ən önəmlisi isə kənd təsərrüfatının inkişafına xidmət göstərəcəkdir. Biz ərzaq təhlükəsizliyini təmin etmişik. Bu gün yeni sahələrin işə salınması, suvarma məsələlərinin həlli, əlbəttə ki, Azərbaycanı ərzaq təhlükəsizliyi baxımından çox gücləndirəcəkdir. Bizim ərzaq məhsullarımız ixrac edilir.

Bu gün qonşu rayonlarda da olmuşuq. Göygöldə yeni xəstəxananın açılışında iştirak etdik, Şəmkirçay su anbarı,

yeni şərab zavodu, Gəncədə yeni obyektlərin yaradılması ilə tanış oldum. Sabah Gədəbəy rayonunda Azərbaycan üçün yeni bir sənaye sahəsi açılır, qızıl sənayesi. Ora böyük investisiyalar qoyulur.

Bütün görülən işlər münasibətilə mən sizi təbrik edirəm. Şəmkirlilərin bu işlərdə çox böyük əməyi, fədakarlığı olub, Mən də həmişə çalışacağam ki, rayon üçün önəmli olan problemləri birlikdə həll edək.

## Mədəniyyət evi qarşısındakı istirahət parkı ilə tanışlıq

*Mayın 25-də prezident İlham Əliyev Şəmkir Mədəniyyət Evinin qarşısında istifadəyə verilmiş istirahət parkı ilə tanış olmuşdur.*

*Genişmiqyaslı abadlıq işlərinin görüldüyü bu park maraqlı dizaynı ilə diqqəti cəlb edir. Xüsusi dekorativ bitkilərin, gül kollarının əkildiyi parkda musiqili fəvvarə quraşdırılmış, Azərbaycan mədəniyyəti və ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan şəxslərin abidələri ucaldılmışdır.*

*Dövlətimizin başçısı parkı gəzdi, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin və şair Əhməd Cavadın piano arxasında gərgin işinin əks olunduğu kompozisiyaya və aşıq Teymurun xatirəsinə yaradılmış guşəyə maraqla baxdı.*

## Şəmkirdə istehsal olunan malların sərgisinə baxış

*Mayın 25-də prezident İlham Əliyev istirahət parkı ilə tanışlıqdan sonra rayon mədəniyyət evində təşkil olunmuş sərgiyə baxmışdır. Sərgidə son illər sahibkarlığın inkişafı məqsədi ilə dövlətimiz tərəfindən yaradılmış əlverişli şəraitdən bəhrələnən şəmkirli iş adamlarının istehsal etdiyi sənaye, tikinti və kənd təsərrüfatı məhsulları nümayiş olunurdu.*

*Bildirildi ki, 2008-ci ildə Şəmkirdə ümumi məhsul buraxılışının həcmi 225 milyon manatdan çox olmuşdur. Əmtəə dövriyyəsinin həcmi 152 milyon manatı ötmüşdür. Ötən il*

*rayonda 54 min 566 ton taxıl, 102 min 287 ton kartof, 116 min 27 ton tərəvəz istehsal edilmişdir. Süd istehsalı 36 min 770 ton, ət istehsalı 7350 ton, yumurta istehsalı 37 milyon 615 min ədəd olmuşdur. İqtisadiyyatın inkişafı rayonun büdcəsinə də təsirsiz ötüşməmişdir. Büdcə gəlirləri 8 milyon 320 min manat, büdcə xərcləri 32 milyon 364 min manat, mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait isə 24 milyon 401 min 135 manat təşkil etmişdir.*

*Prezident İlham Əliyev 1972–2000-ci illərdə ümummilli lider Heydər Əliyevin Şəmkir rayonuna səfərlərini əks etdirən şəkillərə baxdı.*

**«Şərq ulduzu» MMC-nin fəaliyyəti ilə tanışlıq**

*Prezident İlham Əliyev Şəmkir rayonuna səfəri çərçivəsində «Şərq ulduzu» Məhdud Məsuliyyətli Cəmiyyətində olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verilmişdir ki, müəssisənin Şəmkir rayonunda 108 hektar üzüm sahəsi vardır. Üzüm bağları Fransa, İran və Gürcüstandan gətirilən və yerli tinglər hesabına salınmışdır. Bu bağlarda «Şardane», «Bayan şirə», «Merlot», «Rikasiteli» «Sapiravi», «Kaberne savinyon», «Şiraz» kimi üzüm sortları yetişdirilir. Vətəni Ön Asiya olan «Şiraz» üzüm sortu ilk dəfə məhz Şəmkirdə yetişdirilmişdir. «Bayan şirə» isə keçmiş sovetlər dönəmində ən yararsız sortlardan hesab olunsa da, indi onun yetişdirilmə və şərabının hazırlanması texnologiyasında yeniliklər əldə olunmuşdur. İndi bu sortdan alınan məhsul ən qiymətli şərab hesab olunur. «Bayan şirə» 2008-ci ildə Moskvada keçirilən sərgidə qızıl medalla mükafatlandırılmışdır.*

*Şərabçılıq Şəmkirdə ənənəvi istehsal sahəsidir. «Şərq ulduzu» MMC-nin fəaliyyəti də bu baxımdan xüsusi əhəmiyyətə malikdir. 2006-cı ildə yaradılan müəssisə hazırda 2 min ton üzümü emal etmək gücünə malikdir. Şərab zavodu ən müasir texnologiyaların tətbiqi əsasında qurulmuşdur. Burada quraşdırılan avadanlıq Almaniya və İtaliya istehsalıdır. Hazırda zavodda 7 növ şərab istehsal edilir. «Şardane», «Bayan şirə», «Merlot»,*

*«Rikasiteli», «Sapiravi», «Kaberne savinyon» və «Şiraz» şərabları onların əldə olunduqları üzüm sortlarının adını daşıyır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müəssisədə 125 nəfər çalışır. İşçilərin orta aylıq əməkhaqqı 250–300 manatdır. Alman layihəsi əsasında qurulmuş zavodda tutumu 14 tondan 37 tonadək olan 63 çən qoyulmuşdur. Dövlətimizin başçısı müəssisədə hazırlanan məhsulların müxtəlif sərgilərdə qazandığı nailiyyətləri əks etdirən guşəyə baxdı. Müəssisədə istehsal olunan şərablar 2008-ci ildə Moskvada keçirilən 2-ci beynəlxalq festivalda qızıl, gümüş və Qran-Pri mükafatlarına layiq görülmüşdür. Əldə olunan uğurlara görə müəssisəyə İSO:22000 beynəlxalq sertifikatı verilmişdir. Zavodda bu ildən konyak spirtinin çəkilməsi üçün yeni sex işə salınmışdır. Prezident İlham Əliyev müəssisədə yeni istehsal xəttinin işə düşməsini bildirən düyməni basdı. Yeni məhsulun ilk nümunəsi dövlətimizin başçısına təqdim olundu.*

## Şəmkir çayı üzərində inşa ediləcək dəryaçanın təməlqoyma mərasimi

*Mayın 25-də prezident İlham Əliyev Şəmkir çayı üzərində inşa ediləcək dəryaçanın təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına su anbarının suvarma sxemi, bu dəryaçanın bəndinin baş planı və iqtisadi göstəriciləri barədə məlumat verildi.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirdi ki, Şəmkirçay su anbarı aqrar islahatlara əsaslı töhfə verəcəkdir. Bu, son illərdə respublikamızda reallaşdırılan ən mühüm layihələrdən biridir. Dəryaçanın tikintisini ulu öndər Heydər Əliyev bu bölgə üçün çox vacib hesab edirdi. Layihə Şəmkirçayın keçdiyi Qaraqoç adlanan ərazidə, Seyfəli yaşayış məntəqəsinin yuxarı hissəsində reallaşdırılacaqdır. Su anbarı ilə yanaşı burada su elektrik stansiyası, əsas kanal, qidalandırıcı kanal, sol və sağ sahil kanalları inşa olunacaqdır. Layihənin həyata keçirilməsi ilə*

*Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarının 50 122 hektar torpaq sahəsinin su təminatı yaxşılaşdırılacaq, 20 834 hektar yeni sahənin suvarılması mümkün olacaqdır.*

*Su anbarının ümumi tutumu 160 milyon kubmetr, faydalı iş həcmi 135 milyon kubmetr, illik orta su axını 260 milyon kubmetr olacaqdır. Anbarın su səthinin sahəsi 504 hektara, suyun maksimal dərinliyi 122 metrə çatacaqdır. Hidrotexniki qurğunun üstdən uzunluğu 692 metr, eni 12 metr təşkil edəcəkdir. Təkcə bənd və bənd qovşağında 21 milyon kubmetrdən çox torpaq işi, 85 min kubmetr beton və daş-beton işləri görüləcək, tikintidə 7 min tondan çox metal konstruksiya və armaturdan istifadə olunacaqdır.*

*6 aqreqatın quraşdırılacağı su elektrik stansiyasının illik enerji hasilatı 56 milyon kilovat/saat təşkil edəcəkdir. Tikintinin layihəsini yerli və türkiyəli mütəxəssislər hazırlamışlar. İnşaat işlərini isə Türkiyə şirkəti həyata keçirəcəkdir.*

*Məlumat verildi ki, layihə Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumu tərəfindən ekspertiza edilmiş və müsbət rəy verilmişdir. Bu su anbarının inşası ətraf rayonların suvarma sisteminin yenidən qurulmasına və əsaslı şəkildə inkişafına imkan yaradacaqdır. Nəticədə kənd təsərrüfatının daha da inkişaf etdirilməsi və məhsuldarlığın xeyli artırılması üçün əlavə imkanlar yaranacaqdır.*

*Prezident İlham Əliyev gilizi təmələ buraxdıqdan sonra beton qarışığı özülə buraxıldı.*

*Dövlətimizin başçısı yüksəklikdən tikinti meydançasını seyr etdi.*

*Prezident İlham Əliyevə tikinti meydançasında işçilərin səmərəli fəaliyyəti, qidalanmaları və mənalı istirahətləri üçün yaradılan şərait barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, bütün bunlar beynəlxalq standartlara tam uyğundur.*

*Dövlətimizin başçısı layihə ilə bağlı fikirlərini bildirdi, tövsiyələrini verdi.*

## GƏDƏBƏY RAYONUNDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*26 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Gədəbəy rayonuna gəlmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə rayon mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı «Heydər parkı»nda aparılmış yenidənqurma, abadlaşdırma və yaşıllaşdırma işləri ilə tanış oldu.*

### Aşıq Musiqi məktəbinin təməlqoyma mərasimi

*Mayın 26-da prezident İlham Əliyevin Gədəbəyə səfəri çərçivəsində Aşıq Musiqi məktəbinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizdə ilk dəfə yaradılan Aşıq Musiqi məktəbi binasının tikinti işlərini «Regionların inkişafı» İctimai Birliyinin sifarişi ilə «Lider monolit» şirkəti həyata keçirəcəkdir. İkimərtəbəli bina üçün Heydər Əliyev parkının qərb hissəsində 4 min 169 kvadratmetr torpaq sahəsi ayrılmışdır.*

*Tikinti işlərinin vaxtında və keyfiyyətli aparılması məqsədilə hərtərəfli hazırlıq işləri görülmüşdür. Musiqi məktəbinin binasının ən müasir standartlara uyğun inşası üçün 1,5 milyon manat vəsait ayrılmışdır. 30 daimi iş yerinin açılacağı bu mədəniyyət ocağında 200 nəfər aşıq sənətinin sirlərinə yiyələnəcəkdir. Binanın hər mərtəbəsində 12 otaq olacaqdır. Buraya sinif otaqları, kitabxana, akt zalı, səhnə, qrim otağı, oxu zalı və digər inzibati otaqlar daxildir.*

*Məktəb binasının tikilib istifadəyə verilməsində əsas məqsədlərdən biri də aşıq və saz sənətimizi YUNESKO səviyyəsinə çıxarmaqdır. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın muğamla yanaşı, ölkəmizin aşıq sənətinin də geniş təbliği məqsədi ilə apardığı ardıcıl və kompleks iş bəhrəsini verməkdədir. Heydər Əliyev Fondunun xətti ilə reallaşdırılan silsilə tədbirlər sayəsində Azərbaycanın aşıq musiqisi artıq xaricdə də böyük rəğbət qazanmışdır və dünya musiqi inciləri sırasında layiqli mövqeyini tutmaqdadır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycanda aşıqlar yurdu kimi tanınan bölgələrimiz çoxdur. Bu baxımdan dağlar qoynunda yerləşən Gədəbəyin də özünəməxsus yeri vardır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu ilin martında Parisin məşhur Luvr Muzeyində konsert proqramı ilə çıxış etmiş 5 Azərbaycan aşığından 3-ü Gədəbəydəndir.*

*Prezident İlham Əliyev gilizi binanın təməlinə buraxdı. Özülə beton qarışığı tökdü.*

*Dövlətimizin başçısı aşıqlarla söhbət etdi.*

**İlham Əliyev**: Sizi təbrik edirəm. Keçən dəfə iki il yarım bundan əvvəl görüşmüşdük.

**İsfəndiyar Rüstəmov** (*aşıq*): Mən Sizə minnətdarlığımı bildirirəm. Ulu öndər Heydər Əliyev də bizi çox gözəl qiymətləndirib, mənim bu ansamblıma «Xalq aşıqları» adı verib.

Əziz Prezidentimiz, əziz qardaşım oğlu, bizim ölkənin, müstəqil dövlətin əziz rəhbəri, xilaskarı. Sizin gəlişiniz həmişə uğurlu olmuşdur. Mənə özünüz prezident təqaüdü verdiniz, bir aşığıma aşıqların qurultayından sonra əməkdar adı verdiniz. Məktəbin tikilməsi bizim üçün çox faydalı, əhəmiyyətlidir. Bu münasibətlə nəinki bizim, Azərbaycanın bütün aşıqlarına gözaydınlığı verirəm. Onlara da qismət olsun.

**İ l h a m  Ə l i y e v**: Bəli, çox gözəl bina tikiləcəkdir, onun şəklini görmüsünüz. Ümid edirəm ki, bina yaxın zamanda tikiləcəkdir. Onsuz da siz bu sənəti yaşadırsınız, onsuz da bu sənət nəsildən-nəslə keçir. Bax, bu uşağın da, mənə dedilər ki, böyükləri də, əcdadları da aşıq sənəti ilə məşğul idilər. Onsuz da bu sənət Azərbaycanda yaşayır və yaşayacaqdır. Ancaq biz istəyirik ki, şərait müasir səviyyədə olsun. Musiqi məktəbi gözəl olsun. Yeri də çox yaxşı seçilmişdir. Bura Gədəbəy şəhərinin mərkəzidir, parkın üstüdür, buranın çox gözəl təbiəti var, buradan gözəl mənzərə açılır.

Sizə uğurlar və cansağlığı arzulayıram. Bu gözəl, qədim sənəti yaşadın.

## Qızıl-mis emalı zavodunun fəaliyyətə başlaması

*Mayın 26-da Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin Gədəbəy qızıl-mis emalı zavodunun fəaliyyətə başlaması ilə bağlı mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verilmişdir ki, 1997-ci ildə Azərbaycanın «Azərqızıl» Dövlət Şirkəti ilə ABŞ-ın «R.V. İnvestment Group Services LLC» şirkəti arasında Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vecnəli perspektiv qızıl-filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır. Gədəbəy qızıl-mis layihəsi gəlirdə payı 51 faiz olmaqla, Azərbaycan hökuməti ilə birlikdə həyata keçirilir. Payı 49 faiz olan Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti layihəyə rəhbərlik edir. Bu şirkət Londonda qeydiyyatdan keçən Anqlo-Asiya Mininq MMC-nin tam subsidiyalı mülkiyyətidir. Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti layihə üçün zəruri olan bütün kapitalı təmin edir.*

*Gədəbəy yatağı hələ qədim dövrlərdən məlum olub və dəfələrlə mis və nəcib metalların çıxarılması məqsədi ilə*

*istismar edilmişdir. 1864–1917-ci illərdə yataqda müvafiq qaydada sənədləşdirilmiş dağ-mədən işləri aparılmışdır. Həmin dövrdə Almaniyanın «Siemens» şirkəti yataqda mis filizinin hasilatı ilə məşğul olmuş, təxminən 2 milyon ton filiz çıxarılmışdır. Sonralar Gədəbəy yatağında və onun ətrafında «Dövlətgeolkom» tərəfindən müəyyən fasilələrlə tədqiqatlar aparılmışdır.*

*Azərbaycan hökuməti tərəfindən təsdiq edilən və 2005–2009-cu illəri əhatə edən 4 illik İş Proqramı əsasında Gədəbəy, Qoşa və Ordubad kontrakt sahələrində geoloji-kəşfiyyat işlərinə başlanılmışdır. Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti 2006–2007-ci illərdə Gədəbəy kontrakt sahəsində yerləşən eyniadlı qızıl-mis yatağında almaz və əks-sirkulyasiya üsulları ilə ümumi dərinliyi 17700 metr olan 146 kəşfiyyat quyusu qazmaqla yatağın filiz ehtiyatlarını qiymətləndirmişdir. Quyuların maksimum dərinliyi 270 metr olmuşdur. Əksər quyularda yer səthindən 120 metr dərinlikdə filizləşmə zonası kəsilməsinə baxmayaraq, dərinlik üzrə etibarlı məlumat əldə etmək məqsədi ilə qazma işləri davam etdirilmişdir. Layihəyə mal-material, iş və xidmətlər ilə bağlı 50-yə yaxın subpodratçı təşkilat cəlb olunmuşdur. Kəşfiyyat, tikinti-quraşdırma işlərinə və avadanlığa ümumilikdə 60 milyon dollardan çox vəsait sərf edilmişdir.*

*Aparılan tədqiqatlar və analizlər nəticəsində Gədəbəy yatağında 15,6 milyon ton filizdə orta hesabla 1,5 q/t qızılın, 12,2 q/t gümüşün və 0,24 faiz misin olması müəyyən edilmişdir. Bu da yataqda təxminən 22 ton qızılın, 192 ton gümüşün və 37 min ton misin olması deməkdir. Yataqdaxili ehtiyatlar üzrə 7,6 milyon ton filizdə orta hesabla 1,86 q/t qızıl, 15,9 q/t gümüş və 0,24 faiz mis vardır. Bu da təxminən 14 ton qızıl, 123 ton gümüş və 22 min ton mis deməkdir. Topa aşındırma texnologiyasından istifadə edərək, bu ehtiyatlardan təxminən 70 faiz – 9,8 ton qızıl, 50 faiz – 61,5 ton gümüş və 35 faiz – 7,7 min ton mis istehsal etmək mümkün olacaqdır. Zavodun illik orta filiz məhsuldarlığı 1200 tondur. Gədəbəy layihəsi üzrə*

*ümumi gəlirin 229,1 milyon dollar, mənfəətin 107,2 milyon dollar olacağı gözlənilir.*

*Saziş üzrə şirkətə 6 sahə verilmişdir. Bu sahələrdən biri Gədəbəydə, biri Naxçıvanda, biri Tovuzda, üçü isə Ermənistanın işğalı altında olan ərazilərdədir. Gədəbəy kontrakt sahəsinin bir neçə obyektində yerüstü geoloji-kəşfiyyat işləri, geofiziki, geokimyəvi tədqiqatlar yerinə yetirilmişdir.*

*Dövlətimizin başçısı əraziyə baxdı, süxurların nümunələri ilə tanış oldu. Daha sonra prezident İlham Əliyev emal müəssisəsində oldu, zavodun işə başlamasını bildirən düyməni basdı.*

*Prezident İlham Əliyev Gədəbəy qızıl-mis zavodunun fəaliyyətə başlaması ilə bağlı mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

Bu gün Azərbaycanda yeni sənaye sahəsi fəaliyyətə başlayır. Qızıl və mis emalı zavodunun fəaliyyətə başlaması yeni sənaye sahəsinin fəaliyyətə başlaması deməkdir. Bu çox əlamətdar hadisədir, çox böyük bir inkişafın təzahürüdür. Əminəm ki, bu sənayenin gələcəyi uğurlu olacaq və Azərbaycan tezliklə qızıl, mis istehsal edən, ixrac edən ölkəyə çevriləcəkdir.

Əslində, XX əsrin 90-cı illərinin ortalarında ulu öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün praktiki addımlar atılmışdır. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycana böyük həcmdə xarici investisiyalar qoyulmağa başlanmışdır. 1996-cı ildə «Şahdəniz» qaz yatağının işlənilməsi üzrə müqavilənin bağlanması bu investisiyaları bir neçə dəfə artırmışdır. Şübhə yoxdur ki, məhz bu addımların nəticəsində Azərbaycanı dünyada sərmayə qoyuluşu baxımından etibarlı tərəfdaş kimi tanıdılar və bunun

nəticəsində 1997-ci ildə qızıl yatağı üzrə müqavilələr imzalanmışdır. Son illər ərzində dünya qızıl bazarı sabitləşəndən sonra ilk dəfə olaraq biz Azərbaycanda qızıl istehsalına başlayırıq. İki il yarım əvvəl mən burada olarkən hazırlıq işləri ilə tanış olmuşdum. Bu gün isə artıq tam sənaye sahəsi işə düşüb. Bu, Azərbaycan iqtisadiyyatı üçün, gələcək iqtisadi inkişaf üçün çox mühüm addımdır.

Baxmayaraq ki, dünya iqtisadiyyatı tənəzzülə uğrayır, birinci rübdə qeyri-neft sektorumuz 13,7 faiz artmışdır. Bu, ölkədə aparılan düşünülmüş iqtisadi islahatlar nəticəsində mümkün olmuşdur. Biz enerji və ərzaq təhlükəsizliyimizi təmin edə bilmişik və beləliklə, ölkənin dayanıqlı, uzunmüddətli inkişafı üçün bütün əsaslar yaradılıbdır.

Bu gün yeni sənaye sahəsinin işə düşməsi bu vaxta qədər görülmüş işlərin nəticəsində mümkün olmuşdur. Bu hadisə onu göstərir ki, Azərbaycan xarici sərmayədarlar üçün cəlbedici ölkədir. Azərbaycanda bütövlükdə çox gözəl investisiya mühiti var. 1997-ci ildə qızıl yataqları üzrə imzalanmış kontrakt, demək olar ki, neft kontraktlarına çox oxşayır. Yəni, bu kontrakt o əsasda hazırlanmışdı.

Dünən bölgədə ən böyük su anbarının tikintisinə başlanılmışdır. Şəmkirçay su anbarının təməl daşı qoyulmuşdur. Sırf dövlət tərəfindən maliyyələşdiriləcək bu layihə əminəm ki, 3-4 ilə tamamlanacaqdır. İlkin hesablamalara görə, qoyulacaq vəsaitin həcmi 400 milyon manatdır və bu illər ərzində minlərlə yeni iş yeri açılacaqdır. Şəmkirçay su anbarı və elektrik stansiyası istifadəyə veriləndən sonra həm ucuz elektrik enerjisi əldə ediləcək, həm də suvarılmayan yeni torpaqlara su veriləcəkdir. Şəmkir, Göygöl, Samux və Gədəbəy rayonlarının ərazisində suvarma məsələləri öz həllini tapacaqdır. Bu da özlüyündə yeni əkin sahələrinin işə düşməsinə gətirib çıxaracaq, kənd təsərrüfatı istehsalı artacaq, beləliklə, biz öz ərzaq təhlükəsizliyimizi daha çox təmin edəcəyik, daha çox kənd təsərrüfatı məhsulları ixrac edəcəyik.

Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi, vətəndaş birliyi də bütün bu işlərə təkan verir. Bu baxımdan qızıl-mis emalı zavodunun əhəmiyyəti çox böyükdür və bu zavodun fəaliyyətə başlamasının tarixi də çox maraqlıdır. Bu tarix, demək olar ki, Azərbaycanda islahatların aparılmasının tarixinə bərabərdir.

Mən zavodun fəaliyyətinə uğurlar arzulayıram. İnvestisiya gətirən şirkətlərə də öz minnətdarlığımı bildirmək istəyirəm. Çünki bu böyük sərmayələr bu sahəyə qoyulacaqdır. Bu investisiyalar Azərbaycan iqtisadiyyatına qoyulur və əlbəttə ki, bu investisiyaları qoyanlar mənfəət götürəcəklər. Azərbaycan dövləti xeyir götürəcək, yeni istehsal sahələri açılacaq, Gədəbəy rayonunda yaşayan vətəndaşlar – biz hamımız bu zavodun fəaliyyətindən səmərə görəcəyik.

Gədəbəy rayonunun inkişafı üçün də bunun böyük əhəmiyyəti var. Rayonun inkişafı ilə əlaqədar mən iki il yarım əvvəl Gədəbəydə olmuşdum, vəziyyətlə tanış olmuşdum, müvafiq göstərişlər vermişdim. O cümlədən Gədəbəyə yeni yolun salınması məsələsi də qoyuldu və bu gün gördüm ki, yol vaxtında və keyfiyyətli tikilibdir. Bütövlükdə rayonun inkişafı üçün burada gözəl təbiətin mövcudluğu əlavə şərait yaradır. Burada turizm imkanlarından geniş istifadə edilməlidir. Kənd təsərrüfatı sahəsində daha böyük işlər görülməlidir.

Bu zavodun fəaliyyətə başlaması Azərbaycanda iqtisadi siyasətin təzahürüdür və iqtisadi prioritetlərimizin bütün elementləri burada mövcuddur. Xarici sərmayələr, Azərbaycanın buna hazır olması və çox gözəl şəraitin mövcudluğu, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının mövcudluğu və bu zavod da bu proqrama tam uyğundur. Bir daha demək istəyirəm ki, bu zavodun çox böyük əhəmiyyəti var, böyük mənası var və mən zavodun fəaliyyətinə uğurlar arzulayıram. Gədəbəy sakinlərinə uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin prezidenti Reza Vəziri layihənin həyata keçirilməsi ilə bağlı ətraflı məlumat verərək bildirdi ki, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında Azərbaycan prezidentinin və hökumətinin dəstəyi həlledici rol oynayır.*

**Reza Vəziri:** Anqlo-Asiya Mininq MMC London birjasında birinci və hələ də yeganə şirkətdir ki, yalnız Azərbaycan Respublikasındakı kapitalına əsaslanaraq qiymətləndirilmişdir. Bu, aydın şəkildə onu göstərir ki, Qərb və beynəlxalq bazarlar bu ölkənin rəhbərliyinə və iqtisadi sabitliyinə tam etimad göstərir, burada xarici sərmayələr qanunla qorunur, hökumətin tam dəstəyinə malikdir.

Cənab Prezident, son bir neçə ildə biz Sizin ölkənizdə ən sürətlə inkişaf edən iqtisadiyyatın müşahidəçisinə çevrilmişik. Biz görürük ki, paytaxtınız və regionlarınız gözəlləşir, yollar, şoselər çəkilir, elektrik stansiyaları, xəstəxanalar, məktəblər, idman kompleksləri tikilir. Mən səmimi-qəlbdən sizin hamınıza minnətdarlığımı bildirirəm ki, bizim şirkətlərimiz belə bir gözəl mühitdə sizin ölkənizə sərmayə yatıra bilər və iqtisadiyyatın inkişafına töhfə verər.

*Cari ildə daha bir və ya iki layihəni Azərbaycan dövlətinə təqdim etmək istədiklərini bildirən Reza Vəziri qeyd etdi ki, indiyə qədər müəssisənin yaradılmasında çalışan 400 nəfərdən 180-i Gədəbəy sakinidir. Zavod işə düşdükdən sonra burada 3 növbədə 480 nəfər çalışacaqdır.*

**Con Sununu** (*Anqlo-Asiya Mininq MMC-nin rəhbəri*): Hesab edirəm ki, bu iki prezident son 15 ildə böyük işlər görmüşlər və onlar uğurun əldə edilməsinə çox sadiq yanaşmışlar. Onların arzusu və məqsədi məhz bu ölkənin xalqına xidmət etməkdən ibarətdir. Onlar belə bir layihənin həyata keçirilməsini çox mühüm hesab etmişlər. Çünki bu layihənin uğurla həyata keçirilməsi nəticəsində bir çox iş

yerləri açılacaq, bu məhsullar ixrac olunacaq və ölkə iqtisadiyyatı həm Bakıda, həm də rayonlarda inkişaf edəcək.

Cənab Prezident, bizə böyük şərəf verərək bugünkü mərasimdə iştirak edirsiniz. Bu bizim üçün, bütün xalq üçün böyük fərəh hissi ilə dolu bir gündür. Çünki biz layihəni həyata keçirməklə onu reallığa çevirdik. Bu, prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Çox sağ olun.

*Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin Gədəbəy geoloji-axtarış kəşfiyyat işləri üzrə böyük mühəndisi Şakir Qədimov Gədəbəyin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlandığını bildirdi. Ölkədə həyata keçirilən irimiqyaslı layihələri, vətəndaşların firavan yaşaması naminə görülən işləri xatırladan Ş.Qədimov, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyətini də xüsusi vurğuladı.*

**Ş a k i r Q ə d i m o v**: Gədəbəydə qızıl emalı zavodunun açılması söhbəti hələ sovetlər vaxtından gedirdi. Lakin bu ideya real həyata vəsiqəsini yalnız 1997-ci ildə ulu öndər Heydər Əliyevin xeyir-duası ilə aldı. Bu işi Siz başa çatdırdınız, cənab Prezident. O vaxt Gədəbəyin ağsaqqalları tez-tez köks ötürərək, rayonumuzun nə vaxtlarsa metallurgiya nəhəngi olmasını xatırlayır, bir-birinə ümidlə «görəsən, o günlər bir də qayıdacaqmı» sualını verirdilər. Bu günü gədəbəylilərə Siz qaytardınız, cənab Prezident. Yaşadığımız bu fərəhli gün tək gədəbəylilərin deyil, bütün Azərbaycan xalqının illərlə ürəyində bəslədiyi arzusunun həqiqətə çevrildiyi bir gündür.

*Müəssisənin fəaliyyəti ilə yaxından tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı, tövsiyələrini verdi.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının keçmiş prezidenti Roh Mu Hyunun vəfatı xəbəri məni kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2009-cu il*

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.*

*Əhməd Davudoğlu Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan–Türkiyə ikitərəfli münasibətləri, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyə prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ KRALLIĞININ ENERGETİKA NAZİRİ MƏHƏMMƏD DHAEN ƏL-HAMİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Birləşmiş Ərəb Əmirlikləri Krallığının Energetika naziri Məhəmməd Dhaen əl-Hamilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Birləşmiş Ərəb Əmirliklərinin Energetika naziri prezident İlham Əliyev ilə Davosdakı görüşünü məmnunluqla xatırlatdı. Nazir bu səfərində əsas məqsədin ölkələrimiz arasında energetika sahəsində həm ikitərəfli, həm də beynəlxalq səviyyədə əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu bildirdi. Qonaq dedi ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında böyük tarixə malik energetika sahəsində gələcək əməkdaşlıq üçün yaxşı potensial vardır.*

*Azərbaycanın neft sənayesinin zəngin təcrübəsinə toxunan prezident İlham Əliyev ölkəmizin energetika sahəsində uğurlarından söhbət açaraq qeyd etdi ki, nəhəng energetika layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan beynəlxalq energetika sahəsində də əlaqələrini genişləndirir. Azərbaycan dövlətinin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Energetika nazirinin bu səfərinin iki ölkə arasında energetika sahəsində əməkdaşlığı genişləndirmək baxımından faydalı olacağına əminliyini ifadə etdi.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU ƏSƏD ALƏMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Aləmin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaq Dünya Bankının Azərbaycan ilə uzun illər uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Daha sonra Əsəd Aləm dedi ki, təmsil etdiyi qurumun fəaliyyətinin əsas istiqamətlərindən biri də Azərbaycanın iqtisadiyyat sahəsində əldə etdiyi uğurlara dəstək verməkdən ibarətdir.*

*Dövlətimizin başçısı iqtisadiyyatın bütün sahələrində böyük nailiyyətlər əldə edən ölkəmizin beynəlxalq maliyyə qurumları, o cümlədən Dünya Bankı ilə səmərəli əməkdaşlıq etdiyini bildirdi və bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etdi.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ**

Hörmətli cənab Federal Prezident!

Almaniya Federativ Respublikasının Federal Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Almaniya dövlətlərarası münasibətlərinin hazırkı yüksək səviyyəsi məmnunluq doğurur. Əminəm ki, əməkdaşlığımızın hərtərəfli inkişafı, qarşılıqlı maraq doğuran işbirliyimizin daha da dərinləşməsi, əlaqələrimizin bütün sahələrdə genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 may 2009-cu il*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2009-cu il*

*Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Respublika günü münasibətilə paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL

*«Buta» sarayı*

*27 may 2009-cu il*

*Mayın 27-də «Buta» sarayında 28 May – Respublika gününə həsr olunmuş rəsmi qəbul təşkil edilmişdir.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı və Azərbaycan xalqını gözəl bayram – Respublika günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik və cansağlığı arzulayıram.

91 il əvvəl Şərqdə – müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaranmışdır. Bu, tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk dəfə olaraq demokratik cümhuriyyət qurulur, digər tərəfdən, Azərbaycan xalqı müstəqilliyə, azadlığa qovuşurdu. Ancaq əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. 2 ildən sonra respublika müəyyən səbəblər üzündən süqut etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının fəaliyyətinə həmişə böyük hörmətlə yanaşmışdır. Keçən il Xalq Cümhuriyyətinin 90 illik yubileyini Azərbaycanda çox geniş

və təntənəli şəkildə qeyd etmişdik. Bu gözəl tarix bu il də geniş şəkildə qeyd edilir. 2 il əvvəl imzaladığım sərəncama əsasən Bakının mərkəzində, İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Bu tarix bizim tariximizdir və biz tarixdən həmişə ibrət dərsi götürməliyik.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra biz 70 ildən çox Sovet İttifaqının tərkibində yaşamışıq. Ancaq 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan yenidən, XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu. Ancaq müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib. Faktiki olaraq Azərbaycan parçalanmağa sürüklənirdi. Müstəqillik 1991–93-cü illərdə formal xarakter daşıyırdı. Biz bir tərəfdən, daxili çəkişmələr və hakimiyyət uğrunda aparılan mübarizə, vətəndaş müharibəsi, digər tərəfdən, Ermənistanın Azərbaycana etdiyi təcavüz siyasəti nəticəsində torpaqlarımızın işğal altına düşməsi şəraitində yaşayırdıq. Məhz o illərdə – 1992-ci ildə Şuşa və Laçının, 1993-cü ilin birinci yarısında Kəlbəcərin işğalı nəticəsində, demək olar ki, müharibənin birinci mərhələsinin taleyi həll edildi. Biz çalışırıq ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi sülh yolu ilə həll olunsun. Ancaq başqa variantları da istisna etmirik.

Beləliklə, 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra ölkədə vəziyyət sabitləşdi. Buna bir neçə il lazım oldu ki, vəziyyət sabitləşsin, ictimai-siyasi asayiş bərpa olunsun, sabitlik təmin olunsun və inkişafa başlayaq. 1993–2003-cü illər, sözün əsl mənasında, sabitlik və inkişaf illəri olmuşdur. O illər ərzində Azərbaycanda dövlətçiliyin əsasları quruldu. O illərdə ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyamız bu gün Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, ölkəmizin müstəqil dövlət kimi yaşamasına xidmət edir. O illərdə hüquqi islahatlar aparılmışdır. Bir sözlə, 1993–2003-cü illər Azərbaycanın müstəqil dövlət kimi

inkişaf etdirilməsində həlledici rol oynamışdır. Bu illərdə biz Heydər Əliyev siyasətinin təntənəsini görürük. Azərbaycanın son 5 ildə keçdiyi yol bir daha sübut edir ki, 1993-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdir və bu, yeganə düzgün seçim idi. Azərbaycan xalqı bu seçimə sadiqdir və biz müxtəlif mərhələlərdə bunu görmüşük.

Azərbaycan beynəlxalq mövqelərini yüksək dərəcədə möhkəmləndirə bilmişdir. Azərbaycanın xarici siyasəti çox açıqdır, aydındır. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, ikitərəfli münasibətlərin inkişafında maraqlıyıq. Azərbaycan dünya birliyində etibarlı ölkə və tərəfdaş kimi tanınır. Son illərdə dostlarımızın, müttəfiqlərimizin sayı xeyli dərəcədə artmışdır. Müxtəlif təşkilatlarda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə əlaqədar ədaləti, bizim mövqeyimizi əks etdirən çoxsaylı qərarlar və qətnamələr qəbul edilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı keçən ilin mart ayında BMT-nin Baş Məclisində qətnamənin qəbul edilməsi bizim həm mənəvi, həm siyasi qələbəmizdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim xarici siyasətimizin əsas istiqamətidir. Əfsuslar olsun ki, bütün səylərə baxmayaraq hələ də məsələnin həllinə nail ola bilməmişik. Bunun tək səbəbi var – Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqlar prosesini süni şəkildə uzatmaq taktikası. Məsələ ancaq beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Azərbaycan öz prinsipial, ədalətli və beynəlxalq hüquq normalarına əsaslanmış mövqeyindən əl çəkməyəcəkdir. Biz geri bir addım da atmayacağıq. Çünki dünya birliyi bizim mövqeyimizi dəstəkləyir, mötəbər beynəlxalq təşkilatların qərarları bizim tərəfimizdədir. BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilmişdir. Bu qətnamələr erməni qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Onlara məhəl qoyulmur. Digər beynəlxalq təşkilatların qərarları bizim mövqeyimizi dəstəkləyir.

Bəzi hallarda Ermənistan tərəfi xalqların öz müqəddəratını təyinetmə prinsiplərini ərazi bütövlüyü prinsipləri ilə bərabər, eyni səviyyədə göstərmək istəyir. Ancaq bu, məsələ ilə tanış olmayan, siyasətlə məşğul olmayan insanlar tərəfindən qəbul edilə bilər. Dünya ictimaiyyəti bu yanaşmanı inkar edir. 1975-ci il Helsinki Yekun Aktına baxmaq kifayətdir, orada hər şey göstərilib. Ərazi bütövlüyü əsas prinsipdir. Xalqların öz müqəddəratını həll etmə, müəyyən etmə məsələsi ərazi bütövlüyünü pozmamalıdır, ərazi bütövlüyü prinsipi ilə ziddiyyət təşkil etməməlidir.

Bu gün danışıqlar daha da intensiv xarakter daşıyır. Azərbaycan bütün dövrlərdə ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqeyini ortaya qoyub. Bu gün danışıqlar masasında işğal edilmiş bütün torpaqların Azərbaycana qaytarılması, köçkünlərin öz doğma torpaqlarına qayıtması məsələsi dayanır. Danışıqlar masasında Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmləri yoxdur və ola da bilməz. Nə bu gün, nə 10 ildən, nə 100 ildən sonra Dağlıq Qarabağ müstəqil dövlət olmayacaqdır. Azərbaycanın mövqeyi birmənalıdır. Bütün təzyiqlərə baxmayaraq, bu mövqeni biz axıra qədər müdafiə edəcəyik.

Bir daha demək istəyirəm ki, atəşkəsdən keçən 15 il ərzində biz öz konstruktiv mövqeyimizi göstərmişik. Bununla bərabər, Azərbaycanda ordu quruculuğu işlərinə böyük diqqət veririk. Son illərdə bu istiqamətdə çox böyük nailiyyətlər əldə edilib. Bizim peşəkar ordumuz var. Ordunun döyüş qabiliyyəti çox yüksəkdir. Ordumuzun maddi-texniki bazası son illər ərzində yüksək dərəcədə gücləndirilibdir. Heç kim bu gün Azərbaycana döyüş meydanında öz iradəsini diktə edə bilməz. Biz qısa müddət ərzində – cəmi 3 il ərzində güclü və böyük perspektivi olan müdafiə sənayesini yaratmışıq və 3 il ərzində ilkin istehsalatdan artıq böyük istehsalata başlamışıq. Bu gün Azərbaycan müdafiə sənayesinin istehsal etdiyi avadanlıq beynəlxalq sərgilərdə nümayiş etdirilir və yüksək qiymət alır.

Biz öz müdafiə gücümüzü daha da artıracağıq. Bu məqsədlər üçün nə qədər vəsait lazımdırsa, ayrılacaqdır. Biz öz vəsaitimizi xərcləyirik. Bu gün Azərbaycanın artan iqtisadi qüdrəti bizə imkan verir ki, ordu quruculuğuna 2 milyard dollar vəsait xərcləyək. Bu rəqəm Ermənistanın bütün büdcəsinə bərabərdir. Növbəti illərdə Ermənistan ilə Azərbaycan arasında bu gün mövcud olan böyük uçurum daha da dərinləşəcək, genişlənəcək, Azərbaycan daha da qüdrətli dövlətə çevriləcəkdir. Ermənistan isə öz işğalçı siyasəti nəticəsində beynəlxalq layihələrdən təcrid olunmuş vəziyyətdə qalmalıdır və qalacaqdır.

Azərbaycan sülhməramlı siyasət aparır, bütün ölkələrlə dostluq, mehribanlıq şəraitində yaşamaq istəyir. Biz uğurlu iqtisadi siyasət aparırıq. Son beş ildə dünyada iqtisadi artım misli görünməmiş templərlə ölçülürdü. Deyə bilərəm ki, son beş ildə bu, rekord göstəricilərdir. Bizim iqtisadi uğurlarımızın əsas səbəbi neft-qaz amili deyil, iqtisadi islahatlardır. Dünyada hökm sürən iqtisadi və maliyyə böhranı bir daha göstərdi: Azərbaycan tək ölkələrdəndir ki, böhranlı aylarda da öz iqtisadi inkişafını davam etdirir. Bu ilin birinci rübündə iqtisadiyyat 4,3 faiz, qeyri-neft iqtisadiyyatı 13,7 faiz artmışdır. Bütün infrastruktur layihələri, sosial layihələr icra edilir. Manatın məzənnəsi sabitdir. Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün praktiki tədbirlər görülür. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla başa çatmışdır. Bu gün biz Proqramın ikinci mərhələsinin əvvəlindəyik və növbəti 5 il ərzində ölkə qarşısında duran əsas iqtisadi, infrastruktur və sosial məsələlər öz həllini tapmalıdır.

Biz bölgədə özümüzü çox yaxşı hiss edirik. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə, heç bir məsələ, heç bir təşəbbüs – baxmayaraq ki, bu təşəbbüsün arxasında hansı qüvvələr var – icra oluna bilməz. Azərbaycanın milli maraqlarını nəzərə almamaq, təcrid etmək istəkləri heç vaxt baş tutmayacaq.

Biz istəyirik ki, bölgədə bütün ölkələr bir-biri ilə yaxşı əlaqədə olsunlar. Ancaq bunu etmək üçün başlıca şərt Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu, yeganə məsələdir ki, biz son 5 ildə bunu həll edə bilməmişik. Çünki bu, təkcə bizdən asılı deyil. Bizdə hələ ümidlər var ki, Ermənistan reallıqları, düşdüyü vəziyyəti dəqiq təhlil edərək düzgün nəticə çıxaracaqdır. Hər halda, biz öz siyasətimizi bütün istiqamətlərdə davam etdirəcəyik. Azərbaycan demokratik dövlətdir və demokratiya yolunu seçibdir. Bizim hüquqi dövlət quruculuğu işində böyük uğurlarımız var. Qanunun aliliyinin tətbiq edilməsində böyük addımlar atılıbdır. Azərbaycanda bütün azadlıqlar var – həm iqtisadi, həm siyasi azadlıqlar.

Azərbaycan öz tarixinə, milli irsinə bağlı olan, ancaq müasir, dünyəvi ölkədir və belə də inkişaf edəcəkdir. Mən Azərbaycanın gələcəyini çox gözəl, çox nikbin görürəm. Bizim uzunmüddətli inkişaf strategiyamız var və biz fəaliyyətimizi bu strategiya əsasında qururuq. Şübhə etmirəm ki, ölkəmiz növbəti illərdə də sürətlə inkişaf edəcək, Azərbaycan xalqının rifahı daha da yaxşılaşacaq, dünyadakı mövqeləri daha da möhkəmlənəcəkdir.

Bu gözəl işlərdə sizə və bütün Azərbaycan xalqına yeni uğurlar, yeni nailiyyətlər arzulayıram. Sağ olun.

* * *

*Rəsmi qəbulda iştirak edən xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri, tanınmış ziyalılar, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri, idman ictimaiyyətinin təmsilçiləri prezident İlham Əliyevlə görüşdülər. Onlar dövlətimizin başçısını Respublika günü münasibətilə təbrik etdilər, ölkəmizdə gedən iqtisadi tərəqqinin xalqımızın firavan gələcəyinə xidmət etdiyini, paytaxtla yanaşı, bölgələrdə də sürətli inkişafın getdiyini, nəticədə Azərbaycanın regionda liderliyini qoruyub saxladığını bildirdilər.*

## RUSİYA FEDERASİYASININ ENERGETİKA NAZİRİ, MDB-nin ELEKTROENERGETİKA ŞURASININ SƏDRİ SERGEY ŞMATKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Rusiya Federasiyasının Energetika naziri, MDB-nin Elektroenergetika Şurasının (EEŞ) sədri Sergey Şmatkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya Federasiyasının Energetika naziri Sergey Şmatko Bakıda eyni vaxtda iki mühüm tədbirin – Azərbaycan–Rusiya hökumətlərarası birgə komissiyanın toplantısının və MDB ölkələrinin Elektroenergetika Şurasının növbəti iclasının keçirilməsinin əhəmiyyətini vurğuladı. O, MDB ölkələrinin Elektroenergetika Şurasının növbəti iclasında qarşılıqlı maraq doğuran məsələlərin, dünyadakı maliyyə böhranı fonunda MDB ölkələrinin enerji strukturlarının payız-qış mövsümünə hazırlıq işləri ilə bağlı müzakirələrin aparıldığını qeyd etdi.*

*Elektroenergetika sahəsində ikitərəfli səviyyədə əməkdaşlığımızın böyük təcrübəyə malik olduğunu vurğulayan dövlətimizin başçısı çoxtərəfli əməkdaşlıq üçün də yaxşı imkanların olduğunu vurğuladı. Azərbaycan ilə Rusiyanın enerji imkanlarının bir-birini tamamladığını qeyd edən prezident İlham Əliyev energetika sahəsində çox səmərəli regional əməkdaşlığın da yarana biləcəyini bildirdi.*

*Prezident İlham Əliyev bu sahədə işlərin gələcəkdə də konstruktiv şəkildə inkişaf edəcəyinə əminliyini vurğuladı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 may 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## ƏDLİYYƏ NAZİRLİYİ YANINDA AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN DÖVLƏT REYESTRİ XİDMƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*29 may 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 29-da Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin yeni inzibati binasının açılışı mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevin 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan ədliyyəsinin inkişafına dair 2009–2013-cü illər üçün Dövlət Proqramı»nın icrasına əsasən həyata keçirilən tədbirlər ədliyyə orqanlarının işinin daha yaxşı təşkilinə geniş imkanlar yaradır. Yeni tikilən binalardan biri də Prezidentin fərmanı ilə 2004-cü ildə yaradılmış Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin inzibati binasıdır.*

*Dövlətimizin başçısı İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Ədliyyə naziri, 1-ci dərəcəli dövlət ədliyyə müşaviri Fikrət Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, ümumi sahəsi 3600 kvadratmetr olan dördmərtəbəli binanın inşasına 2008-ci ilin yanvarında başlanılmışdır. Tikinti işlərində və binanın təchizatında yerli materiallarla yanaşı, Türkiyə, Almaniya, İtaliya, Çexiya, Rusiya, Koreya Respublikası, Yaponiya və digər ölkələrdən gətirilmiş inşaat materialları və avadanlıqlardan istifadə olunmuşdur. Müasir standartlara uyğun aparılmış inşaat işlərində milli memarlıq elementlərindən də istifadə olunmuşdur.*

*Binada Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti ilə yanaşı, fəaliyyəti onunla sıx bağlı olan Qeydiyyat və Notariat Baş İdarəsi, Vətəndaşlıq Vəziyyəti Aktlarının Reyestri Xidməti və Dövlət Notariat Arxivi də yerləşəcəkdir.*

*Birinci mərtəbənin foyesində Azərbaycan ədliyyə sisteminin formalaşması, inkişafı və maddi-texniki bazasının kadr potensialının gücləndirilməsində mühüm xidmətləri olmuş ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur.*

*İkinci mərtəbədə Qeydiyyat və Notariat Baş İdarəsinin hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti və notariat idarələri yerləşir.*

*Üçüncü mərtəbədə ulu öndər Heydər Əliyevin mənalı həyatına, həmçinin prezident İlham Əliyevin fəaliyyətinə dair guşə vardır. Guşədə ulu öndərin istər sovet, istərsə də müstəqillik illərində xalqımız və Vətən qarşısında müstəsna xidmətləri geniş əksini tapmışdır.*

*Prezident İlham Əliyev ən müasir standartlara cavab verən tədris otağı ilə tanış oldu. Burada əməkdaşlar ixtisaslarını artıracaq, o cümlədən informasiya-kommunikasiya texnologiyalarının daha dərindən mənimsənilməsi üzrə təlimlər keçəcəklər. Doqquz kompyuterin quraşdırıldığı tədris otağında ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyəti, habelə ədliyyə sistemi və informasiya texnologiyaları barədə kitablar vardır.*

*Prezident İlham Əliyev Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin fəaliyyəti və maddi-texniki bazasının möhkəmləndirilməsinə aid qısa filmə baxdı.*

*Sonra dövlətimizin başçısı Xidmətin server otağı ilə tanış oldu. Mərkəzi serverə respublikanın rayon və şəhərlərindən, Daxili İşlər Nazirliyinin idarələrarası avtomatlaşdırılmış məlumat axtarış sistemindən və Ədliyyə Nazirliyinin «Vətəndaşlıq vəziyyəti aktları» avtomatlaşdırılmış qeydiyyat-informasiya sistemindən gündəlik məlumatlar daxil olur.*

*Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərləri, habelə Abşeron, Ağdaş, Ağsu və digər rayonlarda fəaliyyət göstərən dövlət notariusları bütün sənəd və məlumatları bu arxivə ötürürlər. Saxlanılan sənədlərin elektron məlumat bazası yaradılmışdır. Hazırda burada 600 minə qədər notariat sənədi saxlanılır. Arxivdəki 38 rəfin hər biri 480 qovluq tutur.*

*Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin arxivindəki sənədlər 1934-cü ildən bəri olan dövrü əhatə edir. Burada saxlanılan sənədlər 75 ildən sonra Dövlət Arxivinə təqdim olunur.*

*Prezident İlham Əliyevə ulu öndər Heydər Əliyevin həyat yoldaşı Zərifə xanım Əliyeva ilə nikahı haqqında aktın qeydi təqdim olundu.*

*Sonra prezident İlham Əliyevə Ədliyyə Nazirliyinin inşası başa çatan və tikintisi davam edən regional ədliyyə şöbələri, məhkəmələr və notariat kontorlarının inzibati binaları barədə məlumat verildi.*

*Dövlətimizin başçısı kollektivə uğurlar arzuladı, tövsiyələrini verdi.*

## ƏDLİYYƏ NAZİRLİYİNİN PENİTENSİAR XİDMƏTİ BAKI İSTİNTAQ TƏCRİDXANASININ YENİ BİNASI İLƏ TANIŞLIQ

*29 may 2009-cu il*

*Mayın 29-da Ədliyyə Nazirliyinin Penitensiar Xidməti Bakı istintaq təcridxanasının yeni binası istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev müəssisənin fəaliyyəti ilə tanış olmuşdur.*

*Ölkədə ədliyyə sisteminin müasirləşdirilməsi istiqamətində aparılan islahatlar çərçivəsində penitensiar sistemin fəaliyyətinin yaxşılaşdırılması üzrə kompleks tədbirlər həyata keçirilir. Məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması ilə bağlı geniş tədbirlər «Azərbaycan ədliyyəsinin inkişafına dair 2009–2013-cü illər üçün Dövlət Proqramı»nda da əksini tapmışdır. Bu məqsədlə inşa olunan Bakı istintaq təcridxanasının binası da beynəlxalq standartlara tam cavab verir. 120 il əvvəl inşa edilən və dövrün tələblərinə cavab verməyən 1 saylı Bayıl və 3 saylı Şüvəlan istintaq təcridxanalarının əvəzinə Zabrat qəsəbəsində inşa olunan Bakı istintaq təcridxanası nüfuzlu beynəlxalq təşkilatların tövsiyələrinə əsasən qabaqcıl dövlətlərin, o cümlədən Finlandiya, Belçika, Estoniya və Türkiyənin təcrübəsindən bəhrələnərək tikilmişdir. İnşasına 2008-ci ilin aprelində başlanan Bakı istintaq təcridxanasının tikintisinə 600-dən çox işçi qüvvəsi cəlb olunmuşdur. Zabrat–Kürdəxanı şosesindən müəssisəyə qədər ümumi sahəsi 27 min 650 kvadratmetr olan yeni yol çəkilmişdir.*

*Humanist cəza siyasətinin nəticəsi kimi, Azərbaycanda azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərin sayı MDB-nin digər ölkələri ilə müqayisədə daha azdır. Digər tərəfdən, qəbul edilmiş əfv və amnistiya aktlarının nəticəsində*

*minlərlə insan azadlığa buraxılmışdır. 1995–2008-ci illərdə Azərbaycan prezidentinin 45 fərmanı əsasında 4858 nəfər əfv olunmuşdur. Ölkəmizdə 9 dəfə qəbul edilmiş amnistiya aktları 100 minə yaxın şəxsə şamil edilmişdir. Təkcə bu ilin martında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş sonuncu amnistiya aktı bütövlükdə 9 min nəfəri əhatə etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə binanın baş planı ilə tanış oldu.*

*Ədliyyə naziri Fikrət Məmmədov bildirdi ki, Bakı istintaq təcridxanası rejim korpuslarından, inzibati binadan, karantin otağından, qısa və uzunmüddətli görüş otaqlarından, istintaq bölməsindən, təsərrüfat-məişət xidməti işlərində saxlanılan məhkumlar üçün nəzərdə tutulan korpuslardan ibarətdir.*

*Burada saxlanma limiti 2500 nəfərdir. Müəssisədə 1, 2, 4 və 6 nəfərlik 576 kamera vardır. Bütün korpuslar xüsusi keçidlə mərkəzi korpusa bağlanmışdır. Ədliyyə naziri onu da bildirdi ki, yaxın gələcəkdə təcridxananın yerləşdiyi ərazinin yaxınlığında Azərbaycan Respublikası Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmə üçün yeni inzibati binanın inşası planlaşdırılır.*

*Dövlətimizin başçısı məhkəmənin yeni binasının eskizi ilə tanış oldu.*

*Bildirildi ki, Bakı istintaq təcridxanasının karantin bölməsində təqsirləndirilən şəxslərin ilkin tibbi müayinəsi aparılır, onlar haqqında ümumi məlumatlar toplanır. Görüş üçün kabinetlər, hər cür məişət şəraiti olan otaqlar və uzunmüddətli görüşlər üçün mətbəx yerləşir.*

*Məhbusların saxlanma kameralarında da nümunəvi şərait yaradılmışdır. Birinci və ikinci mərtəbələrdə 28, üçüncü mərtəbədə 13 kamera vardır. Bütün korpuslar veb-kameralar vasitəsilə idarəetmə mərkəzindən nəzarətdə saxlanılır. Korpuslarda psixoloq və həkim otaqları yerləşir.*

*İstintaq təcridxanasının tibb-sanitariya hissəsi ikimərtəbəli binada yerləşir. Burada həkim kabinetləri, cərrahi əməliyyat*

*otağı, laboratoriyalar, aptek və digər yardımçı otaqlar yerləşir. 14 kamera-palatalarda 60 təqsirləndirilən şəxsin stasionar müalicəsi üçün hər cür şərait vardır. Tibbi müayinə otaqları da müasir avadanlıqla təchiz olunmuşdur. Bu binanın birinci mərtəbəsində 24, ikinci mərtəbəsində 25 palata yerləşir.*

*Təcridxananın fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün 210 kilovoltluq yeraltı elektrik xətti çəkilmiş, transformator yarımstansiyaları, 3 generator quraşdırılmış, su və qaz təchizatı sistemi qurulmuşdur.*

*Müəssisə ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bir neçə korpusun tikintisi bu ilin sonunadək tam yekunlaşacaqdır.*

# ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*ABŞ prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstar ölkəmizə sonuncu dəfə səfəri zamanı ümummilli lider Heydər Əliyevlə görüşünü ehtiramla xatırlatdı. O, həmin səfərinin Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin çəkilişinə başlanılması kimi əlamətdar hadisə ilə əlaqədar olduğunu bildirdi, bu layihənin regional və dünya miqyaslı əhəmiyyətini qeyd etdi. Sonra Riçard Morninqstar ABŞ prezidenti Barak Obamanın məktubunu Azərbaycan prezidentinə təqdim etdi. .*

*Dövlətimizin başçısı Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin çəkilişini böyük nailiyyət kimi dəyərləndirərək, Azərbaycanın təşəbbüsçüsü və iştirakçısı olduğu digər iri enerji layihələrinin də enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin mühüm məsələlər üzrə birgə işləri bundan sonra da davam etdirəcəyinə əminliyini bildirdi.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ NİKA GİLAURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Gürcüstanın Baş naziri Nika Gilaurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Gürcüstanın Baş naziri Nika Gilauri prezident Mixeil Saakaşvilinin salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı. Energetika naziri olduğu dövrdə Azərbaycana tez-tez səfər etdiyini vurğulayan qonaq, ölkələrimiz arasında energetika sahəsində mövcud əməkdaşlığa toxundu və bu əməkdaşlığın daha da möhkəmlənməsində iyunun 2-də Bakıda keçiriləcək XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini qeyd etdi.*

*Dövlətimizin başçısı Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Böyük Britaniyanın York hersoqu şahzadə Endryunu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin iqtisadi sahədə, o cümlədən energetika sahəsində uğurla inkişaf etdiyi bildirildi, XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının energetika sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsindəki əhəmiyyətli rolu qeyd olundu.*

## NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ ROBİN MARTİN KAASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Norveçin Dövlət katibi, Neft və Energetika nazirinin müavini Robin Martin Kaasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Robin Martin Kaas XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransında Norveçin siyasi səviyyədə iştirak etməsinin ölkəsi üçün çox mühüm olduğunu dedi. O bildirdi ki, bu beynəlxalq tədbirdə ölkələrin siyasi və sənaye nümayəndələri baxımından fəal iştirak etmələri Azərbaycanın neft və qaz sənayesində təkcə regionda deyil, beynəlxalq aləmdə mühüm rol oynadığının göstəricisidir. Robin Martin Kaas Xəzərdə neft-qaz hasilatının uğurlu nəticələri münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının ilk illərdən başlayaraq təkcə Azərbaycan üçün deyil, dünyanın enerji sahəsində inkişafı baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan dövlətimizin başçısı ötən 16 il ərzində keçirilən bütün konfransların önəmli olduğunu dedi. Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının Azərbaycanın neft siyasətinin müxtəlif mərhələlərinin uğurla həyata keçirilməsini əks etdirdiyini deyən prezident İlham Əliyev ötən dövrdə qarşıda duran bütün planların müvəffəqiyyətlə icra olunduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Norveç arasında enerji sahəsində əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## BAKIYA GƏTİRİLMİŞ YENİ SƏRNİŞİN AVTOBUSLARINA BAXIŞ

*2 iyun 2009-cu il*

*İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıya gətirilmiş yeni sərnişin avtobuslarına baxmışdır.*

*Azərbaycan prezidentinin Bakı şəhərində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair sərəncam və göstərişlərinə uyğun olaraq, sərnişin avtobuslarının növbəti hissəsi paytaxta gətirilmişdir.*

*Dövlətimizin başçısına yeni avtobusların texniki göstəriciləri, hərəkət marşrutlarının sxemi barədə məlumat verildi. Bildirildi ki, Koreya Respublikasının «Daewoo» şirkətinin istehsalı olan bu avtobuslar rahatlığı və müasirliyi ilə diqqəti cəlb edir. Avtobusların uzunluğu 11,940 metr, eni 2,5 metr, hündürlüyü isə 3,2 metrdir. Dizel mühərriki ilə işləyən avtobusların yanacaq tutumu 260 litr, yanacaq sərfiyyatı isə hər 100 kilometrə 38 litrdir. Salonunda 31 oturacaq olan avtobuslar ümumilikdə 85 sərnişini birdəfəyə aparmaq imkanına malikdir. Yeni avtobuslar əsasən 325, 309, 70, 137 saylı marşrutlarda işləyəcəkdir. Bu avtobuslar marşruta buraxıldıqdan sonra paytaxt sakinlərinin gediş-gəlişi də xeyli asanlaşacaqdır. Dözümlülüyü ilə fərqlənən avtobusların oturacaqlarının geniş və yumşaq, qapılarının isə minib-düşmək üçün rahat və təhlükəsiz olduğu bildirildi.*

*Prezident İlham Əliyev yeni avtobuslarla yaxından tanış oldu. Dövlətimizin başçısı sükan arxasına əyləşərək, yeni nəqliyyat vasitəsini sınaqdan keçirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Bakı şəhərinin yol-nəqliyyat sisteminin daha da yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## BAKIDA XVI BEYNƏLXALQ XƏZƏR NEFT-QAZ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ *

*2 iyun 2009-cu il*

*İyunun 2-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransı işə başlamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Sərgi və konfransı açan İTE Group Plc şirkətinin baş məsləhətçisi Endryu Vud prezident İlham Əliyevi, sərgi və konfransın iştirakçılarını salamladı. Azərbaycanda neft və qaz sektorunun sürətli inkişafını vurğulayan Endryu Vud bildirdi ki, bunlar xalqımızın tərəqqisinə və rifahına yönəlmişdir. Sərgi və konfransın yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirən Endryu Vud ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin dövlətimizin başçısı tərəfindən uğurla davam etdirildiyini dedi.*

*Endryu Vud bildirdi ki, Azərbaycan dünyada neft və qaz sənayesində getdikcə daha mühüm rol oynayır, əhəmiyyətli enerji mərkəzinə çevrilir.*

---

*Bakıda keçirilən XVI Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransında Gürcüstanın Baş naziri Nika Gilauri, ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstar, Böyük Britaniyanın York hersoqu şahzadə Endryu, Türkiyənin Energetika və Təbii Sərvətlər nazirinin müavini Yusif Yaşar, Norveçin Dövlət katibi, Neft və Energetika nazirinin müavini Robin Martin çıxış etdilər.

*Dövlətimizin başçısı əvvəlcə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) ekspozisiyasına baxdı.*

*Prezident İlham Əliyevə ARDNŞ-in axtarış-kəşfiyyat işləri, neft və qaz hasilatı, neftin emalı, neftçıxarmada nanotexnologiyaların tətbiqi barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, nanotexnologiyalar hasilatın 2-2,5 dəfə artmasına, enerji sərfinin isə 15 faiz azalmasına imkan verir. Dövlətimizin başçısına şirkətin sosial inkişaf, ekologiya, idman və digər sahələrdə həyata keçirdiyi layihələr barədə məlumat verildi.*

*Sonra prezident İlham Əliyev «bp–Azərbaycan» şirkətinin ekspozisiyası ilə tanış oldu. Səngəçal terminalı, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Gürcüstandakı 1 nömrəli nasos stansiyası və Ceyhan terminalı ilə birbaşa videoəlaqə yaradıldı. Videoəlaqəyə qoşulan mütəxəssislər prezident İlham Əliyevə işlərin gedişi barədə ətraflı məlumat verdilər.*

*Dövlətimizin başçısı onlara gələcək işlərində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev sərgidəki digər şirkətlərin ekspozisiyaları ilə də tanış oldu.*

*Xatırladaq ki, təməli «Əsrin müqaviləsi» ilə eyni vaxtda – 1994-cü ildə qoyulan sərgidə 16 il ərzində dünyanın 70-dən artıq ölkəsindən 5 mindən çox şirkət iştirak etmişdir. Azərbaycanın dövlət başçısının bilavasitə dəstəyi ilə keçirilən XVI Xəzər neft-qaz sərgi və konfransında isə dünyanın 22 ölkəsindən 300-dək şirkət təmsil olunur. Onların 30 faizi yerli şirkətlərdir. Bu il ekspozisiya sahəsi ötən ildəkinə bərabər olsa da, iştirakçı şirkətlərin sayı 22 faiz artmışdır. Sərgidə kommersiya şirkətləri ilə yanaşı, Böyük Britaniya, Almaniya, Çin və Rusiyanın milli pavilyonları, Yaponiyanın Neft, Qaz və Metal Korporasiyasının, Gürcüstanın Neft-Qaz Korporasiyasının və Azərbaycanın müxtəlif müəssisələrinin ayrıca stendləri də vardır.*

*Banisi ümummilli liderimiz Heydər Əliyev olan bu layihə nəticəsində Azərbaycan bir çox dünya ölkələri və şirkətləri üçün görüş yerinə çevrilmişdir. Xəzər neft və qaz sərgilərində*

*əməkdaşlığa dair memorandumlar, sazişlər, müqavilələr imzalanır, istehsalçı və sifarişçilər arasında əlaqələr yaranır, nəticədə yalnız Azərbaycanda deyil, bütün regionda yeni zavodlar inşa olunur, Bakıda isə şirkətlərin nümayəndəlikləri açılır.*

*Dünya Sərgi Sənayesi Assosiasiyası («UFI») Xəzər neft-qaz sərgi və konfransını «Keyfiyyət nişanı» ilə təltif etmişdir.*

*Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabını imzaladı.*

*Dövlətimizin başçısı sərgi-konfransın açılış mərasimində nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar,

Hörmətli sərgi iştirakçıları, əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox əlamətdar bir gündür. 16-cı ildir ki, Bakıda Xəzər Beynəlxalq neft-qaz sərgisi keçirilir. Bu sərgi beynəlxalq müstəvidə öz yerini tutan bir tədbirdir. 16 il əvvəl ilk dəfə olaraq Bakıda belə sərginin keçirilməsi Azərbaycanın enerji potensialının dünyaya təqdimatı kimi qəbul edilirdi. Bu münasibətlə mən sərginin təşkilatçılarına öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki onların səyi nəticəsində Azərbaycanı tanıdılar.

Deyə bilərəm ki, 1994-cü ildə ilk dəfə olaraq Azərbaycanda nəinki enerji sahəsində, ümumiyyətlə, ölkə üçün ən önəmli tədbir keçirilmişdi. Azərbaycan gənc müstəqil dövlət idi. Azərbaycan müəyyən səbəblər üzündən o vaxt hələ öz imkanlarını tam şəkildə ortaya qoya bilmirdi. Ölkə iqtisadiyyatı çox ağır vəziyyətdə idi. Ölkənin gələcəyi o qədər də aydın deyildi. Məhz o şəraitdə Azərbaycanın neft-qaz sektoruna göstərilən maraq və bu marağın nəticəsində ondan sonrakı illərdə əldə edilmiş nailiyyətlər ölkəmizin ümumi gələcəyini müəyyən etdi.

O illər Azərbaycan üçün həlledici anlar idi. Azərbaycan hansı yolu seçəcək, hansı istiqamətlə irəliyə gedəcək? Müxtəlif variantlar var idi. Ancaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qətiyyəti və birmənalı siyasəti nəticəsində Azərbaycan düzgün yol seçmişdi və biz bu yolun düzgün olmasını bugünkü Azərbaycanın inkişafında görürük. O illərdə ölkəmiz üçün həlledici qərarlar qəbul edildi və sərginin keçirilməsi, Azərbaycanın imkanlarının dünya birliyinə çatdırılması çox önəmli hadisə idi. İlk sərginin keçirilməsindən bir neçə ay sonra «Əsrin müqaviləsi» imzalandı. «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycanda yeni neft strategiyasının başlanması demək idi. Bu gün uğurla icra edilən neft siyasətimiz Azərbaycanın enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı dünya birliyinə çox etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim etdi və bu gün ölkəmiz və neft-qaz imkanlarımız geniş mənada qitənin enerji təhlükəsizliyi üçün əvəzolunmaz funksiyalar daşıyır.

«Əsrin müqaviləsi»nin imzalanması, ondan 2 il sonra «Şahdəniz» yatağı üzrə müqavilənin imzalanması bu gün Azərbaycanın əsas enerji potensialını təşkil edir. Ondan sonrakı illərdə çoxsaylı beynəlxalq müqavilələr imzalanmışdır. Azərbaycan xarici investisiyalar üçün çox cəlbedici ölkə kimi özünü təqdim etməyi bacarmışdır.

Neft sektoru bizim üçün təkanverici bir vasitə idi. Neft amili bizim üçün məqsəd deyil, bir vasitədir. Biz bu vasitədən çox uğurla istifadə etdik. Bu gün iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı neft sektorundan daha da sürətlə irəli gedir. Bu ilin, bütün dünya üçün böhranlı ilin ilk rübündə iqtisadi inkişaf 4,3 faiz, qeyri-neft sektorunun artımı isə 13,7 faiz təşkil etmişdir. Biz buna məhz neft siyasətinin uğurlu icrası nəticəsində, neftdən əldə edilmiş gəlirlərin səmərəli şəkildə digər sektorlara investisiya kimi qoyuluşu nəticəsində nail ola bilmişik.

Azərbaycan 1994-cü ildən bu günə qədər çox böyük və uğurlu yol keçibdir. Bu gün reallıq sayılan layihələr o illərdə

əfsanəvi ideyalar kimi təqdim edilirdi. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum nəinki Azərbaycanın inkişafını müəyyən etdi, eyni zamanda, regionda tamamilə yeni situasiyanı yaratdı. İlk dəfə olaraq xarici şirkətlər Azərbaycan tərəfindən Xəzər dənizinə dəvət olundular və investisiyalar qoymağa başladılar. İlk dəfə olaraq Xəzər dənizinin nefti müxtəlif yollarla dünya bazarlarına çıxarıldı, ilk dəfə olaraq Azərbaycan qaz ixrac edən ölkəyə çevrildi. Bizim 7 neft və qaz kəmərimiz var. Hər bir kəmər özlüyündə böyük məna daşıyır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa, Bakı–Novorossiysk neft kəmərləri – onların hamısı bu gün işlək vəziyyətdədir, Azərbaycan neftini müxtəlif istiqamətlərə ixrac edir. Bakı–Tbilisi–Ərzurum, Bakı–Rusiya, Bakı–İran, Bakı–Gürcüstan qaz kəmərləri. Bu dörd kəmərdən üçü bu gün işlək vəziyyətdədir və üç kəmər vasitəsilə Azərbaycan qazı ixrac edilir. Yəni, Azərbaycanın enerji, neft və qaz potensialının şaxələndirilməsi məsələlərini biz tam şəkildə həll edə bilmişik. Dünya bazarına birbaşa çıxışı olmayan ölkə üçün bu, həlledici məsələdir.

Bu gün biz irəliyə baxırıq. Biz öz siyasətimizi artıq əldə edilmiş uğurlar əsasında genişləndiririk. Azərbaycan artıq elektrik enerjisi ixracatçısı kimi çıxış edir. Biz elektrik enerjisini qonşu ölkələrə ixrac edirik. Biz regional müstəvidə çox fəal iştirak edirik və bölgədə ənənəvi olaraq Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli əməkdaşlığı bu gün də davam edir. Bu əməkdaşlıq artıq yeni layihələrə keçir. Bakı–Tbilisi–Qars dəmir yolu da Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən, eyni zamanda, Avropanı Asiya ilə birləşdirən bir layihədir. Necə ki, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələri artıq regional müstəvidən çıxıb və qlobal xarakter daşıyır. Bu layihələr olmasaydı, bu gün hər hansı bir «Cənub dəhlizi»ndən söhbət gedə bilməzdi. Bu layihələr olmasaydı, bu gün Avropanın enerji təhlükəsizliyi məsələləri tamamilə başqa istiqamətdə həll olunacaqdı. Məhz bu layihələr barədə burada, Azərbaycanda xarici

şirkətlərin sərmayələri ilə, Azərbaycan hökumətinin qərarları ilə, beynəlxalq birliyin və beynəlxalq maliyyə qurumlarının maliyyə dəstəyi ilə həlledici qərarlar qəbul edildi.

Keçən il noyabr ayında Bakıda keçirilmiş enerji sammiti və qəbul edilmiş qərarlar, ondan sonra keçən ay Praqada keçirilmiş «Cənub dəhlizi» mövzusunda enerji sammiti və orada qəbul edilmiş qərarlar bir-biri ilə uzlaşır, bir-birinin elə bil ki, məntiqi davamıdır.

Azərbaycanın enerji potensialı ölkəmizin hərtərəfli inkişafına xidmət göstərir, neft kapitalını insan kapitalına çeviririk, neftdən əldə olunan gəlirlər sosial məsələlərin həllinə yönəldilir. İşğaldan əziyyət çəkən soydaşlarımız yeni qəsəbələrə köçürülür. Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayıbdır. Bu, məhz neft siyasətinin sayəsində mümkün olubdur. Minlərlə yeni məktəblər, yüzlərlə yeni xəstəxanalar, yollar, elektrik stansiyaları bugünkü Azərbaycanın reallıqlarıdır və bunun təməlində enerji siyasəti dayanır.

Azərbaycan ilk ölkələrdəndir ki, Böyük Britaniyanın keçmiş Baş nazirinin təşəbbüsü ilə Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulmuşdur. Azərbaycan bu təşəbbüsdə, bu proqramda aparıcı rol oynayır. Dövlət Neft Fondu şəffaflıq kriteriyaları üzrə nümunəvi bir qurumdur və təsadüfi deyil ki, BMT Azərbaycan Dövlət Neft Fondunu yüksək mükafatla təltif etmişdir.

Biz elə etməliyik ki, neft-qaz sahəsində əldə edilmiş şəffaflıq bütün maliyyə sektoruna şamil edilsin və Azərbaycanın bütün iqtisadiyyatı maksimum dərəcədə şəffaflıq əsasında təşkil edilsin.

Növbəti illərdə Azərbaycan enerji sahəsində etibarlı tərəfdaş kimi, öz mühüm funksiyalarını davam etdirəcəkdir. Biz həm hasilatçı, həm tranzit ölkə kimi, nadir imkanlara malikik. Həm təbii sərvətlər, həm coğrafi vəziyyətimiz, həm də ki, artıq mövcud olan enerji və nəqliyyat infrastrukturu bizim üçün bu imkanları açır.

Bu gün Azərbaycan həm tranzit, həm də ixracatçı ölkədir. Enerji təhlükəsizliyi təkcə istehlakçılar üçün yox, istehsalçılar üçün, tranzit ölkələr üçün təhlükəsizlik deməkdir. Ancaq bu üç tərəf arasında əməkdaşlıq mütləq şəffaf olmalıdır. Bu əməkdaşlıq beynəlxalq təcrübəyə əsaslanmalıdır. Bu çox önəmlidir. Çünki neft-qaz sahəsi son illər ərzində çox siyasiləşib və bunu siyasiləşdirmək istəyən qüvvələr kifayət qədərdir. Biz elə etməliyik ki, üç tərəf arasında əməkdaşlıq maksimum dərəcədə beynəlxalq normalara uyğun olsun. Əgər alqı-satqı müqaviləsi gözlənilirsə, qiymət ədalətli olmalıdır. Əgər tranzit anlaşması gözlənilirsə, şərtlər beynəlxalq praktikaya uyğun olmalıdır. Ancaq bu təqdirdə həm istehsalçılar, həm tranzitçilər, həm də istehlak edən tərəflər öz maraqlarını təmin edə bilərlər. Bir tərəfin maraqları başqa tərəfin maraqları hesabına təmin oluna bilməz. Bu bizim prinsipial yanaşmamızdır və enerji siyasətimizin mühüm hissəsini təşkil edir. Nəzərə alsaq ki, Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz, şübhə etmirəm ki, bu mövqe üstünlük təşkil edəcəkdir. Bilirəm ki, tərəfdaşlarımızın böyük əksəriyyəti bu mövqeni bölüşür.

Mən hesab edirəm, bugünkü sərgi və konfrans yaxşı fürsətdir ki, burada iştirak edən şirkətlərin nümayəndələri bütün bu məsələləri bir daha müzakirə etsinlər, təhlil etsinlər və növbəti illər üçün biz vahid strateji yanaşmanı hazırlamalıyıq.

Mən bir daha bütün iştirakçılara öz salamlarımı çatdırmaq istəyirəm, sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Dövlət bayramı – Rusiya günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və dost Rusiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Rusiya dövlətçiliyin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, demokratik islahatların həyata keçirilməsi və cəmiyyət həyatının müxtəlif sahələrinin modernləşdirilməsi yolu ilə inamla addımlayır. Dünya birliyində ölkənin nüfuzu artır, mövqeləri möhkəmlənir.

Azərbaycan ilə Rusiyanı bir-birinə çoxəsrlik dostluq və mehriban qonşuluq əlaqələri bağlayır. Əminəm ki, bu xoş münasibətlər çoxplanlı qarşılıqlı fəaliyyətimizin genişlənməsinə, Azərbaycan–Rusiya strateji tərəfdaşlığının dərinləşdirilməsinə hərtərəfli kömək edərək xalqlarımızın rifahı naminə, sülh və Qafqazda sabitlik naminə bundan sonra da möhkəmlənəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və gələcək işlərinizdə uğurlar, bütün Rusiya xalqına rifah və tərəqqi arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2009-cu il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Bu mənada ikitərəfli əlaqələrimizin daim genişlənməsi, bir sıra sahələrdə həyata keçirdiyimiz qarşılıqlı faydalı əməkdaşlıq zəminində dostluq münasibətlərimizin möhkəmlənməsi xüsusi məmnunluq doğurur. Əminəm ki, çoxşaxəli təmaslarımızı, birgə işlərimizi müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2009-cu il*

## PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Portuqaliya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2009-cu il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM QLORİYA MAKAPAQAL ARROYOYA**

Hörmətli xanım Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Filippin münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2009-cu il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ**

Hörmətli cənab Prezident!

«Air France» şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması və çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Fransa xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2009-cu il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

A330-200 sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Braziliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2009-cu il*

## SURİYANIN XARİCİ İŞLƏR NAZİRİ VALİD ƏL-MUALLEMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Suriya Ərəb Respublikasının Xarici İşlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Suriyanın Xarici İşlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərini və Bakıda keçirdiyi uğurlu görüşlərini əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi. Bu yaxınlarda Azərbaycanın Suriyada səfirliyinin açıldığını deyən prezident İlham Əliyev bunu əlaqələrimizin inkişafı istiqamətində vacib amillərdən biri hesab etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Suriyanın Xarici İşlər naziri Valid əl-Muallemin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfəri əlaqələrimizin genişlənməsi işinə öz töhfəsini verəcəkdir.*

*Xarici İşlər naziri Valid əl-Muallem Suriya prezidenti Bəşşar əl-Əsədin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Valid əl-Muallem ölkəmizə ilk dəfə 2006-cı ildə səfər etdiyini, ötən dövr ərzində Bakıda çox böyük inkişaf proseslərinin getdiyinin şahidi olduğunu dedi və əldə olunan yüksək nailiyyətlər münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

*Dövlətimizin başçısı Suriya prezidenti Bəşşar əl-Əsədin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Suriyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BAKININ N.NƏRİMANOV PROSPEKTİNDƏKİ PARKIN VƏ N.NƏRİMANOVUN ABİDƏSİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*3 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Bakının Nəriman Nərimanov prospektindəki parkın və N.Nərimanovun abidəsinin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin Bakı şəhərində parkların və xiyabanların əsaslı surətdə bərpa olunması ilə bağlı tapşırıqlarına əsasən paytaxtımızda daha bir park – Nəriman Nərimanov prospektindəki park da müasir standartlara uyğun yenidən qurularaq istifadəyə verilmişdir. Baxımsızlıq üzündən tamamilə yararsız vəziyyətə düşən bu parkda əvvəllər əhalinin istirahəti üçün, demək olar ki, heç bir şərait yox idi.*

*Dövlətimizin başçısının tapşırıqlarına əsasən 2008-ci ilin iyulunda parkın əsaslı bərpa və yenidən qurulması işlərinə başlanılmışdır. Qısa vaxt ərzində həyata keçirilən yenidənqurma və bərpa işləri nəticəsində parkın siması bütünlüklə dəyişmiş, müasir standartlara uyğun şəkildə qurulan bu istirahət guşəsi yenidən sakinlərin istifadəsinə verilmişdir.*

*Prezident İlham Əliyev parkın əsaslı bərpa və yenidənqurmadan sonrakı vəziyyəti ilə yaxından tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, bərpa və yenidənqurma işləri nəticəsində bu park ən müasir standartlara uyğunlaşdırılıb, beton örtüyü və köhnə üzlük piltələr yeniləri ilə əvəz olunub, yaşıllıq zolaqları təzədən salınıb, müasir oturacaqlar quraşdırılıb, əkilmiş ağac və gül kolları isə parka xüsusi yaraşıq verir.*

*Parkda quraşdırılmış avtomatlaşdırılmış sistem yaşıllıqların davamlı olaraq suvarılmasına xidmət edəcəkdir. Nəriman Nərimanovun abidəsinin postamentinə yeni qranit üzlük çəkilmişdir. Abidənin özü isə tam bərpa olunmuşdur. Burada parka xüsusi yaraşıq verən müasir fəvvarə inşa edilmişdir. Parkın işıqlandırma sistemi də təzələnmiş, işıq dirəkləri dəyişdirilmiş, yeni və keyfiyyətli lampalar quraşdırılmışdır. İndi bu lampalar gecələr ətrafı çıraqban edir. Parkın yaxınlığındakı binalarda da təmir və yenidənqurma işlərinin aparıldığı bildirilmişdir.*

*Dövlətimizin başçısı görülən işlərlə yaxından tanış olduqdan sonra parkın ətrafındakı binaların, o cümlədən yaşıllıqların hazırkı vəziyyəti ilə də maraqlandı. Prezident İlham Əliyev parkın ətrafındakı binaların və yaşıllıqların bərpası və yenidən qurulması ilə bağlı layihə hazırlamağı tapşırdı və bununla əlaqədar müvafiq tövsiyələrini verdi.*

## XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUNA

Hörmətli Vaqif Səmədoğlu!

Sizi – müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzulayıram.

Siz respublikamızda ədəbi prosesin inkişafına töhfələr vermiş nəslin istedadlı nümayəndəsi olduğunuzu sənət aləminə gəldiyiniz ilk vaxtlardan nümayiş etdirmisiniz. Sizin yaradıcılığınız mövzu rəngarəngliyi, poetik təfəkkürün genişliyi və əhatəliliyi ilə səciyyələnir. Sənətsevərlərin diqqətini daim cəlb edən, özünəməxsus ifadə tərzinə malik poeziyanızda dünyanın, insanın və cəmiyyətin fəlsəfi dərki məsələləri mühüm yer tutmuşdur. Sözlərinizə bəstələnmiş mahnılar dilimizin geniş bədii imkanlarından ustalıqla faydalandığınızı təsdiq edir.

Teatr və kino üçün yazdığınız əsərlər yüksək sənətkarlıq keyfiyyətləri ilə seçilmiş, tamaşaçıların rəğbətini qazanaraq Sizi həm də dramaturq kimi tanıtmışdır.

Ölkəmizin ədəbi-mədəni həyatında, həmçinin ictimai-siyasi sahədə yaxından iştirak etməklə göstərdiyiniz təqdirəlayiq səmərəli fəaliyyət Sizin əsl vətəndaşlıq mövqenizin aydın ifadəsidir.

İnanıram ki, Siz yeni əsərlərinizlə ədəbiyyatımızı daha da zənginləşdirəcək və xalqımızın milli mənəvi dəyərlərinin qorunub yaşadılması naminə bundan sonra da bacarığınızı əsirgəməyəcəksiniz.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2009-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*4 iyun 2009-cu il*

*İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin «Pulkovo-1» hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

*Sankt-Peterburq*

*4 iyun 2009-cu il*

*İyunun 4-də Sankt-Peterburqda «Konstantinovski» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.*

**Dmitri Medvedev:** Hörmətli İlham Heydər oğlu, Sizi Peterburq şəhərində salamlamaq istəyirəm. Mənim üçün çox xoşdur ki, Siz gəlmisiniz.

İndi bizim üçün işin gərgin vaxtıdır: forum keçirilir və bu bizə görüşmək, ikitərəfli münasibətlərimizi müzakirə etmək, regional problemlər haqqında danışmaq üçün əlavə imkanlar verir. Bu gün hamını narahat edən – dünyada baş verən maliyyə və iqtisadi böhranın nəticələri, ölkələrimiz üçün çox aktual olan enerji təhlükəsizliyi məsələsi ilə bağlı müzakirə edəcəyimiz çoxlu mühüm mövzular, birgə maraqlı layihələr vardır. Biz fikirləşməliyik ki, son dövrdə əldə etdiyimiz əmtəə dövriyyəsinin səviyyəsi dünya iqtisadi konyunkturasında baş verən dəyişikliklərə uyğun olaraq əhəmiyyətli dərəcədə enməsin, bir növ bizim ikitərəfli fəaliyyətimizdən asılı olsun.

Mən ikitərəfli humanitar layihələri çox vacib hesab edirəm. Siz bu məsələlərə, o cümlədən rus dili ilə bağlı layihələrə böyük diqqət yetirirsiniz. Biz bunu qiymətləndiririk, buna görə Sizə minnətdarıq. Əlbəttə, digər ideyalar da vardır. Xoş gəlmisiniz, Sizi Peterburqda görməyimə çox şadam!

**İ l h a m Ə l i y e v** : Çox sağ olun, Dmitri Anatolyeviç. Dəvətə görə təşəkkür edirəm. Sizinlə görüşmək və çox geniş gündəlik üzrə diskussiyalarımızı davam etdirmək üçün yeni imkan əldə etdiyimə görə çox şadam.

Bizim görüşlərimiz kifayət qədər müntəzəm, intensiv xarakter daşıyır və bu, ölkələrimiz arasında münasibətlərin inkişaf səviyyəsini əks etdirir. Biz çox məmnunuq ki, əlaqələrimiz inkişaf edir və Sizin də qeyd etdiyiniz kimi, əlaqələrimiz bir çox istiqamətlərdə – həm siyasi qarşılıqlı fəaliyyət, həm də iqtisadi planda inkişaf edir. Böhrana baxmayaraq, ümid edirəm ki, əmtəə dövriyyəsi çox da güclü zərər çəkməyəcək.

Hesab edirəm ki, humanitar planda bizim münasibətlər nümunəvi ola bilər. Çox iş görülmüşdür və gələcək üçün çoxlu planlar vardır.

Bizim geniş gündəliyimiz və həmişə olduğu kimi, danışıqlar üçün çoxlu mövzularımız – regional məsələlər və bizim regionda təhlükəsizlik məsələləri, bu gün xüsusi əhəmiyyət və aktuallıq kəsb edən neft-qaz sahəsində əməkdaşlıq məsələləri – vardır. Təbiidir ki, bu məsələlərin bir daha müzakirə edilməsi və gələcək inkişafın yollarının yenidən birgə müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. Böhrana baxmayaraq həm Rusiya, həm də Azərbaycan nümayiş etdirirlər ki, bizim ölkələrimiz inkişaf etməyə, öz ehtiyatları hesabına yaşamağa qadirdirlər, bu da çox vacibdir. Mən əminəm ki, bu əməkdaşlıq gələcəkdə elə bu cür konstruktiv, gözlənilən, dostluq xarakterli olacaqdır. Dəvətə görə bir daha təşəkkür edirəm.

**D m i t r i M e d v e d e v**: Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*Sankt-Peterburq*

*4 iyun 2009-cu il*

*İyunun 4-də Sankt-Peterburqda Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun, Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyanın və ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakovun (Rusiya) iştirak etdikləri görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Sankt-Peterburq*

*4 iyun 2009-cu il*

*İyunun 4-də Sankt-Peterburqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.*

### Səfər başa çatdı

*İyunun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin «Pulkovo-1» hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz ölkələrimiz arasındakı münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Bu mənada tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın istək və məramı ilə bu gün ölkələrimiz arasında gerçəkləşən sıx əməkdaşlıqdan, daim genişlənən işgüzar əlaqələrimizdən məmnunluq duyuruq.

Əminəm ki, Azərbaycan–İran ikitərəfli münasibətləri bundan sonra da möhkəmlənəcək və hər iki xalqın maraqlarına cavab verəcəkdir.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 iyun 2009-cu il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DANİLO TYURKƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Sloveniya münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2009-cu il*

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Monqolustanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Monqolustan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Monqolustan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2009-cu il*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Milli bayramınız – Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Lüksemburq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2009-cu il*

## RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ TELERADİO İSTEHSALAT BİRLİYİNİN TELEQÜLLƏ KOMPLEKSİNİN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*20 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Teleradio İstehsalat Birliyinin Teleqüllə kompleksinin əsaslı bərpa və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Teleradio İstehsalat Birliyinin Teleqüllə kompleksi ümummilli lider Heydər Əliyevin Azərbaycanda qurub-yaratdığı saysız-hesabsız obyektlərdən biridir. Kompleks SSRİ Nazirlər Sovetinin qərarı əsasında Azərbaycan Respublikası Rabitə Nazirliyinin sifarişi ilə SSRİ Rabitə Nazirliyinin Dövlət Layihə İnstitutu tərəfindən layihələşdirilmişdir. Tikinti işlərinə 1979-cu ildə başlanılmışdır. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Teleqüllənin tikintisi davam etdirilmiş və 1996-cı ildə ulu öndərin iştirakı ilə kompleksin rəsmi açılış mərasimi keçirilmişdir.*

*2003-cü ildə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkədə bütün digər sahələrdə olduğu kimi, rabitə və informasiya texnologiyaları sahəsində də böyük inkişafa nail olunmuşdur. İnformasiya və kommunikasiya texnologiyaları sektorunu prioritet sahələrdən biri elan edən dövlətimizin başçısı bu sahənin daha da inkişaf*

*etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı müvafiq qərarlar vermişdir.*

*Bu sahədə görülən işlərin daha da sürətləndirilməsi, ölkə ərazisində radio və televiziya verilişlərinin yüksək keyfiyyətli yayımının təmin edilməsi, mövcud yerüstü televiziya yayım sistemlərinin dünya standartlarına uyğunlaşdırılması, eləcə də efir məkanının informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədi ilə 2008-ci il iyul ayının 10-da prezident İlham Əliyev «Azərbaycan Respublikasında televiziya yayımının genişləndirilməsi və efir məkanında informasiya təhlükəsizliyinin möhkəmləndirilməsinə dair əlavə tədbirlər haqqında» Sərəncam imzalamışdır.*

*Sərəncama müvafiq olaraq ölkədə efir televiziya yayımının əhatə dairəsinin genişləndirilməsi və efir məkanının informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi üçün 2008-ci il dövlət büdcəsində nəzərdə tutulmuş prezidentin ehtiyat fondundan Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə 2,5 milyon manat məbləğində vəsait ayrılmışdır. Qısa vaxt ərzində kompleksdə əsaslı yenidənqurma işləri həyata keçirilməyə başlanmışdır.*

*Görülən tədbirlər nəticəsində kompleks ən qabaqcıl rabitə avadanlığı ilə təchiz olunmuşdur. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Radio-Televiziya Yayımı və Peyk Rabitəsi İstehsalat Birliyinin yeni inşa olunmuş inzibati binası yüksək tələblər səviyyəsindədir. Burada çalışan əməkdaşlar üçün hər cür şərait yaradılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Teleqüllənin yenidənqurmadan sonrakı vəziyyəti ilə yaxından tanış olmaq üçün əraziyə gəlmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ümumi hündürlüyü 310 metr, çəkisi 40 min ton olan Teleqüllə dəniz səviyyəsindən 136 metr hündürlükdə yerləşir. Kompleksin beton hissəsi 200 metr, metal hissəsi isə 110 metrdir. Qüllənin üzərində milli ornamentli 4 şəbəkə yerləşir ki, bunların hər biri bir qütbə istiqamətlənmişdir.*

*Bakı şəhəri və ətraf ərazilərdə televiziya və radio proqramlarının yayımının əhatə dairəsi, respublikada mövcud televiziya və radio yayım şəbəkəsi, Bakı və Abşeron yarımadasında rəqəmsal televiziya yayımının inamlı qəbul xəritəsi, respublika ərazisində DVB-T rəqəmsal televiziya yayım planı, Azərbaycan Respublikasının Radiomonitorinq Şəbəkəsi və kompleksin digər fəaliyyət istiqamətləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Bildirildi ki, qüllədə Yaponiya istehsalı olan və hər biri 12 nəfərlik iki «Hitachi» lifti quraşdırılmışdır. Qüllənin 28-ci mərtəbəsində yerdən 180 metr hündürlükdə televiziya və radio yayım avadanlığı, 1712 kilometr uzunluğa malik RRX şəbəkəsinin baş stansiyası, mobil operatorların SDH şəbəkələri yerləşdirilmişdir. 10-cu mərtəbədə isə televiziya və radioverici-yayım avadanlığı, peyk yayımı avadanlığı, audio-video kommunikasiya qurğuları, habelə dispetçer xidməti, radio-tele kommunikasiya qurğuları və digər xidməti avadanlıqlar yerləşdirilmişdir.*

*Prezident İlham Əliyev Teleqüllə kompleksinin təmirdən əvvəlki və sonrakı vəziyyətini əks etdirən fotostendlə tanış oldu.*

*Sonra dövlətimizin başçısı və xanımı qüllənin 27-ci mərtəbəsində yerdən 175 metr hündürlükdə olan döşəməli restorana baxdılar. Bildirildi ki, ümumi sahəsi 330 kvadratmetr olan restoranın yükgötürmə qabiliyyəti 15 tondur. Restoranın zalında eyni vaxtda yüz nəfərə xidmət göstərilə bilər. Burada hər şey zövqlə quraşdırılmışdır və xidmət ən yüksək standartlar səviyyəsindədir. Zal 1 saat 10 dəqiqə müddətində bir dəfə dövrə vuraraq şəhərin və Xəzər dənizinin gözəl mənzərəsi ilə bura gələnləri valeh edir. Burada paytaxt sakinlərinin, eləcə də qonaqların istirahəti üçün lazım olan hər cür şərait yaradılmışdır.*

*Tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva buradan şəhərin mənzərəsini seyr etdilər.*

## SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Serbiyanın Xarici İşlər naziri Vuk Yeremiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Serbiya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini bundan sonra da dəstəkləyəcəyini dedi. Ölkələrimiz arasında münasibətlərin sürətli inkişafının zəruri olduğunu deyən dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Serbiyanın Xarici İşlər nazirinin Azərbaycana səfəri bu istiqamətdə atılan mühüm addım olacaqdır. Dövlətimizin başçısı təkcə siyasi sahədə deyil, iqtisadi, mədəni və digər sahələrdə məhsuldar əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsi istiqamətində konkret addımların atılacağını vurğuladı və əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Bakıda Xarici İşlər Nazirliyində aparılan danışıqlara toxunan qonaq dedi ki, biz siyasi sahədə uğurla inkişaf edən əlaqələrimizin daha da genişləndirilməsinin vacibliyi barədə yekdil qərara gəldik. Bakıya gəlməzdən əvvəl ölkəsinin Prezidenti ilə söhbət etdiyini bildirən Xarici İşlər naziri Vuk Yeremiç qeyd etdi ki, Serbiya rəhbərliyi Azərbaycan ilə ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, habelə beynəlxalq əməkdaşlıq sahəsində sürətlə inkişaf etməsində maraqlıdır. Nazir əlaqələrimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirdi.*

**SİLAHLI QÜVVƏLƏRİN YARADILMASININ 91-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MÜDAFİƏ NAZİRLİYİNİN, DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN VƏ DAXİLİ QOŞUNLARIN BİRLƏŞMƏ VƏ HİSSƏLƏRİNİN İRİMİQYASLI BİRGƏ ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMİNDƏ İŞTİRAK**

*24 iyun 2009-cu il*

*İyunun 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 91-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bölmələrin, hissələrin və silah sistemlərinin taktiki döyüş tətbiqini əhatə edən təlimin əsas mərhələsini izləmişdir.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Ali Baş Komandana raport verdi.*

*Prezident İlham Əliyev əvvəlcə nümayiş etdirilən hərbi texnika nümunələri ilə tanış oldu.*

*Ali Baş Komandana məlumat verildi ki, burada nümayiş olunan hərbi texnika yüksək standartlara cavab verir və güclü döyüş qabiliyyətinə malikdir. 300 millimetrlik reaktiv yaylım atəşi sistemi uzaq məsafədəki hədəfləri məhv etmək, düşmənin iri bölmələrinin silah və döyüş texnikasına tələfat vermək üçün ən etibarlı və müasir döyüş maşınlarındandır. 203 millimetrlik «Pion» özüyeriyən artilleriya qurğusu isə bu növdə ən güclü sistemə malikdir. 152 millimetrlik 2S3 «Akasiya», 122 millimetrlik 2S1 «Qvozdika» özüyeriyən artilleriya qurğuları*

*düşmənin artilleriyasını, minaatanlarını, texnikasını, cəmləşmə rayonlarında yerləşən canlı qüvvəsini və idarəetmə məntəqələrini məhv etmək, səhra və uzunmüddətli müdafiə qurğularını dağıtmaq qabiliyyətinə malikdir. Əsas döyüş tankı olan T 72 M-1 ən yüksək tələblərə cavab verir, qoşunların manevr imkanlarını və atəş gücünü əhəmiyyətli dərəcədə artırmağa imkan yaradır. ZTR 80 A markalı zirehli döyüş maşını motoatıcı bölmələrin daşınması, onlara döyüş meydanında atəş dəstəyinin verilməsi və bilavasitə döyüşün maşından aparılmasını təmin edir. STOR M-3 – SOFA və ABİR M-462 maşınları ərazilərdə antiterror və təxribat-kəşfiyyat qruplarına qarşı xüsusi əməliyyatlarda istifadə olunur. Uzaq məsafəli kəşfiyyat-müşahidə sistemi böyük ərazilərdə gecə və gündüz avtomatik və əl rejimində müşahidənin aparılması və dəqiq coğrafi koordinatların müəyyən edilməsi üçün təyin olunmuşdur.*

*Bundan əlavə, rabitə qurğuları, radiolokasiya müşahidə sistemləri, yanğınsöndürmə texnikası da yüksək taktiki-texniki xüsusiyyətlərə malikdir.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev bölmələrin, hissələrin və silah sistemlərinin döyüş tətbiqi üzrə təlimlərini izlədi.*

*Artilleriya bölmələrinin şəxsi heyəti təlim sahəsindəki hədəflərə sərrast atəş açmaqla peşəkarlıq nümayiş etdirdi. Döyüş təyyarə və vertolyotları yüksək pilotajla yanaşı, hədəflərə dəqiq aviasiya zərbələrinin endirilməsində məharət göstərdilər. Tank və piyadanın döyüş maşını heyətləri idarə etdikləri texnikanın manevr və atəş gücündən tam istifadə edərək qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirdilər. Xüsusi təyinatlı bölmələrin taktiki hava desantı tərkibində paraşütlə atılması və qarşıya qoyulan tapşırığın dəqiq yerinə yetirilməsi onların əsl peşəkarlığını göstərdi.*

*Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki*

*bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir.*

*Daha sonra Ali Baş Komandan hərbi xidmətdə fərqləndiklərinə və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 91 illiyi münasibətilə bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər qarşısında çıxış etdi.*

## Azərbaycan prezidenti , Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı

Əziz hərbçilər!

Əziz əsgərlər, gizirlər, zabitlər, generallar!

İlk növbədə, mən sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzu edirəm.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla və sürətlə davam etdirilir. 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda nizami ordunun yaradılması istiqamətində əməli işlər görülməyə başlanmışdır. Heç kəs üçün sirr deyil ki, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycanın rəhbərliyində olsa idi, heç vaxt Azərbaycan torpaqları işğal altına düşməzdi.

1993-cü ildən bu günə qədər Azərbaycan ordusu, bütün Silahlı Qüvvələr çox şərəfli və böyük yol keçmişdir. Orduda peşəkarlıq və döyüş qabiliyyəti artır. Mən hərbi hissələrdə tez-tez oluram və özüm müşahidə edirəm ki, bizim hərbi gücümüz gündən-günə artır. Bu gün keçirilən irimiqyaslı hərbi təlimlər bunun gözəl nümunəsidir. Ordumuzun peşəkarlığı artır, maddi-texniki bazası da möhkəmlənir. Bu gün Azərbaycan Ordusu çox böyük imkanlara malikdir. Son illər ərzində ordumuzun gücləndirilməsi üçün çox böyük işlər

görülübdür. Hərbi xərclərimiz ildən-ilə artır. Son 5 il ərzində Azərbaycanda bütün hərbi xərclər 6,5 milyard dollar səviyyəsində idi. Bu il hərbi büdcəmiz 2 milyard dollardır. Gələcək illərdə bu məbləğ daha da artacaqdır. Görülən bütün bu işlərin nəticələrini biz görürük. Ordumuzun döyüş qabiliyyəti artır. Ordumuz istənilən vəzifəni icra etməyə qadirdir. Bir neçə il əvvəl Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır. Artıq nazirliyin nəzdində 19 müəssisə fəaliyyət göstərir, 400 növdən artıq müdafiə təyinatlı məmulat istehsal olunur. Şübhə etmirəm ki, növbəti təlimlərdə Azərbaycanda istehsal olunan məhsullar da nümayiş etdiriləcəkdir.

Bugünkü irimiqyaslı təlimlərdə ordu ilə bərabər, Sərhəd Qoşunları və Daxili Qoşunlar iştirak etmişdir. Sərhəd Qoşunları və Daxili Qoşunların öz funksiyaları vardır. Ancaq bu iki hərbi qurum istənilən anda istənilən vəzifəni icra etməyə qadirdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün lazımi tədbirlərin görülməsində də ordu ilə bərabər, bu iki qurumun böyük əməyi ola bilər. Məhz bu məqsədlə son illər Daxili Qoşunlar və Sərhəd Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi üçün çox böyük işlər görülübdür. Bu gün bütün hərbi qurumlar birlikdə öz məharətini, öz peşəkarlığını göstərmişlər.

Keçən il biz Azərbaycanda Silahlı Qüvvələrin 90 illik yubileyini qeyd edərkən böyük hərbi parad keçirdik. O parad bizim imkanlarımızı açıq-aydın göstərmişdir. Bizim döyüş potensialımız həqiqətən çox yüksək səviyyədədir. Orduda ruh yüksəkliyi lazımi səviyyədədir, peşəkarlıq artır və belə təlimlərin keçirilməsi mütəmadi qaydada aparılmalıdır. Bizim əsgərlərimiz, hərbçilərimiz döyüş əməliyyatının aparılması üçün daim hazır olmalıdırlar.

Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Biz çalışırıq və çalışacağıq ki, məsələni danışıqlar yolu ilə həll edək. Ancaq 15 il ərzində – atəşkəs rejimi bağlanandan sonra aparılan danışıqlar heç bir nəticə vermir. Belə olan

halda təbii ki, biz ordumuzun gücünə güvənməliyik. Bu məqsədlə son illər mütəmadi qaydada ordu potensialının gücləndirilməsi üçün praktiki tədbirlər görülübdür. Azərbaycanda istənilən vəzifəni icra etməyə qadir olan silahlı birləşmələr fəaliyyət göstərir və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün biz lazım olan halda hərbi gücdən də istifadə edə bilərik.

Şübhə etmirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Bu ədalətsizliyə son qoyulacaqdır. Çünki bütün beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Mötəbər beynəlxalq təşkilatların qərarları, qətnamələri Azərbaycanın mövqeyini əks etdirir.

Bizim həm siyasi sahədə, həm iqtisadi məsələlərin həllində çox düşünülmüş strategiyamız və taktikamız var. Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülür və ordu quruculuğu prosesi bu işlərdə başlıca rol oynayır. Yenə də deyirəm, biz müharibə şəraitində yaşayırıq, buna görə də biz ordu quruculuğu ilə məşğul olmalıyıq və məşğul oluruq. Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır və hər an hazır olmalıyıq ki, öz doğma torpağımızı düşməndən silahlı yolla azad edək.

Biz Silahlı Qüvvələr günü ərəfəsindəyik. Bu, böyük bayramdır, Azərbaycanda rəsmi bayram kimi qeyd olunur. Bu bayram ərəfəsində Silahlı Qüvvələrin bütün şəxsi heyətinə yeni uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıram.

Sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində səmərəli iş birliyimiz, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrə ölkənizin dəstəyi məmnunluq doğurur.

Biz həmçinin xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın səylərinə böyük ümidlər bəsləyirik.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin hərtərəfli inkişafı, tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə, cənab Prezident, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2009-cu il*

**KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM MİKAEL JANA**

Hörmətli xanım General-Qubernator!

Milli bayramınız – Kanada günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Kanada əlaqələrinin bütün səviyyələrdə genişlənməsi xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək, əməkdaşlığımızın inkişafı və dərinləşdirilməsi üçün yeni-yeni imkanlar açacaqdır.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Kanada xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2009-cu il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və dost Belarus xalqını milli bayram – Müstəqillik günü münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Belarus arasında ənənəvi dostluq münasibətləri və konstruktiv əməkdaşlıq xalqlarımızın və dövlətlərimizin rifahı naminə bundan sonra da hərtərəfli inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, bütün Belarus xalqına sülh, tərəqqi və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2009-cu il*

## LATVİYANIN ƏTRAF MÜHİT NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Latviyanın Ətraf Mühit naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Səfərinin uğurla keçdiyini vurğulayan nazir Raymonds Veyonis bu gün səhər Latviya hökuməti ilə Azərbaycan hökuməti arasında ətraf mühitlə bağlı əməkdaşlığa dair razılaşma imzaladıqlarını dedi. Razılaşmanın əhəmiyyətinə toxunan qonaq bildirdi ki, əgər indiyə kimi Latviya və Azərbaycan maliyyə, iqtisadi və digər sahələrdə əməkdaşlıq edirdisə, bu razılaşmadan sonra iki ölkə arasında əlaqələr daha da genişlənir*

*Dövlətimizin başçısı Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin təkcə iqtisadi və siyasi istiqamətlərdə deyil, yeni sahələri əhatə etməklə genişləndiyinin əhəmiyyətini vurğuladı. Ətraf mühitin mühafizəsi məsələsinin ölkəmiz üçün prioritet məsələ olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, neft və qaz hasil olunan Abşeron yarımadasında Xəzər dənizi zonası ekoloji təhlükəsizlik baxımından xüsusi yanaşma tələb edir. Azərbaycanın digər ərazilərində isə bu cür təhlükələrin olmadığını, əksinə, yaxşı iqlimin və təbii şəraitin mövcudluğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, Bakı və Abşeron yarımadasında 200 ilə yaxın bir müddət ərzində neft hasil olunsa da, ekoloji məsələlərə uzun illər əhəmiyyət verilməyib. Azərbaycan dövləti bu istiqamətdə çoxlu işlərin görülməsini planlaşdırır.*

## BAKIDA MƏRKƏZİ KLİNİK XƏSTƏXANANIN AMBULATORİYASININ AÇILIŞI MƏRASİMİ

*25 iyun 2009-cu il*

*İyunun 25-də Bakıda Mərkəzi Klinik Xəstəxananın ambulatoriyasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.*

*Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev binanın fasadına və ətrafdakı abadlaşdırılmış binalara baxdı.*

*Dövlətimizin başçısı ambulatoriyanın açılışını bildirən lenti kəsdi və səhiyyə ocağı ilə yaxından tanış oldu.*

*Prezident İlham Əliyev və xanımı əvvəlcə ambulatoriyanın yerləşdiyi binanın əvvəlki və indiki vəziyyətini, burada aparılmış təmir və yenidənqurma işlərinin gedişini əks etdirən videogörüntülərə baxdılar.*

*Məlumat verildi ki, Azərbaycan Respublikasının Prezidenti yanında Xüsusi Tibb Xidmətinin sifarişçisi olduğu ambulatoriyanın yenidən qurulması layihəsini Türkiyənin «Medikal Mimari Tasarım ve Danışmanlık Tic. Ltd» şirkəti hazırlamış, yenidənqurma işlərini «Seren İndustrial Construction Services Ltd» MMC həyata keçirmişdir.*

*Ambulatoriyanın yerləşdiyi bina 1895-ci ildə inşa olunmuşdur. Burada ötən ilin martında başlanmış yenidənqurma işləri ən müasir standartlara uyğun aparılmışdır. Tikintinin ümumi sahəsi 4200 kvadratmetrdir.*

*Əsaslı təmir işləri aparılarkən binanın əvvəlki memarlıq üslubu saxlanılmış, həyata keçirilən tədbirlər zamanı müasir memarlıq üslubuna da geniş yer verilmiş və hər iki üslub peşəkarlıqla uzlaşdırılmışdır. Üçmərtəbəli binanın yükdaşıyan divarları dəmir-beton konstruksiyalarla gücləndirilmişdir. İnşaat*

*işlərində Türkiyə, ABŞ, Almaniya, İtaliya və digər ölkələrin tikinti materiallarından istifadə olunmuşdur. Binada Yaponiya istehsalı olan 2 müasir lift quraşdırılmışdır.*

*Ambulatoriyada quraşdırılmış tibbi avadanlıq da dünyanın ən inkişaf etmiş ölkələrinin istehsalıdır.*

*Foyedə ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur.*

*Prezident İlham Əliyev və xanımı ambulatoriyanın birinci mərtəbəsində əməliyyat bölməsinə baxdılar. Prezident yanında Xüsusi Tibb Xidmətinin rəisi Cəmil Əliyev məlumat verdi ki, burada daha çox göz əməliyyatları aparılacaq. Əməliyyat olunmuş xəstələr evlərinə ambulatoriyanın avtomobilləri ilə yola salınacaq və onlar evdə də nəzarətdə saxlanılacaqlar. Əməliyyatdan sonra xəstələrin vəziyyəti gözləmə otağındakı monitorla müşahidə altında saxlanılır. Yığcam olmasına baxmayaraq əməliyyat bölməsində bütün normativlərə əməl olunmuş, sterilləşdirmə, anbar, həkim otaqları, xəstələrin gözləmə zalı vardır.*

*Uşaq mərkəzində ümumi pediatriya, endokrinologiya, qastroenterologiya, immunologiya, allerqologiya, hematologiya, nefrologiya, kardiologiya, neonatologiya və təcili yardım xidmətləri fəaliyyət göstərir.*

*Ambulatoriyanın qadın mərkəzi ilə tanışlıq zamanı bildirildi ki, burada süni mayalanma, ginekologiya, mamalıq, prenatal diaqnostika, mammologiya, mammoqrafiya, endokrinologiya və urologiya xidmətləri təklif olunur. Mərkəzin 3 müayinə otağı lazımi avadanlıqla, o cümlədən ABŞ-ın «General Electric» şirkətinin 4D proqramı yüklənmiş ultrasəs cihazı, ana bətnindəki uşağın ürək döyüntüsünü ölçmək üçün cihaz, rəqəmli mammoqrafiya cihazı ilə təchiz edilmişdir.*

*Burada, həmçinin qan bankı və qanalma məntəqəsi də fəaliyyət göstərir. Təcili tibbi yardım şöbəsində xəstələrə monitorla nəzarət, əməliyyatdan çıxmış və xroniki xəstələrə evdə hər növ tibbi xidmət, ev şəraitində qanın götürülməsi, rentgen, ultrasəs müayinəsi, exokardioqrafiya, elektrokardioqrafiya xidmətləri təklif olunur. Nəzərdə tutulmuşdur ki,*

*bir neçə avtomobillə təchiz edilmiş təcili tibbi yardım xidməti daha çox evdə xəstələrə xidmət göstərsin. Bunun üçün səyyar rentgen və ultrasəs cihazları vardır.*

*Birinci mərtəbədə bunlardan əlavə, sterilləşdirmə, yardımçı və texniki xidmət otaqları vardır.*

*Səhiyyə ocağının ikinci mərtəbəsindəki ürək mərkəzində kardiologiya, elektrokardioqrafiya, exokardioqrafiya, transezofageal exokardioqrafiya, fetal exokardioqrafiya, stress-test xidmətləri göstərilir. «Holter» cihazının köməyi ilə xəstələrin davamlı olaraq 24 saat elektrokardioqramması çıxarılır. Nevrologiya mərkəzində beyin qan dövranı pozulmalarının, nevroz və baş ağrılarının, osteoxondrozun müalicəsi, spinal əməliyyatlar aparılır, habelə elektroensefaloqrafiya, elektromioqrafiya, psixoterapiya xidmətləri göstərilir.*

*Məlumat verildi ki, göz sağlamlığı və xəstəlikləri mərkəzində ultrasonoqrafiya, ultrasəs biometriya xidmətləri, görmə sahəsinin, göz dibinin, çəpgözlüyün kompyuterlə müayinəsi, göz təzyiqinin, kornea qalınlığının ölçülməsi xidmətləri, habelə kornea və qlaukoma xəstəliklərinin müalicəsi, katarakta, göz yaşı kanalları, göz qapağı və konyunktiva əməliyyatları aparılır. Mərkəzdə gözün təzyiqini kontaktsız ölçmək üçün xüsusi cihaz vardır.*

*Müayinələrin nəticələri və cavab otağında da xidmət ən müasir səviyyədə təşkil edilmişdir. Bildirildi ki, müayinədən keçən xəstələr haqqında məlumatlar xüsusi sistem vasitəsilə ambulatoriyanın əməkdaşlıq etdiyi dünyanın nüfuzlu tibb mərkəzlərinə, universitetlərinə göndərilir və oradan müvafiq rəy alınır.*

*Mobil «Otopront» endoskopik müayinə cihazı ilə təchiz edilmiş qulaq-burun-boğaz xəstəlikləri bölmələrində də ən yüksək səviyyədə müayinə və müalicə aparılır. Urologiya kabinetində ultrasəs cihazı, böyrəyin təzyiqini ölçmək üçün xüsusi avadanlıq vardır.*

*Müasir avadanlığın quraşdırıldığı fizioterapiya mərkəzi toxuma və oynaq xəstəlikləri, bel-boyun ağrıları olan, insult*

*keçirən, zədə alan xəstələrin müalicəsi və reabilitasiyası üçün nəzərdə tutulmuşdur.*

*Ambulatoriyanın üçüncü mərtəbəsinin sahəsi 324 kvadratmetrdir. Katiblik, inzibati otaqlar, iclas zalı və arxiv bu mərtəbədə yerləşir.*

*Ambulatoriyanın ən müasir standartlara cavab verdiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, respublikamızın bütün bölgələrində bu cür tibb ocaqları yaradılır, mövcud müalicə müəssisələri yenidən qurulur.*

**İ l h a m  Ə l i y e v**: Bölgədə buna bənzər bir ambulatoriya tapmaq çətindir. Nəzərə alsaq ki, bu tibb müəssisəsi hansı vəziyyətdə idi – bu barədə filmlərə aşağıda baxdıq – dağılmış vəziyyətdə idi. Bu gün isə bu tibb müəssisəsi ən müasir standartlara cavab verir. Əsas odur ki, burada xidmət yüksək səviyyədə olsun. Əminəm ki, belə də olacaqdır.

*Mərkəzi Klinik Xəstəxananın baş həkimi Kamran Musayev səhiyyə sisteminin inkişafına göstərilən qayğıya görə təşəkkür edərək dedi:*

– Cənab Prezident, icazənizlə bir məqamı da qeyd etmək istəyirəm ki, Mərkəzi Klinik Xəstəxananın kollektivi açılışını etdiyiniz bu ambulatoriyada tam 24 saat ərzində xidmət göstərməyə hazır vəziyyətdədir. Bütün gördüyünüz bu şöbələrdə, bölmələrdə biz öz xidmətimizi göstərəcəyik.

**İ l h a m  Ə l i y e v**: İndi bütövlükdə Azərbaycanda səhiyyə xidmətinin səviyyəsi qalxır. Nəinki Bakıda, bölgələrdə də yeni xəstəxanalar, tibb mərkəzləri açılır. Əlbəttə ki, bu ambulatoriya hazırda ən yüksək standartdır.

Müasir avadanlığın tətbiqi hesabına indi ölkəmizdə ən çətin cərrahi əməliyyatların aparılması mümkündür.

Mən demişəm, bu avadanlıq vaxtaşırı dəyişməlidir. Çünki dünya səhiyyə sənayesi elədir ki, hər il hansısa yenilik meydana çıxır. Bu gün burada quraşdırılan bütün diaqnostika avadanlığının hamısı ən son modellərdir.

**K a m r a n  M u s a y e v**: Cənab Prezident, köhnələcək avadanlığı sizin icazənizlə dəyişdirib yenisini quraşdırarıq.

Sizin göstərişinizlə Mərkəzi Klinik Xəstəxananın da bütün avadanlığı yeniləndi. Həqiqətən 9 ildir ki, fəaliyyət göstərən xəstəxanamızda avadanlığın təzələnməsinə çox böyük ehtiyac yaranmışdı. Cənab Prezident, ona görə də mən sizə öz kollektivimiz adından bir daha minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v**: Azərbaycan vətəndaşları ən gözəl tibbi xidmət almalıdırlar. Çalışırıq ki, bunu etmək üçün bütün infrastruktur yaradılsın. O ki qaldı xidmətin səviyyəsinə, o, artıq sizdən asılıdır. Bilirəm ki, bu sahədə böyük uğurlarınız var. İstəyirəm ki, Azərbaycanın bütün bölgələrində ən yüksək tibbi xidmət göstərilsin. Artıq bölgələrdə yaradılan tibb müəssisələrinin açılışından sonra görürük ki, Bakıya axın bir az azalıb. Biz tibbi yardıma ehtiyacı olan insanların sayını da müəyyən etdik. İndi bütün bölgələrdə dializ aparatları var. Əvvəllər Bakıya 300–400 kilometr yol gəlməli, getməli idilər. Bəziləri dözmürdü, həyatdan gedirdi. İndi, demək olar ki, hər bir bölgədə dializ aparatları insanların ömrünü uzadır.

*Prezident İlham Əliyev ambulatoriyada aparılan əsaslı təmir və yenidənqurma işlərinin yüksək səviyyədə olduğunu vurğuladı, əlavə tapşırıq və tövsiyələrini verdi, kollektivə uğurlar arzuladı.*

*Sonda dövlətimizin başçısı ambulatoriyanın təcili tibbi yardım maşınlarına baxdı.*

## DƏNİZKƏNARI MİLLİ PARKDA ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*25 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Dənizkənarı Milli Parka gələrək, burada həyata keçirilən abadlıq və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Keçən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə paytaxtda yaşıllaşdırma, abadlaşdırma və geniş quruculuq tədbirləri həyata keçirilmişdir. Bakılıların, eləcə də paytaxtımızın qonaqlarının ən çox sevdiyi istirahət guşələrindən biri olan dənizkənarı bulvara 1998-ci il dekabrın 29-da prezident Heydər Əliyevin Sərəncamı ilə Milli Park statusu verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev dənizkənarı bulvarın xalqımızın tarixi, mədəniyyəti və ekoloji təhlükəsizliyi üçün əhəmiyyətini nəzərə alaraq 2008-ci il yanvarın 10-da Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin yaradılması haqqında Fərman imzalamışdır. Həmin fərmana və Azərbaycan prezidentinin Bakı şəhərində parkların və xiyabanların yenidən qurulması ilə bağlı tapşırığına uyğun olaraq Dənizkənarı Milli Parkın da əsaslı şəkildə abadlaşdırılmasına başlanılmışdır.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva parkda həyata keçirilən abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanış olmaq üçün buraya gəldilər. Prezident İlham Əliyevə məlumat verildi ki, 3 kilometr 700 metr uzunluğu olan Dənizkənarı Milli Parkın ərazisi həyata keçiriləcək yeni tədbirlər planından sonra 25 kilometrə qədər uzanacaqdır.*

*Azərbaycan prezidenti və xanımı estakadada həyata keçirilən yenidənqurma işləri ilə də maraqlandılar. Dənizkənarı Milli Park boyu sahilbərkitmə işləri ilə tanış olan dövlətimizin başçısı görülən işlərin yüksək keyfiyyətlə aparılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 iyun 2009-cu il*

*İyunun 28-də İsrail Dövlətinin Prezidenti Şimon Peres Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev İsrail prezidenti Şimon Peresi böyük səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İsrail prezidentinə raport verdi.*

*İsrailin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları İlham Əliyev və Şimon Peres Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İsrail prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Şimon Peresə, İsrail nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERESİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*28 iyun 2009-cu il*

*İyunun 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və İsrail prezidenti Şimon Peresin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*28 iyun 2009-cu il*

*İyunun 28-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və İsrail prezidenti Şimon Peresin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlayıram. Əminəm ki, səfər uğurlu olacaqdır.

Biz sizinlə ikitərəfli münasibətlərə, o cümlədən regional və beynəlxalq məsələlərə dair geniş müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərimizin üzvləri də bir-biri ilə söhbət edə biləcək və ikitərəfli münasibətlərimizə aid məsələləri nəzərdən keçirəcəklər. Münasibətlərimiz uğurla inkişaf edir. İqtisadiyyatın müxtəlif sahələrində yaxşı imkanlar var. Humanitar sahədə məsələlər üzrə də əməkdaşlıq edirik. Siz bizə ölkənizin iş adamlarından ibarət böyük bir qrupla gəlmisiniz. Hesab edirəm ki, işgüzar dairələr arasındakı əlaqələr ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edir.

**Şimon Peres:** Çox sağ olun. Şəxsən öz adımdan və nümayəndə heyəti adından olduqca səmimi qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm. Bizə göstərdiyiniz hərarətli qəbula görə minnətdarıq. Biz bir çox məsələləri müzakirə etdik.

Nümayəndə heyətinin tərkibində iştirak edən nazirlər də əməkdaşlığımızın vəziyyəti barədə öz fikirlərini söyləyəcəklər.

## AZƏRBAYCAN–İSRAİL SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*28 iyun 2009-cu il*

*İyunun 28-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və İsrail prezidenti Şimon Peresin iştirakı ilə Azərbaycan–İsrail sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və İsrailin Elm və Texnologiya naziri Daniel Herşkovitz imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov və İsrailin Milli İnfrastruktur naziri Uzi Landau imzaladılar.*

## AZƏRBAYCAN VƏ İSRAİL PREZİDETLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*28 iyun 2009-cu il*

*İyunun 28-də Azərbaycan–İsrail sənədlərinin imzalanması mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Şimon Peres bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Biz bu gün bir sıra məsələlər üzrə yaxşı müzakirələr apardıq. Biz ikitərəfli əlaqələrə dair məsələləri müzakirə etdik və əminəm ki, bu səfər ikitərəfli əlaqələrimizin uğurlu inkişafında çox önəmli rol oynayacaqdır. Biz iqtisadiyyatın inkişafına dair məsələləri də müzakirə etdik. Ölkələrimiz arasında birgə ticarət dövriyyəsinin həcmi artmaqdadır və bu rəqəm otən il 3,6 milyard dollara bərabər olmuşdur.

Azərbaycanın yəhudi icması əsrlər boyu burada sülh və dostluq şəraitində yaşayıb və yaşayır. Bu gün müzakirə etdiyimiz kimi, Azərbaycanda doğulan və hazırda İsraildə yaşayıb çalışan İsrail vətəndaşları da ikitərəfli əlaqələrimizin inkişafında çox önəmli rol oynayırlar. Onlar əslində İsraildə Azərbaycan diasporu kimi fəaliyyət göstərirlər. Yəqin ki, insanlar arasında ünsiyyət cənab Prezidentin səfərindən sonra daha geniş vüsət alacaqdır.

Biz bu gün regional məsələləri, regional vəziyyəti, Yaxın Şərqdəki, Qafqazdakı vəziyyəti, münaqişələrə aid məsələləri

də müzakirə etdik. Mən cənab Prezidenti Ermənistan–Azərbaycan, Dağlığ Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyət haqda məlumatlandırdım. Əfsuslar olsun ki, atəşkəsin əldə edilməsindən 15 ildən çox vaxt keçsə də, münaqişənin həllində heç bir əsaslı irəliləyiş, nailiyyət olmayıb. Torpaqlarımızın 20 faizi hələ də işğal altındadır. Bir milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb edən 4 qətnaməsinin qəbul olunmasına baxmayaraq, işğal hələ də davam edir və bu nəinki bizə, hətta bütün regiona ən böyük təhlükədir.

Əminəm ki, uğurla başlanan səfər bu gün və sabah da belə davam edəcəkdir. Qəbul ediləcək qərarlar və əldə olunacaq razılaşmalar ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün yeni imkanlar yaradacaqdır.

Cənab Prezident, bir daha xoş gəlmisiniz və diqqətinizə görə minnətdaram.

## İsrail prezidenti Şimon Peresin bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Əvvəlcə mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Xoş münasibətə, məsələləri geniş şəkildə müzakirə etmək imkanına görə Sizə səmimi-qəlbdən təşəkkürümü çatdırıram. Qeyd edə bilərəm ki, ölkənizə səfərimdən öncə də Azərbaycana vurğun idim. Lakin bu gün Sizinlə apardığım söhbətdən sonra anladım ki, bu sözlər hamı tərəfindən deyilə bilər.

İşğala baxmayaraq, siz öz mədəniyyətinizi və nikbinliyinizi qoruyub saxlaya bildiniz. 8 milyondan çox əhalisi olan ölkədə bir milyon qaçqın və məcburi köçkün probleminin nə

dərəcədə çətin məsələ olduğunu anlayıram. Bu o deməkdir ki, hər 8 nəfərdən biri qaçqın və məcburi köçkündür. Siz bu məsələnin öhdəsindən lazımınca gəlirsiniz.

Azərbaycanda yüksək tolerantlıq mühiti vardır. Bu, tarixən belə olub. Azərbaycanı tərk edərək İsrailə gələn yəhudilər ölkəniz haqqında daim xoş təəssüratlarını bölüşürlər. Biz yeniliklər yolunun başlanğıcındayıq. Bu, böyük və vədedici başlanğıcdır. Lakin bu gün kiçik ölkələr öz yenilikləri ilə məhdudlaşmamalı, yeni üfüqlərə, milli konsepsiya və təfəkkürə doğru addımlamalıdırlar.

Biz bu səfərə böyük nümayəndə heyəti ilə gəlmişik. Bu heyətin tərkibində üç nazir var. Bundan əlavə, 50-yə yaxın nüfuzlu iş adamı da var. Onlar bizim münasibətlərimizi daha da dərinləşdirmək və zənginləşdirmək fikrindədirlər. Bu, qarşılıqlı olmalıdır. Biz qarşılıqlı fayda naminə birgə çalışmalıyıq.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*28 iyun 2009-cu il*

*İsrail prezidenti Şimon Peres iyunun 28-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyevi və İsrail prezidenti Şimon Peresi Fondun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva qarşıladı.*

*Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.*

*Dövlətimizin başçısı bildirdi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*İsrail prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Prezident Şimon Peres Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. İsrail prezidentinə hədiyyə təqdim olundu.*

*Dövlət başçıları və Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.*

*Ali qonaq fonddan zəngin təəssüratla ayrıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*28 iyun 2009-cu il*

*İyunun 28-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İsrail Dövlətinin Prezidenti Şimon Peresin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən İsrail prezidentini Azərbaycanda bir daha salamlamaq istəyirəm. Bu gün bizim çox yaxşı müzakirələrimiz oldu. Münasibətlərimiz uğurla inkişaf edir. Biz cənab Prezidentlə bir neçə dəfə görüşmüşük və bu görüşlər beynəlxalq tədbirlər çərçivəsində müxtəlif ölkələrdə baş tutub. İndi isə cənab Prezident Azərbaycana rəsmi səfərə gəlib. Bu səfər böyük əhəmiyyət daşıyır. Səfər ikitərəfli münasibətlərin inkişafı üçün yeni imkanlar açacaq. Bu gün biz ikitərəfli əlaqələrə dair vacib məsələləri, regional inkişaf məsələlərini, o cümlədən beynəlxalq əhəmiyyət daşıyan məsələləri nəzərdən keçirdik.

İkitərəfli əlaqələr haqqında danışarkən əminəm ki, əlaqələrimiz bundan sonra daha da güclənəcəkdir. Bizim iqtisadi əməkdaşlığımızın çox yaxşı perspektivləri var. Bu gün belə məsələlər çox geniş formatda müzakirə olundu. İqtisadi münasibətlərimiz inkişaf edir və bu sahədə dövriyyəmiz 2 milyard dollara yaxındır. Zənnimcə, gələcək illərdə bu rəqəm daha da artacaq.

Azərbaycanda xalqımız yəhudilərlə daim dinc şəraitdə birgə yaşayır. Ölkəmizin inkişafı üçün yəhudi icması öz töhfələrini əsirgəmirlər. Azərbaycanı tərk etmiş yəhudilər buradan getmələrinə baxmayaraq, Azərbaycanla hər zaman təmaslarını saxlayırlar və ikitərəfli münasibətlərdə müstəsna rol oynayırlar ki, bu da bizi çox fərəhləndirir. Mən şübhə etmirəm ki, bu səfərdən sonra ikitərəfli münasibətlərimiz uğurla davam və inkişaf edəcəkdir.

Biz cənab Prezidentlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı fikir mübadiləsi apardıq. Bu münaqişə regionda ən böyük hədə mənbəyidir və bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmalıdır. Yalnız o yolla ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Bildiyiniz kimi, işğalçı qüvvələr Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılmalıdır və Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətinin qurbanına çevrilmiş soydaşlarımız öz yurd-yuvalarına qayıtmalıdırlar.

Azərbaycanla İsrail arasında iqtisadi sahədə əməkdaşlığa gəlincə, bir daha onu demək istəyirəm ki, bu əlaqələri genişləndirmək üçün böyük potensial vardır. Azərbaycanda çox münbit sərmayə mühiti var və dünyanın bütün ölkələrindən olan şirkətlər ölkəmizdə rahat işləyə bilərlər.

Mən bir daha, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda salamlamaq istəyirəm və bu badəni Sizin şərəfinizə, İsrail ilə Azərbaycan xalqlarının şərəfinə qaldırmaq istəyirəm.

**İsrail prezidenti Şimon Peresin nitqi**

Hörmətli dostum cənab Prezident!
Hörmətli xanım Əliyeva!
Xanımlar və cənablar!

Mən sadəcə, qarşınızda bildirmək istəyirəm ki, cənab Prezident burada yüksək səviyyədə olan münasibətlərimizin

gözəl təsvirini verdi. Mən bundan çox məmnunam və zənnimcə bundan sonra uzun-uzadı danışsam da, onun qədər gözəl danışa bilməyəcəyəm. Bu qəbula görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Siz mənə və mənim nümayəndə heyətimə bu qonaqpərvərliyi göstərdiniz. Bu, sözün əsl mənasında, bizim yadımızda daim qalan bir qəbul olacaqdır. Mən bildirmək istəyirəm ki, atanız Azərbaycanın tarixində çox görkəmli şəxsiyyətlərdən biridir.

Ölkənizin gözəl təbiəti torpağınızda, insanlarınızın qonaqpərvərliyində öz əksini tapmışdır. Biz çox minnətdarıq ki, Azərbaycanda yəhudi icmasına xüsusi xoş münasibət bəslənilir. Onlar Azərbaycanı doğma vətəni bilirlər və azərbaycanlılarla qaynayıb qarışıblar. Azərbaycandan İsrailə gələn şəxslər ölkənizlə bağlı ən xoş təəssüratlarını daim bölüşürlər. Bu o deməkdir ki, neft–neftdir, qaz–qazdır, mədəniyyət–mədəniyyətdir. Neftdən, qazdan öncə Azərbaycan xalqı qədim və zəngin mədəniyyətə malikdir.

Xanım Əliyeva, Sizin burada olmağınızdan böyük şərəf hissi duyuram. Biz Sizin işinizlə də tanış olduq. Fondda olarkən gördük ki, Heydər Əliyevin təhsil haqqında şəhadətnaməsində qiymətlərinin hamısı əla olmuşdur. Heydər Əliyev Fondu çox böyük işlər görmüşdür və görməkdə davam edir. Biz bu məlumatları topladıq və bunu öyrənməkdən çox şad olduq.

Dahi Azərbaycan şairi Nizami Gəncəvi demişdir: «Ünsiyyəti hansı kəs arayıbdır yaxşıda, Məqamında işinə yarayıbdır yaxşı da». Bu gün məhz bu kəlam aktual hesab olunur. Sizin müdrikliyinizlə bu ölkə daha da inkişaf edəcəkdir. Mən badəmi bizim hamımıza əziz olan dostluğun, Azərbaycan ilə İsrail arasındakı əməkdaşlığın şərəfinə qaldırıram.

# AZƏRBAYCAN–İSRAİL BİZNES-FORUMU

*Bakı*

*29 iyun 2009-cu il*

*İyunun 29-da Bakıda Azərbaycan–İsrail biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və İsrail prezidenti Şimon Peres forumun açılışında iştirak etmişlər.*

*Azərbaycanın 70-ə yaxın şirkət nümayəndələrinin və İsrailin 50-yə yaxın iş adamının qatıldığı forumda Azərbaycan prezidenti İlham Əliyev çıxış edərək prezident Şimon Pereslə aparılan danışıqlar zamanı bir çox məsələlərin müzakirə edildiyini bildirdi.*

*Dövlətimizin başçısı biznes-forumda İsraildən çox sayda iş adamının iştirakını müsbət hal kimi dəyərləndirdi və ölkəmizdəki sərmayə mühiti barədə məlumat verdi.*

**İlham Əliyev:** Azərbaycanda çox müsbət sərmayə mühiti var. Bizim tərəfdaşlarımız dünyanın aparıcı şirkətləridir. Bu günə qədər onlar hər hansı bir narazılıq və yaxud mübahisələrlə üzləşməyiblər. Azərbaycanda sərmayə qoyan şirkətlər ilə hökumət arasında heç bir mübahisə olmayıb. Əsas beynəlxalq müqavilələr parlament tərəfindən ratifikasiya edilir, Prezident tərəfindən fərmanla təsdiqlənir və qanun qüvvəsini alır.

Bu gün dünyada mövcud böhranın olmasına baxmayaraq, bir çox ölkələrin şirkətləri Azərbaycana sərmayə yatırmağı davam etdirirlər. Biz öz islahatlar siyasətimizi davam etdirməyə çalışırıq, «açıq qapı» siyasətini yürüdürük. Bizim sərmayədarlarla apardığımız iş çox məhsuldar bir mühitdə baş tutur və bu siyasət yaxşı nəticələr verir. Ötən il

Dünya Bankı özünün «Doing Business» hesabatında Azərbaycanı islahatların aparılması sahəsində birinci yerdə tutmuşdur.

Dünyada ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Daha sonra dənizdə yerləşən yataqlardan neft birinci dəfə məhz Azərbaycanda hasil olunubdur. İkinci dünya müharibəsində Sovet İttifaqında hasil edilən neftin 70 faizi Bakıdan göndərilirdi. Bu günə qədər Azərbaycanın yataqlarından 1,5 milyard ton neft hasil edilmişdir. Lakin 1991-ci ildə müstəqilliyimizi əldə etdikdən sonra biz özümüzü çox çətin bir vəziyyətdə hiss etdik. Çünki daxili qaz hasilatı da qənaətbəxş deyildi. Həmin vaxt Azərbaycanda neft hasilatı yalnız 8 milyon ton təşkil edirdi. Bu gün isə iqtisadi islahatlar siyasətinə, «açıq qapı» siyasətinə, sərmayədarların stimullaşdırılmasına və eyni zamanda, sabit siyasi vəziyyətə görə Azərbaycan etibarlı tərəfdaş hesab edilir.

Bu il ölkəmizdə neft hasilatı 50 milyon ton, qaz hasilatı isə 25-27 milyard kubmetrə çatacaqdır.

Əgər Xəzər dənizindən Aralıq dənizinə neftin nəqli üçün boru kəməri olmasaydı, əgər digər boru kəmərləri və 4 qaz boru kəməri olmasaydı, ola bilsin ki, enerji təhlükəsizliyi məsələlərinin həlli daha da mürəkkəb olardı.

Azərbaycanda turizm sahəsinin inkişafı üçün bu sahədə də ciddi işləyirik və hökumət infrastruktura böyük sərmayələr yatırır. Bu bizə nəinki paytaxtı, o cümlədən regionları da inkişaf etdirməyə imkan yaradır.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi imkanları çox genişdir. Mən öz prioritetlərimizi təşkil edən bir neçə sahəni qeyd etdim. Qeyd etdim ki, biz Azərbaycanda çox sahədə infrastruktur layihələri həyata keçiririk. Yolların çəkilməsi, suvarma, su təchizatı və digər layihələri həyata keçiririk. Biz İsraildən olan şirkətləri burada daha fəal şəkildə işləməyə dəvət edirik. Təbii ki, biz onları sərmayədar kimi görmək istəyirik və eyni zamanda, onlar podratçı kimi də işləyə bilərlər. Çünki Azərbaycanda

bunun üçün çox yaxşı imkanlar var. Xüsusən də İsrail prezidentinin ölkəmizə uğurlu səfəri çərçivəsində dünən bizim səmərəli danışıqlarımız olmuşdur. Hesab edirəm ki, bu danışıqların davam etdirilməsi səfərin birinci günü kimi, ikinci günündə də uğurlu olacaqdır. Əminəm ki, ölkələrimizin işgüzar dairələri bizim ikitərəfli münasibətlərimizin gücləndirilməsinə töhfə verəcəklər.

**Ş i m o n  P e r e s**: Şərhinizə, dostluğa və iqtisadi əlaqələrimizin gələcəyinə dair nikbin baxışlarınıza görə Sizə təşəkkür edirəm. Həm İsrail, həm də Azərbaycan gələcəyə baxan və sabahı düşünən ölkələrdir.

Hesab edirəm ki, su təchizatı növbəti 10 il ərzində ən iri sənayeyə çevriləcək. Hesablamalara görə bu, ildə 400 milyard dollara bərabər ola bilər. Eyni məsələ enerji sahəsinə də aiddir. Əhalinin sayı artır, enerji isə siyasi və iqtisadi sahələrdəki dəyişikliklər fonunda çox incə bir məsələdir. Bu səbəbdən də neft və qazla bərabər, insanlar günəş, külək və su enerjisi kimi alternativ enerji mənbələri axtarışındadırlar.

Nanotexnologiyaların tətbiqi günəş enerjisindən istifadəni genişləndirəcəkdir. Bu da bəşəriyyətin qarşılaşdığı enerji probleminin həllinə və ondan qənaətlə istifadə olunmasına imkan yaradacaqdır.

*Şimon Peres ölkəsində səhiyyə, təhsil və digər sahələrdəki vəziyyət barədə məlumat verərək dedi:*

– Bu qənaətdəyəm ki, müəllim çatışmazlığı təhsildə mühüm problemlərdən birinə çevriləcəkdir. Son məlumatlara görə müəllim çatışmazlığı problemi var. Bir çox hallarda uşaqlar öz müəllimlərindən daha çox məlumatlıdırlar. Məhz buna görə də biz tədris sistemini yeni avadanlıqlarla, yeni elektron cihazlarla, yeni vasitələrlə, yeni filmlərlə təkmilləşdirməliyik. Bir daha qeyd edirəm ki, təhsil yeni və mühüm sahəyə çevriləcəkdir.

*İsrail prezidenti müstəqilliyin qorunması üçün müdafiə sahəsinə daim diqqət yetirilməsini əsas şərtlərdən biri kimi səciyyələndirdi. O, ölkəsinin inkişafından danışaraq, heç bir*

*təbii sərvətə malik olmayan İsraildə elmi tədqiqatlara xüsusi diqqət yetirildiyini söylədi. Bundan başqa, kənd təsərrüfatının inkişafında əldə olunan nailiyyətlərdən danışdı.*

*Daha sonra Şimon Peres Azərbaycan–İsrail biznes-forumunun keçirilməsini yaxşı təşəbbüs kimi qiymətləndirərək dedi:*

– Bildiyiniz kimi, bizim 50 nüfuzlu iş adamı biznes-forumda iştirak edir. Onlar nazirlərimizin dəstəyi və məsləhəti ilə bu məsələnin təşəbbüskarlarıdırlar. Hesab edirəm ki, hökumət və özəl sektor əl-ələ verib çalışacaqdır.

*İsrail prezidenti daha sonra Azərbaycanın tarixi, mədəniyyəti və adət-ənənələri barədə də fikirlərini bölüşdü:*

– Biz Sizin modernləşdirmə istiqamətindəki səylərinizi qiymətləndiririk. Sizin keçmişinizə böyük hörmətimiz var. Azərbaycan hələ İsveçrə və ABŞ-dan öncə qadınların səsvermə hüququnu təmin etmişdir, azadlığa məhəbbət sizin adət-ənənələrinizdə, şeirlərinizdə, musiqinizdə əks olunur. Düşünürəm ki, işgüzar adamlar bir araya gələndə məhz iş barədə danışmalıdırlar. Amma bir az da duyğulardan danışmaq lazımdır. Çünki dostluq, etimad, qarşılıqlı anlaşma olmadan biznesdən söhbət belə gedə bilməz.

*Prezident Şimon Peres bu görüşün iki ölkənin iş adamları arasında əlaqələrin daha da möhkəmlənəcəyinə təkan verəcəyini söylədi və Azərbaycan prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi.*

## RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*Bakı*

*29 iyun 2009-cu il*

*İyunun 29-da Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycana işgüzar səfərə gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidenti Dmitri Medvedevi səmimiyyətlə qarşıladı.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Dövlət başçıları ikitərəfli münasibətlər, regional və beynəlxalq problemlər, eləcə də qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*29 iyun 2009-cu il*

*İyunun 29-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağa şadam. Xoş gəlmisiniz! Biz Sizin gəlişinizi gözləyirdik və bu səfər qısamüddətli olsa da, ümid edirik ki, kifayət qədər səmərəli olacaqdır. Bu gün biz xatırladıq ki, düz bir il əvvəl Siz Azərbaycanda rəsmi səfərdə olmusunuz və həmin səfər çərçivəsində imzalanmış dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamə uğurla yerinə yetirilir. Çox şadıq ki, bir il sonra Sizi yenidən Bakıda görmək, ikitərəfli münasibətlərin mühüm məsələlərini, regional problemləri – adətən, olduğu kimi – dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət ruhunda müzakirə etmək imkanı var. Biz Sizin gəlişinizə həmişə şadıq.

**Dmitri Medvedev:** Çox sağ olun, İlham Heydər oğlu. Bu gün Azərbaycana gəlmək mənə də çox xoşdur. Mənim indiki səfərim işgüzar səfərdir, Sizin qeyd etdiyiniz kimi, nisbətən qısamüddətli, lakin məzmunlu səfərdir, çünki biz görüşün gündəliyini hərtərəfli hazırlamışıq. Bir sıra sənədlər üzərində iş aparılmışdır, onlar bu gün imzalanacaqdır. Əlbəttə, bu, ölkələrimiz, xalqlarımız arasında münasibətlərin – xalqlarımızı bir-birinə bağlayan ənənəvi dostluq, mehriban qonşuluq müna-

sibətlərinin strateji xarakterini əks etdirir. Biz həmin münasibətlərin daha da inkişaf etməsi üçün hər şeyi etməyə hazırıq.

Ümidvaram ki, bugünkü görüşümüzdə əməkdaşlığın yeni formatlarını müəyyən edəcək, iqtisadiyyat haqqında söhbət edəcəyik. Əlbəttə, biz siyasət haqqında da, o cümlədən xarici siyasət məsələləri barədə də söhbət edəcəyik.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*29 iyun 2009-cu il*

*İyunun 29-da Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Dmitri Medvedev Xəzər dənizi üzrə Birgə Bəyannaməni və dövlət sərhədlərinin delimitasiyasının başa çatdırılmasının əsas prinsipləri və Samur çayının su resurslarının Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında bölüşdürülməsi barədə Birgə Bəyannaməni imzaladılar.*

*Azərbaycan təbii qazının alış-satışı üzrə müqavilənin əsas şərtlərini Azərbaycan tərəfindən Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və Rusiya tərəfindən «Qazprom» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin prezidenti Aleksey Miller imzaladılar.*

*Azərbaycan Respublikası və Rusiya Federasiyasının Kabardin-Balkar Respublikası hökumətləri arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni əməkdaşlıq haqqında razılaşmanı Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Rusiya tərəfindən isə Kabardin-Balkar Respublikasının Prezidenti Arsen Kanokov imzaladılar.*

*Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətləri arasında Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasında diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi üzrə şərtlər haqqında Sazişin hazırlanması barədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Birgə Bəyannaməni Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov və Rusiya tərəfindən Xarici İşlər naziri Sergey Lavrov imzaladılar.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*29 iyun 2009-cu il*

*İyunun 29-da Azərbaycan–Rusiya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin birgə mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Rusiya prezidentini ölkəmizdə yenidən salamlamağa şadam. Ölkələrimiz arasında çox yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyət, çox sıx əlaqələr mövcuddur. Münasibətlər yüksək dərəcədə dinamikliyi ilə xarakterizə edilir. Prezidentlər səviyyəsində müntəzəm görüşlər keçirilir ki, bu da münasibətlərimizin xarakterini əks etdirir və ölkələrimizi daha da yaxınlaşdırır.

Biz hamımız prezident Medvedevin düz bir il əvvəl Azərbaycana rəsmi səfərini çox yaxşı xatırlayırıq. Yüksək qiymətləndiririk ki, prezident kimi, Dmitri Anatolyeviçin ilk rəsmi səfərlərindən biri idi və həmin səfər çərçivəsində imzalanmış sənədlər bu gün yerinə yetirilir. Dostluq və strateji əməkdaşlıq haqqında müqavilə uğurla yerinə yetirilir və bu gün imzalanmış sənədlər son bir il müddətində əldə etdiklərimizin məntiqi davamıdır.

Bizim aramızda bir neçə görüş olmuşdur və onların hər biri çox mühüm idi. Biz həm bu gün və həm də gələcəkdə münasibətlərimizin xarakterini və regional prosesləri xeyli dərəcədə müəyyənləşdirən qərarlar qəbul etmişik.

İqtisadi planda müxtəlif layihələr də uğurla həyata keçirilir. Dünyada baş vermiş maliyyə böhranı ilə əlaqədar əmtəə dövriyyəsinin bir qədər azalmasına baxmayaraq, bunun dinamikliyi, strukturu deməyə imkan verir ki, bu müvəqqəti hal tezliklə aradan qaldırılacaqdır. Həm də bu gün imzalanmış sənədləri nəzərə almaqla inanıram ki, növbəti ildə biz əmtəə dövriyyəsinin kəskin surətdə artacağını görəcəyik.

Biz humanitar sahədə əməkdaşlığın inkişaf etməsindən çox məmnunuq. Bu sahə ölkələrimiz üçün çox mühüm əhəmiyyətə malikdir.

Bu gün biz qaz sahəsində səmərəli əməkdaşlıq üçün yaxşı zəmin yaratdıq. Bu gün «Qazprom» və ARDNŞ arasında münasibətlərimizdə yeni səhifə açan müqavilə imzalamışıq. Hesab edirəm ki, bu əməkdaşlıq çox uğurlu, qarşılıqlı faydalı olacaq, Rusiya və Azərbaycanın maraqlarını tam təmin edəcəkdir. Təməli qoyulan bu işlərin, bu təşəbbüslərin uğurla həyata keçirilməsi, təbii ki, ölkələrimiz arasında energetika sahəsində genişmiqyaslı əməkdaşlıqdan çox asılı olacaqdır. Bu, neft, qaz və həm də elektroenergetikadır və bütün bu istiqamətlərdə yaxşı nəticələr vardır.

Bu gün imzalanmış müqavilə energetika üzrə münasibətlərimizin yeni istiqamətidir. Qaz amilinin regionda və dünyada vacibliyini nəzərə alaraq, hesab edirəm ki, imzalanmış müqavilənin mühümlüyü xüsusi şərh tələb etmir.

Bu gün ölkələrimiz arasında sərhədin yekun delimitasiyası işində də mühüm addım atdıq. Bundan sonra bu istiqamətdə irəliləyəcəyimiz və müqavilələrin imzalanmasına imkan verən prinsiplər razılaşdırılmışdır. Ümumiyyətlə, mən münasibətlərimizin inkişafından çox razıyam.

Təbii, bu gün biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələlərini müzakirə etdik. Biz Rusiyaya və şəxsən onun Prezidentinə münaqişənin nizama salınması prosesində fəal iştiraka görə çox minnətdarıq. Bu ayın əvvəllərində Peterburqda Rusiya prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycan prezidentləri arasında keçirilmiş görüş əminəm ki, danışıqların davam etdirilməsi üçün yaxşı mühit yaratmışdır. Biz vasitəçi kimi, Azərbaycanın qonşusu kimi, bu mürəkkəb məsələnin nizama salınmasında Rusiyanın gələcəkdə də fəal iştirakına ümid bəsləyirik.

Bir daha bu gün keçirilmiş görüşlər və imzalanmış sənədlərə, həm də bütövlükdə ölkələrimiz arasında münasibətlərə görə məmnunluğumu ifadə etmək istəyirəm.

Əminəm ki, gələcəkdə onlar uğurla inkişaf edəcəkdir.

Sağ olun.

## Rusiya prezidenti Dmitri Medvedevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Həqiqətən, Azərbaycan prezidenti ilə bizim çox yaxşı və səmərəli danışıqlarımız oldu. Demək istəyirəm ki, doğrudan da görüşlərimizin tez-tez baş tutması və dinamikliyi, bu danışıqları fərqləndirən şərait, mühit bizi çox sevindirir.

Biz həqiqətən tez-tez görüşürük. Bu, Rusiya və Azərbaycanı birləşdirən strateji münasibətlərin xalqlarımızın rifahı naminə möhkəmlənəcəyinə, davamlı və qarşılıqlı, çox faydalı surətdə inkişafına təminatdır. Bu gün burada ən müxtəlif məsələlər üzrə danışıqlar apardıq. Biz sadəcə, daxili və xarici mövzuları müzakirə etmək üçün deyil, sənədlər üzərində işi yekunlaşdırmaq üçün görüşmüşük. Elə indicə mənim həmkarım – Azərbaycanın Prezidenti də həmin sənədlərin adını çəkdi. Əlbəttə, mən də qaz üzrə müqaviləni qeyd etmək

istəyirəm. Çünki bu, qaz sahəsində əməkdaşlığa başlamağın mərhələ anıdır. Ölkələrimiz enerji daşıyıcılarının ən iri təchizatçılarıdır. Biz neft sahəsində işləmişik və işləməkdə davam edirik, lakin qaz sahəsində əməkdaşlığın inkişafını birbaşa indi açırıq. Mənə elə gəlir ki, qaz sahəsində qarşılıqlı faydalı əməkdaşlıqla məşğul olmaq üçün yaxşı başlanğıcdır. Hər halda, bu gün imzaladığımız sənəd yaxşı başlanğıcdır.

Əməkdaşlığın digər istiqamətlərinə gəldikdə isə, həqiqətən son illər az iş görülməmişdir. Ötən il yeni strateji sənəd – dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamə imzaladıq. Bu sənəd indi icra olunur və bu gün imzaladığımız müqavilə həmin baza sənədinin konkretləşdirilməsidir.

Bu gün imzaladığımız bütün sənədlər – Xəzər dənizi üzrə Birgə Bəyannamə – biz elə indi bu dənizin sahilindəyik və belə bir yerdə həmin sənədləri necə imzalamamaq olar. Bu, Xəzər tematikası üzrə birgə işimizin növbəti mərhələsidir; bu həmçinin diplomatik məsələdir; bizim çoxdan müzakirə etdiyimiz və yekunlaşdırılması lazım gələn və bu gün həllinə nöqtə qoyulmuş daşınmaz əmlak məsələsidir; bu, sərhədin yekun delimitasiyası məsələsi üzrə gələcək irəliləyişə dair memorandumdur – burada da iş görülmüş, kompromislər tapılmış və biz, əlbəttə həmin prosesi yaxın vaxtlarda başa çatdırmaq üçün bu işi davam etdirəcəyik. Bu gün gördüyümüz bütün işlər münasibətlərimizin çoxcəhətli – iqtisadi və humanitar sahələr üzrə mənzərəsini əks etdirir.

Ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dostluq xarakterini nəzərə alaraq deməliyəm ki, humanitar istiqamət ənənəvi olaraq çox vacibdir. Humanitar sahəyə başqa yerdə olmadığı qədər göstərdiyi diqqətə görə, Azərbaycan prezidentinə məxsusi minnətdarlığımı bildirmək istərdim. Praktik olaraq bu gün Rusiyada «Azərbaycan günləri» başlayır və bir sıra humanitar tədbirlər olacaqdır. Beləliklə, humanitar istiqamətdə bizdə hər şey qaydasındadır və istərdik ki, inkişaf edən iqtisadi və xarici siyasət istiqa-

mətlərindəki əlaqələrimiz kimi, onlar da uğurla və səmərəli inkişaf etsin.

Biz, əlbəttə, Dağlıq Qarabağ probleminin nizama salınması məsələsinə toxunmaya bilməzdik. Biz Peterburqda görülən işlər barədə danışdıq. Mənim üçün eşitmək xoşdur ki, Azərbaycan prezidenti həmin məsləhətləşmələr mərhələsini kifayət qədər səmərəli qiymətləndirir. Rusiya bu prosesdə bundan sonra da kömək etməyə, həmin prosesin davam etməsinə və təbii ki, problemin yekun həllinə doğru irəliləməsi üçün bütün imkanları və vasitəçilik xidmətlərini göstərməyə hazırdır.

Buna görə də demək istərdim ki, bu gün əldə etdiyimiz nəticələrdən məmnunuq və Azərbaycan prezidentinə məni və bizim nümayəndə heyətini Azərbaycana işgüzar səfərə dəvət etdiyinə görə təşəkkürümü bildirirəm.

Sağ olun, İlham Heydər oğlu.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Mənim sualım hər iki prezidentədir. Elə indicə özünüzün bəyanatlarınızda Siz qaz müqaviləsini xatırlatdınız. İstərdim ki, bunu bir qədər geniş şərh edəsiniz. Sizin fikrinizcə, bu nədir? İki ölkə arasında əməkdaşlığın inkişafı istiqamətində növbəti addım, yeni tərəqqinin sübutudur və ya dünyada müasir meyillərə, müasir böhranlara cavab reaksiyasıdır?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, bu müqavilə ilk növbədə bu sarayda apardığımız və əldə etdiyimiz razılaşmalardan irəli gəlir. Bir il əvvəl Dmitri Anatolyeviçin rəsmi səfəri zamanı bu mövzu müzakirə edilmişdi. Bundan əvvəl «Qazprom»un prezidenti cənab Miller ölkəmizə səfər etmişdi. Beləliklə, minimum bir il müddətində şirkətlərimiz

arasında həmin mövzu ilə bağlı danışıqlar aparılmış, prinsiplər, kommersiya parametrləri razılaşdırılmışdır. Danışıqlar konstruktiv, xoş məram ruhunda aparılmış və tərəflər razılığa gəlmişlər, bu da təbii olaraq, bizdə müsbət hisslər yaradır. Ona görə ki, bu gün qeyd edildiyi kimi, Azərbaycan qazının Rusiyaya ixrac olunması münasibətlərimizin yeni sahəsidir.

Bu gün Azərbaycan qazı artıq dünyanın 4 ölkəsinə nəql edilir və gələn ildən başlayaraq həm də Rusiyaya ixrac olunacaqdır. Ölkəmizin qaz potensialı kifayət qədərdir və deyə bilərəm ki, bu il hasilatın səviyyəsi təqribən 27 milyard kubmetr olacaqdır. Növbəti ildə isə 30 milyard kubmetrdən çox qaz hasil etməyi planlaşdırırıq. Bizim üçün Rusiya ilə qaz sahəsində əməkdaşlıq həm də yeni bazara çıxmaq, qaz təchizatının şaxələndirilməsini təmin etmək imkanıdır. Hərdən «şaxələndirmə» sözü eşidiləndə, əsasən istehlakçılar üçün şaxələndirmə nəzərdə tutulur. Lakin Rusiya kimi və artıq Azərbaycan kimi istehsalçılar üçün nəqletmənin şaxələndirilməsi istehsalçılar üçün təchizat mənbələrinin şaxələndirilməsi kimi vacibdir. Bu müqavilə maraqlarımıza bütünlüklə cavab verir.

Bu müqavilə ilə Rusiya və Azərbaycan qaz sahəsində siyasiləşdirilməyən, hər iki dövlətin marağına xidmət edən, azad rəqabət və bazar iqtisadiyyatı ruhuna cavab verən münasibətlər mədəniyyətini nümayiş etdirir.

Gizlətmirəm ki, bu müqavilənin əldə olunması üçün potensial nəqledənlərlə çoxlu məsləhətləşmələr və danışıqlar aparmaq lazım olmamışdır. Rusiya və Azərbaycan arasında heç bir nəqledən yoxdur. Bizə, habelə qaz kəmərləri çəkmək üçün vəsait axtarmaq lazım deyildir. Qaz kəməri vardır və işlək vəziyyətdədir. Bizə isə yalnız texniki və kommersiya parametrləri üzrə və bir il əvvəl imzalanmış dövlətlərimizin milli maraqlarını təmin edən dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamənin ruhuna uyğun müqavilə lazım idi.

**D m i t r i M e d v e d e v:** İlham Heydər oğlunun söylədiklərinə, demək olar, heç nə əlavə edə bilməyəcəyəm. Çünki Azərbaycan prezidentinin imzalanmış həmin müqavilələrin məzmunu, əməkdaşlığımızı inkişaf etdirən həmin sazişlərin istiqaməti və mahiyyətinə dair söylədiklərinin altından qol çəkməyə hazıram. Yeganə olaraq nəyi demək istərdim: Rusiyanın əslində təbii qazı az deyil və biz həqiqətən müxtəlif bazarlarda işləyirik. Lakin məhz belə sazişlər bizə gələcəyə baxmağa imkan verir. Niyə? Ona görə ki, enerji daşıyıcılarını özlərinin baza milli sərvəti kimi nəzərdən keçirən iki ölkə nəinki sivil şəkildə razılığa gəlir, həmçinin perspektivi bunda görür. Həm də bu, siyasi motivlərə görə deyil, bayaq düzgün deyildiyi kimi, qarşılıqlı faydadan irəli gələrək edilir. Bizim əməkdaşlığımıza heç kimin mane ola bilməyəcəyi şəraitdə edilir və yalnız əlavə imkanlar yaradır. Fikrimcə bu hamımızın belə intensiv şəkildə can atdığımız, haqqında çox danışdığımız və onunla bağlı xüsusi enerji layihəsi, yəni yaxın gələcəkdə energetika sahəsində necə işləyəcəyimiz barədə razılaşma qəbul olunmasını təklif etdiyimiz enerji təhlükəsizliyinin özünə dair nümunədir.

Hesab edirəm ki, imzalanmış müqavilənin yaxşı gələcəyi vardır. Bu, yalnız başlanğıcdır. Ümid edirik ki, bu əməkdaşlıq gözlədiyimiz bəhrəni verəcəkdir, bunun üçün bütün şərait vardır. Bu gün elə həmin əməkdaşlığın başlanğıcıdır. Bu gün Rusiya–Azərbaycan qaz münasibətləri üçün mühüm gündür. Ümid edirəm ki, biz hamımız bu günü yadda saxlayacağıq.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Moskva Bəyannaməsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və beynəlxalq təşkilatların qərarları əsasında nizama salınması barədə dəqiq deyilmişdir. Bu müddəa beynəlxalq birliyin prinsipial mövqeyinə uyğundur. Həmin müddəanın gələcək həyatı təcəssümünü necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Moskvada imzalanmış Bəyannamədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hansı prinsiplər üzrə nizama salınması dəqiq göstərilmişdir: beynəlxalq hüquq prinsipləri hamıya məlumdur, indiki halda beynəlxalq təşkilatların qərarlarını, təbii ki, ən nüfuzlu beynəlxalq təşkilatın – Birləşmiş Millətlər Təşkilatının qərarını əsas götürürük. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz surətdə çıxmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT də müvafiq qərarlar qəbul etmişdir. ATƏT-in Lissabon sammitinin qərarı da indiyədək qüvvədədir. Təbii ki, həmin münaqişə bu prinsiplər əsasında nizama salınmalıdır. Ərazi bütövlüyü prinsipi pozulmazdır. Xalqların öz müqəddəratını təyin etməsinə gəldikdə isə bu vahid Azərbaycan dövlətinin ərazi bütövlüyü çərçivəsində uğurla reallaşdırıla bilər.

Bu gün danışıqlar prosesi yekun mərhələsinə daxil olur. Bu gün biz Dmitri Anatolyeviçlə birlikdə qeyd etdik ki, bu ay Sankt-Peterburqda keçirilmiş danışıqların növbəti mərhələsi kifayət qədər səmərəli olmuşdur. Biz irəliyə doğru daha bir neçə addım ata bilmişik. Əlbəttə, Azərbaycanda, yəqin ki, Ermənistanda və dünyada münaqişənin mümkün qədər tez nizama salınmasına dair böyük ümidlər vardır. Baxmayaraq ki, atəşkəs barədə qərarın qəbul edildiyi 1994-cü ildən bəri münaqişə nizama salınmamışdır, bir neçə il əvvəllə müqayisədə bu gün münaqişənin nizama salınmasına ümidlər daha çoxdur. Buna görə də hesab edirəm ki, münaqişəni bütün tərəflərin konstruktiv əməkdaşlığı, anlaşma üstünlükləri və maraqları ruhunda nizamlaya biləcəyik. Biz bunu istəyirik, buna can atırıq və öz tərəfimizdən buna nail olmaq üçün hər şeyi edirik.

**D m i t r i M e d v e d e v:** Mən, əlbəttə, tamamilə razılaşmaq istəyirəm ki, bu cür problemlər yalnız möhkəm beynəlxalq hüquqi baza əsasında nizama salına bilər. Həmin baza məlumdur. Söhbət bir vaxtlar sivil adlandırılan xalqlar

tərəfindən işlənib hazırlanmış beynəlxalq hüququn ümumi prinsiplərindən gedir. Söhbət təbii ki, əsas beynəlxalq təşkilatların və ilk növbədə Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair qərarlarından və qətnamələrindən gedir. Mənim fikrimcə, ən başlıcası heç də o deyil ki, bu prinsiplər mövcuddur – onları heç kim inkar etmir, başlıcası odur ki, tərəflər bütün məsələləri məhz bu ruhda nəzərdən keçirməyə hazır olmalı və münaqişəni hansısa başqa şeylər düşünmədən həmin baza prinsipləri əsasında nizama salmalıdırlar. Mənim fikrimcə, mürəkkəb və kifayət qədər uzun sürən münaqişənin həll edilməsi şansı vardır. Sankt-Peterburqda keçirilmiş sonuncu görüş göstərdi ki, danışıqların iştirakçıları – mən Azərbaycanı və Ermənistanı nəzərdə tuturam – müxtəlif məsələlər üzrə mövqelərdə mövcud olan fikir ayrılıqlarını tədricən aradan qaldırmağa və Azərbaycan prezidentinin irəliyə doğru hərəkət barədə söylədiyi kimi, irəliləməyə hazırdırlar. Münaqişənin çox yaxın perspektivdə həll olunması üçün bütün imkanlar vardır və Rusiya digər dövlətlərlə birlikdə – burada heç bir qısqanclıq ola bilməz – bu münaqişənin maksimum səmərəli şəkildə nizama salınmasına çalışacaqdır.

## KOMOR ADALARI İTTİFAQININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD ABDULLAH MƏHƏMMƏD SAMBİYƏ

Hörmətli cənab Prezident!

Komor adaları yaxınlığında A310 təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbərindən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2009-cu il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRI**
**CƏNAB ƏLİ ABDULLAH SALEHƏ**

Hörmətli cənab Prezident!

«Yemenia Air» şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması və çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2009-cu il*

## DAXİLİ İŞLƏR NAZİRLİYİ BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*30 iyun 2009-cu il*

*İyunun 30-da Daxili İşlər Nazirliyi Bakı Şəhər Baş Polis İdarəsinin yeni inzibati binasının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak etmişdir.*

*Daxili İşlər naziri general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, 2008-ci ilin yanvarında başlanmış inşaat işləri bu ay başa çatdırılmışdır. Altımərtəbəli binanın sahəsi 8544 kvadratmetr, idarənin ümumi ərazisi isə 1,3 hektardır.*

*Ən müasir standartlara uyğun tikilmiş binanın inşaat işlərində Almaniya və Türkiyədən gətirilmiş, eləcə də yerli materiallardan istifadə olunmuşdur. Tikintidə yerli işçi qüvvəsi çalışmışdır.*

*Binada bütün zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz olunmuş 150 xidməti otaq, növbətçi otağı, «102» xidməti otağı, brifinq zalı, 200 nəfərlik akt zalı, yeməkxana vardır, ayrıca qaraj və digər yardımçı sahələr də yaradılmışdır.*

*Dövlətimizin başçısı birinci mərtəbədə növbətçi və «102» xidməti otaqlarına baxdı. Məlumat verildi ki, qanun pozuntuları və vətəndaşlara qarşı törədilən digər hüquqazidd əməllər barədə «102» xidmətinə daxil olan məlumatlar dərhal «online» rejimində yerli polis orqanlarına ötürülür. «102» xidməti*

*otağında, eyni zamanda, «Təhlükəsiz şəhər» sisteminin məntəqəsi də fəaliyyət göstərir. «Təhlükəsiz şəhər» sistemi prezident İlham Əliyevin 2004-cü il iyunun 30-da təsdiq etdiyi «Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair» Dövlət Proqramı çərçivəsində həyata keçirilən layihələrdən biridir. Sistem müxtəlif yerlərdə quraşdırılmış kameralar ilə paytaxtda hüquq qaydasına riayət olunmasına nəzarətin müasir informasiya-kommunikasiya texnologiyaları, o cümlədən videomüşahidə yolu ilə həyata keçirilməsini, fasiləsiz şəkildə canlı izlənilməsini, fövqəladə vəziyyətlərə çevik reaksiya verilməsini təmin edir.*

*Birinci mərtəbənin foyesində Azərbaycanın dövlət rəmzlərini əks etdirən stendlər quraşdırılmışdır.*

*İkinci mərtəbənin foyesində ulu öndər Heydər Əliyevin, üçüncü mərtəbənin foyesində isə prezident, Ali Baş Komandan İlham Əliyevin polis orqanlarına diqqət və qayğısını əks etdirən fotoguşələr vardır. Dəhlizlərin divarlarında qədim və müasir Bakının mənzərələrini əks etdirən fotoşəkillər asılmışdır.*

*Dövlətimizin başçısı binanın müasir səs avadanlığı ilə təchiz edilmiş akt zalına, xidməti otaqlarına, 100 nəfərlik yeməkxanasına da baxdı.*

*Görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev tövsiyələrini verdi.*

## DAXİLİ İŞLƏR NAZİRLİYİ İDMAN CƏMİYYƏTİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*30 iyun 2009-cu il*

*İyunun 30-da Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin yeni binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Daxili İşlər naziri general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, 2008-ci ilin yanvarında başlanmış inşaat işləri bu ay başa çatdırılmışdır. Ən müasir standartlara uyğun tikilmiş beşmərtəbəli binanın sahəsi 5 min kvadratmetr, kompleksin ümumi ərazisi isə 0,3 hektardır. Tikinti işlərində yerli və Avropadan gətirilmiş materiallardan istifadə edilmişdir.*

*Bildirildi ki, bina cəmiyyətə üzv olan idmançıların rahat məşq etmələri üçün bütün lazımi avadanlıqla təchiz olunmuşdur. Bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Zirzəmidə kikboks, qılıncoynatma zalları, fiziki və xüsusi hazırlıq şöbələri, qazanxana və bəzi inzibati otaqlar yerləşir. Qəbul otağı, kafe, gözləmə zalı, soyunub-geyinmə otaqları və sahəsi 902,72 kvadratmetr olan böyük idman zalı birinci mərtəbədədir. İdman zalının uzunluğu 36, eni isə 24 metrdir. 120 tamaşaçı yeri olan zalda voleybol, həndbol və mini-futbol oyunları keçirmək mümkündür.*

*Birinci mərtəbədə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri*

*diqqət və qayğını, idmançılarla keçirilən görüşləri əks etdirən fotoguşə yaradılmışdır. Burada, həmçinin nazirliyin İdman Cəmiyyəti üzvlərinin Olimpiya oyunlarında və müxtəlif beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətləri əks etdirən guşə də vardır. Cəmiyyətin üzvləri ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Yay Olimpiya oyunlarında 4 qızıl, 1 gümüş və 4 bürünc medal qazanmışlar.*

*Ulu öndər Heydər Əliyevin 2001-ci il 30 iyun tarixli Fərmanı ilə Daxili İşlər Nazirliyinin strukturuna idarə səlahiyyətli qurum kimi daxil edilmiş İdman Cəmiyyətində idmanın 22 növü üzrə bölmələr fəaliyyət göstərir. Bunlardan 15-i olimpiya proqramına daxil olan növlərdir. İdman Cəmiyyəti yarandığı gündən dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında ölkəmizin şərəfini ləyaqətlə qoruyan idmançılar yetişdirmişdir. İndiyədək cəmiyyətin 38 üzvü dünya çempionu adını qazanmışdır, 47-si dünya çempionatlarının mükafatçısı, 9-u dünya rekordçusu, 54-ü Avropa birinciliklərinin qalibi, 66-sı Avropa çempionatlarının mükafatçısı, 38-i Olimpiya oyunlarının iştirakçısıdır. Hazırda cəmiyyətin 55 minədək üzvü vardır.*

*Dövlətimizin başçısı xidməti otaqların yerləşdiyi ikinci mərtəbədə yaradılmış şəraitlə tanış oldu.*

*Üçüncü mərtəbədə taekvondo və boks zalları, əlbəyaxa döyüş mərkəzi, məşqçi otaqları, dördüncü mərtəbədə cüdo və güləş zalları vardır.*

*Prezident İlham Əliyev əlbəyaxa döyüş mərkəzi, taekvondo və boks zalları ilə yaxından maraqlandı.*

*Bina bütün zəruri mebel, inventar və kommunikasiyalarla təchiz edilmişdir. Onun qazanxanası və transformator yarımstansiyası vardır. Əraziyə bitişik 1000 kvadratmetr sahədə yerləşən köhnə yaşayış binaları sökülərək yeri abadlaşdırılmış, asfalt salınmışdır.*

*Sonra prezident İlham Əliyev böyük idman zalında gənc idmançılar və Olimpiya oyunlarının mükafatçıları qarşısında çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar!

Mən sizi və Daxili İşlər Nazirliyinin bütün şəxsi heyətini Polis günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

İyulun 2-də Azərbaycanda Polis günü qeyd olunur. Bu gün Bakı Şəhər Baş Polis İdarəsinin yeni inzibati binasının açılışını qeyd etdik. Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yeni binasının açılışında bərabər iştirak edirik. Bu onu göstərir ki, Daxili İşlər Nazirliyinin bütün infrastrukturu yeniləşir, müasirləşir. Həm bölgələrdə, həm Bakı şəhərində daxili işlər orqanları üçün nəzərdə tutulmuş yeni binalar tikilir.

Biz bir neçə ay əvvəl Daxili İşlər Nazirliyinin yeni gözəl hospitalının açılışında bərabər iştirak etmişdik. Bu gün Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yeni binasının açılışındayıq. Bu onu göstərir ki, Azərbaycan dövləti polisinə, polis işçilərinə həmişə olduğu kimi, diqqət göstərir, qayğı göstərir və belə də olmalıdır.

Polisin, polis orqanlarının hər bir ölkə üçün çox böyük əhəmiyyəti vardır. Asayişin qorunması işində, cinayətkarlığa qarşı mübarizədə polis işçiləri ön cəbhədədir və bu gün Azərbaycanın uğurlu inkişafında, ölkəmizdə sabitliyin tam şəkildə bərqərar olunmasında, asayişin yüksək səviyyədə qorunması işində polis orqanlarının çox böyük zəhməti var, xidməti var. Mən polis işçilərinin işini çox yüksək qiymətləndirirəm. Şadam ki, bizim görkəmli idmançılarımız Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində fəaliyyət göstərirlər.

Azərbaycan idmanının çox böyük potensialı, çox böyük gücü var. Həm kütləvi qaydada idmanla məşğul olmaq üçün şərait yaradılır, həm Azərbaycan xalqı peşəkar, görkəmli idmançılar yetişdirir, həm də bizim idmançılar dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında qabaqcıl yerlərdədirlər. Azərbaycanda idmanın belə geniş vüsət alma-

sı çox mühüm hadisədir. Gənc nəslin yetişdirilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, ümumiyyətlə, ölkənin idman şöhrətinin yüksəklərə qaldırılması üçün Azərbaycan dövləti hər şeyi edir və mən çox şadam ki, bizim tanınmış görkəmli idmançılar – olimpiya çempionları, dünya, Avropa çempionları Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində öz fəaliyyətlərini davam etdirirlər.

İki gündən sonra sizin bayramınızdır – biz Polis gününü qeyd edəcəyik. Bu bayram ərəfəsində bir daha bütün polis işçilərinə uğurlar, cansağlığı, yeni nailiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

* * *

*Prezident İlham Əliyev İdman Cəmiyyətinin üzvləri ilə söhbət etdi, onlarla xatirə şəkli çəkdirdi.*

*Dövlətimizin başçısına daxili işlər orqanlari üçün gələcəkdə inşa edilməsi nəzərdə tutulan tikililər haqqında da geniş məlumat verildi.*

*Bina ilə yaxından tanış olan prezident İlham Əliyev əlavə tapşırıq və tövsiyələrini verdi, nazirliyin kollektivinə uğurlar arzuladı.*

## RUSİYA DÖVLƏT TELEVİZİYA KANALININ «VESTİ V SUBBOTU» VERİLİŞİNƏ MÜSAHİBƏ

*30 iyun 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Rusiya Dövlət Televiziya kanalının «Vesti v subbotu» verilişinin aparıcısı Sergey Brilyova müsahibə vermişdir.*

**S u a l: Hörmətli İlham Heydər oğlu, Dmitri Medvedevlə Sizin imzaladığınız, indiyə qədər misli-bərabəri olmayan müqavilənin əhəmiyyətini çoxları hələ dərk etmir. Uzun illər boyu Azərbaycana qaz satmış Rusiya indi ilk dəfədir ki, Azərbaycandan qaz alır. Bunun mənası nədən ibarətdir və nə üçün hamı razıdır? Dünən Siz çox məmnun görünürdünüz.**

**İ l h a m Ə l i y e v:** Bu saziş, həqiqətən həm Rusiyanın, həm də Azərbaycanın maraqlarına cavab verir. Bu saziş bizim üçün yeni, böyük bazara çıxmaq imkanı, qaz satışının tamamilə şaxələndirilməsini təmin etmək imkanı deməkdir. Çünki bizim qaz ixracı əvvəldən Qərbə istiqamətlənmişdi və bu gün Azərbaycan qazı artıq 4 ölkəyə satılır. Buna görə də Rusiya bazarına çıxış böyük əhəmiyyət kəsb edir. Mən dünən qeyd etdim ki, indiki halda infrastruktur, qaz kəməri artıq mövcuddur, əlavə investisiyalara ehtiyac yoxdur, tranzit dövlətlər yoxdur, ona görə də tranzit barədə danışıqlarla məşğul olmaq «ləzzətindən» məhrumuq. Rusiyanın cənub regionlarının Azərbaycandan göndərilən qazla təmin edilməsinə ehtiyac var. Çox güman ki, bu, iqtisadi baxımdan Rusiya tərəfi üçün daha sərfəlidir.

**M ü x b i r: Bəli, bu halda bizə Sibirdən qaz kəməri çəkmək lazım olmayacaqdır.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə. Üstəlik, qarşılıqlı faydalı olan yaxşı kommersiya şərtləri də vardır. Buna görə də bu vəziyyətdə hər iki tərəf qazanır.

**S u a l: «Qazprom»un başçısı Aleksey Miller jurnalistlərə məlumat verərkən xüsusi vurğuladı ki, «Qazprom» Azərbaycana çox sərfəli kommersiya şərtləri təklif edir, qazı çox sərfəli qiymətə alır və istehlakın həcmini artırmağa hazırlaşır. Bu o deməkdirmi ki, Nabukko kəmərini doldurmaq üçün potensial imkan olmayacaqdır?**

**İ l h a m Ə l i y e v:** Hələlik bu barədə danışmaq çətindir. Nabukko layihəsinə gəldikdə isə, biz bu məsələ barədə mövqeyimizi dəfələrlə bildirmişik. Bu ideya yarananda Azərbaycan təchizatçı kimi nəzərdə tutulmur, tranzit ölkələrdən biri hesab edilirdi. Təchizatçılar başqa ölkələr idi. Lakin müəyyən səbəblər üzündən ilkin təchizatçılarla razılıq əldə edilməsində çətinliklər yaranmış və Azərbaycanın böyük həcmdə qaz hasil edən ölkəyə çevrilməsi ilə bağlı maraq yaranmışdır. Bizim qaz ehtiyatlarımız çox böyükdür. Buna görə də təbii ki, yeni ölkələrin bazarlarına çıxmağımıza imkan verəcək layihələri dəstəkləyirik. Lakin biz özümüzün qaz infrastrukturunu yaratmışıq. Onun bir qismi, məsələn, Rusiya ilə bizi əlaqələndirən qaz kəməri sovet dövründən qalmış, bir qismi təzə tikilmişdir. Buna görə də yeni qaz kəmərlərinin tikintisinə sərmayə qoymağımıza heç bir lüzum yoxdur. İndi elə vəziyyət yaranıb ki, istehlakçıların qaza marağı istehsalçıların marağından üstündür. İstehsalçıların qarşısında ciddi problemlər yoxdur, çünki bazar başqa variantları nəzərdən keçirməyə imkan verir. Təbii ki, belə olan halda yeni infrastrukturu istehlakçılar yaratmalıdırlar, onlar sərmayə qoymalı, öz enerji təhlükəsizliyini təmin etməlidirlər.

**M ü x b i r: Necə deyərlər, sizə lazımdır, siz də tikin.**

**İ l h a m Ə l i y e v:** Lap sadə dildə desək, belədir. Əgər Nabukko qaz kəməri tikilsə və bizə münasib kommersiya şərtləri təklif etsələr, əlbəttə, biz bundan istifadə edəcəyik. Lakin biz bu prosesi başlamaq təşəbbüsünü irəli sürməyəcəyik və onu maliyyələşdirməyəcəyik. Bu bizim birmənalı mövqeyimizdir. Bu mövqe hamıya – həm Qərbdə, həm Tür-

kiyədə, həm də başqa ölkələrdə olan tərəfdaşlarımıza, bizim qazın potensial alıcılarına məlumdur. Buna görə də dünən imzalanmış müqavilə ikitərəfli xarakter daşıyır. Azərbaycandan Rusiyaya göndəriləcək qaz Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən hasil edilir. Bu, gələn il hasilatının artırılması nəzərdə tutulan «Şahdəniz-1» yatağından çıxarılan qaz ola bilər. Bu, gələcəkdə «Şahdəniz-2» yatağından və başqa yataqlardan çıxarılan qaz da ola bilər. Əsas mövzu təchizatın, qarşılıqlı öhdəliklərin yerinə yetirilməsinin etibarlı və uzunmüddətli olmasıdır.

**S u a l: Hazırda söhbət Azərbaycan qazının Rusiyanın cənubundakı istehlakçılara satışından gedir. Bəs Siz Rusiya ərazisinə həm də Azərbaycan qazının oradan Avropaya satışı üçün tranzit ərazi kimi baxırsınızmı?**

**İ l h a m Ə l i y e v:** Mənim bildiyimə görə, Rusiya qanunvericiliyi Rusiya ərazisindən tranzitin mümkünlüyünü nəzərdə tutmur. Biz bu məsələni qaldırmışdıq. Məsələn, Türkiyədə bizə məxsus olan neft-kimya kompleksinin Rusiyadan qaz ala bilməsi üçün svop əməliyyatları məsələsi nəzərdən keçirilmişdir. Bu variant da istisna edilmir. Ona görə də indiki halda Azərbaycan qazı Rusiya sərhədini keçəndən sonra onun haraya gedəcəyinin bizim üçün ciddi fərqi yoxdur.

**M ü x b i r: Başlıcası odur ki, sərhədi keçərkən yaxşı qiymət ödəsinlər.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, başlıcası budur. Əsas məsələ uzunmüddətli münasibətlərin etibarlı olması, hər hansı bazar konyunkturunun artıq razılaşdırılmış mövqelərə düzəlişlər etməməsidir. Buna görə də müqavilə öhdəliklərinin etibarlı və uzunmüddətli olması hər bir ölkə üçün, o cümlədən dünyada qazın əsas təchizatçısı olan Rusiya üçün, həm də bizim üçün prioritet məsələdir.

**S u a l: Axşam danışıqlar başa çatdıqdan sonra Siz Dmitri Anatolyeviç Medvedevlə Xəzər dənizinin dalğalarına tamaşa etməyə getdiniz. Həmin dalğalara baxanda, xüsusən Bakıda**

**keçiriləcək növbəti Ümumxəzər sammiti ərəfəsində ürəyinizdən hansı fikirlər keçirdi? Xəzəryanı dövlətlər öz mövqelərinin razılaşdırılması baxımından çox uzun bir yolun hansı mərhələsindədirlər?**

**İ l h a m Ə l i y e v:** Bu mənzərə bizim üçün təzə deyil. Biz Xəzər dənizinin mənzərəsinə adət etmişik. Əminəm ki, Bakı sakinlərinin mütləq əksəriyyəti Xəzər dənizinə enerji ehtiyatları mənbəyi kimi və həll edilməsi zəruri olan məsələ kimi baxmır – mən 5 Xəzəryanı dövlətin delimitasiyasını nəzərdə tuturam. Biz həmişə bu fikirdə olmuşuq və indi də belə düşünürük. Xəzər dənizi bizim üçün həyat tərzidir, təbiətdir, çimərliklərdir, istirahətdir. Lakin iş elə gətirib ki, Xəzərin enerji ehtiyatları, ekoloji təhlükəsizliyi, Xəzərdə milli sektorların müəyyən edilməsi məsələləri təkcə Xəzəryanı dövlətləri deyil, daha geniş formatda bir sıra başqa ölkələri də narahat edən məsələlərdir. Əlbəttə, biz istərdik ki, Xəzər dənizinin delimitasiyası məsələsinin tam tənzimlənməsinə nail olaq. Bunun üçün yaxşı baza vardır. Hesab edirəm ki, bunun üçün zəmin artıq mövcuddur. Məsələn, Azərbaycan və Rusiya, Azərbaycan və Qazaxıstan, Rusiya və Qazaxıstan arasında ikitərəfli sazişlər imzalanmışdır. Bu müqavilələr həm də çoxtərəfli, beştərəfli sazişin əsası olmalıdır.

**M ü x b i r: Türkmənləri və iranlıları da inandırmaq üçün.**

**İ l h a m Ə l i y e v:** Mənim fikrimcə, Rusiya, Qazaxıstan və Azərbaycan öz aralarında bu müqavilələri bağlayarkən beynəlxalq hüquq normalarını və milli maraqlarını əsas götürmüşlər. Biz onu əsas götürmüşük ki, Xəzər hər ölkəyə 20 faiz olmaqla deyil, milli sektorlara uyğun bölünməlidir. Əgər belə olsaydı, Rusiya bəlkə də qane olmazdı ki, ona 20 faiz deyil, daha az pay düşür. Buna görə də hər ölkəyə 20 faiz olmaqla bölgü yanaşmasının heç bir əsası yoxdur və bu, məsələni dolaşdırmaq deməkdir. Fikrimcə, bütün mövqeləri öz aralarında artıq razılaşdırmış, bütün sərhədləri müəyyən etmiş ölkələrin öz mövqelərini müdafiə etməyə daha çox haqqı vardır. Çünki bu mövqe beynəlxalq miqyasda tanın-

mışdır. İstərdik ki, Xəzər regionundakı bütün ölkələr bu mövqedən çıxış etsinlər. Xəzərin statusunun müəyyən edilməsi məsələsinin uzadılması istər ekoloji təhlükəsizlik baxımından, istərsə də təbii ehtiyatların istifadəsi üçün böyük problem deyildir. Biz öz neftimizin və qazımızın çox hissəsini Xəzərdən çıxarırıq. Xəzərin statusunun tənzimlənməmiş qalması bizə mane olmur. Ancaq istərdik ki, bu mövzu havadan asılı qalmasın, hər hansı spekulyasiyaların mövzusuna çevrilməsin.

Bundan əvvəl Tehran sammitində qərara alınmışdır ki, növbəti sammit Bakıda keçiriləcəkdir. Biz həmin sammiti keçirməyə hazırıq.

**S u a l: Sizinlə söhbətdə bir mövzudan yan keçə bilməyəcəyəm. Son iki həftə ərzində dünya xəbərlərində bu məsələ ilk sətirlərdə yer tuturdu. Sizin iqamətgahın pəncərələrindən Xəzər görünür. Mənim coğrafiyadan bildiyimə görə, Siz İran tərəfə baxırsınız və etnik azərbaycanlıların təqribən dörddə üç hissəsi də Azərbaycan Respublikasında deyil, İranda yaşayır. Azərbaycan rəhbərliyinin fikrincə, Tehranda baş vermiş son dramatik hadisələr, ümumiyyətlə seçkilərdən sonra İranda vəziyyət necə qiymətləndirilir?**

**İ l h a m  Ə l i y e v:** Bilirsinizmi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün ölkələrlə, o cümlədən də qonşu ölkələrlə münasibətlərimiz mehriban qonşuluq, dostluq və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır. Müstəqillik dövrünün ilk 2 ili istisna olmaqla, bütün bu müddət ərzində biz həmişə bu qızıl qaydaya əməl etmişik. Bu, qonşularla münasibətlərimizi həmin ölkələrdə hakimiyyətin və idarəetmənin hansı strukturunun mövcudluğundan asılı olmayaraq, məhz qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq əsasında qurmağa imkan vermişdir. Buna görə də biz İranda seçkilərlə əlaqədar məsələləri bu ölkənin daxili işi hesab edirik. Onlar özləri heç kəsin məsləhəti və müdaxiləsi olmadan bu məsələni daha yaxşı ayırd edərlər.

**S u a l: Bakılı tanışlarım İran radiosunda son günlərdə səslənən verilişlərin məzmununu mənə söyləyiblər. İran Azərbaycanın daxili həyatının bəzi məqamlarına ciddi maraq göstərir. Məsələn, Dmitri Anatolyeviç Medvedevin Bakıya səfəri ərəfəsində Siz burada İsrail prezidentini qəbul edirdiniz. Əhalisinin əksəriyyəti müsəlman olan bir ölkə üçün bu, qeyri-adi haldır. Ümumiyyətlə, Siz bu cür çoxvektorlu siyasəti necə qurursunuz?**

**İ l h a m Ə l i y e v:** Biz bu siyasəti çoxvektorlu hesab etmirik. Bəzən bu siyasətə bir qədər tarazlaşdırılmış çoxvektorluluq çalarları gətirilir. Bəlkə də kənardan baxanda belə görünür, lakin bizim üçün bu, təbii prosesdir. Fikrimcə, Azərbaycanın timsalında çoxları yəqin edə bilər ki, bir-biri ilə, yumşaq desək, dostluq etməyən ölkələrlə yaxşı münasibətlər qurmaq mümkündür. Əgər bizim tərəfdaşlarımızın və dostlarımızın öz aralarında problemləri varsa, biz həmişə onu əsas götürmüşük ki, Azərbaycan həmin ölkələrin öz münasibətlərini ayırd edəcəyi yerə çevrilməməlidir. Müəyyən dövrdə bu cür meyillər olmuşdur və öz aralarında problemləri olan ölkələr Azərbaycanın bu və ya digər ölkə ilə nə üçün yaxşı münasibət yaratmasına qısqanclıqla yanaşırdılar. Lakin regionda bizim mövqeyimiz möhkəmləndikcə, hamıya aydın olmuşdur ki, Azərbaycan özünü təmin edə bilən ölkədir. Hətta iqtisadi böhran da göstərdi ki, biz yardımlardan, bəxşişlərdən, ianələrdən asılı deyilik...

**M ü x b i r: Mənim bildiyimə görə, Azərbaycanın milli valyutası manatın məzənnəsi elə əvvəlki kimidir.**

**İ l h a m Ə l i y e v:** Bəli, tamamilə doğrudur. İqtisadiyyat inkişaf edir. Bu ilin ilk beş ayı ərzində ÜDM 4,5 faiz, qeyri-neft sahəsində isə 6 faizdən çox artmışdır. Buna görə də artıq başa düşürlər ki, bizim işlərimizə qarışmasalar yaxşıdır. Azərbaycan ərazisinin işğalını davam etdirən ölkənin prezidentini İranda ən yaxşı dost kimi qəbul edəndə biz ki, buna etirazımızı bildirmirik. Biz buna tamamilə adi yanaşırıq. Bu, İranın daxili işidir. Müsəlman dövlətlərinin rəhbər-

ləri Ermənistana rəsmi səfərlər edəndə və həmin ölkə ilə dostluq və qardaşlıq haqqında bəyanatlar verəndə də eyni cür. Biz belə hallara hər hansı əsəbi jestlərlə münasibət bildirmirik. Buna görə də təbii ki, biz də özümüzə eyni münasibət tələb edirik.

Sizin dediyiniz məqamlar və müəyyən narazılıq halları o qədər aşağı səviyyədə ifadə olunmuşdur ki, bunu araşdırmağa ehtiyac qalmamışdır. Heç bir dövlətin rəsmi strukturları bununla əlaqədar bizə heç bir mesaj göndərməmişdir.

**S u a l: Siz Ermənistanın adını çəkdiniz. Bu, təbii haldır. Dmitri Medvedevlə birgə bəyanat zamanı Siz Rusiyanın vasitəçiliyi ilə Sankt-Peterburqda Ermənistan prezidenti ilə son görüşünüzün nəticələrini çox yüksək qiymətləndirdiniz. Rusiyanın vasitəçiliyi ilə Ermənistanla münasibətlər barədə Sizdə nikbinlik doğuran konkret amil nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Dediklərim danışıqlar prosesinin bugünkü vəziyyətini və Rusiyanın rolunu tam əks etdirir. Tənzimləmənin vasitəçilərindən biri kimi, Rusiyanın rolunun nə qədər səmərəli olduğunu görürük. Moskvada imzalanmış, problemin həlli yollarını müəyyənləşdirən və beynəlxalq hüququn prinsiplərinə və beynəlxalq təşkilatların qərarlarına əsaslanan Bəyannamə buna misaldır. Dünən Dmitri Anatolyeviç də bu barədə danışdı. Ermənistan və Azərbaycan prezidentləri arasında Rusiyada görüşlərin təşkil edilməsi də bu qəbildəndir. Son bir ildə iki görüş istisna olmaqla, qalan görüşlərin hamısı Rusiya ərazisində keçmişdir və biz Rusiyada bir daha görüşmək barədə yeni təklif almışıq. Rusiya prezidentinin iştirak etdiyi ötən görüş də çox səmərəli olmuşdur. Azərbaycanda aydın görürük ki, Rusiya münaqişə tərəflərinin razılığa gəlməsinə kömək etmək istəyir. Danışıqlar prosesi mürəkkəb olsa da, biz düzgün istiqamətdə irəliləyirik.

**S u a l: Danışıqların məxfiliyini açıqlamamaq şərti ilə nə deyə bilərdiniz? Normallaşmanın başlanması üçün oriyentir nə ola bilər?**

**İ l h a m Ə l i y e v:** Siz müddətləri nəzərdə tutursunuz, yoxsa mahiyyəti?

**M ü x b i r: Mahiyyəti.**

**İ l h a m Ə l i y e v:** Mahiyyət etibarilə razılıq əldə edilmişdir ki, işğalçı Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasına başlanmalı, hazırda Dağlıq Qarabağda yaşayan vətəndaşların və işğal edilmiş ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıdacaq milliyyətcə azərbaycanlı olan vətəndaşların təhlükəsizliyinə beynəlxalq zəmanət təmin edilməlidir. Biz hesab edirik ki, indiki halda siyasi zəmanətlər hərbi və ya hər hansı sülhməramlı zəmanətlərdən qat-qat sanballıdır. Dağlıq Qarabağda yaşayanların işğal edilmiş yeddi rayonun hamısı qaytarılandan sonra Dağlıq Qarabağın Ermənistandan coğrafi mənada yenidən təcrid edilə biləcəyindən narahat olduqlarını başa düşürük, Dağlıq Qarabağın Ermənistanla heç vaxt əlaqəsi olmayıb. Biz orada yaşayanların narahatlığını başa düşürük və yerüstü əlaqə məsələsini konstruktivlik və beynəlxalq normalar ruhunda nəzərdən keçirməyə hazırıq.

Bu gün bizim müzakirə etdiyimiz, qəbul etdiyimiz və razılaşdırdığımız təkliflərdə status məsələsi yoxdur. Əgər mövqelərin razılaşdırılması üçün bu mövzu yenidən ilkin şərt kimi irəli sürülərsə, biz heç nəyə nail olmayacağıq. Buna görə də real həyatda olanları başa düşmək lazımdır. Biz Dağlıq Qarabağın müstəqil dövlət kimi mövcud olmasını mümkün hesab etmirik və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Erməni tərəfi hesab edir ki, Dağlıq Qarabağda hazırda mövcud olan özünüidarə səviyyəsi saxlanılmalıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud idi. Vilayətin rəhbərliyində, vilayət bürosunda cəmi bir nəfər azərbaycanlı var idi, qalanları erməni idi. Həmin azərbaycanlı da əhalisinin 90 faizi azərbaycanlılar olan Şuşa şəhərinin rəhbəri idi. Bu gün biz münaqişənin nəticələrini aradan qaldırmalı, işğala son qoymalı, bütün millətlərdən olan vətəndaşların təhlükəsizliyini təmin etməli, bundan son-

ra bütün kommunikasiyaları açmalıyıq. Bundan sonra barışıq baş tuta bilər. Axı həm Azərbaycanda, həm də Ermənistanda azərbaycanlılar və ermənilər yaşamışdır və heç bir ciddi problem yox idi. Yəni barışıq baş tutmalıdır. Biz daim müharibə vəziyyətində yaşaya bilmərik və biz hərbi potensialımızı artırmağımıza baxmayaraq, müharibə istəmirik. Bu onun nəticəsidir ki, atəşkəs elan ediləndən sonra 15 il müddətində tənzimləməyə nail ola bilməmişik. Bizim yanaşmamız bundan ibarətdir. Zənnimcə, əgər Ermənistan tərəfi siyasi iradə göstərsə və hər bir halda atmalı olduğu addımları atsa, işğal edilmiş bütün ərazilərdən çıxsa, azərbaycanlılar Şuşaya, Dağlıq Qarabağa qayıdandan sonra gələcəkdə biz təbii ki, statusun müəyyən edilməsi məsələsini də müzakirə edəcəyik. Əlbəttə, Dağlıq Qarabağın müəyyən statusu olmalıdır. Biz bunu başa düşürük. Lakin bir daha deyirəm, biz həmin statusu suveren Azərbaycan dövlətindən kənarda təsəvvür etmirik. Zənnimcə, işğal edilmiş ərazilər azad olunandan sonra danışıqlar prosesi daha konstruktiv ola bilər.

**S u a l: Siz prioritetləri müddətlər üzrə sadalayanda bütün ərazilər haqqında məsələni birdən-birə qaldırırsınız, yoxsa əvvəlcə ermənilərin hərbi nəzarəti altında olan sırf Azərbaycan rayonlarından başlamağı, sonra isə Dağlıq Qarabağ məsələsini qaldırmağı nəzərdə tutursunuz?**

**İ l h a m Ə l i y e v:** Düzdür, belə bir xronologiya vardır. O, Minsk qrupunun həmsədrlərinin təkliflərində də mövcuddur. Hətta söhbət Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal edilmiş ərazilərdəki erməni qoşunlarının mərhələlər üzrə oradan çıxarılmasından gedir. Yəni sazişlər imzalandıqdan dərhal sonra birinci mərhələdə qoşunların 5 rayondan çıxarılması nəzərdə tutulur. Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Kəlbəcər və Laçın rayonlarından erməni silahlı qüvvələrinin çıxarılmasını məhz həmin rayonların coğrafi şəraiti nəzərə alınmaqla, saziş qüvvəyə minəndən 5 il sonra təmin etmək nəzərdə tutulur.

Bizim fikrimizcə, bu, kompromis müddətdir və həmin zonada daha artıq təhlükəsizlik tədbirləri təmin edilməlidir ki, hər iki tərəfin sülhsevər xarakterinə heç kəsin şübhəsi olmasın. Lakin erməni silahlı qüvvələrinin eyni vaxtda 7 rayondan çıxarılması hər hansı başqa amillərlə əsla bağlı deyildir və Minsk qrupunun təkliflərində bu məqam dəqiq göstərilmişdir. Dağlıq Qarabağın statusu məsələsinə gəldikdə isə birinci mərhələdə müvəqqəti status mexanizmi razılaşdırıla bilər, qəti status məsələsi isə tərəflər bu barədə razılığa gələndən sonra həll ediləcəkdir. Bunun üçün ola bilsin 1 il, ola bilsin 10 il, ola bilsin 100 il vaxt lazım gələcək, bəlkə də heç vaxt mümkün olmayacaqdır. Bunu zaman göstərər.

**S u a l: İlham Heydər oğlu, toxunmaq istədiyim sonuncu mövzu onunla əlaqədardır ki, Dmitri Medvedevlə Sizin görüşünüz Barak Obamanın Moskvaya səfərindən cəmi bir neçə gün əvvəl baş tutmuşdur. Özü də Azərbaycan ərazisində yerləşən Rusiya hərbi obyektindən – Qəbələ RLS-dən ümumdünya raketdənmüdafiə sistemi yaradılması üçün istifadə edilməsi və raketdənmüdafiə barədə Moskvanın amerikalılara hələ inişil təklif etdiyi məsələ Amerika və Rusiya nümayəndə heyətlərinin danışıqlar masası üzərindədir. Bu məsələ barədə Azərbaycanın mövqeyi necədir? Bu barədə Rusiya ilə Amerika arasında ehtimal edilən sazişlərə Sizin münasibətiniz necə olacaq?**

**İ l h a m Ə l i y e v:** Qeyd etdiyiniz kimi, bu, təzə məsələ deyildir. Əvvəllər də ortaya çıxmışdı. O vaxt bu barədə bizə müraciətlər olanda biz bunu...

**M ü x b i r: O vaxt Siz dərhal razılaşmışdınız.**

**İ l h a m Ə l i y e v:** ... müsbət qarşıladıq. Bəli, biz bu mövzunu bir növ müzakirə etməyə razılaşmışdıq. Amerika və Rusiya nümayəndələri arasında danışıqlar aparılmış, hətta rusiyalı və amerikalı mütəxəssislərdən ibarət birgə qrup Qəbələ stansiyasına səfər etmişdi. Ona görə də indiki halda biz bu məsələyə beynəlxalq təhlükəsizliyin çox mühüm problemini həll etməyə imkan verən proses kimi yanaşırıq.

Rusiya ilə Azərbaycan arasında imzalanmış sazişdə dəqiq göstərilmişdir ki, stansiyanın idarə edilməsi ilə bağlı hər hansı dəyişikliklər və ya hər hansı əlavə addımlar Azərbaycan tərəfi ilə razılaşdırılmalıdır. Bu stansiya bizim mülkiyyətimizdir. Təbii ki, stansiyanın fəaliyyətinin hər hansı yeni formatı Azərbaycanın iştirakı olmadan qeyri-mümkündür. Yadınızdadırsa, müəyyən mərhələdə bu mövzuda söhbətlər səngimişdi. Təbii ki, bu səngimədən sonra biz həmin məsələni qaldıra bilməzdik. Əgər bu gün ona yenidən maraq yaranarsa və bu mövzu ciddi müzakirə edilərsə, əlbəttə, biz öz sözümüzü deyəcəyik, lakin bunu lazımi məqamda edəcəyik.

Əgər Rusiya və Amerika qlobal beynəlxalq təhlükəsizlik məsələləri barədə razılığa gəlsələr, buna mane olmaq fikrimiz yoxdur. Təbii ki, bu halda Azərbaycan həmin prosesin tərkib hissəsi olacaqdır. Biz həm də qlobal beynəlxalq təhlükəsizliyin təmin edilməsi prosesinin tərkib hissəsi olacağıq və vaxtı gələndə bizim maraqlarımızla əlaqədar müəyyən şərtlər də irəli sürəcəyik.

**M ü x b i r: Çox sağ olun.**

## FRANSANIN MDB ÖLKƏLƏRİNDƏ AKKREDİTƏ OLUNAN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyul 2009-cu il*

*İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının MDB ölkələrində akkreditə olunan səfirlərini qəbul etmişdir.*

**İlham Əliyev**: Xoş gəlmisiniz! Sizi Azərbaycanda görməyimə çox məmnunam. Səfirlərin toplantısının keçirilməsi üçün ölkəmizi seçdiyinizə görə şadam. Yəqin ki, sizlərin çoxu Azərbaycanda heç vaxt olmayıb. Əminəm ki, aparacağınız danışıqlarla yanaşı, bir az da ölkəmizlə tanışlıq imkanınız olacaqdır.

Bildiyiniz kimi, ölkələrimiz arasındakı əlaqələr uğurla inkişaf edir. Bir çox sahələri əhatə edən ikitərəfli əlaqələrimizin gündəliyi çox genişdir. İqtisadi, enerji sahələrində yaxşı əlaqələrimiz var, siyasi münasibətlərimiz də yüksək səviyyədədir. Azərbaycan Fransa şirkətləri üçün sərmayələr baxımından cəlbedici məkandır. Bu yaxınlarda nəhəng qaz yatağının işlənilməsinə dair böyük müqavilə imzalanıb. Ümid edirik ki, bu, uğurlu olacaq və enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verəcəkdir. Fransanın bir çox şirkətləri Azərbaycanda podratçı kimi çalışır, tenderlərdə iştirak edir, qalib gəlir və ölkəmiz üçün əhəmiyyətli layihələri həyata keçirirlər.

Ölkəmizin siyasətinin əsas istiqaməti xarici sərmayələrin Azərbaycana cəlb olunmasıdır. Bu siyasət davam edir və biz böyük həcmdə sərmayələrin cəlb edilməsinə nail olmuşuq. Birbaşa sərmayələrin adambaşına düşən həcminə görə Azər-

baycan keçmiş sovet respublikaları arasında ilk yerlərdən birini tutur. İnkişafımızın bu mərhələsində isə daxili sərmayələr xarici sərmayələrdən daha çoxdur. Biz ölkəmizə zəruri olan layihələrin həyata keçirilməsi üçün yaxşı şirkətlərin, tərəfdaşların və podratçıların axtarışındayıq.

Son 5 ildə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib, biz ümumi daxili məhsulun (ÜDM) 2,6 dəfə artırılmasına nail olmuşuq. Sənaye istehsalı eyni həcmdə artıb. Büdcə xərclərini də eyni sürətlə 12 dəfə artırmağa nail olmuşuq, biz yoxsulluğu 4 dəfə azaltdıq və son 5 ildə 800 minə yaxın yeni iş yerinin açılması, demək olar ki, işsizlik problemini aradan qaldırdı. Hazırda digər ölkələr kimi, qeyri-leqal miqrasiya problemi ilə üzləşirik və Azərbaycana xaricdən sürətlə gələn əmək qüvvəsinin fəaliyyətini tənzimləmək üçün tədbirlər görməliyik.

Hətta böhran dövründə iqtisadiyyatımız artır, cari ilin ilk beş ayında ÜDM 4,5 faiz artıb. Mühüm məsələ ondan ibarətdir ki, təkcə enerji deyil, əsasən qeyri-enerji sektoru da inkişaf edir. Ümumi daxili məhsulda qeyri-enerji sektorunun həcminin 6 faizdən çox olması iqtisadiyyatımızın şaxələndirilməsinə nail olduğumuzu göstərir. Biz bir çox keçmiş sovet respublikaları kimi, xarici yardımdan asılı deyilik, heç kimə maliyyə dəstəyi, kredit və buna aid məsələlər üçün müraciət etməmişik.

Təbii ki, enerji amili enerji resursları ilə zəngin olan digər keçmiş Sovet İttifaqı respublikaları kimi, ölkəmiz üçün də mühüm əhəmiyyət kəsb edir. İdarəetmənin səmərəli olması, şəffaflıq, məsuliyyət və şaxələndirmə də vacibdir. Azərbaycan indiyədək dünyada yeganə ölkədir ki, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünün tamhüquqlu üzvüdür. Neft fondumuz çox şəffaf qurumdur, BMT tərəfindən mükafatlandırılıb. Neft fondunda toplanan və xərclənən vəsait çox şəffaf və tarazlıdır. Neft və qaz satışından əldə olunan vəsaitin xərclənməsi yalnız parlamentin təsdiqindən sonra mümkündür.

Bu il neft hasilatı gündə 1 milyon barrelə yaxın olacaq. Qaz hasilatı 27 milyard kubmetr olacaq. Son 2 ildə Azərbaycan təbii qaz idxalçısından ixracçısına çevrilməyə nail olub. 2006-cı ilin sonunadək biz idxalçı ölkə idik, 4,5 milyard kubmetr qaz idxal edirdik. Bu gün biz təbii qazımızı müxtəlif ölkələrə ixrac edirik və onun coğrafi ərazisi genişlənir. Enerji təhlükəsizliyi məsələləri üçün bu gün qaz amili neft amilindən də önəmlidir. Biz qonşu ölkələrlə, Avropa İttifaqı ilə birgə çalışırıq və ümid edirik ki, ədalətli tranzit şərtlərinə nail olmaq üçün səylərimiz uğurlu olacaqdır.

Siyasətimiz çox aydındır, istəyirik ki, iqtisadi sahədə digər ölkələrlə əməkdaşlığımız beynəlxalq təcrübəyə, bazar iqtisadiyyatına və azad rəqabətə əsaslansın. Əgər bu yanaşmalar regionda üstünlük təşkil edərsə, böyük qaz yataqlarımızın daha sürətlə işlənilməsi imkanını əldə edəcəyik. Həll olunmamış tranzit məsələləri, alqı-satqı razılaşmaları səbəbindən artıq 2 il itirmişik və bütün bunlar olmadan biz qaz layihələrinin əsas mərhələsinə sərmayə qoymağa başlaya bilmərik.

Sərmayələr 20 milyard dollara yaxın olacaqdır. Bu, təkcə bizim deyil, beynəlxalq enerji şirkətlərinin də sərmayələri olacaqdır. Təbii ki, əsas sərmayə layihələrindən birinin başlanması üçün bütün razılaşmalar masa üzərində olmalıdır. Tranzit, alqı-satqı, əlavə infrastruktura sərmayələrin yatırılması həmin məsələlərdəndir. Biz avropalı tərəfdaşlarımızla bu istiqamətdə çox ciddi çalışırıq.

Əminəm ki, qarşıdan gələn illərdə də bizim Avropa İttifaqına üzv-ölkələrlə əlaqələrimizdə enerji komponenti də olacaqdır. Bu yaxınlarda biz «Şərq tərəfdaşlığı» proqramına qoşulduq. Ümid edirik ki, bu, Avropa İttifaqı ilə Azərbaycan arasında daha yaxın əməkdaşlığa aparacaq və Fransanın Avropa İttifaqının qabaqcıl ölkələrindən biri kimi, bu təşəbbüslərdə təbii ki, xüsusi rolu var.

Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi, bizimlə birgə çalışır və ümid edirik ki, beynəlxalq ictimaiyyətin

birgə səyləri Ermənistan–Azərbaycan münaqişəsinin həllinə gətirib çıxaracaqdır. Biz hazırda hər iki tərəfin mövqeyinə dair daha çox anlayışa malikik. Danışıqlar son mərhələyə qədəm qoyub. Keçmişdə elə dövrlər olub ki, aparılan danışıqlar nəticəyə yaxın olub. Lakin Ermənistanda baş verən hadisələr, bəzən isə faciəli hadisələr nəticəsində bu danışıqlar dayandırılmışdır. Praqa prosesi adlandırılan bu format isə yəqin ki, son imkandır. Təbii ki, biz Ermənistan tərəfindən daha konstruktiv mövqe sərgiləməyi, danışıqlar prosesində heç bir süni ləngimələrin olmayacağını gözləyirik. Çünki bu status-kvo daha bir neçə il davam edə bilməz. Atəşkəs rejiminin əldə olunmasından 15 il keçməsinə baxmayaraq, hələ də danışıqlar prosesini davam etdirməyimiz faktı münaqişəni sülh yolu ilə həll etmək istəyimizin bariz nümunəsidir. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərinin təkliflərini ciddi şəkildə nəzərə almalıyıq və nizamlama prosesinin əyani icrasına başlamalıyıq.

Azərbaycanın işğal olunan bütün əraziləri azad edilməlidir ki, Ermənistanın etnik təmizləmə siyasətinə məruz qalan qaçqın və köçkünlərimiz öz doğma torpaqlarına qayıda bilsinlər. Məhz bundan sonra bölgədə sülh bərqərar oluna bilər. Düşünürəm ki, bu, Ermənistan üçün də faydalı olacaq, çünki onların işğalçılıq siyasəti heç bir nəticəyə gətirib çıxarmadı. İşğal olunmuş ərazilərdə yaşayış yoxdur. Onlar çalışdılar, lakin insanların olmaması səbəbindən buna nail ola bilmədilər. İşğal olunmuş ərazilərdə hər şey dağıdılıb. İşğalçılıq siyasəti nəticəsində Ermənistan regional inkişafdan, nəqliyyat yollarından, enerji əməkdaşlığından təcrid olunub.

Atəşkəsin imzalanmasından sonrakı 15 il ərzində Azərbaycan irəliyə doğru böyük addımlar atıb. Biz əsl müstəqil ölkəyə çevrilmişik. Ermənistana gəldikdə isə onlar regional əməkdaşlığın bir hissəsi deyil – nə nəqliyyat, nə də enerji sahəsində. Azərbaycanla ünsiyyəti bərpa etmədən onların gələcək inkişafı çox çətin olacaq.

Ermənistan–Azərbaycan münaqişəsinin həlli Ermənistan üçün mütləq faydalı olacaq, bundan sonra bütün əlaqələr bərpa ediləcək. Münaqişə həll edilmədən regional vəziyyət sabit ola bilməz. Dağlıq Qarabağ münaqişəsinin həlli nəzərə alınmadan bəzi regional məsələlərin nizamlanmasına yönələn bir sıra cəhdlər uğurlu ola bilməz. Çünki regiondakı reallıq ondan ibarətdir ki, Azərbaycanın mövqeyi və fikri mütləq nəzərə alınmalıdır. Azərbaycanın iştirakı olmadan regional inkişaf əbəsdir. Coğrafi yeri, regional mövqeyi, iqtisadi nailiyyətləri və təbii ki, enerji resursları baxımından Azərbaycanla hesablaşmalıdırlar.

Dağlıq Qarabağ münaqişəsi nizama salınmadan bəzi regional məsələlərin həllinə yönələn cəhdləri biz heç vaxt dəstəkləmirik. Bizim dəstəyimiz olmadan bu cəhdlərin gələcəyi yoxdur. Bunlar son ayların əsas hadisələridir. Bu onu göstərir ki, regional məsələlər elə bir yolla həll edilməlidir ki, bütün ölkələr bundan faydalansın. Maraqlara məhəl qoymamağı planlaşdıran bir ölkədən biz əməkdaşlıq gözləyə bilmərik. Bu münaqişə yalnız bizim problemimiz deyil, çox ciddi regional təhlükədir. Hazırda həssas sülh və atəşkəs rejimi mövcuddur və burada sülhün sabit və uzunmüddətli olması üçün biz müharibənin nəticələrini aradan qaldırmalıyıq. Mən sadəcə bu məsələ ilə bağlı öz fikirlərimi bölüşmək istərdim, çünki mövqeni mənbənin özündən öyrənmək vacibdir.

Bir daha qeyd etmək istərdim ki, Azərbaycan Avropa İttifaqının dostu və tərəfdaşı kimi, bu qurumla olan münasibətlərdən çox razıdır. Bununla belə, biz qarşılıqlı faydalı daha çox əməkdaşlıq, daha çox əlaqələr yaratmaq istəyirik. Bu mənada Azərbaycan ilə Fransa arasındakı əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Çox şadam ki, ölkənizin səfirləri Azərbaycana səfər ediblər. Ümid edirik ki, Azərbaycana səfəriniz maraqlı olacaq. Sizə və ölkənizə uğurlar arzulayıram. Bir daha sizi görməkdən şadam.

* * *

*Fransa Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə idarəsinin direktor müavini Erik Mille qəbula görə təşəkkür edərək dedi:*

– Cənab Prezident, vaxt tapıb bizi qəbul etdiyinizə görə çox sağ olun. Azərbaycanın əldə etdiyi nailiyyətlər və ölkəni narahat edən problemlər haqqında fikirlərinizi bizimlə bölüşdüyünüzə görə Sizə öz həmkarlarım adından dərin təşəkkürümü bildirirəm.

Qafqaz ölkələri, Şərqi Avropa, Mərkəzi Asiya və Rusiyada çalışan həmkarlarım – səfirlərdən ibarət nümayəndə heyəti bu görüş vasitəsilə ölkənizi daha yaxşı tanımaq fürsətini əldə etdi. Təbii ki, bu görüşün baş tutmasında həmkarım cənab Qabriel Kellerin xidmətini xüsusi qeyd etmək istəyirəm. Fürsətdən istifadə edərək, Fransa ilə Azərbaycan arasında Sizin sayənizdə yüksək dərəcədə inkişaf etmiş münasibətlərə görə minnətdarlığımızı bildiririk. Əlaqələrimiz bir çox sahələrdə genişlənir. Azərbaycan Fransa üçün mühüm tərəfdaşdır.

**İlham Əliyev**: Sağ olun. Qeyd etmək istəyirəm ki, tərəfdaşlığımız nisbətən yeni olsa da, yaxşı tarixi var. Müstəqilliyimizi əldə etdiyimiz dövrdən Fransa ilə Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Rəhmətlik atam Heydər Əliyevin prezident kimi ilk rəsmi səfəri məhz Fransaya olmuşdu. O, 1993-cü ildə prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya etdi. Bu ənənə davam edir. 2003-cü ildə mənim prezident kimi ilk rəsmi səfərim Fransaya oldu. Həmin vaxtdan etibarən bir çox tədbirlər keçirilib. Mən ölkənizin rəhbərləri ilə çoxsaylı görüşlər keçirmişəm. Əvvəlki prezidentlə və hazırkı prezident cənab Sarkozi ilə çox səmimi münasibətlərimiz var. Onunla çox yaxşı müzakirələrimiz olub.

Azərbaycanın enerji siyasəti aydındır. Biz Xəzər dənizini xarici sərmayələr üçün açıq elan etmiş – xarici şirkətlərlə

birgə Xəzər dənizindən Aralıq dənizinə qədər boru kəmərini tikmiş ilk ölkəyik. Bu, bir növ qapıları açdı. Sonra isə ikinci qaz xətti çəkildi.

Biz iqtisadiyyatımızın tamamilə şaxələndirilməsinə nail olmuşuq. İqtisadi islahatlar siyasətini həyata keçirmişik. 2008-ci ildə Dünya Bankı öz hesabatında Azərbaycanı bir nömrəli islahatçı ölkə elan edib. Bunlar birdən-birə baş verməyib, uzun yol keçmişik. Əgər sizin özünüzə inamınız varsa, resurslara maliksinizsə və özünüzü təmin edirsinizsə, o zaman digərlərindən asılı deyilsiniz.

*Prezident İlham Əliyev onu da dedi ki, Avropa İttifaqı hazırda dünyada təkmil sistemlərdən biridir. Quruma üzv olan ölkələr böyük inkişaf yolu keçib, aralarındakı sərhədləri tam açıblar. Əfsuslar olsun ki, Avropadan fərqli olaraq, Azərbaycanın yerləşdiyi region sabit deyildir. Regionda münaqişələrin mövcudluğu bu reallığı ortaya qoyur. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan heç kimin daxili işlərinə qarışmır, qonşularla olan münasibətlər qarşılıqlı hörmətə əsaslanır. Azərbaycan dünyəvi dövlətdir, ölkəmiz öz dini və milli dəyərlərini qoruyaraq ümumbəşəri dəyərlərə sadiqdir. Azərbaycan Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətlərini bundan sonra da möhkəmləndirmək əzmindədir.*

## YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ XANIM DORA BAKOYANNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Yunanıstanın Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Dora Bakoyannini qəbul etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısının Yunanıstanın Xarici İşlər naziri xanım Dora Bakoyanni ilə görüşü oldu. Xanım Dora Bakoyanni Yunanıstan prezidenti Karolos Papulyasın və Baş nazir Kostas Karamanlisin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu. Münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu, ikitərəfli əlaqələrimizin perspektivləri müzakirə edildi.*

*Dövlətimizin başçısı Yunanıstan prezidenti Karolos Papulyasın və Baş nazir Kostas Karamanlisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Yunanıstanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

*Sonra görüş geniş tərkibdə davam etdirildi. Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparıldı.*

## RUMINİYANIN İQTİSADİYYAT NAZİRİ, AZƏRBAYCAN–RUMINİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ ADRİAN VİDYANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Rumıniyanın İqtisadiyyat naziri, Azərbaycan–Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adrian Vidyanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlığımızın səviyyəsinin məmnunluq doğurduğunu bildirdi, əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Rumıniyanın İqtisadiyyat naziri, Azərbaycan–Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adrian Vidyanunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri uğurlu keçəcək və əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.*

*Rumıniyanın İqtisadiyyat naziri, Azərbaycan–Rumıniya hökumətlərarası komissiyanın həmsədri Adrian Vidyanu Rumıniya prezidenti Trayan Beseskunun salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, Rumıniya prezidenti Azərbaycan prezidentinin Buxarestə rəsmi səfərini səbirsizliklə gözləyir. Bu səfərin Rumıniya üçün əhəmiyyətli olacağını deyən Adrian Vidyanu ölkəsinin Azərbaycan ilə ikitərəfli münasibətlərin genişləndirilməsinə ümidlə baxdığını qeyd etdi.*

# POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 iyul 2009-cu il*

*İyulun 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Polşa prezidenti Lex Kaçinskini və xanımı Mariya Kaçinskini səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Polşa prezidentinə raport verdi.*

*Polşanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları İlham Əliyev və Lex Kaçinski Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Polşa prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Lex Kaçinskiyə, Polşa nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*2 iyul 2009-cu il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından əhəmiyyəti vurğulandı.*

*Polşa prezidentinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsində yeni bir mərhələ olduğu qeyd edildi.*

*Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*2 iyul 2009-cu il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizin səfərinizə böyük əhəmiyyət veririk. Bu gün biz bir çox məsələləri, o cümlədən ikitərəfli münasibətlərə, regional inkişafa və beynəlxalq problemlərə dair məsələləri geniş şəkildə müzakirə etdik. Münasibətlərimiz möhkəmdir və bir çox sahələri əhatə edir. Biz müxtəlif tədbirlərdə prezidentlər səviyyəsində dəfələrlə görüşmüşük. Sizin Azərbaycana rəsmi səfəriniz indiyədək əldə olunmuş nailiyyətləri bir daha nəzərdən keçirmək üçün yaxşı fürsətdir. Bu gün ölkələrimiz arasında tərəfdaşlığı daha da gücləndirəcək mühüm sənədlər imzalanacaqdır.

Əminən ki, bu sənədlərin həyata keçirilməsi ölkələrimiz arasında gələcək əməkdaşlığı daha da genişləndirəcəkdir. Əlaqələrimiz bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi, humanitar və enerji sahələrini qeyd etmək olar. Hər bir istiqamətdə bizim güclü qarşılıqlı anlaşmamız vardır.

Sizi bir daha salamlayır, səfəriniz zamanı uğurlar arzulayıram.

**L e x K a ç i n s k i**: Çox sağ olun, cənab Prezident.

Siz düzgün qeyd etdiniz ki, biz dəfələrlə görüşmüşük və münasibətlərimiz müxtəlif sahələri əhatə edir. Ölkələrimiz arasında mövcud tərəfdaşlıq böyük əhəmiyyət kəsb edir və bu tərəfdaşlığın gələcəkdə yaxşı inkişaf perspektivləri vardır.

Əvvəlcə mən enerji sahəsindəki əməkdaşlığımızı qeyd etmək istəyirəm. Siyasi səviyyədə də əlaqələrimiz yüksəkdir. Bu gün bir sıra sənədlər imzalanacaqdır. Onlardan biri enerji sahəsində əməkdaşlığa aiddir. Həmin sənəd mövcud əməkdaşlığımıza əlavə dəstək verəcəkdir. Digər sənəd isə siyasi əməkdaşlığımıza, prezidentlərin Məşvərət Komitəsinin Nizamnaməsinə aiddir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*2 iyul 2009-cu il*

*İyulun 2-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin iştirakı ilə Azərbaycan–Polşa sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Polşa prezidenti Lex Kaçinski «Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşanın «Grupa Lotos» Səhmdar Cəmiyyəti arasında niyyət haqqında Protokol»u ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və «Grupa Lotos» Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Pavel Olexnoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009–2010-cu illər üçün əməkdaşlıq cədvəli»ni Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyev və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosunun rəhbəri, Dövlət katibi Aleksandr Şçidlo imzaladılar.*

## POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN «HEYDƏR ƏLİYEV» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ MƏRASİMİ

*2 iyul 2009-cu il*

*İyulun 2-də sənədlərin imzalanması mərasimindən sonra Polşa prezidenti Lex Kaçinskinin «Heydər Əliyev» ordeni ilə təltif edilməsi mərasimi olmuşdur.*

*Polşa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin ölkəmizin ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.*

**İ l h a m  Ə l i y e v**: Hörmətli cənab Prezident, mən Sizi Azərbaycan dövlətinin ən ali mükafatı – «Heydər Əliyev» ordeni ilə məmnuniyyətlə təltif edirəm.

Siz Azərbaycan xalqının yaxın dostusunuz və Polşa–Azərbaycan ikitərəfli əlaqələrinin inkişafında Sizin xüsusi xidmətləriniz vardır. Sizin önəmli təşəbbüsləriniz Polşa ilə Azərbaycan arasında energetika sahəsində və geniş mənada Avropada enerji məsələlərinin həlli işində çox mühüm rol oynamışdır. Son 3 il ərzində bu Sizin Azərbaycana beşinci səfərinizdir. Bu, iki ölkə arasında çox güclü əlaqələrin bariz nümunəsidir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması prinsiplərini Siz həmişə müdafiə edirsiniz və Azərbaycan xalqı buna görə Sizə minnətdardır.

Sizə möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

İndi isə icazə verin bu yüksək mükafatı Sizə təqdim edim.

*Azərbaycan prezidenti İlham Əliyev ordeni Polşa prezidenti Lex Kaçinskiyə təqdim etdi.*

**Lex Kaçinski**: Cənab Prezident!

Bu ordeni Sizin tərəfindən qəbul etməkdən şərəf hissi duyuram. Çünki bu orden Azərbaycanın müstəqilliyinin rəmzidir. Sizin ölkəniz də, bizim ölkəmiz də müstəqilliyi eyni zaman kəsiyində qazanmışdır və bu müstəqillik qəti surətdə və prinsipial qaydada həm Azərbaycan, həm də Polşa xalqlarının həyatında çox böyük, ciddi dəyişikliklərə səbəb oldu. Mən uzun müddət siyasətlə məşğul olmuşam. Daha sonra öz ölkəmin prezidenti seçildim və qarşıda duran əsas vəzifələrdən biri 18 il əvvəl müstəqilliyini qazanmış, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrlə münasibətlərin qurulmasından ibarət idi. Bu, həmçinin Azərbaycan və Polşanın maraqlarını anlayan tərəflərin, dairələrin də uğuru idi.

İcazə verin, Dağlıq Qarabağ məsələsi barədə bir-iki söz deyim. Bu məsələ ilə bağlı şəxsən məndə heç bir şəkk-şübhə yoxdur. Güc tətbiq etməklə hər hansı bir ölkənin ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Heç kəs hətta ən güclü bir himayədarın bayrağı altında belə, hərəkət etməli deyil. Mən təbii ki, bu problemin sülh yolu ilə nizamlanmasının tərəfdarıyam. Lakin əslinə qalsa, bu məsələnin həlli məhz bir formada olmalıdır. Azlıqların hüququnun qorunmasına əməl olunmalı, lakin Azərbaycanın ərazi bütövlüyünün saxlanması, bərpası təmin edilməlidir.

Bir daha Sizə minnətdaram.

## AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*2 iyul 2009-cu il*

*İyulun 2-də Polşa prezidentinin təltif etmə mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Lex Kaçinski mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Əziz dostlar!

İlk növbədə, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Bu Sizin Azərbaycana son 3 ildə etdiyiniz beşinci səfərdir. Bu onu göstərir ki, ölkələrimiz arasında əlaqələr çox yüksək səviyyədədir, çox intensiv xarakter daşıyır. Nəzərə alsaq ki, mən də öz prezidentlik dövrümdə Polşaya 5 dəfə səfər etmişəm, yəqin ki, əlavə şərhə ehtiyac yoxdur. Doğrudan da Polşa–Azərbaycan münasibətləri son illər ərzində ən yüksək səviyyəyə qalxmışdır.

Bizim çox güclü siyasi əlaqələrimiz var, iqtisadi sahədə yaxşı nəticələr var, Polşa–Azərbaycan birgə iqtisadi komissiyası uğurla fəaliyyət göstərir və bir sıra sahələrdə, iqtisadi məsələlərin həlli istiqamətində çox vacib addımlar atılmışdır. Humanitar sahədə ənənəvi olaraq əməkdaşlıq mövcuddur və bu gün daha da sürətlə inkişaf edir. Polyaklar əsrlər boyu Azərbaycanda yaşamış, yaratmışlar. Onların memarlıq əsərləri bu günə qədər Bakını gözəlləşdirir.

Biz son illər Sizin təşəbbüsünüzlə energetika sahəsində Polşa–Azərbaycan əlaqələrinin inkişafını müşahidə edirik. Bu sahə həm bizim, həm sizin, həm də Avropa üçün çox önəmlidir. Azərbaycanın çox böyük və zəngin neft-qaz yataqları vardır. Biz 15 ilə yaxındır ki, Azərbaycanda çox uğurlu neft-qaz strategiyamızı icra edirik. Azərbaycan neft-qaz hasilatını böyük dərəcədə artırıb və bu gün Azərbaycan nefti və qazı müxtəlif istiqamətlərlə dünya və Avropa bazarlarına çatdırılır. Nəzərə alsaq ki, Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının ehtiyatları çox böyükdür, uzun illər, onilliklər bundan sonra da Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi üçün önəmli olacaqdır.

Polşa–Azərbaycan əlaqələri bu istiqamətdə, əlbəttə ki, həm ikitərəfli, həm geniş formatda həyata keçirilir. Sizin təklifinizlə «Krakov təşəbbüsü» adlandırdığımız addımlar geniş mənada regional əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Bir neçə enerji sammitinin uğurla keçirilməsi və əldə edilmiş nailiyyətlər, qəbul edilmiş siyasi bəyanatlar bizim iradəmizi ortaya qoyur, istəklərimizi ifadə edir.

Bu vaxta qədər əldə edilmiş nəticələr əsasında biz növbəti illərdə yeni addımlar atmalıyıq. Artıq bu sahədə vacib tədbirlər görülür, Odessa–Brodı–Qdansk neft kəmərinin texniki-iqtisadi əsaslandırılması hazırlanıbdır və bu da çox önəmli hadisədir. Ümid edirəm ki, gələcək illərdə regional əməkdaşlıq məsələləri həll edildikcə biz istədiyimizə nail olacağıq.

Bu gün biz Xəzər dənizi–Qara dəniz–Baltik dənizi bölgəsinin əməkdaşlığından söhbət açırıq. Bu həm energetikanı, həm siyasi əlaqələri, həm də nəqliyyat, humanitar məsələlərin həllini, ümumiyyətlə, çox məsələləri ehtiva edir.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin gücləndirilməsi işində Polşanın çox mühüm və təsirli imkanları vardır və Polşa bu imkanlardan istifadə edir. Bu yaxınlarda «Şərq tərəfdaşlığı» proqramının başlanması Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərdə yeni səhifənin açılması deməkdir və biz buna hazırıq. Biz enerji təh-

lükəsizliyi məsələlərinin həllinə öz töhfəmizi verməyə hazırıq. Digər məsələlərlə əlaqədar Avropa İttifaqı ilə Azərbaycan arasında qarşılıqlı hörmət əsasında gözəl münasibətlər qurulubdur. Növbəti illərdə biz bu münasibətləri daha da dərinləşdirəcəyik. Bizim münasibətlərimiz çox geniş məna daşıyır və uğurlu inkişafımızı təmin edir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində müəyyən irəliləyiş vardır. Sizin bugünkü və bu günə qədərki çıxışlarınız bu mənada xüsusi əhəmiyyət daşıyır. Çünki bu bəyanatlar birmənalıdır. Bütün məsələlər, bütün münaqişələr bir prinsip əsasında həll olunmalıdır, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır. Hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır. İstənilən münaqişə, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini məhz bu əsasda tapa bilər. Birmənalı və qətiyyətli mövqeyinizə görə mən bir daha Azərbaycan xalqı adından Sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Əminəm ki, cənab Prezident, səfəriniz çox uğurlu olacaq, Sizin üçün xoş keçəcək və səfərin nəticələri iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Bir daha xoş gəlmisiniz!

**Polşa prezidenti Lex Kaçinskinin bəyanatı**

Cənab Prezident!

Xanımlar və cənablar!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Mən də qeyd etmək istəyirəm ki, həqiqətən bu mənim Bakıya beşinci səfərimdir. Cənab Prezident də öz prezidentliyi dövründə bizim ölkəyə 5 dəfə səfər edib. Biz sammitlər çərçivəsində də dəfələrlə görüşmüşük. Təbii ki, bu görüşlər həm Azərbaycanın, həm də Polşanın maraqlarına xidmət edən görüşlərdir.

Əməkdaşlıq üçün imkanlar böyükdür və bu imkanlar, xüsusilə də, cənab Prezident, Sizin və dost ölkəmizin imkan-

larından istifadə etməyimiz sayəsində daha da genişlənir. Biz yerləşdiyimiz coğrafi məkanda bu münasibətlərə dəstək verməyə çalışırıq. Qeyd edim ki, ötən əsrdə ölkələrimiz bir çox çətinliklərlə üzləşmişdir. Cənab Prezidentin burada qeyd etdiyi kimi, əməkdaşlıq məsələləri çox əhəmiyyətlidir və hesab edirik ki, Azərbaycanın Xəzər dənizində zəngin ehtiyatları bizim ümumi əməkdaşlığımıza xidmət edir. Sizin ölkəniz artıq Avropanın enerji təhlükəsizliyinə çox böyük təsir göstərən ölkəyə çevrilibdir və biz bunu görürük. Hətta belə deyərdim ki, Siz Avropaya bu cür töhfə verməklə qitənin daha mühüm bir hissəsinə çevrilirsiniz. Burada mən hamıya müraciət edərək demək istəyirəm, fakt ondan ibarətdir ki, nəinki mənim vətənimdə – Polşada, bütün Avropa İttifaqında, o cümlədən Avropa İttifaqına üzv olmayan dövlətlərdə də anlayırlar ki,  məhz bu məkanda ən vacib açarlar vardır. Nəinki Polşanın uğurunun, Avropa İttifaqının uğurunun açarı buradadır. Bu bizim enerji müstəqilliyimizdir.

Ərazi bütövlüyü prinsipinin pozulması, xüsusən də güc tətbiqi ilə pozulması qəbuledilməzdir və buna yol vermək olmaz. Çünki bu, hərbi münaqişənin daha da gücləndirilməsinə səbəb ola bilər. Ona görə də  münaqişənin olması nə Azərbaycanın, nə də digər dövlətlərin marağındadır. Məhz sülhsevər ölkələrin marağındadır ki, münaqişələr olmasın. Biz hesab edirik ki, Azərbaycan ilə Polşa bu baxımdan tam anlaşır. Ərazi bütövlüyü prinsipinə əməl edilməli, hörmətlə yanaşılmalıdır. Biz ərazi bütövlüyünə əməl edilməsini istəyirik. Azlıqların hüquqlarına da hörmətlə yanaşılmalıdır, amma bu, ərazi bütövlüyü çərçivəsində baş verməlidir.

Polşa xalqının və Azərbaycan xalqının müəyyən imkanları var ki, onlar o imkanlarla mübadilə edə bilərlər. Mədəni mübadilələr olmalıdır. Bu, Qərbdən Şərqə, Şərqdən Qərbə və Cənubdan Şimala, Şimaldan Cənuba olmalıdır. Biz bu ölkədə, bu məkanda, bu regionda sülhə xidmət etməliyik.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*2 iyul 2009-cu il*

*İyulun 2-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.*

*Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanım Kaçinska!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizin hamınızı Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu gün Polşa prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində Polşa–Azərbaycan əlaqələrinin inkişafı üçün çox vacib və əhəmiyyətli qərarlar qəbul edilibdir. Əminəm ki, bu qərarlar iki ölkə arasında əlaqələrin inkişafı üçün çox mühüm əhəmiyyət daşıyacaqdır. Bu gün bir tərəfdən, indiyə qədər əldə edilmiş nəticələr və nailiyyətlər müzakirə olundu, eyni zamanda, müştərək gələcəyimizi müəyyən edən çox önəmli sənədlər imzalandı. İlk növbədə siyasi sənədlər, Polşa və Azərbaycan prezidentlərinin Məşvərət Komitəsinin yaradılması haqqında, həmçinin iki ölkə arasında təhlükəsizlik məsələlərinin həlli üçün və enerji sahəsində, şirkətlər arasında vacib sənədlər imzalandı. Görülən bütün işlər bir daha göstərir ki, bizim münasibətlərimiz nə qədər geniş və

çoxşaxəlidir. Bu həm siyasi məsələləri, həm də iqtisadi, sosial, təhlükəsizlik və enerji təhlükəsizliyi məsələlərini əhatə edir. Əlbəttə ki, bu məsələlərin hamısı diqqət mərkəzindədir. Humanitar sahəyə çox böyük diqqət verilir və bu sahədə bizim müştərək tariximiz vardır.

Əsrlər boyu Polşa xalqının nümayəndələri Azərbaycanda işləmişlər, yaratmışlar. Polyak memarları Bakıda çox gözəl memarlıq abidələri yaratmışlar. Bu abidələr Bakını gözəlləşdirir. Gələcəkdə bu gözəl tarixi binaların təmirində Polşadan gələn mütəxəssislər də iştirak edəcəklər. Cənab Prezident, yaxşı xatırlayıram ki, 2005-ci ildə mən Polşada səfərdə olarkən, Sizinlə bərabər – Siz o vaxt Varşavanın meri idiniz – Varşava Üsyanı Muzeyinin həyətində Polşa uğrunda vuruşmuş Azərbaycan zabitlərinin xatirə lövhəsini bərabər açmışdıq. Yəni bu tarix bizim bugünkü və gələcək münasibətlərimiz üçün möhkəm bir əsasdır. Ölkələrimiz arasında münasibətlər dinamik və intensiv xarakter daşıyır. Bizim qarşılıqlı səfərlərimizin sayı bunun ən gözəl göstəricisidir. Siz Azərbaycana 5 dəfə səfər etmisiniz. Mən Polşaya 5 dəfə səfər etmişəm. Bundan başqa, müxtəlif beynəlxalq tədbirlərdə dəfələrlə Sizinlə birlikdə olmuşuq, məsələləri müzakirə etmişik.

Mən hökumətlərarası komissiyanın birgə fəaliyyətini çox yüksək qiymətləndirirəm. Komissiya əməli məsələlərlə məşğuldur. Təkcə iqtisadi, siyasi, energetika sahələrində deyil, eyni zamanda, iqtisadiyyatın digər sahələrində çox gözəl perspektivlər vardır. O ki qaldı enerji məsələlərinin həllinə, «Krakov təşəbbüsü» məhz Sizin tərəfinizdən irəli sürülmüşdür və enerji məsələlərinə dair bir sıra zirvə görüşləri keçirilmişdir. Sonuncu dəfə ötən ilin noyabr ayında keçirilən Bakı Enerji sammitinin qərarları bu gün də aktualdır və gələcək enerji əməkdaşlığının dərinləşməsi üçün o qərarların çox vacib əhəmiyyəti vardır.

Bu gün energetika sahəsində imzalanmış müqavilə əminəm ki, əməkdaşlığın gələcəkdə daha da dərinləşməsinə xidmət göstərəcəkdir. Azərbaycan zəngin neft-qaz yataq-

larına malikdir və Odessa–Brodı–Qdansk neft kəmərinin tikintisi, fəaliyyətə başlaması çox böyük əhəmiyyət daşıyır.

Biz Sizinlə bərabər bu sahədə çox böyük işlər görmüşük. Ümid edirəm ki, gələcəkdə layihənin reallaşması üçün bütün iştirakçı ölkələr eyni dərəcədə səylər göstərəcəklər. Mən keçən dəfə Polşaya səfərimdə Qdansk şəhərində Sizinlə bərabər Xəzər dənizi–Qara dəniz–Baltik dənizi enerji dəhlizinin gələcəyi haqqında fikir mübadiləsi apardıq. Bu dəhliz təkcə enerji daşıyıcıları üçün deyil, gələcəkdə çox etibarlı nəqliyyat dəhlizinə çevrilməlidir. Bu, əslində üç dənizin birləşməsi, bu bölgələrin birləşməsi, geniş mənada regional əməkdaşlığın dərinləşməsi deməkdir. Bu işlərdə Polşa–Azərbaycan münasibətlərinin xüsusi əhəmiyyəti vardır. Çünki biz Xəzər hövzəsində, siz Baltik dənizi hövzəsində iki bölgənin birləşməsi üçün əməli işlər görürük.

Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişlənməsində də Polşanın çox böyük rolu vardır. «Şərq tərəfdaşlığı» proqramının başlanması hesab edirəm ki, çox vacib və tarixi bir məsələdir. Postsovet məkanında yerləşən ölkələr ilk dəfə olaraq Avropa İttifaqı ilə konkret proqram çərçivəsində birgə fəaliyyət göstərəcəklər. Biz çox istərdik ki, «Şərq tərəfdaşlığı» proqramının konkret real nəticələri olsun, proqramın icrası nəticəsində Azərbaycan Avropa İttifaqı ilə daha da sıx əməkdaşlıq edə bilsin.

Bütün məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür. Mən Polşa–Azərbaycan münasibətlərinin gələcəyinə də çox böyük ümidlə və nikbinliklə baxıram. Polşa bizim üçün dost, tərəfdaş ölkədir və Sizin simanızda Azərbaycan Polşa kimi böyük dost qazanıbdır. Sizin fəaliyyətiniz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir və Azərbaycan dövləti Sizin fəaliyyətinizə yüksək qiymət verir. Məhz bunun nəticəsidir ki, bu gün Siz ölkəmizin ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilmisiniz. Bu münasibətlə mən Sizi bir daha ürəkdən təbrik edirəm.

Bu badəni, cənab Prezident, Sizin sağlığınıza, xanım Kaçinskanın sağlığına, Polşa–Azərbaycan əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

**Polşa prezidenti Lex Kaçinskinin nitqi**

Hörmətli cənab Prezident!
Hörmətli Mehriban xanım!
Cənab spiker!
Hörmətli dostlar!

Bu mənim burada – Azərbaycanın paytaxtında, Bakıda söylədiyim birinci nitq deyil. İcazə verin mən elə cənab Prezidentin nitqində söylədiyi fikirlərdən başlayım. Cənab Prezident Polşanın memarları haqqında danışdı və xidmətlərini qeyd etdi. Vaxtilə Varşava Üsyanında iştirak etmiş azərbaycanlıların da xidmətlərini qeyd etdi və bildirdi ki, bərpa layihələrində Polşanın memarları iştirak edə bilər.

Sizin ədəbiyyatınız Azərbaycana ilk səfərim zamanı mənə böyük təəssürat bağışladı və qeyd etmək istəyirəm ki, Azərbaycan ədibləri Polşanın ədəbiyyat tarixində də xüsusi yer tutmuşlar, öz romanları ilə yadda qalmışlar.

Polşanın çox məşhur ədibi Sezara Bareka Azərbaycanda – Bakıda anadan olmuşdur. Onun yazdığı hekayələr hətta orta məktəbdə bütün şagirdlərə məlum olan əsərlərdir. Polşa bu ədibi ilə böyük fərəh hissi duyur. Onun yazdığı əsərləri inqilab dövrünə aid edirik. O vaxtlar Azərbaycan da müstəqilliyini əldə etmişdi. Əfsuslar olsun ki, həmin müstəqillik 2 il çəkdi. 70 ildən sonra Azərbaycan yenidən uğur qazandı və müstəqilliyini bərpa etdi. Biz Sizin nailiyyətinizə, Azərbaycanın müstəqilliyini möhkəmləndirən fəaliyyətinizə, uğurlarınıza çox vurğunuq.

Qeyd etmək istəyirik ki, xalqlarımız tarixən bir yerdə olmuşlar. Biz hazırda elə bir konsepsiyanı formalaşdırmalıyıq ki – mən bu gün o konsepsiya haqqında dəfələrlə danışdım – bu konsepsiya nəinki Azərbaycan–Polşa xalqla-

rının maraqlarına, o cümlədən Sizin Avropa İttifaqı ilə, ümumiyyətlə, dünya miqyasında maraqlarınıza xidmət etsin.

Azərbaycanın enerji təhlükəsizliyi sahəsindəki fəaliyyəti və enerji resursları həm ölkəmizin, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verir.

Bu gün bütün dünyaya sülh lazımdır. Kiçik münaqişələr hər zaman təhlükə mənbəyidir və bu münaqişələrə son qoyulmalıdır. Xalqlar arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanmalıdır.

Ölkələrimizin humanitar sahədə, xüsusilə də səhiyyə və mədəniyyət sahələrində sıx əməkdaşlığı olduqca vacibdir. Polşa–Azərbaycan münasibətlərindən fəxr hissi keçirirəm.

## AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyul 2009-cu il*

*Azərbaycan və Ermənistanın Rusiya Federasiyasındakı səfirlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistanın bir qrup ziyalısı ATƏT-in xətti ilə iyulun 3-də Bakıya gəlmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olmuşlar.*

*Qrupa Ermənistanın Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri Armen Smbatyan, «Arovot» qəzetinin baş redaktoru Aram Abramyan, «Mediamaks» informasiya agentliyinin direktoru Ara Tadevosyan, «Novoye Vremya» qəzetinin jurnalisti Armen Xanbabyan, Ermənistan Milli Məclisinin deputatları Ermine Naqdalyan, Mxitar Mnasakanyan, futbolçu Eduard Markarov, S.Paracanov Muzeyinin direktoru Zaven Sarqsyan, İctimai Təşkilatın direktoru Şuşan Xatlamacyan, Dağlıq Qarabağdan tibb işçisi Lyudmila Qriqoryan, Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvidkoy, Azərbaycanın Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri Polad Bülbüloğlu, Azərbaycan Milli Məclisinin deputatları Asim Mollazadə, Rövşən Rzayev, Milli Konservatoriyanın rektoru Səyavuş Kərimi, Şuşa İcra Hakimiyyəti mədəniyyət şöbəsinin müdiri Zahid Abbasov, «Qarabağ» qəzetinin baş redaktoru Çingiz İsmayılov daxil idilər.*

*Görüşdə dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bildirərək vurğulamışdır ki, müna-*

*qişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində, Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməklə həll edilə bilər.*

* * *

*Bakıya gələn Ermənistan nümayəndələri paytaxtımızdakı erməni kilsəsinə gedərək buradakı vəziyyətlə tanış olmuşlar. Onlara məlumat verilmişdir ki, kilsə əvvəlki vəziyyətindədir. Kilsənin kitabxanası da, əlyazmalar da indiyədək qorunub saxlanılmışdır. Şuşa şəhər məscidi ilə müqayisədə məhz elə bu fakt azərbaycanlıların və ermənilərin maddi mədəniyyət abidələrinə olan münasibətini ortaya qoyur. Şuşa məscidində törədilənlərlə Bakıdakı erməni kilsəsindəki vəziyyəti müqayisə etdikdə şərhə ehtiyac qalmır.*

*Azərbaycan paytaxtında olan Ermənistan nümayəndə heyəti Bakıda gedən böyük quruculuq-abadlıq işləri, genişmiqyaslı inkişaf prosesləri ilə tanış olmuşlar. Ermənistandakı iqtisadi tənəzzüldən, həyat səviyyəsinin günbəgün pisləşməsindən fərqli olaraq, ermənilərin Azərbaycan torpaqlarının işğalını davam etdirməsinə baxmayaraq, ölkəmiz böyük inkişaf yolundadır və getdikcə güclənir.*

*Ermənistan nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevin qəbulunda da oldular.*

**İ l h a m Ə l i y e v:** İki səfirin 2 il əvvəl irəli sürdüyü təşəbbüs yenidən özünü doğrultmuşdur. 2 il əvvəl olan görüşümüz və söhbətimiz yadımdadır. Təəssüf ki, ötən dövr ərzində biz münaqişənin tənzimlənməsinə nail ola bilməmişik. Lakin danışıqlar prosesində müəyyən irəliləyiş vardır. Əlbəttə, istərdik ki, qarşılıqlı səylərimiz sayəsində mümkün qədər tez razılığa gələk və bu vəziyyətə son qoyaq. Ona görə ki, «nə müharibə, nə sülh» vəziyyəti 15 ildir ki, davam edir. Bu vəziyyətin daha nə qədər davam edəcəyi, təbii ki, Azərbaycan cəmiyyətini narahat edən məsələdir.

Sizin tədbirinizin formatı yəqin ki, münaqişənin siyasi yolla tənzimlənməsinə dair hər hansı ciddi diskussiyanı nəzərdə tutmur. Sizin missiyanın məqsədi bir qədər başqa səpkidədir. Hərçənd, bu formatda artıq parlamentlərin nümayəndələri və jurnalistlər də vardır. Birinci görüş sırf humanitar sahə təmsilçilərinin görüşü idi. Buna baxmayaraq məsələnin müzakirəsindən qaçmaq olmaz.

Bəli, prezidentlər arasında, xarici işlər nazirləri arasında danışıqlar aparılır və biz irəliləyirik. Lakin fikrimcə, ötən 2 ildə daha irəli getmək və ümumiyyətlə, sülh sazişi imzalamaq olardı. Mən bu 2 ili müəyyən dərəcədə itirilmiş illər sayıram. Ona görə ki, bu gün müzakirə etdiyimiz məsələlər, bir qədər irəliləməyimiz, razılaşdığımız bəzi mövqelər elə 2 il əvvəlki mövqelərdir.

Hər halda, müəyyən nikbinlik vardır. Çünki başa düşdüyümüz kimi, tərəflərin hər ikisi münaqişənin tənzimlənməsində maraqlıdır və bu prosesin uzadılması nə bizim xeyrimizədir, nə də erməni tərəfinin. Buna görə də istərdik ki, biz daha sürətlə irəliləyək.

Mənim danışıqlar prosesində iştirak etdiyim dövrdə böyük yol keçilmişdir. 5 il əvvəl nədən başladığımızı xatırlasaq razılaşdırılması çətin görünən çox məsələləri razılaşdırmışıq. Lakin danışıqlar prosesinin prinsipi elədir ki, bütün məsələlər razılaşdırılmayıbsa, deməli, heç nə razılaşdırılmayıbdır.

Beləliklə, danışıqlar çərçivəsində əldə edilmiş bütün nailiyyətlər yalnız o zaman məna kəsb edəcəkdir ki, son nöqtə qoyulmuş olsun. Onda regiona sülh gələcək və region daha hərtərəfli inkişaf edə biləcək, regional miqyaslı təhlükələr aradan qaldırılacaq və fəal əməkdaşlıq qurulacaqdır.

*Prezident İlham Əliyev dedi ki, Azərbaycan ilə Ermənistan arasında əməkdaşlıq yalnız işğala son qoyulduqdan sonra baş tuta bilər. Dövlət başçısı bir daha Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesinə toxunaraq dedi:*

– Danışıqlar prosesi ikitərəfli hərəkət yoluna oxşayır.

Bu məsələ müxtəlif formalarda – həm bəyanatlarda, həm də danışıqlar prosesi çərçivəsində dəfələrlə ifadə edilmişdir. Bu bizim üçün və yəqin ki, sizin üçün də gözlənilməz olmayacaq – həmin qırmızı xətt Dağlıq Qarabağın müstəqilliyidir. Azərbaycan tərəfi buna razılaşmayacaq. Biz bu mövzunu keçən dəfə də müzakirə etmişdik və təbii ki, bizim mövqelərimizdə heç bir dəyişiklik yoxdur. Beynəlxalq hüququn prinsipləri və bəzi prinsiplərin bir-birinə zidd olması barədə uzun-uzadı danışmaq olar, həmçinin beynəlxalq təşkilatların – BMT-nin, ATƏT-in qərarlarına da istinad etmək olar. Bu qərarlara istinadlar Moskvada Ermənistan prezidentinin və mənim imzaladığım Bəyannamədə öz əksini tapmışdır. Helsinki Yekun Aktına istinad etmək olar. Həmin sənəddə beynəlxalq hüququn bütün normaları və onların prioritetliyi, bu prinsiplərin ardıcıllığı və uyğunlaşdırılması əks etdirilmişdir. Buna görə də mən hüquq mövzusunun dərinliklərinə varmaq istəmirəm. Lakin mahiyyət etibarilə Azərbaycan Dağlıq Qarabağın ayrılması, onun müstəqilliyi üçün imkan yaradılmasını nəzərdə tutan hər hansı qərarı istər bu gün, istər 10 ildən sonra, istər 100 ildən sonra qəbul etməyəcəkdir. Sizə onu da deməliyəm ki, Ermənistan ictimaiyyətinə bunun nə dərəcədə məlum olduğunu bilmirəm, lakin bizim bu gün müzakirə etdiyimiz sənədlərdə və təkliflərdə onların bir qismi razılaşdırılmış mövqelərdir, Dağlıq Qarabağın Azərbaycandan hüquqi baxımdan ayrılması üçün mexanizm yoxdur. Bunlar reallıqlardır və həm dünya birliyinin, həm də Minsk qrupu həmsədrlərinin mövqeyidir. Sizə deməliyəm ki, danışıqlar prosesinin bu tezisini tərəflər razılaşdırmışlar. Əlbəttə, mənim dediyim nəzərə alınmaqla, hər iki tərəfi qane edə biləcək həll tapmaq olar. Bunlar təhlükəsizliyə zəmanət, Ermənistanla Dağlıq Qarabağ arasında maneəsiz gediş-gəliş, Dağlıq Qarabağa yüksək səviyyəli özünüidarə məsələləridir.

Bu gün danışıqlar prosesində elə vəziyyət yaranmışdır ki, razılığa gəlmək üçün imkan vardır.

*Prezident İlham Əliyev qarşılıqlı səfərlərin iki ölkənin xalqları arasında münasibətlərin bərpası baxımından əhəmiyyətli olduğunu dedi. Dövlətimizin başçısı Rusiya prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun görüşdə iştirakını vurğulayaraq qeyd etdi ki, Rusiya Federasiyası Minsk qrupunun həmsədr ölkələrindən biri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işinə öz töhfəsini verir.*

*Sonra Ermənistanın Rusiyadakı səfiri Armen Smbatyan görüşdə çıxış edərək dedi:*

– Cənab İlham Heydər oğlu, 2 il əvvəl və indi bizim təşəbbüsümüzü dəstəklədiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Fikrimcə bu, ölkələrimiz və xalqlarımız üçün çox faydalıdır. Bəlkə də biz danışıqlar prosesinə fəal təsir göstərə bilmirik. Amma atmosfer yaratmağı və bir-birimizə yaxınlaşmağı bacararıq və biz bunu edəcəyik. Bizim üçün ünsiyyət saxlamaq maraqlıdır. Biz indiyədək tanımadığımız adamlarla tanışlığa çox şad olduq. Çox gözəl anlayırıq ki, biz qonşuyuq və nə qədər qonşuluq məfhumu ləğv olunmayıb, nə biz, nə də azərbaycanlılar başqa yerə çıxıb gedə bilərlər. Bu, əbədi kateqoriyadır. İndi bizim gördüyümüz işi davam etdirsək, əgər biz tez-tez ünsiyyət saxlasaq, onda Sizinlə Ermənistan prezidenti üçün də problemi həll etmək asan olar.

*Ermənistan parlamentinin deputatı Ermine Naqdalyan da fikirlərini bölüşdü:*

– İndi Sizdən eşitdiklərimiz yəqin ki, bizi bu formatın zəruriliyinə yönəltməlidir. Ona görə ki, bizim görəcəyimiz əsas iş sadə adamlarla, bir-birimizlə aparacağımız danışıqlar olacaqdır. Prezidentlərimiz o zaman belə qərara gələ bilərlər ki, haqqında danışılan iki qırmızı xətt arasında kompromis üçün yer qalıb. Biz nə qədər tez-tez görüşsək, adi məişət problemlərindən danışsaq, bir-birimizə erməni, yaxud azər-

baycanlı kimi deyil, sadəcə eyni problemlərlə üzləşən adi insanlar kimi baxsaq, onda ortaya çıxan fikir ayrılıqlarını da asanlıqla həll edə bilərik. Biz bunu həll edə bilsək, onda iki qırmızı xətt arasında məkanı genişləndirə bilərik.

*Rusiya prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy da görüşdə çıxış edərək dedi:*

– Bu, şəxsən mənim üçün çox əlamətdar gün idi. Çünki biz başa düşürdük ki, gördüyümüz iş prezidentlərin görüşü ərəfəsində vacib məsələdir. Moskva Bəyannaməsinin 5-ci bəndində adamlar arasında əlaqə yaratmağın vacibliyinin əksini tapması əslində prezidentlərin siyasi iradəsindən irəli gəlirdi. Biz başa düşürük ki, Sizin müzakirə edəcəyiniz qərarlar və problemlər təbii ki, bizim səlahiyyətlərimizə daxil deyildir. Məsələnin siyasi və ya hərbi yolla nizamlanması bizim yox, prezidentlərin səlahiyyətlərinə aiddir. Ancaq biz ictimai iqlim üçün bu dialoqun əhəmiyyətini aydın görürük. Bu da hər hansı qərarın qəbul edilməsini asanlaşdıra bilər. Əgər Rusiyanın iştirakından danışsaq, deməliyik ki, biz çox sevdiyimiz xalqların dinc şəraitdə yaşamasını istəyirik.

*Sonra prezident İlham Əliyev bir daha danışıqların Praqa prosesinə toxunaraq dedi ki, bu proses son şansdır. Dünyanın aparıcı dövlətlərinin də prosesdə fəal iştirakı bunu göstərir. Problemin təkcə regional deyil, eyni zamanda, qlobal təhlükəsizlik məsələsi olduğunu bildirən dövlətimizin başçısı İlham Əliyev danışıqlar prosesində beynəlxalq hüquq normalarının və prinsiplərinin mütləq olduğunu, bu prinsiplərin beynəlxalq sənədlərdə də əksini tapdığını diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Azərbaycan və Ermənistan prezidentlərinin Moskva görüşünü xatırlatdı, Rusiya prezidentinin iştirakı ilə imzalanan Moskva Bəyannaməsinə toxunaraq dedi:*

– Biz Ermənistanla danışıqlar aparırıq. Danışıqları Ermənistan və Azərbaycan prezidentləri aparırlar. Hər iki prezident Moskvada Bəyannamə imzalayıb. Beləliklə, müna-

qişə tərəflərinin kimlər olduğu bir daha göstərilib. Bunlar Ermənistan və Azərbaycandır. Razılığa da münaqişənin bu tərəfləri gəlməlidirlər. Dağlıq Qarabağın erməni və azərbaycanlı icması vardır. Məgər onları prosesə cəlb etməklə, nəyəsə nail olmaq mümkündür? Əlbəttə, yox. Rusiya prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin imzaları ilə təsdiq etdikləri bu format davam etdirilməlidir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarının diskussiyaları bizim daxili işimizdir. Bu məsələ qətiyyən qabardılmamalı və danışıqlar prosesinə ziyan vurmamalıdır. Əgər bu, baş verərsə, o zaman danışıqlar prosesi sadəcə pozulacaqdır. Son 15 il bizim ölkəmiz üçün çox ağır keçib. Torpaqlarımızın işğal altında olması reallıqdır. Dağlıq Qarabağın ətrafındakı əraziləri 700 min insan tərk edib. Onlar hər şeylərini itiriblər, onlar ora qayıtmaq istəyirlər. Düzdür, orada qayıdılası yer də yoxdur, orada hər yer dağılıb. Amma insanlar hətta ora, xarabalıqlara qayıtmaq istəyirlər.

**Zaven Sarqsyan** (*Sergey Paracanov Muzeyinin direktoru*): 20 ildir ki, aramızda ünsiyyət yox idi. Nə Eduard Markarov, nə də başqaları bu müddətdə Bakını görməmişdilər. Bakı xeyli dəyişib, əlbəttə, bizim şəhərimiz də dəyişib. Mən düşmənçiliyi qəbul etməyən bir insanın adını daşıyan muzeyi təmsil edirəm. O, ümumiyyətlə, insanlar arasında düşmənçiliyi qəbul etmirdi. Biz bir-birindən fərqlənən və məqbul olmayan mövqeləri gördük. Fikrimcə, yolverilməz şeylər də vardır. Bu həm Azərbaycanda, həm də Ermənistanda səpilən düşmənçilik toxumlarıdır. Biz incəsənət adamlarıyıq, bilirik ki, siz prezidentlərin mövqeyinə təsir göstərə bilmərik. Amma xalqlar arasında bu düşmənçilik olmamalıdır.

**Polad Bülbüloğlu** (*Azərbaycanın Rusiyadakı səfiri*): Cənab Prezident, mən ilk növbədə bugünkü görüşlərdə, söhbətlərdə çox fəal iştirak edən nümayəndə heyətimizin adından Sizə təşəkkür etmək istəyirəm. Siz bu ide-

yaları dəstəklədiniz. Əlbəttə, biz ilk addımları atırıq. Biz nəyisə sınayırıq, nəsə alına bilər, nəsə alınmaya bilər. Biz bu gün Milli Məclisin deputatlarının daxil olduğu belə mötəbər, böyük nümayəndə heyəti ilə Xankəndidə, Şuşada olduq. Başlıcası odur ki, Şuşanın bizim üçün, şuşalılar üçün nə olduğunu bilirsiniz.

**İ l h a m Ə l i y e v:** Şuşa təkcə şuşalılar üçün deyil. Bu, böyük sərvətdir.

**P o l a d B ü l b ü l o ğ l u**: Əlbəttə. Biz bu gün Cıdır düzündə olduq. Bu gün çox mühüm görüşlər, o cümlədən hər iki prezidentlə görüşlər keçirildi. Bunları dərhal mənimsəmək çətindir. Bir neçə gün keçməlidir ki, məsələlərə aydınlıq gətirilsin. İnsanlar arasında olan ünsiyyət mühiti itirilməməlidir. Fikrimcə, baş verən hadisələrdən sonra bu da müsbət haldır. Bu da bizə irəliləməkdə kömək edəcəkdir. İcazənizlə, hamımızın adından Prezidentimizə təşəkkür etmək istərdim. Yəqin ki, keçirilən görüşləri formalaşdırıb tam halda prezidentlərə təqdim edəcəyik. Bir daha çox sağ olun.

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NİKOLA SARKOZİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Bastiliyanın alınması günü münasibətilə Sizi və dost Fransa xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Fransa münasibətlərinə xüsusi əhəmiyyət veririk. Çox şadam ki, ötən illər ərzində münasibətlərimiz daim yüksələn xətt üzrə inkişaf edərək genişmiqyaslı və çoxsəpkili əməkdaşlığımıza gətirib çıxarmışdır.

Hazırda ölkələrimiz arasında həm ikitərəfli qaydada, həm də beynəlxalq qurumlar və layihələr çərçivəsində səmərəli iş birliyi mövcuddur. Bu mənada Avropaya inteqrasiya yolunda atdığımız addımlara, eləcə də Avropa İttifaqı tərəfindən həyata keçirilən proqramlarda Azərbaycanın iştirakına ölkənizin dəstəyindən məmnunluq duyuruq.

Eyni zamanda, ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın səylərinə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə, cənab Prezident, bir daha öz təbriklərimizi və ən xoş arzularımızı yetirir, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyul 2009-cu il*

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Monqolustan arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyul 2009-cu il*

## QEYDLƏR

1. **Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 6,12,28,34.

2. **Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 6,114,215,281,282,303,330.

3. **Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 94,17 $km^2$, əhalisi 332,9 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini

elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhəri oldu. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 11,12.

**4. Abşeron yarımadası** – Azərbaycan Respublikasında, Xəzər dənizinin qərb sahilində ən böyük yarımada. Böyük Qafqazın cənub-şərq qurtaracağındadır. Qərbdə Qobustanla həmsərhəddir. Uzunluğu təqribən 60 km, ən geniş yerdə eni 30 km-dir. Abşeron yarımadasının səthi geniş düzənlikdən, bir-birindən dərə və çökəkliklərlə ayrılan tirə, yayla və təpəliklərdən ibarətdir. Abşeron yarımadasının qərb hissəsi nisbətən yüksəkdir. – 17,248.

**5. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 17,25,46,63,74,82,227,231, 315.

**6. «Siemens» –** alman şirkəti. 1847-ci ildə Berlində yaradılmışdır. Bakıda nümayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektrik avadanlıqlarının hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi 46 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 405 min nəfərdir. – 20,21.

**7. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 23,35,41,51,330.

**8. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 23,68,107,117,198,281,300,304,305,331, 335.

**9. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 23,28,35,36,37,41,42,43,67,68,69,70,87,92,106,107,108,109, 113,114,117,192,193,194,196,198,260,276,278,280,282,298, 299,300,306,316,317,32-,327,329,330,331,333,335.

**10. Mətyu Brayzə** (d.1964) – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi, sonra isə Dağlıq Qarabağ, Abxaziya

və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–2012-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 23,198,230.

**11. Yuri Merzlyakov** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. –23,198,230.

**12. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskvadır. – 23, 24,107,110,159,197,198,211,217,227–231,270–282,291–301.

**13. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqtondur. – 3,59,68,72,74,92,107,113–114,159,198,205,245, 250,300.

**14. Vladimir Proniçev** (d.1953) – ordu generalı. 2003–2013-cü illərdə Rusiya Federasiyasının Sərhəd xidməti İdarəsinin rəhbəri olmuşdur. – 24.

**15. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min $km^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qa-

nunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 25–46,83,203.

**16. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. –25,46,63,76,79, 227,231.

**17. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 25,46,63,74,76,79,227,231,315.

**18. Brüssel –** Belçika krallığının paytaxtı. Sahəsi 32,61 km$^2$, əzalisi 1,8 milyon nəfərdir.Haqqında ilk məlumata X əsr sənədlərində rast gəlinir. 1830-cu ildən Belçikanın paytaxtı, ölkənin iqtisadi, siyasi və mədəni mərkəzidir. – 25–46.

**19. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə

görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 25,55,56, 61,77, 80,82,83,84,89,147,153,155,177,184,203,249,254,311.

**20. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv-dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 26,27,28,29, 30,31,33,34,38,43,44,45,64,66,128,129,308,319,324.

**21. Herman Van Rompöy** (d.1947) – Belçika siyasətçisi. 2008–2009-cu illərdə Belçikanın Baş naziri, 2009-2014-cü illərdə Avropa Şurasının sədri olmuşdur. – 26.

**22. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Paytaxtı Ankaradır. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 29,34,35, 37,57,67,72,94,96,101–112,159,186,250,293.

**23. Avropa Komissiyası (AK)** – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri; ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv-dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 30–31,32–39,72.

**24. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 30–31,32–39,72.

**25. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. – 34.

**26. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 35,114,193,260, 281.

**27. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Ka-

tiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 38.

**28. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 39,40–42,59.

**29. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandın siyasi xadimi. – 40–42.

**30. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabildir. – 40.

**31. Avropa Şurasının Nazirlər Komitəsi –** bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin Xarici İşlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərinin milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşlığı məsələlərini həll edirlər. – 43–45,72.

**32. Havyer Solana** (d.1942) – siyasi xadim, 1995–99-cu illərdə NATO-nun Baş katibi, 1999-2009-cu illərdə Avropa İttifaqı Şurasının Xarici Siyasət və Təhlükəsizlik üzrə Baş katibi olmuşdur. – 43,72.

**33. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 31,8 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənddir. – 48.

**34. İslam Kərimov,** İ s l a m Ə b d u q ə n i o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990-2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 48.

**35. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 49,205,211,214.

**36. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 43,141,214.

**37. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 49,138,141,214.

**38. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri,

Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçilmişdir.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 52–53,56,77,79,80–81,85–90,96,98,100, 139,162 174,180,192,200,205,242,250,286,288.

**39. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 56,77,78,85,87,88,177, 184,203.

**40. Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildir. Qrup xarici ölkələrin prezi-

dentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 49.

**41. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 57,67,72,186.

**42. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslodur. – 58,208.

**43**. **V Harald** (d.1937) – 1991-ci ildən Norveç kralı. Kral V Ulafin oğlu. – 58.

**44. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016-cı illərdə). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. ABŞ-da ilk afroamerikalı prezidentdir. – 59,205,245,300.

**45. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. – 60,76,79.

**46. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət baş-

çısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 63–74.

**47. Praqa** – Çexiya Respublikasının paytaxtı. Sahəsi 496 km$^2$, əhalisi 1,2 milyon nəfərdir. Praqa ərazisi e.ə. 4-cü minillikdə məskündaşmış, VIII–IX əsrlərdə əsası qoyulmuşdur. X əsrdən Çex dövlətinin paytaxtı olmuşdur. XIV əsrdə Avropanın iri iqtisadi, siyasi və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Praqa tarixi-arxeoloji abidələri ilə və turizm mərkəzi kimi Avropada tanınır. – 63–74.

**48. Vatslav Klaus** (d.1941) –2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 64.

**49. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. Paytaxtı Yerusəlimdir. – 65,255–269.

**50. Aviqdor Liberman** (d. 1958) – İsrailin siyasi xadimi. 2009–2012 və 2013–2015-ci illərdə İsrailin Xarici İşlər naziri olmuşdur. 30 may 2016-cı ildən İsrailin müdafiə naziridir. – 65.

**51. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurası-

na məxsusdur. Paytaxtı Parisdir. – 23,69,107,117,198,221, 302–308,335.

**52. Fransua Fiyon** (d.1954) – Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransanın Baş naziri olmuşdur. Hazırda Fransa Milli Məclisinin deputatıdır. – 69.

**53. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Sahəsi 243,8 min $km^2$, əhalisi 63,4 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı Londondur. – 70,207,211,215,218.

**54. Devid Milibend** (d.1965) – Britaniyanın dövlət xadimi. 2001-ci ildən İcmalar Palatasının üzvü, 2007–2010-cu illərdə Qordon Braun hökumətində Birləşmiş Krallığın Xarici İşlər naziri vəzifəsində çalışmışdır. – 70.

**55. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min $km^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdamdır. – 71,81,82.

**56. Yan Peter Balkenende** (d.1956) – Niderlandın dövlət və siyasi xadimi. 2002–2010-cu illərdə Niderlandın Baş naziri olmuşdur. – 71.

**57. Ukrayna,** Ukrayna Respublikası – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Radadır. Paytaxtı Kiyevdir. – 72.

**58. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisidir. – 72,96,112,122,132–143,206,211,214.

**59. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas, 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti, 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri, Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. 2015–2016-cı illərdə Ukraynanın Odessa vilayətinin qubernatoru olmuşdur. – 72,122,132–143,206.

**60. Mirek Topolanek** (d.1956) – 2006–2009-cu illərdə Çexiyanın Baş naziri olmuşdur. – 72.

**61. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya Təcavüzü ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq və Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələ-

rinə 110 milyon adam çağırılmış, 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 75–76.

**62. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H. Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H. Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H. Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 76.

**63. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 77.

**64. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin,

Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 79,201.

**65. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 79.

**66. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Romadır. – 82,83,144.

**67. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholmdur. – 82,145.

**68. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı

tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun nümayəndəliyinə başçılıq edir. – 82.

**69. Arzu Əliyeva,** Arzu İlham qızı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın kiçik qızı. Film prodüseri. – 82.

**70. Mikayıl Müşfiq,** İsmayılzadə Mikayıl Mirzə Əbdülqadir oğlu (1908–1939) – şair. Poeziyasının əsas qayəsi müasirlik, xəlqilik, humanizm olmuşdur. Onun lirikası forma etibarı ilə novatorluğun ən yaxşı nümunələrindəndir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 84.

**71. Ömər Eldarov,** Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 89.

**72. Arif Məlikov,** Arif Cahangir oğlu (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuş, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 89.

**73. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 48,6 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). 3 paytaxtı var: Pretoriya, Keyptaun, Blumfonteyn .– 91.

**74. Ceykob Zuma** (d.1940) – Cənubi Afrika siyasi xadimi, 1999–2005-ci illərdə CAR-da vitse-prezident, 2005-ci ildən CAR Milli Konqresinin sədri, 2009-cu ildən CAR-ın Prezidentidir. – 91.

**75. Slovakiya,** Slovakiya Respublikası – Şərqi Avropada dövlət. Sahəsi 49 min km², əhalisi 5,5 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 93,96.

**76. Telia Sonera** – Skandinaviyada İsveçin Telia və Finlandiyanın Sonera adlı 2 GSM operatorlarının 2002-ci ildə birləşərək qurduqları ən böyük GSM operatoru. Şirkətin 150 milyona yaxın abonenti vardır. «Azercell»in ortaqlarından biridir. – 95.

**77. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti seçilmişdir. – 101–112,186.

**78. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 110,217,228–229,231, 270–282,291,294,297,300.

**79. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və

emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 111,141,211,275,293,315.

**80. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 111,273,315.

**81. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmmandır. – 115.

**82. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 115.

**83. Yəmən,** Y ə m ə n R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 528 min km$^2$, əhalisi 25,4 milyon nəfərdir. İnzibati ərazisi 22 mühafazaya bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı Sanadır. – 116,284.

**84. Əli Abdulla Saleh** (d.1942) – marşal, 1994-2011-ci illərdə Yəmən Respublikasının Prezidenti olmuşdur. – 116, 284.

**85. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Tallindir. – 124,202.

**86. Arnold Rüytel** (d.1928) – Estoniyanın siyasi və dövlət xadimi. 2001–2006-cı illərdə Estoniya Respublikasının prezidenti olmuşdur. – 124.

**87. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 126.

**88. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 193,8 milyon nəfərdir. Paytaxtı İslamabaddir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 127.

**89. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 127.

**90. Piter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 128.

**91. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 136.

**92. *bp*,** «B r i t i ş h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 146.

**93. Endi İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru, kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 146.

**94. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 110 km$^2$, əhalisi 328,4 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 154–161.

**95. Gəncə Dövlət Universiteti** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. 1938-ci ildə ikiillik Gəncə Müəllimlər İnstitutu kimi fəaliyyətə başlamışdır. 5 illik fəaliyyətdən sonra tam ali təhsil verən Gəncə Pedaqoji İnstitutu kimi, 2000-ci ildən Gəncə Dövlət Universiteti kimi fəaliyyət göstərir. Universitetdə tədris bakalavr və magistr pilləsində aparılır. Universitetdə 3400-dən çox tələbə təhsil alır. – 155.

**96. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel ) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci

tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 157–158,190,191–196.

**97. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 155,158.

**98. Ramil Usubov,** R a m i l  İ d r i s  o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 159,160,285,287.

**99. Göygöl** (1938-ci ilə qədər Nərimanov, 2008-ci ilə qədər Xanlar rayonu) – Azərbaycan ərazisində inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1030 km$^2$, əhalisi 61,5 min nəfərdir. – 162–166.

**100. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1656,8 km$^2$, əhalisi 200 min nəfərdir. – 167–176.

**101. Üzeyir bəy Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 172.

**102. Goranboy** (1991-ci ilə qədər Qasım İsmayılov) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1791 $km^2$, əhalisi 102 min nəfərdir. – 175.

**103. Samux** – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə yaradılmışdır. Sahəsi 1450 $km^2$, əhalisi 56,3 min nəfərdir. – 175.

**104. Luvr muzeyi** – Parisdə memarlıq abidəsi. Adı vaxtilə burada Fransa krallarının ovçu qəsrinin yerləşdiyi «Canavar» meşəsinin adından götürülmüşdür. Əvvəllər kral sarayı olmuş, sonradan dünyanın ən böyük bədii muzeylərindən birinə çevrilmişdir. 1791-ci ildə inqilabi Konventin dekreti ilə Luvr milli bədii muzeyə çevrilmiş və 1793-cü ildə kütləvi baxış üçün açılmışdır. Ekspozisiyasının əsasını keçmiş kral kolleksiyası, həmçinin bir sıra monastır, kilsə və kübar ailələrin milliləşdirilmiş kolleksiyaları təşkil etmişdir. Kolleksiyası Napoleon yürüşlərinin qənimətləri, müxtəlif ölkələrdən satınalınma, eləcə də hədiyyələr hesabına daim artmışdır. Luvrda 20 mindən artıq boyakarlıq və heykəltəraşlıq əsəri var. Muzey 6 şöbədən ibarətdir: Qədim Şərq, Qədim Misir, Qədim Yunanıstan və Qədim Roma, heykəltəraşlıq, boyakarlıq və rəsm, dekorativ-tətbiqi sənət. Qədim Şərq şöbəsində nadir incəsənət nümunələri, o cümlədən Azərbaycanın zərgərlik (Ziviyədən tapılmış qızıl əşyalar, e.ə. VIII əsr) və metal məmulatları (bürünc dolça, 1190, müəllifi Osman ibn Salman Naxçıvani) saxlanılır. Luvrda Fransa incəsənəti daha geniş təmsil olunmuşdur. Burada dünya

şöhrəti qazanmış bir sıra əsər («Şamofrakiyalı Nike», e.ə. IV əsrin sonu; «Miloslu Afrodita», e.ə. II əsr; Mikelancelo, Leonardo da Vinçi, Rafael, Rembrandt və b.-nın tabloları) mühafizə edilir. – 177.

**105. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 177,184,203.

**106. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 177,184,203.

**107. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 180, 211,213.

**108. «Şahdəniz» –**Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 180.

**109. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 186.

**110. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min $km^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 185,209.

**111. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 185.

**112. Roh Mu Hyun** (Ho Mu Xeyn) (1946–2009) – 2003–2008-ci illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. Dövlət başçısı olduğu dövr Cənubi Koreyanın iqtisadiyyatın inkişaf və artım dövrü olmuşdur. – 185.

**113. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabidir. – 187.

**114. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlament – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlindir. – 189,206,250.

**115. Horst Köler (**d.1943) – Almaniyanın dövlət və siyasi xadimi, iqtisadçı-politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004–2010-cu illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 189.

**116. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km2, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 192,328,334.

**117. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 192.

**118. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 54 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 192.

**119. Helsinki Yekun aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 194,330.

**120. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 197,202,302–308.

**121. Fikrət Məmmədov,** Fikrət Fərrux oğlu (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, I dərəcəli Dövlət ədliyyə müşaviri, Məhkəmə-Hüquq Şurasının sədridir. – 199.

**122. Endryu,** York hersoqu, şahzadə (d.1960) –Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. – 207.

**123. «Daewoo»** – 1967-ci ildə Cənubi Koreyada yaradılan şirkət. 1999-cu ildə iflasa uğrayıb. Bəzi şöbələri və filialları başqa şirkətlərin tərkibinə daxil olub. – 209.

**124. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsidir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan 4 terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 214.

**125. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VI Georqunn vəfatından sonra taxt-taca sahib olmuşdur. – 218.

**126. Portuqaliya,** P o r t u q a l i y a R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 219.

**127. Filippin,** F i l i p p i n R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. – 220.

**128. Qloriya Makapaqal Arroyo** (d.1947) – 2001-2010-cu illərdə Filippin Respublikasının Prezidenti olmuşdur. Keçmiş prezident Diosda Makapaqalın qızı. İqtisad elmləri doktoru. – 220.

**129. Nikolya Sarkozi** (d.1955) –Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 221,235.

**130. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliadır. – 222.

**131. Luis İnasiu Lula Da Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 222.

**132. Suriya,** S u r i y a Ə r ə b R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 18 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 223.

**133. Nəriman Nərimanov,** N ə r i m a n N ə c ə f o ğ l u (1870–1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda sovet hakimiyyətinin qələbəsi ərəfəsində N.Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçilir. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 224–225.

**134. Vaqif Səmədoğlu,** V a q i f V ə k i l o v (1939–2015) – Azərbaycanın Xalq şairi, dramaturq, publisist, ictimai xadim. Azərbaycanın Əməkdar incəsənət xadimi. «Bəxt üzüyü», «Yaşıl eynəkli adam» və s. pyeslərin müəllifidir. Bir çox şeir kitabları çıxmışdır. 2000–2005-ci illərdə Milli Məclisin üzvü olmuşdur, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. . – 226.

**135. Sankt-Peterburq** – əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı olmuş,. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzlərindən biridir. Sahəsi 1439 km$^2$, əhalisi 5,2 milyon nəfərdir. – 227–231,282,297.

**136. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 230,273.

**137. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 232,295,296.

**138. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 232.

**139. Sloveniya,** S l o v e n i y a R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyanadır. – 233.

**140. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniya Respublikasının Prezidenti olmuşdur. – 233.

**141. Monqolustan,** M o n q o l u s t a n R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əha-

lisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Batordur. – 234,336.

**142. Saxiaqiyn Elbeqdorj** (d.1963) – 2009-cu ildən Monqolustanın prezidentidir. 1998 və 2004–2006-cı illərdə Monqolustanda Baş nazir vəzifəsində çalışmışdır. – 234.

**143. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 576 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburqdur. – 235.

**144. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 235.

**145. Corcio Napolitano** (d.1925) – İtaliyanın siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 144.

**146. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O, həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 145.

**147. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 246.

**148. Mikael Jan** (d.1957) – Kanadanın dövlət və siyasi xadimi. 2005-2010-cu illərdə Kanadanın general – qubernatoru olmuşdur. – 246.

**149. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 247.

**150. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. – 247.

**151. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqadır. – 248.

**152. Milli park** (Bakı bulvarı) – Bakı şəhərində Xəzər dənizinin sahilində bulvar. Əsası 1909-cu ildə məşhur mühəndis, Bakı şəhər Dumasının üzvü Məmməd Həsən Hacınskinin xüsusi səyi nəticəsində qoyulmuşdur. O zaman tender ilə seçilən layihənin müəllifləri mühəndis Kazimir Skureviç və memar Adolf Eyxler olmuşdur. 2 il müddətində buraya münbit torpaq və dünyanın müxtəlif yerlərindən bitki növləri gətirilib əkilmişdir. 1998-ci ildən rəsmi olaraq Milli park adlanır.– 254.

**153. Şimon Peres** (1923–2016) – İsrail siyasətçisi və dövlət xadimi. 2007–2014-cu illərdə İsrailin prezidenti olmuşdur. – 255–269.

**154. Əbülfəs Qarayev,** Ə b ü l f ə s M ü r s ə l o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək

Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və Olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 258.

**155. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 273.

**156. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 311–326.

**157. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 311–326.

## Şəxsi adlar göstəricisi


**Abbasov Zahid** – 327
**II Abdullah** – 115
**Abdullayev Rövnəq** – 111,273,315
**Abutalıbov Hacıbala** – 17,25,46,63,74,82,227,231, 315
**Abramyan Aram** – 327
**Aləmı Əsəd** – 188
**Ambülü Mixael** – 123
**Anri** – 235
**Arroyo Qloriya** – 220
**Aslanov Həzi** – 76
**Balkenende Van Peter** – 71
**Barrozu Joze** – 30–31,32–39,72
**Bokayanni Dora** – 309
**Brayzə Mətyu** – 23,198,230
**Cankorel Bilge** – 51
**Catoy Əbdül** – 127
**Da Silva Luis** – 222
**Davudoğlu Əhməd** – 186
**Elbeqdorj Saixiqiyn** – 234,336
**Eldarov Ömər** – 89
**II Elizabet** – 218
**Endryu (*York şahzadəsi*)** – 207
**Eörşi Matyas** – 129
**Eyyubov Yaqub** – 273
**Əbiyev Səfər** – 240
**Əhmədinejad Mahmud** – 232
**Əhməd Cavad** – 172
**Əhmədzadə Əhməd** – 174
**Əl-Hamili Məhəmməd** – 187
**Əl-Muallem Valid** – 223
**Əliyev Əziz** – 79

**Əliyev Heydər** – 52–53,56,77,79,80–81,85–90, 96,98,100,139,162,174, 180,192,200,205,242,250,286, 288
**Əliyev Tamerlan** – 79
**Əliyeva Arzu** – 82
**Əliyeva Leyla** – 82
**Əliyeva Mehriban** – 25,55,56,61,77,80,82,83, 84,89,147–153,155,177,184, 203,249,254,311
**Əliyeva Zərifə xanım** – 79,201
**Ərdoğan Rəcəb Tayyib** – 101–112,186
**Əsədov Oqtay** – 60,76,79
**Əsgərov Cahangir** – 136
**Fasye Bernar** – 23,117,198,230
**Fiyon Fransua** – 69
**Gerçəkər Hasan** – 94,96
**Gəncəvi Nizami** – 155,158
**Gilauri Nika** – 206
**Gül Abdullah** – 57,67,72,186
**Hacıbəyli Üzeyir** – 172
**V Harald** – 58
**Harabi Stefan** – 93,96
**Herşkovitz Daniel** – 258
**Həsənov Ramiz** – 136
**Həsənov Vüqar** – 96
**İnqlis Endi** – 146
**İsmayılov Çingiz** – 327
**Jan Mixael** – 246
**Jvaniya Laşa** – 136
**Kaas Robin** – 208
**Kaçinski Lex** – 311–326
**Kaçinska Mariya** – 311
**Kanokov Arsen** – 273
**XVI Karl Qustav** – 145
**Kaspirşik Anji** – 198

**Kərimi Səyavuş** – 327
**Kərimov İslam** – 48
**Klaus Vatslav** – 64
**Köler Horst** – 189
**Kublaşvili Konstantin** – 96
**Qarayev Əbülfəz** – 258
**Qədimov Şakir** – 184
**Qonsalves Karlos** – 119,120
**Qribauskayte Dalya** – 126
**Qurbanova Sevda** – 155
**Landau Uzi** – 258
**Lavrov Sergey** – 273
**Li Men Bak** – 185
**Liberman Aviqdor** – 65
**Lukaşenko Aleksandr** – 247
**Markarov Eduard** – 327
**Martens Hans** – 27
**Medvedev Dmitri** – 110,217,228–229,231,270–282,291,294,296,297,300
**Mehdiyev Ramiz** – 25,46,63,74,76,79,227,231, 315
**Merzlyakov Yuri** – 23,198,230
**Məhəmməd Sambi Əhməd** – 283
**Məlikov Arif** – 89
**Məmmədov Fikrət** – 199
**Məmmədyarov Elmar** – 230,273
**Mikayıl Müşfiq** – 84
**Milibend Devid** – 70
**Miller Aleksey** – 273,292
**Mollazadə Asim** – 327
**Morninqstar Riçard** – 74,205
**Musayev Kamran** – 252
**Mustafayev Şahin** – 136
**Nalbandyan Edvard** – 230
**Napolitano Ciorcio** – 144
**Nərimanov Nəriman** – 224–225

**Nyuberq Lars** – 95
**Obama Barak** – 59,205,245,300
**Olexnoviç Pavel** – 315
**Peres Şimon** – 255–269
**Proniçev Vladimir** – 24
**Polad Bülbüloğlu** – 327
**Rasizadə Artur** – 25,46,63,73,76,79,227,231
**Roh Mu Hyun** – 185
**Rüytel Arnold** – 124
**Rzayev Rövşən** – 327
**Saakaşvili Mixeil** – 72,122,132–143,206
**Saleh Əli Abdullah** – 116,284
**Sarkisyan Serj** – 68,210,230,231
**Sarkozi Nikola** – 221,335
**Semnebi Piter** – 128
**Silvia Anibal** – 219
**Solana Havyer** – 43,72
**Sxeffer Yaap** – 40–42
**Sununu Con** – 183
**Şçidlo Aleksandr** – 315
**Şirəliyev Oqtay** – 77
**Şmatko Sergey** – 197
**Şvidkov Mixail** – 327
**Topolanek Mirek** – 72
**Tyurk Danilo** – 233
**Uorlik Meri** – 59
**Usubov Ramil** – 159,160,285,287
**Vaqif Səmədoğlu** – 226
**Van Pompöy Herman** – 26
**Vəziri Reza** – 183
**Veyonis Raymonds** – 248
**Yeremiç Vuk** – 239
**Zərdabi Asif** – 127
**Zuma Ceykov** – 91
**Vidyanu Adrian** – 310

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron (*yarımada*)** | – 17,248 |
| **Afrika** | – 49 |
| **Almaniya** | – 189,206,250 |
| **Amerika Birləşmiş Ştatları** | – 23,59,68,72,74,92,107,113–114,159,198,205,245,250,300 |
| **Aralıq dənizi** | – 19 |
| **Asiya** | – 214 |
| **Avrasiya** | – 49,205 |
| **Avropa** | – 27,34,59,73,112,138,214,308 |
| **Bakı** | – 17,21,22,24,47,48,50,52,57, 58,91,96,115,116,118,119,122, 125,126,130,142,144,145,156, 169,185,189,212,215,217,218, 219,220,221,222,223,224,226, 232,233,234,235,245,246,247, 248,283,284,335,336 |
| **Batumi** | – 139 |
| **Bayıl** | – 125 |
| **Belarus** | – 247 |
| **Belçika** | – 25–46,83,202 |
| **Binəqədi** | – 22 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | – 187 |
| **Böyük Britaniya** | – 70,207,211,215,218 |
| **Braziliya** | – 82,222 |
| **Brüssel** | – 25–46 |
| **Cənubi Afrika Respublikası** | – 91 |
| **Cənubi Qafqaz** | – 32,128,188,307 |
| **Çexiya** | – 63–74 |
| **Çin** | – 82,211 |
| **Dağlıq Qarabağ** | – 23,28,35,36,37,41,42,43,67, 68,69,70,87,92,106,107,108, |

109,113,114,117,192,193,194, 196,198
**Estoniya** – 124,202
**Əfqanıstan** – 40
**Filippin** – 220
**Finlandiya** – 202
**Fransa** – 23,69,107,117,198,221,302–308,335
**Gədəbəy** – 176–184
**Gəncə** – 154–161
**Goranboy** – 175
**Göygöl** – 162–166
**Gürcüstan** – 77,96,112,122,132–143,206, 211,214
**Hindistan** – 83
**Xankəndi** – 334
**Xəzər dənizi** – 29,214,277,294,295,319,321, 326
**İordaniya** – 115
**İran** – 232,295,296
**İsrail** – 65,255–269
**İsveç** – 82,145
**İsveçrə** – 123
**İtaliya** – 82,83,144
**Kanada** – 246
**Kəlbəcər** – 192
**Koreya Respublikası** – 185,209
**Komor adaları** – 283
**Qaşqərya (*vilayət*)** – 48
**Qazaxıstan** – 294
**Laçın** – 192
**Latviya** – 248
**Litva** – 126
**London** – 129
**Lüksemburq** – 235
**Mardin (*Türkiyədə vilayət*)** – 57

**Mərkəzi Asiya** – 307
**Mərkəzi Avropa** – 13
**Monqolustan** – 234,336
**Moskva** – 173,174,297,300
**Naxçıvan MR** – 11
**Niderland** – 71,81,82
**Norveç** – 58,208
**Özbəkistan** – 48
**Pakistan** – 127
**Polşa** – 311–326
**Portuqaliya** – 219
**Praqa** – 36,63–74,141
**Rumıniya** – 310
**Rusiya** – 23,24,107,110,159,197,198, 211,217,227–231,270–282, 291–301
**Samux** – 175
**Samux çayı** – 273
**Sankt-Peterburq** – 227–231,282,297
**Serbiya** – 239
**Sloveniya** – 233
**Slovakiya** – 93,96
**Sumqayıt** – 11,12
**Suraxanı** – 52
**Suriya** – 223
**Şəmkir** – 167–176
**Şərqi Avropa** – 13
**Şuşa** – 192,328,334
**Tehran** – 295
**Türkiyə** – 29,34,35,37,57,67,72,94,96, 101–112,159,186,250,293
**Ukrayna** – 72
**Yaponiya** – 159,211,250
**Yəmən** – 116,284
**Yunanıstan** – 309

## MÜNDƏRİCAT

RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ

*22 aprel 2009-cu il ............................................................................ 5*

YEKUN NİTQİ ................................................................................ *9*

«HAVA LİMANI» YARIMSTANSİYASINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 aprel 2009-cu il .......................................................................... 20*

NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏKİ 203 SAYLI YARIMSTANSİYANIN TİKİNTİSİ, 110 KİLOVOLTLUQ 3-cü VƏ 4-cü «XIRDALAN» HAVA XƏTTİNİN YENİDƏN QURULMASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 aprel 2009-cu il .......................................................................... 21*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*24 aprel 2009-cu il .......................................................................... 23*

RUSİYA FEDERASİYASININ FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ – SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ, ORDU GENERALI VLADİMİR PRONİÇEV İLƏ GÖRÜŞ

*24 aprel 2009-cu i ............................................................................ 24*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

*27 aprel 2009-cu il .......................................................................... 25*

BELÇİKANIN BAŞ NAZİRİ HERMAN VAN ROMPÖY
İLƏ GÖRÜŞ

*28 aprel 2009-cu il* .......................................................................... *26*

AVROPA SİYASİ MƏRKƏZİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*28 aprel 2009-cu il* .......................................................................... *27*

AVROPA KOMİSSİYASININ SƏDRİ
JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞ

*28 aprel 2009-cu il* .......................................................................... *30*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL
BARROZUNUN BİRGƏ MƏTBUAT KONFRANSI

*28 aprel 2009-cu il* .......................................................................... 32

NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ
GÖRÜŞ

*29 aprel 2009-cu il* .......................................................................... *39*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN
BƏYANATLARLA ÇIXIŞLARI

*29 aprel 2009-cu il* .......................................................................... *40*

AVROPA İTTİFAQI NAZİRLƏR ŞURASININ
BAŞ KATİBİ, ÜMUMİ XARİCİ
VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ
ALİ NÜMAYƏNDƏSİ HAVYER SOLANA
İLƏ GÖRÜŞ

*29 aprel 2009-cu il* .......................................................................... *43*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQI NAZİRLƏR

ŞURASININ BAŞ KATİBİ HAVYER SOLANANIN BƏYANATLARLA ÇIXIŞLARI

*29 aprel 2009-cu il* ........................................................................ *44*

AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINDA BAŞ VERMİŞ FACİƏ İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*30 aprel 2009-cu il* ........................................................................ *47*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*4 may 2009-cu il* ........................................................................ *48*

AVRASİYA DÖVLƏTLƏRİ XII İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

*4 may 2009-cu il* ........................................................................ *49*

ATƏT-in BAKI OFİSİNİN YENİ TƏYİN OLUNMUŞ RƏHBƏRİ BİLGE CANKOREL İLƏ GÖRÜŞ

*4 may 2009-cu il* ........................................................................ *51*

PAYTAXTIN SURAXANI RAYONUNDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ, ÜMUMMİLLİ LİDERİN ADINI DAŞIYAN PARK VƏ RAYON İCRA HAKİMİYYƏTİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

*4 may 2009-cu il* ........................................................................ *52*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*5 may 2009-cu il* ........................................................................ *57*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*5 may 2009-cu il* ........................................................................ *58*

ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM MERİ UORLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 may 2009-cu il* ........................................................................ *59*

BAKI TENNİS AKADEMİYASININ AÇILIŞI MƏRASİMİ

*5 may 2009-cu il* ........................................................................ *60*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRİ

*6 may 2009-cu il* ........................................................................ *63*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUSUN GÖRÜŞÜ

*6 may 2009-cu il* ........................................................................ *64*

İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞ

*6 may 2009-cu il* ........................................................................ *65*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ

*7 may 2009-cu il* ........................................................................ *66*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*7 may 2009-cu il* ........................................................................ *67*

ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ SERJ SARKİSYAN İLƏ GÖRÜŞ

*7 may 2009-cu il* ........................................................................ *68*

FRANSANIN BAŞ NAZİRİ FRANSUA FİYON İLƏ
GÖRÜŞ

*7 may 2009-cu il* ........................................................................... *69*

BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ DEVİD
MİLİBEND İLƏ GÖRÜŞ

*7 may 2009-cu il* ........................................................................... *70*

NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ
YAN PETER BALKENENDE İLƏ GÖRÜŞ

*7 may 2009-cu il* ........................................................................... *71*

«CƏNUB DƏHLİZİ – YENİ İPƏK YOLU» SAMMİTİNDƏ

*8 may 2009-cu il* ........................................................................... *72*

ABŞ-ın AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ
XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ
GÖRÜŞ

*8 may 2009-cu il* ........................................................................... *74*

9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ
KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİM

*9 may 2009-cu il* ........................................................................... *75*

BAKIDA TALASSEMİYA MƏRKƏZİNİN
AÇILIŞI MƏRASİMİ

*9 may 2009-cu il* ........................................................................... *77*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI
ZİYARƏT

*10 may 2009-cu il*......................................................................... *79*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN
OLMASININ 86-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ
PAYTAXTDA KEÇİRİLƏN MÖHTƏŞƏM GÜL BAYRAMI

*10 may 2009-cu il*......................................................................... *80*

PAYTAXTIN «SAHİL» BAĞINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*10 may 2009-cu il*........................................................................... *82*

YASAMAL RAYONUNDA İZMİR PARKININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*10 may 2009-cu il*........................................................................... *83*

İNŞAATÇILAR PROSPEKTİNDƏKİ MÜŞFİQ PARKININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*10 may 2009-cu il*........................................................................... *84*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 86-cı İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 5 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*10 may 2009-cu il* ........................................................................... *85*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB ZUMAYA

*12 may 2009-cu il*........................................................................... *91*

ABŞ-ın XARİCİ ƏLAQƏLƏR ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*12 may 2009-cu il*........................................................................... *92*

SLOVAKİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, ƏDLİYYƏ NAZİRİ ŞTEFAN HARABİ İLƏ GÖRÜŞ

*12 may 2009-cu il*........................................................................... *93*

TÜRKİYƏNİN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ HASAN GERÇƏKƏR İLƏ GÖRÜŞ

*12 may 2009-cu il*........................................................................... *94*

«TELİASONERA» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU LARS NYUBERQ İLƏ GÖRÜŞ

*12 may 2009-cu il*.......................................................................... *95*

AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*12 may 2009-cu il*.......................................................................... *96*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*13 may 2009-cu il*.......................................................................... *101*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*13 may 2009-cu il*.......................................................................... *102*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*13 may 2009-cu il*.......................................................................... *103*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*13 may 2009-cu il*.......................................................................... *105*

ABŞ-ın XARİCİ ƏLAQƏLƏR ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*14 may 2009-cu il*.......................................................................... *113*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAHA

*15 may 2009-cu il*.......................................................................... *115*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLAH SALEHƏ

*15 may 2009-cu il........................................................................ 116*

ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ BERNAR FASYE İLƏ GÖRÜŞ

*15 may 2009-cu il........................................................................ 117*

AVROPA ƏDALƏTLİ OYUNLAR HƏRƏKATININ İCRAÇI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2009-cu il........................................................................ 118*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*18 may 2009-cu il........................................................................ 122*

İSVEÇRƏ KONFEDERASİYASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ MİXAEL AMBÜL İLƏ GÖRÜŞ

*18 may 2009-cu il........................................................................ 123*

ESTONİYANIN SABİQ PREZİDENTİ ARNOLD RÜYTEL İLƏ GÖRÜŞ

*18 may 2009-cu il........................................................................ 124*

DÖVLƏT BAYRAĞI MEYDANINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*18 may 2009-cu il........................................................................ 125*

LİTVA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*19 may 2009-cu il........................................................................ 126*

PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ FEDERAL NAZİRİ ƏBDÜL QƏYYUM XAN CATOY İLƏ GÖRÜŞ

*19 may 2009-cu il.......................................................................... 127*

AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 may 2009-cu il.......................................................................... 128*

MACARISTAN PARLAMENTİNİN AVROPA İŞLƏRİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ MATYAS EÖRŞİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 may 2009-cu il.......................................................................... 129*

AEROPORT KƏSİŞMƏSİNDƏ YOL QOVŞAĞININ, HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU – BİLGƏH QƏSƏBƏSİ AVTOMOBİL YOLUNUN VƏ PİYADA KEÇİDLƏRİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*19 may 2009-cu il.......................................................................... 130*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*20 may 2009-cu il.......................................................................... 132*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*20 may 2009-cu il.......................................................................... 133*

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*20 may 2009-cu il.......................................................................... 134*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*20 may 2009-cu il*........................................................................... *136*

DÖVLƏT BAŞÇILARININ BƏYANATLARLA ÇIXIŞLARI

*20 may 2009-cu il*........................................................................... *137*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*21 may 2009-cu il*........................................................................... *140*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*22 may 2009-cu il*........................................................................... *144*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*22 may 2009-cu il*........................................................................... *145*

*bp* ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*22 may 2009-cu il*........................................................................... *146*

ZƏRİFƏ ƏLİYEVA ADINA ELMİ-TƏDQİQAT GÖZ XƏSTƏLİKLƏRİ İNSTİTUTUNUN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*22 may 2009-cu il*........................................................................... *147*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ, GÖYGÖL VƏ ŞƏMKİR RAYONLARINA SƏFƏRİ

*25 may 2009-cu il*........................................................................... *154*

HEYDƏR ƏLİYEV MEYDANINDA ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*25 may 2009-cu il*........................................................................... *155*

GÖYGÖL RAYONUNDA ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*25 may 2009-cu il.......................................................................... 162*

ŞƏMKİR RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR
ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*25 may 2009-cu il .......................................................................... 167*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ
İDMANÇILARI İLƏ GÖRÜŞÜ

*25 may 2009-cu il .......................................................................... 169*

GƏDƏBƏY RAYONUNDA ULU ÖNDƏRİN ABİDƏSİNİ
ZİYARƏT

*26 may 2009-cu il.......................................................................... 176*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*26 may 2009-cu il.......................................................................... 185*

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD
DAVUDOĞLU İLƏ GÖRÜŞ

*26 may 2009-cu il.......................................................................... 186*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ KRALLIĞININ
ENERGETİKA NAZİRİ MƏHƏMMƏD DHAEN
ƏL-HAMİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2009-cu il.......................................................................... 187*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ
REGİONAL DİREKTORU ƏSƏD ALƏMİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2009-cu il.......................................................................... 188*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST
KÖLERƏ

*27 may 2009-cu il........................................................................... 189*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN
ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2009-cu il........................................................................... 190*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ
QƏBUL

*27 may 2009-cu il........................................................................... 191*

RUSİYA FEDERASİYASININ ENERGETİKA NAZİRİ,
MDB-nin ELEKTROENERGETİKA ŞURASININ SƏDRİ
SERGEY ŞMATKONUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2009-cu il........................................................................... 197*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
İLƏ GÖRÜŞ

*29 may 2009-cu il........................................................................... 198*

ƏDLİYYƏ NAZİRLİYİ YANINDA AZƏRBAYCAN
RESPUBLİKASI ƏHALİSİNİN DÖVLƏT REYESTRİ
XİDMƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI
MƏRASİMİ

*29 may 2009-cu il........................................................................... 199*

ƏDLİYYƏ NAZİRLİYİNİN PENİTENSİAR XİDMƏTİ
BAKI İSTİNTAQ TƏCRİDXANASININ YENİ BİNASI
İLƏ TANIŞLIQ

*29 may 2009-cu il........................................................................... 202*

ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ
MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR

RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2009-cu il* ........................................................................ *205*

GÜRCÜSTANIN BAŞ NAZİRİ NİKA GİLAURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2009-cu il* ........................................................................ *206*

BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*2 iyun 2009-cu il* ........................................................................ *207*

NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ ROBİN MARTİN KAASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2009-cu il* ........................................................................ *208*

BAKIYA GƏTİRİLMİŞ YENİ SƏRNİŞİN AVTOBUSLARINA BAXIŞ

*2 iyun 2009-cu il* ........................................................................ *209*

BAKIDA XVI BEYNƏLXALQ XƏZƏR NEFT-QAZ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*2 iyun 2009-cu il* ........................................................................ *210*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*3 iyun 2009-cu il* ........................................................................ *217*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*3 iyun 2009-cu il* ........................................................................ *218*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*3 iyun 2009-cu il* ............................................................................ *219*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPAQAL
ARROYOYA

*3 iyun 2009-cu il* ............................................................................ *220*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*3 iyun 2009-cu il* ............................................................................ *221*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA

*3 iyun 2009-cu il* ............................................................................ *222*

SURİYANIN XARİCİ İŞLƏR NAZİRİ VALİD ƏL-
MUALLEMİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyun 2009-cu il* ............................................................................ *223*

BAKININ N.NƏRİMANOV PROSPEKTİNDƏKİ PARKIN
VƏ N.NƏRİMANOVUN ABİDƏSİNİN ƏSASLI TƏMİR
VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ
TANIŞLIQ

*3 iyun 2009-cu il* ............................................................................ *224*

XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUNA

*4 iyun 2009-cu il* ............................................................................ *226*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA
İŞGÜZAR SƏFƏRİ

*4 iyun 2009-cu il* ............................................................................ *227*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

*4 iyun 2009-cu il* ........................................................................ *228*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*4 iyun 2009-cu il* ........................................................................ *230*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*4 iyun 2009-cu il* ........................................................................ *231*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*15 iyun 2009-cu il*...................................................................... *232*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TYURKƏ

*20 iyun 2009-cu il*...................................................................... *233*

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*20 iyun 2009-cu il*...................................................................... *234*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*20 iyun 2009-cu il*...................................................................... *235*

RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ TELERADİO İSTEHSALAT BİRLİYİNİN TELEQÜLLƏ KOMPLEKSİNİN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*20 iyun 2009-cu il*...................................................................... *236*

SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyun 2009-cu il*........................................................................... *239*

SİLAHLI QÜVVƏLƏRİN YARADILMASININ 91-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MÜDAFİƏ NAZİRLİYİNİN, DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN VƏ DAXİLİ QOŞUNLARIN BİRLƏŞMƏ VƏ HİSSƏLƏRİNİN İRİMİQYASLI BİRGƏ ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMİNDƏ İŞTİRAK

*24 iyun 2009-cu il*........................................................................... *240*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*25 iyun 2009-cu il*........................................................................... *245*

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM MİKAEL JANA

*25 iyun 2009-cu il*........................................................................... *246*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*25 iyun 2009-cu il*........................................................................... *247*

LATVİYANIN ƏTRAF MÜHİT NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 iyun 2009-cu il* .......................................................................... *248*

BAKIDA MƏRKƏZİ KLİNİK XƏSTƏXANANIN AMBULATORİYASININ AÇILIŞI MƏRASİMİ

*25 iyun 2009-cu il*........................................................................... *249*

DƏNİZKƏNARI MİLLİ PARKDA ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*25 iyun 2009-cu il*........................................................................... *254*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERESİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 iyun 2009-cu il.......................................................................... 253*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERESİN TƏKBƏTƏK GÖRÜŞÜ

*28 iyun 2009-cu il.......................................................................... 256*

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*28 iyun 2009-cu il.......................................................................... 257*

AZƏRBAYCAN–İSRAİL SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*28 iyun 2009-cu il.......................................................................... 258*

AZƏRBAYCAN VƏ İSRAİL PREZİDETLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*28 iyun 2009-cu il.......................................................................... 259*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*28 iyun 2009-cu il.......................................................................... 262*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*28 iyun 2009-cu il.......................................................................... 263*

AZƏRBAYCAN–İSRAİL BİZNES-FORUMU

*29 iyun 2009-cu il.......................................................................... 266*

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*29 iyun 2009-cu il.......................................................................... 270*

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*29 iyun 2009-cu il.......................................................................... 271*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*29 iyun 2009-cu il.......................................................................... 273*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BİRGƏ
MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA
ÇIXIŞLARI

*29 iyun 2009-cu il.......................................................................... 274*

KOMOR ADALARI İTTİFAQININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD ABDULLAH
MƏHƏMMƏD SAMBİYƏ

*30 iyun 2009-cu il.......................................................................... 283*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLAH SALEHƏ

*30 iyun 2009-cu il.......................................................................... 284*

DAXİLİ İŞLƏR NAZİRLİYİ BAKI ŞƏHƏR BAŞ POLİS
İDARƏSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*30 iyun 2009-cu il.......................................................................... 285*

DAXİLİ İŞLƏR NAZİRLİYİ İDMAN CƏMİYYƏTİNİN
YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*30 iyun 2009-cu il.......................................................................... 287*

RUSİYA DÖVLƏT TELEVİZİYA KANALININ
«VESTİ V SUBBOTU» VERİLİŞİNƏ MÜSAHİBƏ

*30 iyun 2009-cu il.......................................................................... 291*

FRANSANIN MDB ÖLKƏLƏRİNDƏ AKKREDİTƏ OLUNAN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*1 iyul 2009-cu il* ........................................................................... *302*

YUNANISTANIN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ XANIM DORA BAKOYANNİ İLƏ GÖRÜŞ

*2 iyul 2009-cu il* ........................................................................... *309*

RUMINİYANIN İQTİSADİYYAT NAZİRİ, AZƏRBAYCAN–RUMINİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ ADRİAN VİDYANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyul 2009-cu il* ........................................................................... *310*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 iyul 2009-cu il* ........................................................................... *311*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*2 iyul 2009-cu il* ........................................................................... *312*

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*2 iyul 2009-cu il* ........................................................................... *313*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*2 iyul 2009-cu il* ........................................................................... *315*

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN «HEYDƏR ƏLİYEV» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ MƏRASİMİ

*2 iyul 2009-cu il* ........................................................................... *316*

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*2 iyul 2009-cu il* ........................................................................ *318*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*2 iyul 2009-cu il* ........................................................................ *322*

AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISI İLƏ GÖRÜŞ

*3 iyul 2009-cu il* ........................................................................ *327*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*3 iyul 2009-cu il* ........................................................................ *335*

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*3 iyul 2009-cu il* ........................................................................ *336*

*QEYDLƏR* ........................................................................ *337*

*Coğrafi adlar göstəricisi* ........................................................................ *386*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *393*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,0. Uçot vərəqi 25,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.